# SÜLH VƏ TƏHLÜKƏSİZLİK NAMİNƏ

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEVİN
NATO-nun 50 illik yubileyi ilə əlaqədar
Amerika Birləşmiş Ştatlarına səfəri

22-27 aprel 1999-cu il

PREZİDENT KİTABXANASI

Bakı-2000

## Oxucuya

*XX yüzilliyin sonlarında öz çoxəsrlik tarixi məqsədinə - dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan xalqı dünyəvi, azad, demokratik, hüquqi cəmiyyət quruculuğu yolu tutaraq, bütün dövlətlər və xalqlar ilə sülh, qardaşlıq və əməkdaşlıq münasibətlərinə tərəfdar olduğunu bəyan etdirmişdir. Azərbaycan özünün xarici siyasət doktrinasını coğrafi-siyasi və tarixi reallıqlar üzərində quraraq, həm də milli mentalitetimizə xas olan sülhsevərlik və dinc birgəyaşayış əzmini nümayiş etdirir.*

*Azərbaycanın NATO ilə əməkdaşlığı da məhz bu məramlardan irəli gəlir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarı olan NATO rəhbərliyinin Cənubi Qafqazdakı vəziyyətdən narahatlığı, bu region dövlətlərinin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət hissi Şimali Atlantika Əməkdaşlığı Şurasının hələ 1994-cü ilin yanvarında qəbul edilmiş Bəyannaməsində öz əksini tapmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il mayın 3-5-də Belçikaya səfəri gedişində Şimali Atlantika Müqaviləsi Təşkilatının Brüsseldə yerləşən mənzil-qərargahında NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması həqiqətən tarixi hadisə olmuş və Azərbaycanın dünya birliyi ilə yeni səviyyədə inteqrasiya xəttini müəyyən etmişdir.*

*Dünya dövlətləri ilə NATO çərçivəsində istər hərbi, istərsə də siyasi, humanitar və başqa sahələrdə əməkdaşlığı nəzərdə tutan bu proqram Azərbaycan üçün təhlükəsizlik və sülhyaratma məsələlərində yeni imkanlar açmışdır. Azərbaycan Şimali Atlantika Alyansı ölkələrinin belə bir mövqeyi ilə tam şərikdir ki, regionda təhlükəsizlik və sabitlik yalnız əməkdaşlıq və birgə addımlar yolu ilə, ümumi dəyərlər əsasında təmin edilə bilər.*

*NATO-nun mənzil-qərargahındakı görüş zamanı Azərbaycan Prezidenti Heydər Əliyevin dediyi kimi, bu sənədi imzalamağı qərara alaraq Azərbaycan nəinki regionda sülh və sabitlik əldə edilməsinə, həm də Qərb demokratiyası dəyərlərinə qovuşmağa, dünyanın bütün ölkələri ilə fəal əməkdaşlıq üçün yeni şərait yaratmağa ümidlər bəsləyir.*

*Prezident Heydər Əliyev çərçivə sənədini imzalamaqla Azərbaycanın BMT Nizamnaməsində, Helsinki Yekun aktında və ATƏT sənədlərində ifadə olunmuş öhdəliklərə, o cümlədən hər hansı dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı zor işlətməkdən çəkinmək, onun mövcud sərhədlərinə hörmətlə yanaşmaq və mübahisələri sülh yolu ilə həll etmək barədə öhdəliklərə sadiqliyini bir daha təsdiq etmişdir. Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan üçün bu prinsiplər xüsusi əhəmiyyət kəsb edir. Dünyada real fəaliyyət göstərən yeganə kollektiv təhlükəsizlik strukturu kimi NATO ilə əməkdaşlıq münaqişə regionunda vəziyyətin sabitləşdirilməsi baxımından da çox dəyərlidir.*

*Azərbaycanın NATO ilə əməkdaşlığını inkişaf etdirərək Heydər Əliyev 1996-cı ilin aprelində Brüsselə səfəri zamanı NATO-nun mənzil-qərargahına gəlmiş, Baş*

*region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsi və iqtisadi tərəqqisi baxımından böyük əhəmiyyət daşıyırdı. Görüş zamanı Özbəkistanın bu təşkilata üzv qəbul olunması əməkdaşlığın coğrafiyasını genişləndirməklə yanaşı, region dövlətlərinin strateji maraqlarının daha dolğun təmin olunmasına xidmət edir.*

*ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, "İpək yolu strategiyası" haqqında qanun layihəsinin təşəbbüsçüsü Sem Braunbəkin təşkilatçılığı ilə keçirilmiş Qafqaz və Mərkəzi Asiya ölkələri rəhbərlərinin və xarici işlər nazirlərinin görüşü Azərbaycanın mühüm mövqe tutduğu tarixi qədim İpək yolunun bərpası, ölkəmizin dünya birliyi ilə inteqrasiyası yolunda önəmli hadisə olmuşdur. Görüş iştirakçıları tarixi layihənin reallaşmasında Azərbaycan Prezidenti Heydər Əliyevin səyləri ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilmiş və Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın əvəzsiz rol oynadığını yekdilliklə vurğulayaraq, İpək yolünün qlobal iqtisadi inteqrasiya proseslərinin gücləndirilməsində, regionda sabitliyin bərqərar edilməsində misilsiz əhəmiyyətini qeyd etmiş və TRASEKA proqramının həyata keçirilməsi yolunda qarşıda duran məsələləri ətraflı müzakirə etmişlər.*

*Səfərin gedişində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin iştirakı ilə imzalanmış müqavilələr ölkəmizin siyasi, iqtisadi və sosial inkişafının təmin edilməsi istiqamətində sanballı addımdır. Amerika Birləşmiş Ştatları Senatının binasında Azərbaycan Dövlət Neft Şirkəti ilə ABŞ şirkətləri arasında üç neft müqaviləsinin və Azərbaycan Respublikası ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Bakıda ürək-damar xəstəliklərinin müalicəsi üzrə Maykl Debeyki və Heydər Əliyev adına mərkəzin tikintisinin texniki-iqtisadi əsaslarının hazırlanması barədə müqavilənin imzalanması ölkəmizin neft və qeyri-neft sektorlarında Amerika şirkətlərinin daha geniş iştirakı, respublikamıza investisiya qoyuluşu həcminin artırılması, habelə kəskin sosial problemlərin həlli üçün əlverişli şərait yaratmışdır.*

*Səfərin gedişində Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak, Bolqarıstan Prezidenti Petr Stoyanov, Polşa Prezidenti Aleksandr Kvasnevski, Latviya Prezidenti Quntis Ulmanis, Belçikanın Baş naziri Jan Lük Dean, Norveç Krallığının Baş naziri Kyel Maqne Bondevik ilə görüşləri beynəlxalq siyasi dialoqun və anlaşmanın dərinləşdirilməsində, Azərbaycanın dünya birliyi ilə sıx inteqrasiyasında böyük əhəmiyyət kəsb etmişdir.*

*Şimali Atlantika Müqaviləsi Təşkilatının 50 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il aprelin 22-dən 27-dək Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtona səfəri Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, siyasi, iqtisadi və sosial tərəqqisi üçün yeni imkanlar açmışdır.*

# NATO SÜLHÜN VƏ SABİTLİYİN TƏMİNATÇISIDIR



**Vaşinqtonda rəsmi qarşılanma mərasimi**

NATO[1]-nun 50 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak etmək üçün ABŞ-a yola düşmüş Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 22-də Vaşinqtona gəldi.

"Endrüs" hərbi hava bazasında dövlətimizin başçısı Heydər Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Burada Azərbaycan Respublikasının və ABŞ-ın dövlət bayraqları dalğalanırdı.

Prezident Heydər Əliyevi ABŞ dövlətinin yüksək vəzifəli şəxsləri, habelə ölkəmizin Amerikadakı səfiri Hafiz Paşayev, Belçikadakı səfiri, NATO nəzdində Azərbaycanın nümayəndəsi Mirhəmzə Əfəndiyev, respublikamızın BMT-dəki daimi nümayəndəsi Eldar Quliyev qarşıladılar.

Respublikamızın rəhbəri hərbi hava bazasından onun üçün ayrılmış iqamətgaha gəldi.


AZERBAIJ

## NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşünün iclasında

Şimali Atlantika İttifaqının üzvü və tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşü aprelin 25-də Ronald Reyqan adına binada keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iclasda iştirak edirdi.

NATO-nun Baş katibi Xavyer Solana iclası giriş sözü ilə açaraq dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində alyansın rolunun getdikcə gücləndiyini vurğuladı. NATO-nun üzvü və tərəfdaş ölkələrin bu sahədə əməkdaşlığının xüsusi əhəmiyyət daşıdığını bildirdi.

Baş katib xatırlatdı ki, Sovet İttifaqı dağılan zaman Amerika Birləşmiş Ştatları və NATO üzrə tərəfdaşlar Cənubi Qafqaz ölkələrinin də suverenliyini və müstəqilliyini dəstəkləmişlər.

Sonra ABŞ Prezidenti Bill Klinton[2] çıxış etdi. Birləşmiş Ştatların rəhbəri görüş iştirakçılarını salamlayaraq dedi ki, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı ümumi dəyərləri, vəzifələri əsas tutan ölkələrin proqramıdır.









Prezident dedi ki, vahid, demokratik, dinc Avropa barədə baxışlarımız bir çox problemlərlə, o cümlədən qeyri-sabitliklə, iqtisadi problemlərlə qarşılaşır. Balkan yarımadasındakı vəziyyətə toxunan Bill Klinton dedi ki, etnik təmizləmə ideyasını təbliğ edənləri bu yoldan çəkindirmək lazımdır. Rusiyanın Avropa siyasi həyatına inteqrasiyası, Avropa ilə islam dünyası arasında olan əlaqəsizliyin aradan qaldırılması da vacib məsələlərdir. Biz münaqişələrə son qoyulmasına, iqtisadi tərəqqi və inteqrasiya səviyyəsinin yüksəlməsinə nail olmalıyıq.

ABŞ Prezidenti xüsusi vurğuladı ki, indiki zirvə görüşündə iştirak edənlərin hamısının bir neçə il bundan əvvəl bir yerə toplaşmasını təsəvvür etmək mümkün deyildi. İndi isə biz buradayıq, çünki ümumi gələcəyimiz barədə hamımız eyni cür düşünürük. Bu isə bugünkü görüşümüzün ən böyük əhəmiyyətidir.

Azərbaycan Prezidenti Heydər Əliyev iclasda nitq söylədi.


NATO 50 SUMMIT
OTAN 50 SOMMET
Euro-Atlantic Partnership Council

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli cənab Sədr!

Xanımlar və cənablar!

NATO-nun 50 illik yubileyi münasibətilə üzv ölkələrin və tərəfdaşların dövlət və hökumət başçılarını, Şimali Atlantika İttifaqının rəhbərliyini ürəkdən təbrik edirəm.

Biz dünyada sülhün və sabitliyin təmin olunmasında NATO-nun böyük rolunu yüksək qiymətləndiririk, onu Ümumavropa təhlükəsizliyinin olduqca mühüm vasitəsi hesab edirik.

Dünya sosialist sistemi və Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan sonra XXI yüzilliyin astanasında tamamilə yeni bir vəziyyət yaranmaqdadır. Demokratiya və azadlıq, insan hüquqlarının müdafiəsi dünyanın bir çox ölkələrinin və xalqlarının alı idealına çevrilir. Çox böyük təbii, enerji ehtiyatları, Avropa ilə Asiyanın qovuşuğunda nadir coğrafi-strateji mövqeyi olan Azərbaycan Respublikası bazar iqtisadiyyatına malik demokratik dövlət quruculuğu, dünya birliyinə tam inteqrasiya yolu ilə gedir. Milli məqsədlərin və ideal-ların ümumiliyi Azərbaycan ilə ABŞ və Avropa tərəfdaşları arasında geniş əməkdaşlığın inkişafı üçün möhkəm bünövrəyə çevrilmişdir.

Bununla yanaşı totalitar rejimlərin dağılması milyonlarla adama ölüm və fəlakətlər gətirən, planetin müxtəlif regionlarında sülh və sabitlik üçün təhlükə yaradan silahlı münaqişələr, separatçılıq, etnik təmizləmələr kimi nəticələr doğurmuşdur.

Azərbaycan xalqı son on il ərzində bütün bu dəhşətli hallar ilə qarşılaşır.

Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən qonşu Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizə qədəri işğal edilmiş, bir milyondan çox həmvətənimiz öz ərazisində etnik təmizləməyə məruz qalmış və qaçqın vəziyyətinə düşmüşdür.

Biz Ermənistan ilə münaqişənin sülh yolu ilə tez bir zamanda aradan qaldırılması üçün hər cür səy göstərir. ATƏT-in Minsk qrupunun[1] və Rusiyanın, ABŞ-ın və Fransanın simasında onun həmsədrlərinin fəaliyyətinə böyük ümidlər bəsləyirik. Münaqişənin tərəflərindən birinə qeyri-qanuni silah göndərilməsini, regionda sürətlə silahlanma cəhdlərini qətiyyən yolverilməz hesab edirik.

Biz bütün mövcud münaqişələrin, istər postsovet məkanındakı, istərsə də Yuqoslaviyadakı münaqişələrin tezliklə sülh yolu ilə aradan qaldırılmasının, Kosovoda etnik təmizləmələrə son qoyulmasının, dinc əhalinin doğma yurd-yuvalarına qayıtmasının tərəfdarıyıq. Dünya birliyi təcavüzkar etnik barışmazlığın və separatçılığın meydan oxumasına adekvat cavab verməlidir.





Biz "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə əməkdaşlığa böyük əhəmiyyət veririk və Azərbaycanın Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə münasibətlərinin daha da dərinləşdirilməsinə öz tərəfimizdən hər cür kömək göstərəcəyik. Biz Vaşinqton sammitində irəli sürülmüş NATO-nun yeni strateji konsepsiyasını alqışlayırıq.

Polşanın, Macarıstanın və Çexiyanın prezidentlərini onların dövlətlərinin NATO-ya daxil olması münasibətilə təbrik edirəm. NATO-nun tərkibinə yeni dövlətlərin qəbul edilməsi, şübhəsiz ki, bütün Avroatlantika məkanında, o cümlədən də Qafqaz regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə kömək edəcəkdir.


WASHINGTON SUMMIT
APRIL 23-25 1999
SOMMET DE WASHINGTON
23-25 AVRIL 1999
-24328-



Sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi, bəşəriyyətin yüksək ideallarının gerçəkləşdirilməsi sahəsində NATO-nun nəcib missiyasının həyata keçirilməsində ona yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

Dövlətimizin başçısının nitqi görüş iştirakçıları tərəfindən böyük maraqla qarşılandı.

Zirvə görüşü öz işini uğurla başa çatdırdıqdan sonra dövlət və hökumət başçıları xatirə şəkli çəkdirdilər.

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verdi.

### Hörmətli qonaqların şərəfinə

Aprelin 23-də axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-ın NATO üzrə komitəsi, NATO-nun 50 illik yubileyinin təşkilat komitəsi və Kolumbiya ştatının meri tərəfindən NATO ilə Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə verilən naharda iştirak etdi





NATO-nun 50 illik yubileyi münasibətilə keçirilən mərasimlərdə iştirak etmək üçün Vaşinqtona gəlmiş dövlət və hökumət başçıları aprelin 24-də axşam Ağ evə dəvət edildilər. Burada hörmətli qonaqların şərəfinə rəsmi ziyafət verildi. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton və xanımı Hillari Klinton Ağ evin cənub meydançasındakı pavılyonu qarşısında dövlət və hökumət başçılarını və onların xanımlarını salamladılar. Dövlətimizin başçısı Heydər Əliyev Ağ evin qarşısında böyük hörmət və ehtiramla qarşılandı.

Binanın önündə Azərbaycanın və ABŞ-ın dövlət bayraqları asılmışdı. Burada Prezident Heydər Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsi ölkəmizin rəhbərini salamladı.

Azərbaycan Prezidenti Heydər Əliyev və qızı Sevil xanım Əliyeva ABŞ Prezidenti Bill Klinton, NATO-nun baş katibi Xavyer Solana və onların xanımları ilə görüşdükdən sonra salona daxil oldular. Respublikamızın rəhbəri ziyafət iştirakçılarına təqdim edildi. Azərbaycan Prezidenti gurultulu alqışlarla qarşılandı.

Azərbaycan Prezidenti Heydər Əliyev, qızı Sevil xanım Əliyeva və respublikamızın nümayəndə heyətinin üzvləri rəsmi ziyafətdə iştirak etdilər.

Rəsmi ziyafətdə ABŞ Prezidenti Bill Klinton və NATO-nun Baş katibi Xavyer Solana çıxış etdilər.







# AZƏRBAYCAN-ABŞ ƏLAQƏLƏRİ MÖHKƏMLƏNİR



## Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ Prezidenti Bill Klintonla görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Ağ evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşdü.

Azərbaycan Prezidenti ilə çox səmimi görüşən Prezident Bill Klinton Heydər Əliyevi Vaşinqtonda, Ağ evdə yenidən salamlamaqdan böyük məmnunluq duyduğunu bildirdi. Prezident Klinton Amerika-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi sahəsində göstərdiyi səylərə görə dövlətimizin başçısına minnətdarlıq etdi. Bill Klinton Heydər Əliyev ilə özü arasında yaranmış şəxsi dostluq münasibətlərini yüksək qiymətləndirdiyini xüsusilə vurğuladı.

Prezident Klinton Prezident Heydər Əliyevə müraciətlə dedi: Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk.

ABŞ Prezidenti Bakı-Supsa boru kəmərinin istismara verilməsi münasibətilə Azərbaycan rəhbərini təbrik etdi. O dedi ki, Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

Prezident Heydər Əliyev də Prezident Bill Klintonu yenidən görməyindən məmnunluq duyduğunu bildirdi. NATO-nun 50 illik yubileyinə həsr edilmiş görüşdə iştirakına çox şad olduğunu vurğulayan Azərbaycan Prezidenti NATO-nun Vaşinqton sammitində irəli sürülmüş yeni konsepsiyanı dəstəklədiyini və alqışladığını söylədi.

Dövlətimizin başçısı Heydər Əliyev öz növbəsində Prezident Bill Klintonu Bakı-Supsa neft boru kəmərinin istismara verilməsi münasibətilə təbrik etdi və bununla əlaqədar, habelə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, 907-ci düzəlişin[4] ləğv olunması barədə və Amerika-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi ilə bağlı ABŞ Prezidentindən aldığı məktubları yüksək qiymətləndirdi və bunlara görə Prezident Klintona təşəkkürünü bildirdi.

Xəzər regionunda ABŞ-ın iqtisadi maraqlarının təmin olunmasında Azərbaycanın aparıcı rol oynadığını vurğulayan Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması üçün ABŞ-ın daha çox fəallıq göstərməsini arzuladığını nəzərə çarpdırdı. Cənab Bill Klinton bəyan etdi ki, o, prezidentlik vəzifəsini başa çatdıranadək mütləq səylər göstərib bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olacaqdır.

Prezident Heydər Əliyevi Amerikanın və şəxsən özünün dostu hesab etdiyini vurğulayan Prezident Bill Klinton ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf etməsi məqsədi ilə gələcəkdə də fəal əməkdaşlıq edəcəklərinə ümidvar olduğunu bildirdi.

Görüş çox mehriban dostluq şəraitində keçdi.





**Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt ilə görüşü**

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 26-da Vaşinqtonda Dövlət Departamentində ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt[5] ilə görüşdü.

Xanım Olbrayt Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşündən, NATO-nun 50 illik yubileyi ilə əlaqədar tədbirlərdə onun iştirakından çox məmnun olduğunu bildirərək dövlətimizin başçısı ilə əvvəlki görüşlərini də böyük razılıq hissi ilə xatırladı. Azərbaycan Prezidentinin açıq və qətiyyətli mövqeyinə yüksək qiymət verən xanım Olbrayt ona böyük hörmət hisslərini ifadə etdi.

Xəzərin enerji ehtiyatlarından istifadə sahəsində iki ölkənin iş birliyinə böyük əhəmiyyət verdiyini vurğulayan Dövlət katibi ABŞ ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsinin yüksəldiyini məmnuniyyətlə qeyd etdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemindən söhbət açan xanım Olbrayt vəzifədə olduqları müddətdə Prezident Klintonun və şəxsən özünün bu münaqişənin həllinə nail olmaq əzmini, ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın bu prosesdə öz rolunu fəallaşdırmağa hazır olduğunu vurğuladı. Dövlət katibi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılması və qaçqınların öz yurdlarına qaytarılması sahəsində praktik addımlar atılmasının zəruriliyini nəzərə çarpdırdı.

Xanım Olbrayt aprelin 25-də Azərbaycan, Ermənistan, Gürcüstan prezidentlərinin Böyük Britaniya, Almaniya Federativ Respublikası, Fransa, Türkiyə



və Norveçin xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş görüşündən razı qaldığını və Norveçin xarici işlər naziri, ATƏT-in hazırkı sədri Knut Vollebekin Minsk prosesini sürətləndirmək üçün səyləri artırmağa hazır olduğunu məmnuniyyətlə qeyd etdi.

Prezident Heydər Əliyev NATO-nun 50 illik yubileyi ilə əlaqədar zirvə görüşünün yüksək səviyyədə keçdiyini, xanım Olbrayt ilə həmişə böyük məmnuniyyətlə görüşdüyünü qeyd edərək Azərbaycana göstərdiyi diqqətə görə ona minnətdarlığını bildirdi və NATO-nun yeni strateji konsepsiyasının Azərbaycan tərəfindən müdafiə edildiyini vurğuladı. Prezident Heydər Əliyev hazırda Yuqoslaviyada, Kosovoda baş verən hadisələrə toxunaraq dedi ki, hər bir ölkənin ərazi bütövlüyünün toxunulmazlığı təmin edilməlidir, lakin etnik təmizləmə siyasəti yolverilməzdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsi üzərində ətraflı dayanan Prezident Heydər Əliyev bildirdi ki, münaqişə ATƏT-in Lissabon sammiti tərəfindən qəbul edilmiş prinsiplər[6] əsasında tezliklə həll olunmalıdır. Münaqişənin aradan qaldırılması prosesində ABŞ-ın daha fəal rol oynamasının böyük əhəmiyyətini nəzərə çarpdıran ölkəmizin başçısı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması, qaçqınların doğma yurd-yuvalarına qaytarılması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verilməsi prinsiplərinin Lissabon sammitində qəbul olunduğunu vurğuladı.

Atəşkəs rejiminin 5 ildən bəri davam etdiyini xatırladan Azərbaycan Prezidenti ötən müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqe tutması nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində nizamlama prosesində irəliləyişlər əldə edilmədiyini narahatlıq hissi ilə bildirdi.

Prezident Heydər Əliyev Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın münaqişədə iştirak edən digər tərəfə - Ermənistana qanunsuz və gizli olaraq bir milyard dollar məbləğində silah verməsindən, hazırda isə Ermənistandakı hərbi bazasını genişləndirməsindən, oraya S-300 raketləri və MİQ-29 təyyarələri göndərməsindən və bununla əlaqədar Azərbaycanın müraciətlərinin Rusiya tərəfindən cavabsız qaldığından narahatlığını və narazılığını bildirdi.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması vəziyyətindən ABŞ hökumətinin narahatlığını ifadə edən Dövlət katibi xanım Olbrayt öz ölkəsinin Minsk prosesində səyləri artıracağını vurğulayaraq münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini bir daha bəyan etdi.

Daha sonra Prezident Heydər Əliyev ilə Dövlət katibi xanım Olbrayt arasında görüş təkbətək davam etdi.

Görüşdə ikitərəfli münasibətlərə, bir sıra regional və beynəlxalq problemlərə dair geniş fikir mübadiləsi aparıldı.





## Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ konqresmenləri ilə görüşü

Aprelin 27-də Azərbaycan Prezidenti Heydər Əliyev Kapitoli binasına gələrək Birləşmiş Ştatların nüfuzlu konqresmenlərinin bir qrupu ilə görüşdü.

Görüş başlanmazdan əvvəl konqresmenlər Azərbaycan Prezidentinə təqdim edildilər. Müstəqil respublikamıza böyük maraq göstərdiklərini bildirən konqresmenlər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinin zəruri olduğunu söylədilər. Onlar dövlətimizin başçısını əmin etdilər ki, Azərbaycanda demokratik dəyərlərin bərqərar olması, gənc dövlətin qarşılaşdığı çətin problemlərin həlli sahəsində səylərini əsirgəməyəcəklər. Konqresmenlər Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi, ölkəmizdə aparılan islahatları, Azərbaycanın neft strategiyasının uğurlarını yüksək qiymətləndirdilər.

Görüşdən əvvəl Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin və Konqresin[7] işçi qrupunun üzvü Piter Kinqin[8] Amerikanın humanitar yardımı



üzərində qadağanın ləğvi haqqında qanun layihəsini yenidən Konqresə təqdim etməsi barədə təcili bəyanatı yayıldı. Bəyanatda deyilirdi:

"Qafqazdakı xarici siyasətimiz Amerikanın milli maraqlarına pis xidmət edir. İslam təməlçiliyinin və terrorçuluğun qarşısını almağa əlavə olaraq, Amerika Birləşmiş Ştatları davam etməkdə olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də qərəzsiz yanaşmalıdır. Bu işi səmərəli görmək üçün biz münaqişəyə qatılmış bütün tərəfləri ümumi işə tam cəlb etməli və onlarla əlaqə xətlərini açıq saxlamalıyıq. Yer üzünün strateji cəhətdən çox mühüm olan bu guşəsində Amerika Birləşmiş Ştatlarının siyasəti təəssüf ki, indiyədək birtərəfli olmuşdur. Bir milyon qaçqını olan Azərbaycan dünyada terrorçuluğu dəstəkləməyən yeganə dövlətdir ki, ona Amerika tərəfindən yardım göstərilməsi qadağan edilmişdir. Bu vəziyyəti düzəltmək lazımdır. Belə bir addım bizim milli mənafelərimizə uyğundur. Milli mənafelərimiz isə Amerika Birləşmiş Ştatlarının xarici siyasətini müəyyən edən yeganə meyar olmalıdır. Bununla əlaqədar olaraq mən Prezident Əliyevin səfəri ilə eyni vaxtda, Azərbaycana humanitar yardım göstərilməsi üzərində qadağanın dərhal götürülməsi haqqında qanun layihəsini təkrarən təqdim edirəm".

Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdə Nümayəndələr Palatasının üzvləri Çet Edvards, Piter Kinq, Çen Bentsen, Ayk Skelton, Vik Snayder, Maykl Kapuana, Selvester Reyes, Kristofer, Cozef Pit, Con Dellahunt, Bill Belahant və digər nüfuzlu konqresmenlər iştirak edirdilər.

Görüşdə Azərbaycan-Amerika münasibətlərinin bir sıra məsələləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

Konqresmen Çet Edvards görüşü açaraq dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, icazə verin, "soyuq müharibə"nin başlandığı bir dövrdə dünyaya göz açmış bir şəxs kimi, bu gün Sizinlə, keçmiş Sovet İttifaqının rəhbərlərindən biri ilə görüşməkdən nə qədər böyük şərəf duyduğumu izhar edim. Heç zaman ağlıma da gəlməzdi ki, mən Sizinlə, Sovet İttifaqının rəhbəri ilə sülh şəraitində, dostluq mühitində görüş keçirə bilərəm.

Prezident Heydər Əliyev konqresmenə təşəkkür edərək dedi ki, mən özüm də bunu təsəvvür edə bilməzdim.

Konqresmen Edvards sözünə davam edərək bildirdi:

- Mənim iki balaca oğlum var. Eşitmişəm ki, Sizin də altı nəvəniz var. Əminəm ki, Sizin göstərdiyiniz liderlik və bizim yardımçı olmaq istəyimiz sayəsində mənim övladlarım və Sizin nəvələriniz daha dinc, daha firavan, daha təhlükəsiz dünyada yaşayacaqlar.

Prezident Heydər Əliyev bunun cavabında dedi:

- Mənim də Qafqazda, Azərbaycanda çalışdığım odur ki, bundan sonra heç vaxt müharibə olmasın, heç vaxt qan tökülməsin, münaqişə baş verməsin. Ona görə də, - baxmayaraq ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin iyirmi faizini işğal edibdir, işğal olunmuş torpaqlarda aparılmış etnik təmizləmə



nəticəsində Azərbaycanın bir milyon vətəndaşı zorla çıxarılıbdır, çadırlarda yaşayırlar, - beş il bundan öncə mən müharibəni dayandırmışam, Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi yaratmışam və məsələnin sülh yolu ilə həll olunmasına çalışıram.

Mən çalışıram ki, bizim bölgədə və dünyada daim sülh olsun. Sizin uşaqlarınız, mənim nəvələrim, bütün dünyanın uşaqları heç bir fəlakət, müharibə görməsinlər. Siz "soyuq müharibə"ni görmüsünüz. Amma mən İkinci Dünya müharibəsini görmüşəm, onun nə qədər dəhşətli olduğunu, nə qədər insanların tələf olduğunu gözümlə görmüşəm. Ona görə də gərək biz heç vaxt müharibənin yenidən baş verməsinə yol verməyək.

Cənab Edvards ölkəmizin rəhbərinə müraciətlə soruşdu:

- Cənab Prezident, Sizin məqsədlərinizə nail olmağınız üçün, sülhü bərqərar etmək, ölkələrimiz arasında enerji məsələləri üzrə əməkdaşlığı daha da inkişaf etdirmək üçün nə edə bilərik?

Azərbaycan Prezidenti Heydər Əliyev konqresmenin sualına cavab verərək dedi:

- Çox şey edə bilərsiniz. Amerika böyük, qüdrətli dövlətdir. Görürsünüz, Amerika Balkanda - Yuqoslaviyada etnik təmizləmənin qarşısını almaq üçün, ədalətsizliyə qarşı çıxaraq nə qədər ciddi tədbirlər həyata keçirir, sülh yaratmaq





üçün raketlərdən, bombalardan istifadə edir, atəş açır. Ancaq eyni zamanda, nə üçün Amerika bizim Qafqaz regionunda bu səlahiyyətlərindən istifadə etmir?

Sonra konqresmen Edvards sözünə davam edərək dedi:

- Cənab Prezident, 907-ci düzəlişin ləğv olunması barədə konqresmen Kinqin bu gün yenidən irəli sürdüyü təşəbbüsün həyata keçirilməsi üçün biz daha çox işləməliyik ki, Konqresin digər üzvlərini, öz həmkarlarımızı Azərbaycandakı vəziyyətlə, o münaqişə ilə daha yaxından tanış edək və düzgün qərar qəbul etmələri üçün onları daha çox məlumatlandıraq.

Prezident Heydər Əliyev bu fikirdən razı qalaraq dedi:

- Mən çox məmnunam. Ancaq konqresmen Kinq deyə bilərmi ki, bugünkü təşəbbüsünü nə cür həyata keçirir?

Konqresmen Piter Kinq dövlətimizin başçısının sualına belə cavab verdi:

- Mən 907-ci düzəlişin ləğvi barədə əvvəl qaldırdığım təşəbbüsü bu gün Konqresin sessiyasında yenidən irəli sürmüşəm. Zənnimcə, çox önəmli əhəmiyyəti var ki, bu layihəni Konqresin hər iki partiyadan olan üzvləri dəstəkləsinlər. Hesab edirəm ki, bu, bir partiyaya məxsus iş olmamalıdır. Bu, Amerika Birləşmiş Ştatlarının milli mənafelərinə xidmət edən bir iş olduğu üçün hər iki partiyanın dəstəyinə layiqdir.



Heydər Əliyev: Siz bunu harada irəli sürdünüz?

Piter Kinq: Nümayəndələr Palatasının sessiyasında.

Heydər Əliyev: Böyük sessiyadır. Nə cür qarşılandı?

Piter Kinq: Qanun layihəsini artıq qeydiyyatdan keçiriblər. İndi onun həyata keçməsini təmin etmək üçün gərək bir çox başqa konqresmenlər də qanun layihəsini imzalasınlar və layihənin təşəbbüskarı kimi çıxış etsinlər. Əsas məqsədimiz isə bu addımı məhz Sizin bu gün Kapitoliyə gəlməyiniz münasibətilə atmaq, bununla bir vaxta salmaq idi.

Azərbaycan Prezidenti Heydər Əliyev konqresmenə təşəkkürünü bildirərək dedi:

- Hörmətli Cənab Kinq, mən Sizə təşəkkür edirəm. Siz bu sahədə həqiqətən çox cəsarətli fəaliyyət göstərirsiniz. 1997-ci ildə sizin təşəbbüsünüz 907-ci düzəlişin aradan götürülməsi üçün çox tutarlı bir addım olmuşdur. Bu təşəbbüsü yenidən qaldırmaq bizim üçün çox əhəmiyyətlidir. Təşəbbüsü bu gün həyata keçirmək, bu gün qaldırmaq bizim üçün daha da qiymətlidir.

Konqresmen Piter Kinq ölkəmizin rəhbərinə təşəkkür edərək dedi:

- Sağ olun, cənab Prezident. Bildirmək istəyirəm ki, bu sahədə tərəqqi əldə etmişik. 907-ci düzəliş ilə bağlı keçirilən müzakirələrin ab-havası da dəyişməkdədir. Əgər iki-üç il bundan öncə bütün çıxışlar yalnız erməni tərəfinin



mənafeyinə uyğun idisə, indi müzakirələrdə hər iki tərəfi dəstəkləyən səslər eşidilir. Mənə elə gəlir ki, biz bu mübarizəmizi, savaşımızı davam etdirməliyik.

Respublikamızın rəhbəri Heydər Əliyev konqresmenin dedikləri ilə razılaşaraq vurğuladı:

- Mən Sizinlə tamamilə razıyam. Bizdə olan məlumatlar da Sizin dediyiniz sözləri təsdiq edir. Bu, sevindirici bir haldır. Xatirimdədir ki, Nümayəndələr Palatasında bu təklifin müzakirəsi zamanı əvvəlkinə nisbətən çox səs verilmişdir. Mənə deyilənə görə, təklifin qəbul olunması üçün 20-30 səs çatmamışdır.

Cənab Kinq dedi:

- Doğrudur. Onu da əlavə etmək istəyirəm ki, səsvermədə bir sıra konqresmenlər iştirak etməmişdilər. Bunun da səbəbi heç də Azərbaycanla bağlı deyildi. Sadəcə, onların ayrı işləri olduğu, başqa yerdə olduqları üçün səsvermədə iştirak







etməmişdilər. Bir daha vurğulamaq istəyirəm ki, 907-ci düzəlişin ləğv olunması üçün səslər Azərbaycanın tərəfində, bizim tərəfimizdədir.

Prezident Heydər Əliyev əlavə etdi ki, yəni təkcə Azərbaycanın yox, həm də ədalətin tərəfindədir.

Sonra konqresmen Çet Edvards dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, Azərbaycan xalqına ünvanlayaraq bir məlumat vermək istəyirəm. Bizim dövlət quruluşumuz elədir ki, burada dəyişikliklərə nail olmaq bir az uzun zaman tələb edir. Məsələn, 907-ci düzəlişin qəbul olunması erməni tərəfini çox canfəşanlıqla müdafiə edən beş-altı nəfər konqresmenin xidməti sayəsində mümkün olmuşdur. İstər bir gün olsun, istər bir ay, bir il olsun, biz Sizə söz veririk ki, əməyimizi sərf edəcəyik, yorulmadan çalışacağıq ki, bu gün buraya - Sizin görüşünüzə gəlmiş konqresmenlərlə birgə səy göstərərək 907-ci düzəlişi ləğv edək, bu işə eyni sadiqlik göstərək.

Konqresmen Ayk Skelton söhbətə qoşularaq dedi:

- Mən Azərbaycana səfər edərkən 907-ci düzəliş ətrafında apardığımız müzakirələri çox gözəl xatırlayıram. Bu gün Sizin görüşünüzə gələn şəxslər bilirlər - biz Konqresdə müzakirələr zamanı səylər qoyduq, maddənin ləğv edilməsinə çox yaxın olduq. Amma təəssüf ki, buna nail ola bilmədik. Mənə belə gəlir ki,



ən düzgün yol 907-ci düzəlişi ləğv etməkdir və bunun üçün əlimizdən gələni edəcəyik.

Cənab Edvards çox düzgün dedi, Amerikada qanunvericilik prosesi bir az ləng gedir. Amma Sizinlə görüşlərimiz zamanı bizə söylədiyiniz fikirlər tam yadımızdadır və yenə deyirəm, hesab edirik ki, ən düzgün qərar 907-ci düzəlişi ləğv etməkdir.

Sözümün axırında bir şeyi demək istəyirəm: bizi Azərbaycana bir də dəvət edin. Çünki biz oraya səfərimizdən çox məmnun qaldıq.

Prezident Heydər Əliyev konqresmenə cavabında dedi:

- Mən sizi, hamınızı dəvət edirəm. Özü də bir dəfə yox, bir neçə dəfə. Yəni bu, açıq, davamlı dəvətdir. Nə vaxt imkanınız olsa, onda səfər edə bilərsiniz.

Daha sonra konqresmen Çet Edvards Azərbaycan rəhbərinə müraciətlə dedi:

- Cənab Prezident, bilirik ki, Sizin vaxtınız çox məhduddur. Lakin bugünkü görüşümüzdə ABŞ Nümayəndələr Palatası Müdafiə Komitəsinin üç nəfər ən aparıcı üzvü iştirak edir. Ona görə xahiş edərdik ki, İrana göndərilən və nüvə silahı istehsalında istifadə məqsədi daşıyan məhsulların, bu yaxınlarda Balkan yarımadasına göndərilməyə cəhd göstərilən və Amerika əsgərlərinin həyatını təhlükədə qoya biləcək MİQ təyyarələrinin tutulub saxlanılması sahəsində Sizin rəhbərliyiniz altında görülən işlər - Amerikanın milli təhlükəsizliyi baxımından çox önəmli əhəmiyyəti olan məsələlər barədə məlumat verəsiniz.

Azərbaycan Prezidenti Heydər Əliyev dedi:

- Sualınıza cavab verməzdən əvvəl bir neçə kəlmə demək istəyirəm. Bilirsiniz ki, Konqresdən və sizdən əsas xahişimiz və sizə müraciətimiz 907-ci düzəliş ilə əlaqədardır. Sizə məlumdur və hörmətli konqresmen indi bildirdi ki, 907-ci düzəlişin qəbul edilməsi cəmi beş-altı nəfər ermənipərəst konqresmen tərəfindən irəli sürülmüş təklif nəticəsində olmuşdur.

Artıq məlumdur və hamınız da bilirsiniz ki, bu, ədalətsiz qanundur. Çünki bu qanunun əsasını təşkil edən odur ki, guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Bu, tamamilə yalandır. Həyat da göstərdi və indi burada bu xəritədə də görə bilərsiniz ki, Ermənistan Azərbaycanın ərazisinin böyük bir hissəsini işğal edibdir. Azərbaycandan Ermənistana gedən dəmir yolunun İranla sərhəddə olan böyük bir hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beləliklə, bu qanunun qəbul edilməsi üçün əsas tutulan iddia tamamilə yalandır. Ona görə də bu qanun ləğv olunmalıdır.

İkinci tərəfdən, son beş-altı il içərisində Amerika Birləşmiş Ştatlarında hamı, o cümlədən Konqres də artıq inanıb ki, Azərbaycan Qafqaz bölgəsində müstəqil siyasət aparır və Qafqazda Amerika Birləşmiş Ştatlarının iqtisadi və başqa maraqlarının təmin olunması üçün çox böyük işlər görür. İşğal edilmiş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlı Ermənistan silahlı qüvvələri tərəfindən etnik təmizləməyə məruz qalaraq, Azərbaycanın başqa yerlərinə köçməyə məcbur olub və indi çadırlarda yaşayırlar.



Azərbaycan belə ağır vəziyyətdə olduğu halda Amerikanın Konqresi də Azərbaycana qarşı qadağa qoyub və onun vəziyyətini daha da ağırlaşdırıbdır. Amerika Birləşmiş Ştatları Konqresin qərarı ilə Ermənistana 100 milyon dollardan çox birbaşa yardım göstərir.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə iqtisadi əlaqələri genişləndirir, biz böyük neft müqavilələri imzalamışıq. Bu müqavilələr ilə Azərbaycana 50 milyard dollar həcmində investisiya gəlir. Bu müqavilələrin əksəriyyətində Amerika Birləşmiş Ştatlarının şirkətləri iştirak edirlər. Bu gün burada, bu binada biz "Eksson"[9], "Mobil"[10], "Monkrif Oyl" şirkətləri ilə üç müqavilə imzaladıq. Həmin müqavilələrin ümumi investisiya həcmi 10 milyard dollardır.

Son üç ildə Amerika şirkətləri Azərbaycana 1 milyard dollardan çox investisiya qoyublar. Bu investisiya ilbəil artacaqdır. Amerika Birləşmiş Ştatları Azərbaycan neftindən böyük fayda götürəcəkdir. Bu, bizim Amerika Birləşmiş Ştatları ilə etdiyimiz əməkdaşlıq və Amerikanın bu əməkdaşlıqdan götürdüyü faydalardır.

Ermənistan Amerika üçün nə edir? Heç bir şey! Amma ildə 100 milyon dollar yardım alır. İndi gəlin baxaq ki, Ermənistan və Azərbaycan Amerika Birləşmiş Ştatları ilə əlaqədar Qafqazda hansı mövqedə durubdur. Azərbaycan öz müstəqilliyini qoruyur, Rusiyanın təzyiqi altındadır. Ancaq Ermənistanda Rusiyanın hərbi bazası yerləşibdir. Rusiya son vaxtlar o bazaya çox yeni silahlar - S-300 raketləri və MİQ-29 təyyarələri gətiribdir. Rusiyada bəyan edirlər ki, Ermənistandakı hərbi baza NATO-nun əleyhinə yönəldilibdir. Demək, Amerika Birləşmiş Ştatlarının əleyhinə yönəldilibdir.



Amerika Birləşmiş Ştatları Xəzər dənizindəki neft ehtiyatlarından istifadə olunmasına çox maraq göstərir, Mərkəzi Asiyadan, Xəzər dənizindən, Qafqazdan Qərbə çəkilən neft-qaz kəmərlərinə çox böyük maraq göstərir. Biz bunları təmin edirik. Amma Ermənistan heç bir şey etmir. Ona görə də belə bir vəziyyətdə Ermənistana yardım etmək, Azərbaycana qarşı isə ədalətsiz münasibət göstərmək, qadağa qoymaq - mən hesab edirəm ki, Amerika Birləşmiş Ştatlarına, Konqresə bu qədər ədalətsizlik yaraşmır.

Ona görə 907-ci düzəlişin aradan götürülməsi üçün sizin çox güclü dəlilləriniz var. Amma ermənipərəst konqresmenlərin əlində heç bir dəlil yoxdur. Mən arzu edirəm ki, siz bu dəlillərdən istifadə edəsiniz.

Konqresmen Kinq bu gün çox gözəl təşəbbüs göstərib və 907-ci düzəlişin ləğv olunması barədə təklif veribdir. Mən təşəkkür edirəm və sizə müraciət edirəm ki, hamınız toplaşın, bu layihənin həyata keçirilməsini təmin edin. Mən bir də deyirəm: biz Azərbaycanda, Qafqazda Şimalda Rusiya təzyiqinin, Qərbdə Ermənistan təcavüzünün qarşısında durmuşuq. Siz bunu qiymətləndirməlisiniz.

Qafqaz Amerika Birləşmiş Ştatları üçün çox perspektivli əhəmiyyəti olan bir regiondur. XXI əsrdə Amerika Birləşmiş Ştatları Qafqaza daha da güclü gəlməyə məcbur olacaqdır - həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən. Azərbaycan isə bu işləri təmin edir. Bu barədə sizə deyəcəyim bu qədər.

Konqresmen Edvards Azərbaycan dövlətinin rəhbərinə müraciətlə dedi:

- Öncə bildirmək istəyirəm ki, Sizin ölkənizin Prezidentliyinə necə seçilməyinizə bir daha əmin oldum. Siz çox inandırıcı çıxışlar edirsiniz.



İcazə verirsinizsə, Siz çıxış edərkən salona daxil olan daha iki hörmətli konqresmenimizi təqdim edim: Maykl Kapuana və Vik Snayder.

Prezident Heydər Əliyev:

- Çox sağ olun, mən sizi salamlayıram.

Konqresmen Edvards söhbəti davam etdirərək bildirdi:

- Cənab Prezident, Siz çox gözəl çıxış etdiniz, bizi başa saldınız. İcazə verin deyim ki, Sizin səfiriniz burada, Konqresdə çox işlər görübdür. O, təkbaşına bir ordunun işini görübdür.

Konqresmen Selvester Reyes söhbətə qoşularaq dedi:

- Mənim sualım yoxdur. Amma istəyirəm fürsətdən istifadə edib, bizim komitənin yüksək rütbəli üzvlərindən biri olan konqresmen Skeltonun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində keçən ilin yanvarında Azərbaycana səfərim zamanı bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirim.

Xatırlayırsınızsa, o vaxtkı görüşümüzdə biz bəyan etdik ki, Sizin Vaşinqtona səfəriniz çox əhəmiyyətlidir. Hesab edirik ki, Vaşinqtona indiki səfərinizin 907-ci düzəlişin ləğv olunması üçün böyük əhəmiyyəti var. Ona görə də bu gün burada olmağınıza görə Sizə təşəkkürümüzü bildirmək istəyirik.

Sonra konqresmen Edvards dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, vaxtınızın məhdudluğunu nəzərə alaraq, 907-ci düzəliş ilə bağlı Sizə əlavə suallar verməyəcəyik. Bildirmək istəyirəm ki, biz Sizin tərəfinizdəyik. Burada iştirak edən konqresmenlər birgə səylər göstərərək, 907-ci düzəlişin ləğvi barədə konqresmen Kinqin bu gün yenidən irəli sürdüyü qanun layihəsini dəstəkləyəcəklər.

Azərbaycan Prezidenti Heydər Əliyev konqresmenə təşəkkür edərək dedi:

- Sağ olun. Sizi maraqlandıran İrandır. İran Azərbaycanın Cənubunda olan böyük qonşumuzdur. Bilirsiniz ki, İranda təxminən 30 milyon Azərbaycanlı yaşayır. Onların əksəriyyəti İranın Şimal hissəsində, yəni Azərbaycan Respublikasına həmsərhəd hissədə yaşayır. Ona görə İranla insanı əlaqələrimiz çox genişdir.

Biz çalışırıq ki, İranla çox yaxşı münasibətlərimiz olsun. Amma Amerika Birləşmiş Ştatları ilə dostluğumuz, əməkdaşlığımız, İsrail ilə çox müsbət əlaqələrimiz İranı çox narahat edir. Biz öz müstəqil siyasətimizi aparırıq. Bizim müstəqil siyasətimiz Şimalda olan Rusiyanın da xoşuna gəlmir. Xüsusən Amerikanın, Qərbin neft şirkətlərinin Xəzər dənizinə gəlməsi Rusiyada böyük etirazlar doğurur. Regionda biz Rusiyanın, İranın və Ermənistanın sıx əməkdaşlığını müşahidə edirik.

Biz nüvə silahının yayılmasının əleyhinəyik. Yuqoslaviya, Balkan böhranı başlayan zaman biz Rusiyanın böyük bir təyyarəsini Bakıda saxladıq. O təyyarə Balkanlara gedirdi və içində MİQ təyyarələri var idi. Biz əllidən artıq Rusiya vətəndaşını orada saxladıq, təyyarəni həbs etdik və nəzərdə tutulmuş aksiyanın qarşısını aldıq. Şübhəsiz ki, sonra təyyarəni Rusiyaya verdik, təslim etdik. Ancaq



MİQ təyyarələrini Qazaxıstana qaytardıq. Çünki onlar Qazaxıstana məxsus idi. Mən bu barədə Prezident Nazarbayevlə telefonla danışdım. Onlar bəyan etdilər ki, təyyarələri başqa yerə göndərməyəcəklər.

Biz bu cəsarətli, qətiyyətli addımları atmaqla özümüzə qarşı yeni etirazlar doğurduq. Amma eyni zamanda biz müstəqil dövlətimizin müstəqil siyasətini ardıcıl surətdə həyata keçiririk. Düşünmürük ki, bu, bizə zərər gətirəcək, ya gətirməyəcəkdir. Mənə belə gəlir ki, sizin sualınıza geniş cavab verdim.

Konqresmen Edvards görüşün sonunda Azərbaycan rəhbərinə minnətdarlıq edərək dedi:

- Cənab Prezident, icazə verin, burada iştirak edən bütün konqresmenlərin adından bildirim ki, biz Sizin liderliyiniz altında atılan cəsarətli addımları çox yüksək qiymətləndiririk. Bizə göstərdiyiniz liderlikdən bəhrələnərək, nümunə götürərək Konqresdə 907-ci düzəlişin ləğvinə həsr olunan müzakirələr zamanı eyni liderlik göstərəcəyik. Gərgin iş cədvəlinizdən vaxt ayırıb bizimlə görüşə gəldiyiniz üçün Sizə bir daha təşəkkür edir və bu görüşü özümüz üçün şərəf saydığımızı bildiririk. Dövlətlərimiz arasında münasibətləri gələcəkdə də inkişaf etdirmək arzusundayıq.

Azərbaycan Prezidenti Heydər Əliyev konqresmenlərə təşəkkür edərək dedi:

- Sağ olun. Azərbaycana bu qədər diqqət göstərdiyinizə və bu görüşə toplaşdığınıza görə hamınıza təşəkkürümü bildirirəm. Bu gün bir daha bildirmək istəyirəm ki, Azərbaycanın Prezidenti kimi mən Amerika Birləşmiş Ştatlarına və onun Konqresinə çox böyük hörmət bəsləyirəm. Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişin qəbul olunmasına baxmayaraq, mən hesab edirəm ki, Konqres həm Amerika üçün, həm də dünya birliyi üçün, sülhün qorunması, demokratiyanın inkişafı üçün çox dəyərli işlər görür. Konqresdə sizin kimi ədalətli, müstəqil fikirli və cəsarətli konqresmenlər var. Bu bizi ruhlandırır və inandırır ki, Konqres Azərbaycana qarşı yaranmış qeyri-obyektiv vəziyyətin də aradan qaldırılmasına nail olacaqdır.

907-ci düzəlişin ləğv olunması üçün bu gün yenidən təşəbbüs göstərdiyinə görə konqresmen Kinqə xüsusi təşəkkür edirəm. Ümidvaram ki, siz hamınız yeni layihənin ətrafında sıx toplaşacaq, onu dəstəkləyəcək və nəhayət, layihənin qəbul edilməsinə nail olacaqsınız. Bu hisslərlə sizdən ayrılır, görüşümüzdən çox məmnun olduğumu bildirirəm.

Sizin hamınızı yenidən-yenidən Azərbaycana dəvət edirəm. Azərbaycanın qapıları sizin üçün açıqdır. Azərbaycanda həmişə dostluq, mehribanlıq, qonaqpərvərlik görəcəksiniz. Sağ olun.



**Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın ticarət naziri Uilyam Deyli ilə görüşü**

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 27-də Vaşinqtonda ABŞ-ın ticarət naziri Uilyam Deyli[11] ilə görüşdü.

Azərbaycan Prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayan Uilyam Deyli hər dəfə dövlətimizin başçısı ilə görüşlərindən çox məmnun qaldığını bildirdi. Enerji daşıyıcıları sahəsində əməkdaşlıqdan, neft müqavilələrinin həyata keçirilməsindəki uğurlardan razılıq hissi ilə söhbət açan ticarət naziri başqa məsələlərdə də ABŞ-Azərbaycan əməkdaşlığını yüksək qiymətləndirdi və öz dövlətinin Azərbaycan ilə bütün sahələrdə əlaqələri genişləndirməyə hazır olduğunu vurğuladı.

Görüşdə iştirak edən ABŞ-ın energetika nazirinin müavini Cey Qlatye energetika naziri Bill Riçardsonun salamlarını Prezident Heydər Əliyevə çatdıraraq, iki ölkə arasındakı əməkdaşlığın inkişafında xidmətlərinə görə respublikamızın başçısına minnətdarlığını bildirdi və qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi lüzumunu nəzərə çarpdırdı



Səmimi görüşə görə minnətdarlığını bildirən Prezident Heydər Əliyev dedi ki, ABŞ ilə Azərbaycan arasındakı əməkdaşlıq getdikcə daha da genişlənir və yeni-yeni sahələri əhatə edir. ABŞ-ın iri şirkətlərinin Azərbaycanla əməkdaşlığını yüksək qiymətləndirən Prezident Heydər Əliyev respublikamız ilə birgə iş aparan şirkətlərin sayının dönmədən artmasından və iki ölkə arasında əmtəə dövriyyəsi həcminin ardıcıl surətdə genişlənməsindən razılığını bildirdi.

Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair bağlanmış müqavilələrin həyata keçirilməsində əldə olunan uğurlardan bəhs edən Prezident Heydər Əliyev Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün görülmüş tədbirlərdən razılıq hissi ilə danışdı. Azərbaycanın qaz istehsalında böyük imkanlara malik olduğunu qeyd edən Prezident Heydər Əliyev hazırda qaz ixracı üçün Transqafqaz qaz kəməri layihəsinin gerçəkləşdirilməsi istiqamətində intensiv danışıqlar aparıldığını bildirdi.

Prezident Heydər Əliyev ABŞ-Azərbaycan münasibətlərinin və əməkdaşlığının daha da genişləndirilməsinə mane olan 907-ci düzəlişin ləğv edilməsi zəruriliyini, bu maddənin Azərbaycana qarşı ədalətsizlik olduğunu görüş iştirakçılarının nəzərinə çarpdıraraq onları həmin sənədin tezliklə ləğvi üçün səyləri artırmağa çağırdı.

Söhbətə qoşulan ABŞ ticarət nazirinin müşaviri Yan Kalitski Prezident Heydər Əliyev ilə görüşlərini böyük məmnuniyyət hissi ilə xatırlayaraq ABŞ-Azərbaycan əməkdaşlığının inkişafı, Azərbaycanın enerji ehtiyatlarının istehsalı, nəqli və dünya bazarlarına çıxarılması işinin təşkilində böyük xidmətlərinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

Görüş zamanı qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

## Vaşinqtonda neft müqavilələrinin imzalanması mərasimi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə aprelin 27-də Amerika Birləşmiş Ştatları Senatının binasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ABŞ-ın "Monkrift Oyl", "Ekson" və "Mobil" şirkətləri arasında üç neft müqaviləsinin və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyi arasında Bakıda ürək-damar xəstəliklərinin müalicəsi üzrə Maykl Debeyki və Heydər Əliyev adına mərkəzin tikintisinin texniki-iqtisadi əsaslarının hazırlanması barədə müqavilənin imzalanması mərasimi oldu.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenlərinin, senatorlarının, ABŞ hökumətinin yüksək vəzifəli şəxslərinin, Azərbaycan Dövlət Neft





Şirkətinin və Amerikanın iri neft şirkətlərinin, işgüzar dairələrin nümayəndələrinin, xarici ölkələrin kütləvi informasiya vasitələri, televiziya və radio kanalları təmsilçilərinin iştirak etdiyi mərasimi giriş sözü ilə senator xanım Key Beyli Hatçinson açaraq dedi:

- Görmətli xanımlar və cənablar, xoş gəlmisiniz!

Bu gün burada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və bizim ölkənin ticarət naziri Uilyam Deylini görməkdən çox məmnunluq duyuruq. Çox önəmli, çox mühüm bir hadisə münasibətilə bu mərasimə toplaşmağınızdan böyük şərəf duyduğumuzu izhar edirik. Çox məmnunam ki, bu gün burada mənimlə bərabər Vayominq ştatından olan senator Tomson, konqresmenlər cənab Dits və Viper də iştirak edirlər və bu prosesdə bizə qoşulacaqlar. Bizim əksəriyyətimiz Azərbaycanı ziyarət etmişik və orada gedən prosesləri yaxından izləyirik.

Keçən il Azərbaycana etdiyim səfər zamanı mənim gözlərim qarşısında Amerika biznesinin bu ölkədə görə biləcəyi işlər barədə təsəvvür yarandı. Mən bir daha qəti surətdə əmin oldum ki, biz həm amerikalılar üçün, həm də azərbaycanlılar üçün yeni iş yerlərinin açılması ilə nəticələnəcək müştərək, birgə fəaliyyət göstərə bilərik.

Bu gün daha üç böyük müqavilə imzalanacaq ki, bu müqavilələr də dövlətlərimiz arasında olan müttəfiqliyi daha da gücləndirəcəkdir. Biz həmçinin bu gün burada Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin, eləcə də doktor Debeyki və onun həmkarlarının yardımı sayəsində Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin açılması üçün texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanmasını nəzərdə tutan müqavilənin də imzalanması mərasiminin şahidi olacağıq.

Biz çox məmnunuq ki, Azərbaycanda yaşayan, Azərbaycanda çalışan insanlara tibbi xidmətlər göstərilməsi üçün yeni bir mərkəzin yaradılmasına başlayacağıq. Bu mərkəz "Maykl Debeyki-Heydər Əliyev ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi" adlandırılacaqdır. İcazənizlə, bəyan edim ki, bu gün burada üç neft müqaviləsinin, həmçinin Bakıda açılacaq ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi haqqında müqavilənin imzalanması məhz Prezident Heydər Əliyevin və Azərbaycan xalqının qəhrəmanlıq nümayiş etdirərək göstərdiyi səylər nəticəsində mümkün olmuşdur. Bu işdə nazir cənab Deylinin rəhbərlik



etdiyi Amerika Birləşmiş Ştatları Ticarət Nazirliyinin xidmətlərini də biz yüksək qiymətləndiririk.

Bu gün bu əlamətdar hadisədə bizimlə bərabər öz xidmətlərini göstərmiş Amerika Birləşmiş Ştatları Energetika Nazirliyinin nümayəndələri də iştirak edirlər. İndi mən sözü Amerikanın energetika nazirinin müavini cənab Cey Qlatyeyə verirəm.

ABŞ-ın energetika nazirinin müavini cənab T. Cey Qlatye mərasimdə çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli nazir!

Hörmətli xanım Hatçinson, Konqresin üzvləri!

Bu gün burada, əlamətdar hadisə münasibətilə toplaşdığımız bu mərasimdə Amerika Birləşmiş Ştatlarının Energetika Nazirliyini təmsil etməkdən məmnunluq duyuram.

Cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson Sizə ən səmimi salamlarını göndərib və çox təəssüfləndiyini bildirir ki, bu gün bizimlə bərabər bu mərasimdə iştirak edə bilmir.

Hörmətli Prezident Əliyev, Natiq Əliyev, İlham Əliyev, "Mobil", "Eksson" və "Monkrif Oyl" şirkətlərinin nümayəndələri, biz sizin hamınızı Azərbaycanda iqtisadi fəaliyyəti genişləndirməyiniz, bu gün imzalayacağınız yeni müqavilələr münasibətilə təbrik edirik. Çox məmnunam ki, Amerika şirkətləri Azərbaycandakı fəaliyyətlərini genişləndirirlər. Bu şirkətlər Azərbaycanın neft sektorunda, eləcə də qeyri-neft sektorunda layihələrdə iştirak etməklə Azərbaycanın inkişafına öz töhfələrini vermək məqsədinə sadiqdirlər. Biz Azərbaycan ilə bu tərəfdaşlığımızla fəxr edirik və ümidvarıq ki, bu tərəfdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Cənab Prezident!

Biz Sizin rəhbərliyiniz altında Azərbaycanın enerji sahəsində əldə etdiyi böyük nailiyyətlərin şahidiyik. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, Azərbaycanda və bütün regionda sülhün və sabitliyin bərqərar olmasına, region xalqlarının çiçəklənməsinin təmin edilməsinə Sizin göstərdiyiniz rəhbərliyi, liderliyi alqışlayırıq. Bu məqsədlərə nail olunmasında enerji, neft, qaz boru kəmərlərinin həlledici amil rolu oynaması barədə fikirlərinizi tamamilə bölüşürük.

İki həftə bundan öncə biz çox böyük məmnuniyyət hissi ilə cənab Morninqstarın və Enerji Departamentinin nümayəndəsi xanım Triza Bimanın iştirakı ilə Gürcüstanda Bakı-Supsa boru kəmərinin açılması mərasimində iştirak etdik. Bununla Azərbaycan özünün enerji ehtiyatlarının inkişaf etdirilməsi və ən





iri neft ixracatçılarından birinə çevrilməsi, o cümlədən bütün Xəzər regionunun enerji ehtiyatlarının qərb bazarlarına ixracının mərkəzinə çevrilməsi istiqamətində daha mühüm bir addım atmış oldu. Biz Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan limanına daha uyğun və ən böyük neft boru kəmərinin çəkilməsi istiqamətində də Sizinlə birgə fəaliyyətimizi davam etdirəcəyik.

Cənab Prezident, cənab Terri Kunts, cənab Uilyam Skaqins, cənab Riçard Monkrift, enerji sahəsindəki münasibətlərimizin, ölkələrimiz arasındakı əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirik və bu mərasimdə iştirak etməkdən zövq duyuruq. Sizə bir daha ən səmimi təbriklərimizi yetiririk və Azərbaycan xalqına səmimi təbriklərimizi göndəririk.

Xanım Key Beyli Hatçinson: Çox sağ olun. Mənim nəzərimi indi cəlb etdi, - konqresmen Teşşinz da indicə bizə qoşuldu. Mən onu salamlayıram.

İndi isə məmnuniyyətlə, Amerika Birləşmiş Ştatları üçün çox mühüm xidmətlər göstərən ticarət naziri cənab Uilyam Deylini kürsüyə dəvət edirəm.

### ABŞ-ın ticarət naziri Uilyam Deylinin çıxışı

- Hörmətli Prezident Heydər Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bilmirəm siz necə hiss edirsiniz, amma mənim üçün günü belə xoş bir hadisə ilə başlamaq çox əlamətdardır. İki milyard dollar həcmində yeni çox mühüm enerji layihələrinin həyata keçirilməsinə başlanmasına, "Eksson", "Mobil", "Monkrif Oyl" şirkətləri tərəfindən Xəzər regionuna investisiya qoyulmasına həsr olunmuş bu mərasimə toplaşmaqdan məmnunluq duyuruq.

Prezident Heydər Əliyev: Ola bilər, Sizin katibiniz orada rəqəmi düz yazmayıbdır. Bu, 10 milyard dollardır.

Uilyam Deyli: Cənab Prezident, mən heç vaxt prezidentlərlə mübahisə etmirəm. Mən aydınlaşdıraram, görüm rəqəmlərə cavabdeh olan bizim şəxslər rəqəmləri nə üçün belə aşağı səviyyədə saxlayıblar.

Heydər Əliyev: Hesab edirəm ki, onu kompüter düz yazmayıbdır.

Uilyam Deyli: Mən də ümidvaram ki, bu, insan tərəfindən buraxılmış səhv deyil. Əgər bu, insan tərəfindən buraxılmış səhv olsa, onda gərək biz həmin şəxsi kompüterlə əvəz edək.

Baxmayaraq ki, imzalanacaq bu cür layihələrdə "Eksson" və "Mobil" şirkətləri ayrıca tərəfdaşlar kimi çıxış edirlər, lakin gələcəkdə bu şirkətlərin birləşərək bir şirkət halında çıxış etməsi, şübhəsiz ki, regionun çox böyük potensialından daha səmərəli istifadə olunmasına öz töhfəsini verəcəkdir.

Bu layihələrin həyata keçirilməsi həm bizdən uzaq məsafədə, dünyanın başqa bölgəsində yerləşən Azərbaycanda və həmçinin Amerika Birləşmiş Ştatlarında yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Şübhəsiz ki, bu layihələrin həyata keçirilməsi nəticəsində neft müqavilələrində yardımçı müqavilələrlə iştirak edəcək digər şirkətlər, həmçinin neft avadanlığı, qazma qurğuları istehsal edən və başqa xidmətlər göstərən bir çox digər şirkətlər üçün də yeni işlər meydana çıxacaqdır. Bu şirkətlərin hamısı dünyada ən müasir texnologiyaya, yüksək təcrübəyə malikdir və zəngin enerji ehtiyatlarının istismarında səmərəli fəaliyyət göstərmək iqtidarındadırlar.

Cənab Prezident, bu şirkətlər ətraf mühitin qorunması standartlarını Azərbaycanda ən yüksək zirvələrə qaldırmaq barədə öz üzərinə götürdükləri böyük öhdəliklərə də sadiq olacaqlar. Heç şübhəsiz ki, əgər bu şirkətlər müvəffəq olarlarsa, onda bizim iqtisadiyyatımız inkişaf edəcəkdir və daha böyük tərəqqinin şahidi olacağıq.

Cənab Prezident!

Siz bilirsiniz ki, bu, "Eksson" şirkətinin Azərbaycan ilə imzaladığı üçüncü müqavilədir. Şəxsən mənim üçün isə ikinci dəfə belə bir imkan yaranıbdır ki, Amerika şirkətləri ilə Azərbaycan arasında neft müqavilələrinin imzalanmasında şahid kimi iştirak edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, belə müqavilələrin imzalanması bundan sonra da olacaqdır.

Cənab Prezident!

Bu gün imzalanacaq dördüncü müqavilənin də çox böyük əhəmiyyəti vardır. Bu müqavilə Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin dəstəyi ilə Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin tikilməsini nəzərdə tutur. Ümid edirik ki, həmin mərkəz azərbaycanlıların ürəklərinin qüdrətlənməsi, qüvvətlənməsi işinə yardımçı olacaq və beləliklə də biz xalqlarımızın, insanlarımızın bir-birinə daha ürəkdən, daha yaxından bağlanmasının təməlini qoyacağıq. Bu müqavilələrin imzalanması ölkələrimiz arasında iqtisadi, kommersiya münasibətlərinin daha da gücləndirilməsinə xidmət edir və ümumilikdə götürdükdə isə dövlətlərimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Mən burada Sizinlə bərabər olmağımdan şərəf duyduğumu bir daha izhar edirəm. Çox sağ olun.

Key Beyli Hatçinson: Bu gün çox mühüm və əlamətdar mərasimdə iştirak etmək üçün öz iş cədvəlində dəyişiklik edərək bizimlə bərabər olduğuna görə nazir cənab Deyliyə minnətdarlığımı bildirirəm. Amerika şirkətlərinin və xarici şirkətlərin dünyanın müxtəlif bölgələrində öz sərmayə qoyuluşlarını daha da artırması istiqamətində cənab nazir Deylinin və rəhbərlik etdiyi nazirliyin





göstərdiyi fəaliyyətə görə də ona təşəkkürümü bildirirəm.

Nazir Deylinin çıxışı zamanı Prezident Heydər Əliyev rəqəmi 2 milyarddan 10 milyarda qaldırarkən mən cənab Monkrifə baxdım və onun gözlərindən oxudum ki, o, ümidvar olduğunu büruzə verərək düşünürdü ki, qalan 8 milyard xərc təkcə onun üzərinə düşməsin.

İndi isə çox böyük şərəf hissi ilə mən vaxtilə onu öz ölkəsində ziyarət etdiyim, öz xalqı, dövləti üçün çox böyük xidmətlər göstərən, ölkəsinin iqtisadi əlaqələrini və dövlət quruluşunu möhkəmləndirmək üçün böyük işlər görən və Amerika Birləşmiş Ştatlarının ən böyük dostuna çevrilən Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə söz vermək istəyirəm.

Azərbaycan Prezident Heydər Əliyev mərasimdə nitq söylədi.

**Azərbaycan Prezidenti**
**Heydər Əliyevin nitqi**

- Hörmətli senator Hatçinson!

Hörmətli nazir Deyli!

Hörmətli nazir müavini, senatorlar, konqresmenlər, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və bu gün Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda Konqresin binasında belə bir mərasim keçirilməsindən hədsiz məmnun olduğumu bildirirəm.

Hörmətli senator Hatçinson, mənim haqqımda və Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm və bildirmək istəyirəm ki, Siz doğru buyurdunuz ki, mən Amerika Birləşmiş Ştatlarının çox sadiq dostuyam.

Bu mərasimdə nazir Deylinin, senatorların, konqresmenlərin, nazir müavininin və Amerika hökumətinin yüksək səviyyəli nümayəndələrinin iştirak etməsi müqavilələrin imzalanmasına xüsusi qiymət verir. Mən bu gün böyük xoşbəxtlik, iftixar hissləri keçirirəm, ona görə ki, Azərbaycanın 1994-cü ildə



dünyaya bəyan etdiyi neft strategiyası ardıcıl surətdə həyata keçirilir və böyük uğurlar qazanır.

1994-cü ilin sentyabr ayında Azərbaycanda böyük bir müqavilə imzalandı. Bu müqaviləyə Amerika Birləşmiş Ştatlarında və dünyada "Əsrin müqaviləsi"[12] adı verildi. Biz bu müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının müştərək istifadə olunması üçün ilk böyük addım atdıq və gələcək üçün böyük perspektivlər açdıq. Böyük sevinc hissi ilə bildirirəm ki, bizim imzaladığımız müqavilə nəzərdə tutulmuş plan, qrafik əsasında həyata keçirilibdir. 1997-ci ilin noyabrında ilkin neft almışıq, onu Bakı-Novorossiysk, Şimal marşrutu ilə ixrac edirik. Bu ilin aprel ayının 17-də isə ikinci - Qərb neft kəmərini istismara verdik. Bakı-Supsa neft kəməri vasitəsilə də nefti dünya bazarlarına ixrac edirik.

Ötən illər ərzində Azərbaycanın neft strategiyası yeni-yeni mərhələlərinə çatıbdır. Biz artıq 16 müqavilə imzalamışıq və onların da əməli surətdə həyata keçirilməsi ilə məşğuluq. Məmnuniyyətlə qeyd edirəm ki, bütün bu müqavilələrdə Amerika Birləşmiş Ştatlarının neft şirkətləri görkəmli yer tuturlar. Ötən dövrdə onlar Azərbaycana külli miqdarda investisiya qoyublar və Amerika Birləşmiş Ştatlarının neft şirkətləri demək olar ki, Azərbaycanın Xəzər dənizində, Azərbaycanda neft strategiyasının həyata keçirilməsində aparıcı rol oynayırlar.



Neft strategiyamız dünyada böyük əks-səda yaratmış, dünyanın bir çox ölkələrində maraq və müsbət münasibət doğurmuşdur. Amma eyni zamanda bizə qarşı əks münasibət də, bizim neft strategiyamıza mane olmaq cəhdləri də müşahidə edilmişdir. Biz bu yolda böyük sınaqlardan keçmişik, böyük çətinliklərin öhdəsindən gəlmişik, böyük maneçiliklərin qarşısını almışıq və bu işlərdə Amerika Birləşmiş Ştatları, onun hökuməti, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton, ABŞ-ın Energetika Nazirliyi, Ticarət Nazirliyi, digər nazirliklər, Amerika Birləşmiş Ştatlarının Senatı və Konqresi bizə həmişə dəstək vermiş, yardım etmişlər.

Bütün bunlara görə mən bu gün sizə, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintona, bizə dəstək verən bütün nazirliklərə, Konqresə, Senata öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

1994-cü ildən sonra bizim neft müqavilələrinin həyata keçirilməsi sahəsində Azərbaycana qoyulan investisiyaların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının neft şirkətləri qoyublar. Azərbaycana bir milyard dollardan artıq Amerika kapitalı gəlibdir və bu müqavilələrlə, onların həyata keçirilməsi üçün nəzərdə tutulmuş investisiyaların ümumi həcmi 50 milyard dollara qədərdir.

Bu gün "Eksson" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Zəfər" və "Məşəl" neft yataqlarında iş görmək üçün 5 milyard dollar həcmində investisiya nəzərdə tutulubdur. "Mobil" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda "Savalan", "Dalğa", "Lerik-Dəniz" və "Cənub" neft yataqlarında investisiyanın həcmi 4,5 milyard dollar olacaqdır. "Monkrif Oyl" şirkəti isə "Padar" sahəsində quruda olan neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzalayacaqdır. Senator xanım Hatçinson narahat olmasın, onların üzərinə investisiyanın qalmış hissəsi düşür.

Hörmətli dostlar!

Biz 1997-ci ilin avqust ayının 1-də Vaşinqtonda, Ağ evdə Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında dörd müqavilə imzaladıq. Bizim üçün çox əhəmiyyətlidir ki, ikinci dəfə Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, bu dəfə Konqresin binasında biz yeni üç neft müqaviləsi imzalayırıq.

Bügünkü hadisənin ən maraqlı cəhəti bir də ondan ibarətdir ki, biz neft sahəsindən kənara çıxıb insanlar üçün çox vacib, əhəmiyyətli olan səhiyyə sahəsində də əməkdaşlığa başlayırıq və burada bu gün bir müqavilə imzalanacaqdır ki, Debeyki mərkəzinin Azərbaycanda ürək-damar xəstəliklərinin müalicə edilməsi üçün yeni bir tibb mərkəzinin yaradılması ilə əlaqədar biz işə başlayırıq. Bunlar hamısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin ardıcıl surətdə inkişaf etməsini, möhkəmlənməsini və genişlənməsini sübut edir.

Biz Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əlaqələri yaratmışıq və bu əlaqələr çərçivəsində öz işimizi aparır, bu əlaqələri inkişaf etdirməyə





çalışırıq. Neft sahəsində imzaladığımız müqavilələr və artıq əldə etdiyimiz nailiyyətlər ölkələrimiz arasında siyasi, iqtisadi, elmi, mədəni sahələrdə də əlaqələrin inkişaf etməsinə böyük imkanlar yaradır. Biz bunlara yüksək qiymət veririk və sizi əmin edirəm ki, biz bu əlaqələrin gələcəkdə də inkişaf etməsi üçün əlimizdən gələni edəcəyik.

Senator Hatçinson Azərbaycan Prezidentini - məni Amerikanın böyük dostu kimi təqdim etdi. Mən həqiqətən dostam və dostluğumdan da şərəf, qürur hissi duyuram. Biz Amerika Birləşmiş Ştatlarını, hörmətli dostlar, sizi özümüzün böyük dostumuz hesab edirik, bu dostluğa sadiqik və sadiq də olacağıq.

Bizim apardığımız siyasət Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini təmin edibdir. Amerika Birləşmiş Ştatları ilə indi mövcud olan əlaqələrimiz Azərbaycanın müstəqil siyasət aparmasını dünyaya nümayiş etdirib və Azərbaycanın müstəqilliyinin daimi, əbədi olduğunu sübut edir. Əmin ola bilərsiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının dostu, sədaqətli tərəfdaşı kimi öz öhdəliklərinə həmişə sadiq olacaqdır.

Mən sizin hamınızı bugünkü əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və səadət arzulayıram. Amerika xalqına sülh, əmin-amanlıq, onun hökumətinə və dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.





Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi, dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

Senator Key Beyli Hatçinson dedi:

- Cənab Prezident, çox sağ olun. İndi isə birinci müqavilənin imzalanmasına başlayırıq. Mən məmnuniyyətlə bildirirəm ki, birinci müqavilə Amerika işgüzarlığının bariz nümunəsi olacaqdır.

"Monkrif Oyl" şirkətini burada təmsil edəcək və onun adından imza atacaq şəxs - cənab Riçard Monkrif mənimlə bərabər Texas universitetində təhsil alıbdır. "Monkrif Oyl" şirkəti bir ailə tərəfindən idarə olunan şirkətdir və bu gün burada cənab Riçard Monkriflə bərabər, onun qardaşı öz xanımı ilə bərabər iştirak edir.

Sonra müqavilələrin imzalanması mərasimi oldu.

Azərbaycan Dövlət Neft Şirkəti ilə "Monkrif Oyl" və "Eksson" şirkətləri arasında müqavilələri ARDNŞ-in prezidenti Natiq Əliyev, bu şirkətlərin rəhbərləri Riçard Monkrif, Terri Kunts imzaladılar.

ARDNŞ ilə "Mobil" şirkəti arasında müqaviləni Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezident İlham Əliyev və "Mobil" şirkətinin prezidenti Uilyam Skaqins imzaladılar.

Xanım Key Beyli Hatçinson dedi:



- Bununla da neft müqavilələrinin imzalanması başa çatır. Bu, Amerika və Azərbaycan üçün yeni iş yerlərinin açılması deməkdir. Mərasimdə iştirak etdiklərinə görə ABŞ-ın ticarət naziri cənab Uilyam Deyliyə və energetika nazirinin müavini cənab T.Cey Qlatyeyə təşəkkürümü bildirirəm.

Daha sonra Azərbaycan Respublikası ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Bakıda Maykl Debeyki və Heydər Əliyev adına ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi tikintisinin texniki-iqtisadi əsasları barədə müqavilə bağlandı. Müqaviləni Azərbaycanın xarici işlər naziri Tofiq Zülfüqarov və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi direktorunun müavini Nensi Frey imzaladılar.

Xanım Key Beyli Hatçinson axırda dedi:

- Cənab Prezident!

Hörmətli qonaqlar!

İndi isə daha bir şəxsi - Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı səfiri cənab Hafiz Paşayevi sizə təqdim etmək istəyirəm. Onun xidmətləri olmasaydı, biz bu gün bu mərasimə toplaşa bilməzdik. Cənab Prezident, Sizə bildirmək istəyirəm ki, o, Sizin ölkənizi - Azərbaycanı burada çox gözəl təmsil edir.

Əziz dostlar, bununla da mərasim başa çatır və beləliklə, biz Azərbaycan ilə Amerika arasında uzunmüddətli münasibətlərin gücləndirilməsi işinə yeni bir töhfə vermiş olduq. Sağ olun.

# DAĞLIQ QARABAĞ PROBLEMİ DİQQƏT MƏRKƏZİNDƏDİR





**ABŞ-ın Dövlət katibi Madlen Olbraytın sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan prezidentlərinin görüşü**

Aprelin 25-də ABŞ-ın Dövlət katibi Madlen Olbraytın sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan prezidentlərinin görüşü keçirildi. Böyük Britaniyanın, Almaniya Federativ Respublikasının, Fransanın, Türkiyənin və Norveçin xarici işlər nazirləri, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Semuel Berger[13] görüşdə iştirak edirdilər.

Görüşü giriş sözü ilə Madlen Olbrayt açdı. O, müstəqil inkişaf yoluna qədəm qoymuş Cənubi Qafqaz respublikalarının prezidentlərini səmimiyyətlə salamlayaraq bildirdi ki, bu ölkələrin inkişafı regionda sülh və sabitlikdən asılıdır.

Dünya birliyinin Cənubi Qafqaza böyük diqqət yetirdiyini nəzərə çarpdıran xanım Olbrayt Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətindən narahat olduğunu bildirdi. ATƏT-in Minsk qrupunun və onun həmsədrlərindən biri olan ABŞ-ın bu münaqişənin sülh yolu ilə nizamlanması sahəsində apardığı işdən söhbət açan xanım Olbrayt həmin regionda sülhün və sabitliyin bərqərar edilməsində öz ölkəsinin böyük marağı olduğunu vurğuladı.

Gürcüstan Prezidenti Eduard Şevardnadze Qafqaz ölkələri liderlərinin görüşünü təşkil etdiyinə görə xanım Olbrayta səmimi minnətdarlığını bildirərək görüş iştirakçılarını salamladı. Bir-biri ilə qırılmaz tarixi əlaqələri olan Qafqaz xalqlarının və region ölkələrinin əməkdaşlığının vacibliyini vurğulayan Gürcüstan Prezidenti öz ölkəsinin Azərbaycan ilə xüsusi dostluq və qardaşlıq





münasibətlərini, "Dinc Qafqaz" uğrunda təşəbbüsü çərçivəsində əməkdaşlıq etdiyini nəzərə çarpdırdı. Gürcüstanın başçısı regionda uğurlu əməkdaşlıq üçün iri iqtisadi layihələrin böyük əhəmiyyət daşıdığını qeyd edərək, neft və qaz kəmərlərinin çəkilişində, Böyük İpək yolunun bərpasında, TRASEKA proqramı çərçivəsində, Transqafqaz magistralından birgə istifadə sahəsində əməkdaşlığı yüksək qiymətləndirdiyini vurğuladı.

Prezident Şevardnadze dedi ki, regionda sabitlik, əmin-amanlıq və əməkdaşlıq üçün tezliklə münaqişələrin sülh yolu ilə aradan qaldırılması vacibdir. Xanım Olbraytın sədrliyi ilə Cənubi Qafqaz dövlətləri başçılarının hazırkı görüşünə böyük əhəmiyyət verdiyini nəzərə çarpdıran Eduard Şevardnadze bu cür görüşlərin gələcəkdə davam etdirilməsini son dərəcə məqsədəuyğun hesab edərək növbəti görüşün Gürcüstanda keçirilməsini təklif etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Cənubi Qafqaz ölkələri başçılarının görüşünü təşkil etdiyinə, regionun problemlərinə ABŞ-ın göstərdiyi maraq və diqqətə görə xanım Madlen Olbrayta səmimi təşəkkürlərini bildirərək, bu tərkibdə keçirilən ilk görüşün gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu söylədi.

Daha sonra Prezident Heydər Əliyev müstəqil inkişaf yoluna qədəm qoymuş Azərbaycanda ictimai-siyasi həyatın demokratikləşdirilməsi, bazar iqtisadiyyatı quruculuğu yolunda qazanılmış uğurlardan söhbət açdı.

Xəzər dənizinin enerji ehtiyatlarından ölkəmizin və xalqımızın rifahı naminə istifadə edildiyini xatırladan Azərbaycan Prezidenti Xəzərin neft yataqlarının

istismarına dair bağlanmış müqavilə üzrə hasil olunan neftin Bakı-Novorossiysk və bu ilin aprelində işə salınmış Bakı-Supsa kəmərləri ilə dünya bazarlarına çıxarıldığını görüş iştirakçılarının nəzərinə məmnuniyyət hissi ilə çatdırdı.

Prezident Heydər Əliyev Xəzər dənizinin enerji ehtiyatlarından istifadəyə dair həyata keçirilən layihələrin, 1998-ci ilin sentyabrında Bakıda Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsinin və onun mühüm qərarlarının Transqafqaz magistralının inkişafı və Azərbaycanın dünya birliyi ilə sıx inteqrasiyası üçün geniş imkanlar açdığını qeyd etdi.

Müstəqillik yolu ilə irəliləyən ölkəmizin inkişafı üçün böyük çətinliklər doğuran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllinin zəruriliyini vurğulayan Prezident Heydər Əliyev münaqişənin 10 ildən çox davam etdiyini, 5 ildən bəri atəşkəsin qüvvədə olduğunu nəzərə çarpdırdı. O, münaqişənin tezliklə aradan qaldırılmasının, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsinin, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın doğma yurdlarına qaytarılmasının zəruriliyini xüsusi vurğuladı.

Respublikamızın başçısı münaqişənin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk prosesinin canlandırılmasının, Cənubi Qafqaz regionunda sülhün bərqərar edilməsi üçün səylərin artırılmasının vacibliyinə diqqəti cəlb etdi.

Üç il bundan əvvəl Gürcüstan Prezidenti Şevardnadze ilə "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə" imzaladığını vurğulayan Prezident Heydər Əliyev regionda sülhün və təhlükəsizliyin təmin olunmasının və bu təşəbbüsə başqa ölkələrin də qoşulmasının vacibliyini qeyd edərək dedi ki, bu, bizim istəyimizdir və biz bunu reallığa çevirmək niyyətindəyik.

Ermənistan Prezidenti Robert Koçaryan da Cənubi Qafqaz ölkələri başçılarının görüşünü təşkil etdiyinə görə xanım Olbrayta minnətdarlığını bildirərək görüş iştirakçılarını salamladı. Regionda vəziyyət və əməkdaşlıq perspektivləri barədə öz mülahizələrini söyləyən Prezident Koçaryan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq problemin ATƏT-in Minsk qrupu çərçivəsində aradan qaldırılmasının tərəfdarı olduğunu bildirdi.

Fransanın xarici işlər naziri Huber Vedrin görüş iştirakçılarını salamlayaraq Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün səyləri artırmağın vacibliyini nəzərə çarpdırdı, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərini dəstəklədiyini söylədi və münaqişənin həlli üçün Minsk qrupunun bu istiqamətdə fəaliyyətinin gücləndirilməsini zəruri hesab etdi.

Norveçin xarici işlər naziri, ATƏT-in hazırkı sədri Knut Vollebek Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməsini və atəşkəs rejiminə əməl olunmasını mühüm amillər hesab edərək, bu münaqişənin heç bir ölkənin mənafeyinə uyğun gəlmədiyini



nəzərə çarpdırdı. Atəşkəs rejimini yüksək qiymətləndirən cənab Vollebek münaqişənin tezliklə tam aradan qaldırılması lüzumunu qeyd etdi.

Dünya birliyinin region ölkələri ilə hərtərəfli əməkdaşlığının böyük perspektivləri olduğuna diqqəti cəlb edən Böyük Britaniyanın xarici işlər naziri Robin Kuk mühüm coğrafi-strateji mövqeyə malik regiondakı Dağlıq Qarabağ münaqişəsinin hələ də aradan qaldırılmadığından narahatlığını bildirdi və ondan əvvəl çıxış etmiş natiqlərin atəşkəs rejiminin saxlanılması barədə mülahizələrini dəstəklədiyini, bundan istifadə edərək münaqişənin sülh yolu ilə həlli üçün yeni-yeni yollar axtarılmasının zəruri olduğunu söylədi.

Almaniya Federativ Respublikasının xarici işlər naziri Yoşka Fişer Cənubi Qafqaz regionunun istər siyasi, istərsə də iqtisadi baxımdan Avropa ilə Asiya arasında mühüm mövqe tutduğunu xüsusi vurğulayaraq dedi ki, regionun inkişafı üçün sülh və sabitlik gərəkdir.

Avropa Birliyinin münaqişələrin aradan qaldırılmasında regiona kömək etməyə hazır olduğunu bildirən Almaniya diplomatı atəşkəs rejimini dəstəklədiyini, lakin bununla yanaşı daha irəli gedərək münaqişənin sülh yolu ilə tamamilə nizamlanmasına nail olmağı zəruri hesab etdiyini bildirdi.

Türkiyənin xarici işlər naziri İsmayıl Cəm Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini nəzərə çarpdıraraq, Qafqaz üçün sülh və sabitliyin vacibliyini, bu məqsədlə bütün mexanizmlərdən istifadə etmək lüzumunu vurğuladı.

Görüşə yekun vuran xanım Madlen Olbrayt maraqlı fikir mübadiləsinə görə iştirakçılara təşəkkürünü bildirdi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün beynəlxalq birliyin, ATƏT-in səylərinin artırılması zəruriliyinə diqqəti bir daha xüsusi cəlb etdi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə təkbətək görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 26-da Vaşinqtonda Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşdü.

Görüşün əvvəlində ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt iştirak etdi. Xanım Olbrayt bu görüşün böyük əhəmiyyəti olduğunu söylədi. O, Qafqazda sülhün bərqərar olunması üçün Amerika Birləşmiş Ştatlarının daha fəal rol oynamaq niyyətini bildirdi. Xanım Olbrayt bəyan etdi ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, işğal olunmuş torpaqların azad olunması, qaçqınların və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilməsi şərtı ilə münaqişənin həllinin tərəfdarıdır. Dövlət katibi Azərbaycan və Ermənistan prezidentləri arasında görüşlərin davam etdirilməsinin xüsusi əhəmiyyətini vurğulayaraq, sülhün bərqərar olunması üçün şəxsən fəal rol oynamağa hazır olduğunu bir daha bildirdi.




Prezident Heydər Əliyev belə bir təşəbbüslə çıxış etdiyinə görə ABŞ-ın Dövlət katibinə minnətdarlığını bildirərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Amerika Birləşmiş Ştatlarının roluna böyük ümidlər bəslədiyini, regionda sülhün və sabitliyin bərqərar olması üçün ABŞ-ın Qafqaz regionundakı fəallığının önəmli əhəmiyyətini xüsusi qeyd etdi.

Xanım Olbrayt Azərbaycan və Ermənistan prezidentlərinə səmərəli görüş arzuladı.

Sonra Prezident Heydər Əliyev və Prezident Robert Koçaryan arasında 2 saata yaxın davam edən təkbətək görüş oldu.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması barədə ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycan və Ermənistan prezidentləri münaqişənin ATƏT-ın Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə nizamlanması və tam sülh əldə edilənədək atəşkəs rejiminin qorunub saxlanılması əzmində olduqlarını təsdiqlədilər. Prezident Əliyev və Prezident Koçaryan regionda sülhün bərqərar edilməsi üçün ikitərəfli görüşlərin əhəmiyyətini vurğuladılar.

# TARİXİ İPƏK YOLU REGİONAL ƏMƏKDAŞLIQ ÜÇÜN PERSPEKTİVLƏR AÇIR



## Senator Sem Braunbekin təşəbbüsü ilə "İpək yolu" layihəsinin iştirakçısı olan ölkələrin dövlət başçılarının görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də günortadan sonra Kapitoliyə gəldi. Respublikamızın rəhbəri burada ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, "İpək yolu strategiyası haqqında"[14] qanun layihəsinin təşəbbüsçüsü senator Sem Braunbekin[15] təşkil etdiyi tədbirdə - Qafqaz və Orta Asiya ölkələri rəhbərlərinin və xarici işlər nazirlərinin görüşündə iştirak etdi.

Xatırladaq ki, ABŞ Prezidenti cənab Bill Klinton senator Sem Braunbekin irəli sürdüyü "İpək yolu strategiyası haqqında" qanun layihəsinə böyük əhəmiyyət verir və bununla əlaqədar aprelin 19-da senatora xüsusi məktub göndərmişdir. Məktubda deyilir:

*"Əziz Sem,*

*Qafqaz və Orta Asiyanın bütün ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi işində liderlik rolunuzu təbrik edirəm. NATO-nun sammiti zamanı keçirəcəyiniz görüş region ölkələrinin liderləri, Konqresin üzvləri, hökumətimizin nümayəndələri və Amerikanın ictimai rəyini formalaşdıran digər şəxsiyyətlər arasında dialoq üçün əhəmiyyətli imkan yaradacaqdır. Mən "İpək yolu strategiyası" haqqında Sizin hazırladığınız qanun layihəsi aktında öz əksini tapmış məqsədlərlə də şərikəm və bunlara nail olmaq məqsədi ilə Sizinlə birlikdə çalışacağam.*

*Birləşmiş Ştatların məqsədi Qafqazın və Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinə kömək etməkdir. Bu gənc ölkələr sabitliyə, demokratiyaya və tərəqqiyə can atdıqlarını bəyan edirlər. Biz onlarla birlikdə olsaq, onların bu səylərinə öz töhfəmizi verə bilərik. Birləşmiş Ştatlar Qafqazda və Orta Asiyada fəal və tarazlaşdırılmış rol oynamaqda davam edərək, Dağlıq Qarabağda sülhə nail olmağı dəstəkləməlidir; səmərəsiz məhdudiyyətlərdən azad olan yardım proqramlarımız vasitəsilə demokratiyanı və bazar iqtisadiyyatını müdafiə etməlidir; NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının dəstəklənməsi üçün ikitərəfli proqramlar vasitəsilə təhlükəsizlik sahəsində şəraiti yaxşılaşdırmalıdır.*

*Sizin güclü liderliyiniz bu məsələlərə hər iki partiyanın marağını, bizim əsl milli marağımızı qeyd etməyə kömək edir. Mən bu sahədə ümumi məqsədlərimizə nail olmaq üçün Sizinlə birgə işimizi davam etdirməyə səy göstərirəm.*

*Hörmətlə,*

*Bill Klinton*

*Amerika Birləşmiş Ştatlarının Prezidenti*

*Ağ ev, Vaşinqton, 19 aprel 1999-cu il"*

Senator Sem Braunbek dövlət başçılarını və tədbirin digər iştirakçılarını salamlayaraq çıxış etdi.



## Senator Sem Braunbekin çıxışı



- Bu gün burada tarixi hadisəni qeyd edərək sizi salamlamaq istəyirəm: İpək Yolu ölkələrinin liderləri regionun nümayəndələri kimi ilk dəfə olaraq Vaşinqtonda toplaşmışlar. İcazə verin, yeni ipək yolunu sizə təqdim edim. Bir daha qeyd etmək istəyirəm ki, bu yol Asiyanı Avropa ilə və dünyanın qalan hissəsi ilə birləşdirir.

Bu gün burada aşağıdakı ölkələr təmsil olunmuşlar: Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Ermənistan Respublikası, Gürcüstan Respublikası, Özbəkistan Respublikası, Tacikistan Respublikası və Türkmənistan Respublikası; onlarla bərabər Moldova Respublikasından, Rumıniyadan və Türkiyədən xüsusi olaraq dəvət edilənlər də var. Bu ölkələrdən hər biri əsas yer tutur, sıx birləşmiş region kimi isə onların həm də Birləşmiş Ştatlar üçün xeyli strateji əhəmiyyəti var.

Regionda hadisələrin inkişafına müsbət təsir göstərmək üçün bizim nadir imkanımız var. ABŞ geniş zəminə söykənən fəal siyasət xəttini ləngimədən qəbul etməlidir. Vaxt amili başlıca əhəmiyyətə malikdir. Bu regionda digər amillər də öz təsirini göstərir və onlar həmin dövlətlərin sabitliyini pozmağa çalışırlar.

İpək Yolu üzərindəki Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri tarixi yol ayrıcındadırlar: onlar müstəqildirlər; müasir dünyanın əsas qüvvələrinin qovuşuğunda yerləşirlər; təbii ehtiyatlarla zəngindirlər və dövlət quruculuğu prosesindədirlər. Bu region xarici qüvvələrin getdikcə artan antiqərb və antidemokratik təzyiqinə məruz qalır və bu dövlətlər özlərinin inkişafında, müstəqilliyinin möhkəmləndirilməsində Birləşmiş Ştatlara tərəfdaş kimi baxırlar.

Aydındır ki, onları dəstəkləmək bizim xeyrimizədir. Bu ölkələr yer kürəsinin strateji hissəsində yerləşmişlər. Onlar İranın və digər ekstremist dövlətlərin antiqərb, davakar təməlçiliyinin və terrorizminin yayılmasının qarşısında əsas çəkindirici qüvvələrdən biridir. Onlar həm də kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizənin önündədirlər. Ən başlıcası isə, kommunizm ilə uzun mübarizədən sonra bu regionun qapıları açılıb ki, ABŞ şəxsiyyət hüququna təminat verəcək və dini dözümlülük də daxil olmaqla plüralist cəmiyyətlərin yüksəlməsi üçün şərait yaratmağa kömək edəcək təsisatları dəstəkləyə bilsin.



Bizim əsas məqsədimiz ondan ibarət olmalıdır ki, İpək Yolu dövlətlərinin müstəqilliyinin qorunub saxlanmasını, onların güclü, iqtisadi baxımdan yaşamaq qabiliyyətinə malik və siyasi baxımdan suveren ölkələrə çevrilməsini təmin edək.

Bu məqsədlərə çatmağın ən yaxşı üsulu regional əməkdaşlığı və tərəfdaşlığı dəstəkləməkdir. Bu ölkələr və ABŞ aşağıdakı ən vacib problemləri həll etmək üçün birgə işləməlidirlər: regional münaqişələr; müdafiə və sərhədlərin mühafizəsi məsələləri; etnik toqquşmalar; su və enerji təchizatı; infrastrukturun birgə inkişaf etdirilməsi; ekoloji təmizlik; ticarət sazişləri və s.

Belə əməkdaşlıq və qarşılıqlı asılılıq regionda uzunmüddətli sabitliyin və Şərq-Qərb əlaqələrinə möhkəm və uğurlu xarakter verməyin əsasıdır. Regionun uzunmüddətli müstəqilliyi bundan tamamilə asılı ola bilər.

İpək Yolu ölkələri ardıcıl surətdə müstəqil mövqe tutmuş və uğurlu dövlət quruculuğuna sadiq olduqlarını nümayiş etdirmişlər. Lap əvvəldən başlayaraq bizim buna kömək etməyə imkanımız var. Tam suverenlik istiqamətində tərəqqiyə şərait yaratmaq imkanımız var. Sülhsevər, açıq və suveren dövlətləri, iqtisadi çiçəklənməni və Qərblə qarşılıqlı surətdə faydalı əlaqələri dəstəkləməklə bu regionda gördüyümüz işlər bizim mənafeyimizə tamamilə uyğundur.

Bugünkü tədbirdə ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beyker və milli təhlükəsizlik üzrə keçmiş müşavir Zbiqnev Bjezinski[16], habelə Amerikanın bir neçə senatoru və konqresmeni də iştirak edirlər.

Çıxış üçün ABŞ-ın keçmiş Dövlət katibi Ceyms Beykerə söz verildi.

## ABŞ-ın keçmiş Dövlət katibi Ceyms Beykerin çıxışı



- İcazə verin, hər şeydən əvvəl, burada iştirak edən dövlət və hökumət başçılarını salamlayım, onlara öz hörmət və ehtiramımı bildirim. Əlbəttə ki, ABŞ Senatının üzvlərini də böyük məmnuniyyətlə salamlayıram. Mən hələ vaxtilə Dövlət katibi işləyərkən burada təmsil olunmuş rəsmi şəxslərin ölkələrinə həm maraqlı, həm də gərgin səfərlər etmişdim. Heç şişirtmədən deyə bilərəm ki, bu, iki dünyagörüşünün qarşıdurması dövrü idi.

1991-92-ci illərdə mən Mərkəzi Asiya və Qafqaza səfər etdim. Xatirinizdədirsə, o dövr yalnız region üçün deyil, eyni zamanda bütün dünya üçün qeyri-adi bir dövr idi. Bugünkü görüşdə elə şəxslər təmsil olunmuşlar ki, onlar bu döyüş səhnəsinin hər iki tərəfində pərdə arxasında fəal iştirakçı idilər.



Sovet İttifaqı qarşısıalınmaz dağılma dövrünü yaşayırdı. Bolşeviklərə Romanovlardan miras qalmış imperiya yoxa çıxmaq üzrə idi.

Bir vaxtlar Moskvanın hakimiyyəti altında olan ölkələr bu gün müstəqillik qazanmışlar. Onlara artıq öz müqəddəratını həll etmək azadlığı verilmişdir. Lakin dünənə qədər müəmmalı suallar hələ çox idi: Mərkəzi Asiya və Qafqaz ölkələri suverenlik qazana biləcəklərmi? Milli liderlər iqtisadi və siyasi təsisatlar yarada biləcəklərmi, bu iqtisadi və siyasi təsisatların əsasında demokratiya və inkişafı təmin edə biləcəklərmi? Regionların daxilində və xaricində olan münaqişələrdən qorunmaq vasitələri tapılacaqmı? Bu münaqişələrin sabitliyə təsirinin qarşısı alınacaqmı? Sizə deməliyəm ki, Mərkəzi Asiya və Qafqaz ölkələrinin hamısı bu təlatümlü dövrdən başucalığı ilə çıxmışlar, öz müstəqilliklərini məğrurcasına qoruyub saxlamışlar. Lakin müstəqilliyin çətinlikləri də çox olmuşdur.

Mərkəzi Asiya və Qafqaz regionunda iqtisadi islahatları ardıcıl surətdə aparmağa müvəffəq olmaq üçün dövlətlər arasında əlaqələr genişləndirilməlidir. Bu regionda daxili münaqişələr şəraitə mənfi təsir etdiyindən Mərkəzi Asiya və Qafqaz hazırda çox mürəkkəb bir regiondur. Hələ 1991-92-ci illərdə mən bu regiona gələrkən neft və qaz yataqlarının inkişaf etdirilməsi və onların böyük potensialı hədsiz səbirsizliklə gözlənilirdi. Lakin bu layihələrin reallığa çevrilməsi çox ləng həyata keçirilməyə başladı. Beynəlxalq enerji şirkətlərinin böyük marağına və sərmayələrinə baxmayaraq, yeni şəraitdə enerji ehtiyatlarını inkişaf etdirmək olduqca çətin oldu. Şirkətlər bu regionlarda maliyyə məhdudiyyətləri, həll olunmamış ərazi münaqişələri, daha sonra isə istehsal ediləcək enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması problemləri ilə üzləşdilər.

Lakin demək yerinə düşər ki, neft və qaz bu regionların yeganə sərvəti deyil. Bu regionda hədsiz təbii sərvətlərdən savayı, zəngin insan ehtiyatları mövcuddur. Ona görə də bir qədər əvvəl senator Braunbəkın dediyi kimi, Birləşmiş Ştatlar çox müdrik qərar qəbul edərək 1992-ci ildə regionun bütün ölkələrində öz səfirliklərini açdı.

Bu gün böyük əhəmiyyət kəsb edən karbohidrogen ehtiyatları bölgədə Birləşmiş Ştatların yeganə marağı deyildir. Böyük əhəmiyyət kəsb edən bir sıra digər məqamlar da vardır.

Narkotiklərə qarşı Birləşmiş Ştatların və region ölkələrinin birgə mübarizəsi, bu maddələrin daşınmasına yol verilməməsi, təhlükəli texnologiyanın ötürülməsinin qarşısının alınması və digər məsələlər üzrə Birləşmiş Ştatlarla Mərkəzi Asiya və Qafqaz regionu ölkələrinin mövqeyi üst-üstə düşür.

Lakin Birləşmiş Ştatların regionda ən fundamental marağı regionun sabitliyidir. Bütün dünyada olduğu kimi, bu regionda da sabitlik daxili təsisatların və xarici əlaqələrin güclənməsi sayəsində başa gəlir. Məhz bu əsasda sabitlik və

inkişaf əldə olunur. Bu baxımdan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı region ölkələrini həm Birləşmiş Ştatlara, həm də NATO üzvü olan digər ölkələrə yaxınlaşdırır. Region ölkələri prezidentlərinin hamısının burada təmsil olunması həmin ölkələrin Qərblə əlaqələrə nə qədər böyük əhəmiyyət verdiyinin nümunəsidir.

Lakin əlbəttə ki, təhlükəsizlik üzrə əməkdaşlıq bizim regionla bağlı planlarımızın birgə hissəsidir. Biz regionda münaqişələrin həll olunması, region ölkələrinin qlobal iqtisadiyyata inteqrasiyası, hər bir ölkənin qonşuları ilə əlaqələrinin möhkəmlənməsi, ölkədaxili iqtisadi və siyasi islahatlar sahəsində yardımımızı əsirgəməyəcəyik. Lakin bütün bu məqsədləri sadalamaq onlara nail olmaqdan daha asandır. Bu məqsədlərə region ölkələri ilə sıx əlaqələr vasitəsilə daha çox çata bilərik.

Mərkəzi Asiya və Qafqaz ölkələri sülh və tərəqqi şəraitində yaşamalıdırlar. İnanıram ki, gündəlikdə duran bu məsələni Amerika Birləşmiş Ştatları dəstəkləyir. Mən ümid edirəm ki, üzümüzə gələn illər bizim bu məqsədə çatmaq sahəsində gərgin iş illərimiz olacaq və bu illər ərzində bizim ölkə ilə Mərkəzi Asiya və Qafqaz ölkələri arasında əlaqələr daha da dərinləşəcəkdir. Sağ olun.

Sonra ABŞ Prezidentnin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski çıxış etdi.

## ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri Zbiqnev Bjezinskinin çıxışı



- Burada təmsil olunmuş 10 ölkənin hörmətli liderləri!

Hörmətli Braunbək, xanımlar və cənablar!

Uzun illər boyu Avrasiyanın nəhəng bir hissəsi vahid sistem idi. Sözün əsl mənasında qapalı sistem idi. Bu sistem mərkəzdən idarə olunurdu. Bu, münasibətlər, əlaqələr üzərində siyasi nəzarət sistemi idi. Bu nəhəng ərazidən qırağa çıxmaq mümkün deyildi. Yalnız mərkəzi yol var idi. Əlbəttə, bu böyük məkanda yerləşən müxtəlif ölkələr bir siyasi sistemin, mərkəzin nəzarəti altında idilər.

Bu gün biz həmin məkanda siyasi plüralizm reallığını görürük. Bu, irəliyə doğru nəhəng bir addımdır. Bu, həm keçmiş SSRİ,



həm də keçmiş sovet bloku ölkələrinin irəliyə doğru addımıdır və bu gün bizimlə görüşdə yalnız Mərkəzi Asiya və Qafqaz ölkələrinin deyil, Mərkəzi Avropa ölkələrinin nümayəndələri də iştirak edirlər. Bu, yeni siyasi reallıq-müstəqillik reallığı deməkdir. Çatışmayan cəhət dünyanın qalan hissəsi ilə müstəqil əlaqələrin, müstəqil münasibətlərin kifayət qədər yüksək səviyyədə olmamasıdır.

Regional əməkdaşlığı təmin etmək üçün ölkələrlə əlaqələri yüksək səviyyəyə qaldırmaq olduqca vacibdir. Əgər biz Mərkəzi Asiya və Qafqazı qlobal iqtisadiyyata inteqrasiya olmuş görmək istəyiriksə, əgər biz istəyiriksə ki, onlar Mərkəzi Avropa ilə birləşsinlər, onda açıq cəmiyyətlərə xas olan əlaqələr, hər şeydən əvvəl mədəni əlaqələr və ümumiyyətlə bütün normal əlaqələr inkişaf etdirilməlidir. Ona görə bizim burada irəli sürdüyümüz təşəbbüs yeni regionların yeni siyasi reallığının sabitliyi üçün vacibdir. Bu yalnız Avrasiyanın sabitliyi üçün deyil, həm də bizim özümüzün təhlükəsizliyimiz, bizim özümüzün tərəqqimiz üçün vacıbdir. Buna görə bizə Avrasiyanın sabit və müstəqil olması lazımdır. Bu region qlobal iqtisadiyyatda daha fəal, daha böyük, daha yüksək rol oynamalıdır.

Ona görə də burada sizinlə birgə olmaqdan çox məmnunam. Ona görə də senator Braunbəkın irəli sürdüyü bu təşəbbüsə böyük əhəmiyyət verirəm. Elə bilirəm, bu təşəbbüs regionda əməkdaşlıq üçün də yaxşıdır. Regional əməkdaşlıq dünyanın bu ərazisində sabitlik üçün əsas şərtdir. Bu qlobal sabitlik üçün yaxşıdır. Buna görə də gəlin bu təşəbbüsə öz birgə dəstəyimizi ifadə edək.

Diqqətinizə görə təşəkkür edirəm, sağ olun.



Sonra ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Semüel Bergerə söz verildi.

## ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Semüel Bergerin çıxışı

- Çox sağ olun, cənab senator, sağ olun ki, məni təqdim etdiniz. Bu qədər hörmətli liderlərin arasında olmaqdan olduqca məmnunam. Sevinc hisslərimi ifadə etmək çox çətindir. Biz senator Braunbəklə bu qrupu bir yerə yığmaq üçün çox işlər görmüşük. Xüsusilə son iki ildə çox işləmişik. Mən senator Braunbəkə əvvəllər də demişəm ki, bu, çox əhəmiyyətlidir, çünki burada eyni fikirli adamlar toplaşıblar. Bu region Birləşmiş Ştatlar üçün müstəs-

na əhəmiyyət kəsb edir. Buraya toplaşan liderlər öz ölkələrini dramatik dövrlərdən keçirib irəli aparmışlar. Hələ 23 əsr bundan əvvəl Qərb dünyası İpək yolunun nə dərəcədə əhəmiyyətli olmasını özü üçün kəşf etmişdir.

Hələ qədim zamanlarda Roma ilə Çin arasında ticarət əlaqələrinin aparıldığı bir dövrdə region ölkələri özlərinin kommersiya baxımından nə dərəcədə əhəmiyyətli olmalarını sübuta yetirmişlər. Bu gün regionun həm özü, həm də onun ərazisində yaşayan əhali Birləşmiş Ştatlar üçün olduqca vacibdir. Həm ABŞ hökumətinin, həm də qanunverici orqanın yüksək vəzifəli şəxslərinin bugünkü görüşün gedişini diqqətlə izləməsi də bunu sübut edir. Bu həftə Prezident Klinton senator Braunbəklə görüşmüşdür. Bu görüşdə Prezident senator Braunbəkə bu təşəbbüsə görə minnətdarlığını bildirmişdir və Mərkəzi Asiya və Qafqaz regionu ölkələri ilə Birləşmiş Ştatlar arasında əlaqələrin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinə görə təşəkkür etmişdir.

Doktor Bjezinskinin bir qədər əvvəl dediyi kimi, Prezident öz məktubunda qeyd etmişdir ki, Birləşmiş Ştatlar Mərkəzi Asiya və Qafqaz regionunun yeni müstəqillik qazanmış ölkələrinin tərəqqisində açıq-aydın maraqlıdır. İkincisi, burada təmsil olunmuş ölkələr müxtəlif mədəniyyətləri, müxtəlif həyat tərzlərini təmsil edirlər. Onların dilləri və dinləri müxtəlifdir. Lakin bütün İpək Yolu boyunca yerləşən ölkələrin əhalisinin vahid məqsədi vardır: sabitlik, tərəqqi, azadlıq. Əgər Birləşmiş Ştatlar onlarla birgə olarsa, o ölkələr həmin məqsədlərə daha tez çatarlar. Ona görə də biz fəal və tarazlı rolumuzu oynamaqda davam edəcəyik. Əgər biz Dağlıq Qarabağda, Abxaziyada, Tacikistanda sülh prosesini dəstəkləyiriksə, deməli, biz dözümlülük hissləri aşılayırıq, demokratik təsisatların yaranmasına kömək edirik. Deməli, biz demokratik dəyərlərin və bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün sabitliyin və təhlükəsizliyin təmin olunmasına çalışırıq. Həm ikitərəfli əlaqələr, həm çoxtərəfli əlaqələr vasitəsilə bütün bunların hamısını həyata keçirmək lazımdır.

Bu həftə "Sülh naminə tərəfdaşlıq" proqramı bu ölkələri Vaşinqtonda bir araya gətirmişdir. Belə proqramların sayı daha çox olmalıdır. Biz Konqreslə sıx işləyirik ki, regiondakı layihələr lazımınca maliyyələşdirilsin. Bu sahədə işimizdə bizə senator Braunbək kömək edir. Çalışmalıyıq ki, qeyri-səmərəli məhdudiyyətlərə son qoyulsun.

İstəyirəm ki, çıxışımı böyük əhəmiyyət kəsb edən bir məqamla tamamlayım. Biz inanırıq ki, Qafqaz və Mərkəzi Asiya ölkələrinin daxili əməkdaşlığı və eləcə də bu ölkələrin Birləşmiş Ştatlarla əməkdaşlığı bütün tərəflər üçün faydalı olacaqdır. Əgər biz sülh, çiçəklənmə və demokratiya üçün çalışırıqsa, heç kim unudulmamalıdır. Yalnız bu yolla ümumi məqsədimizə çata bilərik.

Senator Braunbəkə bir daha minnətdarlığımı bildirirəm.

Bu gün burada öz ölkələrini təmsil edən liderlər Vaşinqtona çox xoş gəliblər. Sabah bizi məhsuldar gün gözləyir. "Sülh naminə tərəfdaşlıq" proqramının sizlərə ehtiyacı vardır. Ümidvaram ki, biz məhsuldar işləyəcəyik. Çox şadam ki, sizin qarşınızda çıxış etdim. Sağ olun.



Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə söz verildi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli cənab senator Braunbək!

Hörmətli prezidentlər!

Xanımlar və cənablar!

Sizi ürəkdən salamlayıram və tarixi hadisə - Amerika Konqresində Böyük İpək yolu haqqında qanunun müzakirəsi münasibətilə təbrik edirəm.

Böyük İpək yolunun bərpası haqqında Amerika Konqresinin qanun qəbul etməsi üçün senator Braunbəkin təşəbbüsünü alqışlayıram.

Bu gün bizim Vaşinqtona, Amerika Konqresinə toplaşaraq, Avrasiya prosesi, bütün dünya birliyi üçün çox böyük əhəmiyyətə malik məsələni müzakirə etməyimiz tarixi hadisədir. Lakin bu məsələ bizim üçün tarixi İpək yolunun marşrutu üstündə bilavasitə yerləşən Avrasiya qitəsinin ölkələri üçün xüsusilə böyük əhəmiyyətə malikdir.

Senator Braunbəkə bu təşəbbüsə görə təşəkkür edirəm. Burada cənab Beykerin, cənab Bjezinskinin, cənab Bergerin çox dəyərli fikirlərini eşitmək mənə xoş idi. Bu çıxışlar tam inam yaradır ki, Böyük Tarixi İpək yolunun bərpasına dair təşəbbüs Amerika Konqresində dəstəklənəcək, qanun qəbul ediləcək və biz XXI əsrin əzəmətli layihəsinin həyata keçirilməsinin şahidləri olacağıq.

Azərbaycan Tarixi İpək yolunun mərkəzində yerləşir, bu layihənin həyata keçirilməsində mühüm məntəqədir. Biz bu təşəbbüsü həmişə alqışlamışıq, İpək yolunun problemləri ilə çoxdan məşğul oluruq və artıq xeyli iş görmüşük. Bir çox ölkələrlə və Amerika Birləşmiş Ştatlarının, Avropanın və digər ölkələrin bir çox neft şirkətləri ilə birgə işimiz konkret nəticələrə gətirib çıxarmışdır. Biz artıq Xəzər dənizinin zəngin neft ehtiyatlarını mənimsəyirik və onları çəkilmiş olan Bakı-Novorossiysk və Gürcüstanın Qara dəniz sahilinə gedən Bakı-Supsa neft kəmərləri ilə dünya bazarlarına ixrac etmək imkanına malikik. Biz gələcəkdə Xəzər dənizindən bol neftin ixracı üçün Azərbaycandan başlayıb Gürcüstan vasitəsilə Türkiyəyə, Aralıq dənizi sahilindəki Ceyhan limanına gedəcək Bakı-Ceyhan böyük neft kəməri[17] üzərində işləyirik.

Biz İpək yolu ilə, Transqafqaz magistralı ilə yük daşımaları layihələrinin həyata keçirilməsi üçün çox işlər görmüşük. Biz Transqafqaz dəhlizi yaratmışıq, bu marşrutla Şərqdən Qərbə və Qərbdən Şərqə yüklər daşınmasını həyata keçiririk.

Lakin bu, başlanğıcdır. Ötən ilin sentyabrında Bakıda Böyük İpək yolunun bərpasına dair TRASEKA proqramının həyata keçirilməsinə həsr edilmiş beynəlxalq konfrans olmuşdur. Bu konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişlər. Biz çox mühüm sənədlər qəbul etdik və bu sənədlər İpək yolu proqramının yerinə yetirilməsi üçün əsasdır. Ancaq

Amerika Konqresinin bu məsələ haqqında qanun qəbul etməsi həmin layihənin həyata keçirilməsində, şübhəsiz, son dərəcə mühüm rol oynayacaqdır.

Biz bu layihənin həyata keçirilməsini iqtisadiyyatımızın daha da inkişaf etməsi, müstəqilliyimizin möhkəmlənməsi, əziyyət çəkdiyimiz münaqişələrin aradan qaldırılması üçün bir vasitə kimi qiymətləndiririk. Qafqazdakı hərbi münaqişələr ölkələrimizə, Qafqazda sülhə və sabitliyə olduqca böyük ziyan vurur. Ümidvarıq ki, qanunun qəbul olunması, onun əməli surətdə həyata keçirilməsi münaqişələrin, o cümlədən Ermənistanla Azərbaycan arasında 10







ildən çox davam edən münaqişənin tamamilə aradan qaldırılmasında bizə kömək edəcəkdir. Bu münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, etnik təmizləmələr nəticəsində oradan bir milyon nəfərdən artıq azərbaycanlı köçürülmüşdür və indi onlar çox ağır şəraitdə, çadırlarda yaşayırlar.

Biz Ermənistanla Azərbaycan arasında münaqişənin dinclıklə nizama salınması üçün tədbirlər görürük. Biz bu tədbirləri bundan sonra da həyata keçirəcəyik. Ümidvaram ki, İpək yolu haqqında qanun qəbul olunması münaqişələrin, o cümlədən də bizim əziyyət çəkdiyimiz münaqişənin aradan qaldırılması üçün bütün tədbirlərin görülməsinə kömək edəcəkdir.

Sizin hamınıza uğurlar, sülh və sabitlik arzulayıram. Diqqətinizə görə sağ olun.

Azərbaycan Prezident Heydər Əliyevin çıxışı böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Sonra Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə söz verildi.

## Gürcüstan Prezidenti Eduard Şevardnadzenin çıxışı



- Cənab senator Braunbək, bu gözəl görüşün təşkilinə görə Sizə təşəkkür edirəm.

Mənim narazılığım yalnız onadır ki, Siz Amerika Konqresində belə ciddi reqlament qoymusunuz - dəqiqə yarım-iki dəqiqə vaxt verirsiniz. Özü də dünyanın ən demokratik ölkəsində. Amma hesab edirəm ki, dəqiqə yarım ərzində əsas məsələ barədə söz demək mümkün olacaqdır.

Mən xoşbəxtəm ki, öz dostlarım arasındayam. Bu, müasir dövrün siyasi xadimlərinin bir yerə cəmləşməsidir və onları çox böyük diqqətlə dinlədim. Mənə əvvəllər də onlarla dəfələrlə görüşmək, danışıqlar aparmaq xoşbəxtliyi nəsib olub, bu danışıqlar nəticəsində biz axır ki, "soyuq müharibə"yə son qoymuşuq.

Ancaq indi, dünyada baş verən dəyişikliklər nəticəsində keçmiş Sovet İttifaqının hər bir respublikasında yeni vəziyyət yaranmışdır. Burada doğru deyildi ki, biz müstəqil dövlətlərimizin qurulmasının sürətini artırmaq üçün yollar axtarırıq. Özü də təkcə müstəqil yox, həm də əsl demokratik dövlətlər qurmaq üçün. Mürəkkəb, çətin şəraitdə, münaqişələr, aclıq şəraitində bizim xalqlarımız hər halda yeganə düzgün yol - demokratik inkişaf yolu seçmişlər.

Böyük İpək yoluna gəldikdə isə, Avropa Birliyində TRASEKA adı altında meydana çıxmış bu layihənin indi ümumdünya miqyası kəsb etdiyini desəm, zənnimcə, mübaliğə olmaz. Artıq reallaşdırdığımız bu layihə, mən deyərdim ki, dövlətlərimiz üçün, o cümlədən Gürcüstan üçün müstəqilliyin maddi bazasına çevriləcəkdir.

Cənab senator, göstərdiyiniz səy və inadkarlığa, bu böyük ideyanı dəstəkləyən layihənizə görə Sizə çox minnətdaram.

Burada mənim dostlarım, prezident həmkarlarım iştirak edirlər. Onların deməyə sözü var, ancaq Sizin dediklərinizə bəzi şeyləri əlavə etmək istərdim. Böyük İpək yolu Mərkəzi Asiya, Qafqaz və hətta Balkan demək deyildir, daha genişdir. Böyük İpək yolu həm də Yaponiya deməkdir. Bu yaxınlarda Yaponiyada olmuşam və orada mənə hökumətin Böyük İpək yolunun inkişafına kömək edən proqramını göstərdilər. Mən Çində olmuşam, vaxtilə Böyük İpək yolu oradan başlanmışdır. Çin bu layihənin həyata keçirilməsinə çox ciddi qoşulmuşdur.

Mən Avropa Birliyinin bir çox təklifləri ilə tanışam. Böyük İpək yolu həm də Avropa deməkdir. Nəhayət, Böyük İpək yolu həm də Amerika Birləşmiş Ştatları deməkdir. Zəmanəmizin bu son dərəcə böyük layihəsini reallaşdırmaqla,



Amerika Birləşmiş Ştatları bizim müstəqilliyimizi və demokratik inkişaf yolumuzu dəstəkləyir.

Çox sağ olun.

Sonra görüşdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev çıxış etdi.

## Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin çıxışı



- Burada çıxış edənlərin hamısı kimi, mən də bu görüşün təşkilinə görə, onun gözəl ideyasına görə senator Braunbəkə təşəkkürümü bildirmək istəyirəm.

Demək istəyirəm ki, Mərkəzi Asiya və Qafqaz respublikalarının burada olan bütün nümayəndələri yəqin Sizi hərarətlə dəstəkləyəcək və Sizin bütün opponentlərinizdən problemlərimizə böyük rəğbətlə yanaşmağı xahiş edəcəklər.

Bütün yeni müstəqil dövlətlər qısa, tarixi yeddi il ərzində öz müstəqilliyinin möhkəmləndirilməsi sahəsində çox böyük yol keçmişlər. Köhnə dostum Ceyms Beykerin, cənab Bjezinskinin və cənab Bergerin bu gün dedikləri kimi, bu, müstəqilliyimizin möhkəmlənməsinə yönəldilibdir və bir insan kimi, bir dövlət başçısı kimi bizi narahat etməyə bilməz, xalqlarımızı narahat etməyə bilməz.

Məlum olduğu kimi, Xəzəryanı bölgə neft və qazla zəngindir. Əgər biz bu sərvətləri dünya bazarlarına çıxarsaq, bu, bütün dünya üçün yaxşı olacaqdır. Amma bu kiçik coğrafi bölgə bugünkü Balkan yarımadası kimi münaqişələr düyününə çevrilə bilər. Ümumi vəzifəmiz ondan ibarətdir ki, bu sərvətlər əməkdaşlığa gətirib çıxarsın, nəinki bizə, həm də dünyanın başqa ölkələrinə firavanlıq gətirsin. Buna görə də İpək yolu strategiyasının proqramı çox maraqlıdır.

Biz də əlimizi yanımıza salıb boş dayanmamışıq, biz də işləmişik. Müstəqilliyimiz illərində dəmir yolu Çin, Qazaxıstan, Özbəkistan, Türkmənistan, İran və Türkiyə vasitəsilə Qərbi Avropa ilə birləşmişdir. Bu, çox yaxşı faktdır. Biz İran körfəzi ilə birləşmişik. Yəni İpək yolu əslində dəmir yoluna çevrilmişdir. Bu qanunun qəbul edilməsində Amerika Birləşmiş Ştatları tərəfindən veriləcək dəstək də müstəqilliyimizi möhkəmləndirəcəkdir. Özü də təkcə müstəqilliyi deyil, eləcə də dövlətlərimiz arasında dostluğu möhkəmləndirəcəkdir, etimadı yüksəldəcəkdir. Buna görə də, cənab senator, bu təşəbbüs üçün Sizə təşəkkürümü bildirirəm. Mən bütün Konqresi buna çox ciddi yanaş-

mağa və bu qanunun qəbul olunmasına kömək etməyə çağırıram. Xalqlarımız Sizə çox minnətdar olarlar.

Çox sağ olun.

Sonra Moldova Prezidenti Petru Luçinski çıxış etdi.

## Moldova Prezidenti Petru Luçinskinin çıxışı

- Əvvəla, mən həmkarlarımın fikirlərini təkrar etməmək üçün onların dediklərinə qoşuluram. Çünki mən cəmi bir dəqiqə danışmalıyam.



Belə düşünürəm ki, biz hamımız 2000-ci ili, üçüncü minilliyi necə qarşılamaq sarıdan narahatlıq keçiririk. İpək yolu bəşəriyyətin nədən başladığına bir növ qayıdışdır. Bu yol quruculuq yoludur, çünki hamı birlikdə qurub-yaratmaq üçün bizim nə etməli olduğumuz barədə ideya ilə yaşayır.

Yeganə olaraq bunu istəyirəm ki, bu yola yeni şəraitdə verilmiş start üçüncü minilliyin yaxşı başlanğıcına çevrilsin.

Mən də bu təşəbbüsə görə senator Braunbekə təşəkkür edirəm və qəti əminəm ki, bu yol bizi daha çox birləşdirəcəkdir. Biz istəyirik ki, ölkələrimiz çiçəklənsin, onlar sülh şəraitində yaşasınlar. İpək yolu bunların hamısını birlikdə etmək üçün daha yaxşı nümunə və imkandır.

Arzu edirəm ki, bu startın yaxşı davamı olsun. Bu salonda olan ruh yüksəkliyi Konqresdə də, İpək yolunun keçdiyi ölkələrdən hər birinin yeni işlərində də davam etdirilsin.

Sağ olun.

Sonra Tacikistan Prezidenti İmoməli Rəhmonova söz verildi.

## Tacikistan Prezidenti İmoməli Rəhmonovun çıxışı

- Hörmətli görüş iştirakçıları!

Biz böyük məmnunluq hissi duyuruq ki, müstəqillik əldə etməklə Böyük İpək yolunun dirçəldilməsi kimi nəcib işə öz töhfəmizi verə bilərik.





Bütün dövrlərdə Tacikistanda heç kim bu yolun əzəmət və əhəmiyyətini heç zaman unutmayıbdır. Şərq ilə Qərb arasında bir növ canlı körpü rolunu məhz bu yol yerinə yetirmişdir. Orta əsrlərdə məhz bu yol sayəsində böyük sivilizasiyaların quruculuq dialoqu baş vermişdir.

Aydındır ki, internet və kosmik sürət əsrində bu yolun simasını şirniyyat və ipək parçalar yüklənmiş dəvələr müəyyən etməyəcəkdir. Lakin əminəm ki, başlıca məsələdə onun təyinatı, yəni bu coğrafi məkanda əsrlər boyu yaşamış dövlətlərin və xalqların əməkdaşlığı, iqtisadi və mədəni inkişafı işinə xidmət etmək təyinatı dəyişməz qalacaqdır. Bu vəzifəni biz yalnız öz müstəqilliyimizi möhkəmləndirdikdən, XX əsrin sonundakı təhlükəli halları qətiyyətlə dəf etdikdən sonra yerinə yetirmək olar.

Aradan qaldırılmamış münaqişələr, xüsusən Əfqanıstanda 20 illik müharibə, terrorizm, narkotik maddələrin qanunsuz dövriyyəsi, silah qaçaqmalçılığı - bütün bunlar yolumuz üstündə ciddi maneələrdir. Biz bunları yalnız səylərimizi birləşdirməklə dəf edə bilərik.

Müstəqillik, milli dirçəliş, yeni demokratik cəmiyyət quruculuğunda öz yolunu seçmək, iqtisadiyyatda bazar dəyişiklikləri, dünya birliyində öz yerini tapmaq səyi - bütün bunlar bizim qarşımızda sabit, ardıcıl inkişaf perspektivi açmışdır.

Sülh və sabitlik mənim xalqıma yeni qüvvət vermişdir. Qədim İpək yolunun tarixi xətti boyunca avtomobil və dəmir yolları çəkilir, sənaye müəssisələri və sosial obyektlər tikilir. Bu il biz transsərhəd magistralının inşasını başa çatdıracağıq, o, bizi dənizə çıxaracaqdır. Bununla da beş əsrdən sonra qədim yol boyunca insanların və xalqların ikitərəfli birbaşa ünsiyyəti bərpa ediləcəkdir. Ümidvaram ki, artıq yaxın perspektivdə bu yol ilə Qərbdən Şərqə və geriyə yüklərin yeni axınları başlayacaq, xalqlarımız isə bir-birini daha yaxşı başa düşəcəklər. Şübhəsiz ki, bütün bunlar regional təhlükəsizliyin və dövlətlərimiz arasında əməkdaşlığın möhkəmlənməsinə müsbət təsir göstərəcəkdir.

Biz dirçəldilməkdə olan Böyük İpək yolu boyunca iqtisadi və mədəni əlaqələrin inkişafına maraq göstərən sənayecə inkişaf etmiş dövlətlərin, o cümlədən Amerika Birləşmiş Ştatlarının kömək və dəstəyini alqışlayırıq. Tacikistanın qapıları bizə sülh məramı ilə, öz universal təcrübəsi, yeni minilliyə yönəldilmiş yeni texnologiyalar və biliklərlə gələnlərin hamısının üzünə açıqdır.

Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun, cənab senator.

Sonra Özbəkistan Prezidenti İslam Kərimova söz verildi.

### Özbəkistan Prezidenti İslam Kərimovun çıxışı

- Ən əvvəl, qısa olmaq üçün, bu görüşün təşkilinə görə, İpək yolunun strategiyası haqqında qanunun layihəsi barədə fikir söyləmək imkanına görə senator Braunbəkə və cənab Ceyms Beykerə minnətdarlığımı bildirmək istərdim.



Əvvəla, Özbəkistan adından həmkarlarımı dəstəkləmək istərdim. Belə ki, onlar bu layihəni dəstəklədiklərini, Birləşmiş Ştatlar Konqresinin layihəni qəbul etməsinə tərəfdar olduqlarını birmənalı şəkildə bildirdilər.

Mən senator Braunbəkə onun məqsədəyönlülüyünə görə, bu qanunun qəbul olunması üçün göstərdiyi böyük səylərə və verdiyi çox böyük töhfəyə görə təşəkkür etmək istərdim.

İkincisi, belə bir faktın özünün əhəmiyyətini xüsusi vurğulamaq istərdim ki, bu qanunu Amerika Birləşmiş Ştatlarının - bu gün bütün dünyanın böyük diqqətlə baxdığı ölkənin Konqresi qəbul edəcəkdir.

Qərb ilə Şərqi hələ iki min il bundan əvvəl birləşdirmiş olan Böyük İpək yolu müasir şəraitdə təkcə İpək yolu üstündəki ölkələri birləşdirdiyinə görə deyil, həm də ona görə xüsusi əhəmiyyət kəsb edir ki, - mən bunu son dərəcə mühüm sayıram, - bu əlaqə dünyanın ən qüdrətli ölkələrindən biri olan Birləşmiş Ştatların köməyi və dəstəyi ilə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Biz ölkələrimizdə iqtisadi və demokratik islahatlar siyasətinin uğurla aparılması, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi, iqtisadi əlaqələrin və kommunikasiya əlaqələrinin möhkəmlənməsi, neft və qazın nəqlinin etibarlı sisteminin yaradılması, Qərb ölkələrinin Mərkəzi Asiya və bütövlükdə Asiya bazarlarına çıxması və əksinə - region dövlətlərinin Qərb bazarlarına çıxması üçün Böyük İpək yolunu dirçəltməyin çox böyük əhəmiyyəti olduğunu gözəl başa düşürük.



Nəhayət, İpək yolunun dirçəldilməsi regiondaxili əlaqələrin, regionun ölkələri arasında əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmlənməsi və inkişafı üçün ən başlıca zəmindir.

Lakin bu fürsətdən istifadə edərək, diqqətinizi təkcə bu qanunun dəstəklənməsi ilə bağlı məsələlərə deyil, həm də bu layihənin həyata keçirilməsinin cəhətlərinə, daha doğrusu, bu layihənin reallaşdırılması yolunda yarana biləcək təhlükələrə yönəltmək istərdim.

Mən özümə sual verirəm: Böyük İpək yolunun dirçəldilməsi bu gün kimə sərfəli deyildir? Kim bu layihənin həyata keçirilməsinin əleyhinə çıxış edə bilər və ya çıxış edir? Belə düşünürəm ki, əgər biz bu sualların cavablarını dəqiq versək, onda sabah bu layihənin həyata keçirilməsi yolunda əngələ çevrilə biləcək qüvvələri zərərsizləşdirə bilərik.

Birincisi: Elə ölkələr var ki, onlar Mərkəzi Asiya və Qafqaz ölkələrinin yeraltı sərvətlərinin, ən əvvəl neft və qazının Qərb bazarına yeni, alternativ çıxış tapmasını istəmirlər. Sırr deyil ki, indi bu sahədə olan layihələrin, Qərb bazarlarına yeni çıxış yolları tapmaq səylərinin əleyhinə getməyə cəhdlər göstərilir. Artıq təşəkkül tapmış nəqliyyat-kommunikasiya əlaqələri bu ölkələri tamamilə qane edir və təbii ki, onlar yeni kommunikasiyalar yaradılmasını istəmirlər.

İkincisi: Qərb bazarlarına çıxmağı, inkişaf etmiş, demokratik ölkələrlə əlaqələri möhkəmlətməyi, Qərb sivilizasiyası ilə sıx inteqrasiyanı nəzərdə tutan İpək yolunun dirçəldilməsi əslində Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrini dini təməlçilik ekstremizminin yayıla bilən, nəzərə çarpdırıram, yayıla bilən ekspansiyasından qoruyacaqdır. Məhz buna görə, bu da təbiidir, bu ekspansiya ilə məşğul olan qüvvələr sabah bu layihənin həyata keçirilməsinə qarşı çıxacaqlar.

Üçüncüsü: Qeyd etmək istərdim ki, bu gün biz imperiya ambisiyalarının gücləndiyini, keçmiş sovet dövrlərinin həsrətində olmaq əhval-ruhiyyəsi sindromunun artdığını aşkar surətdə hiss edirik. Bu gün Mərkəzi Asiyada və Qafqazda öz mövqelərini möhkəmlətmək istəyi və səylərini məhz belə əhval-ruhiyyə gücləndirir. Biz məhz belə cəhdləri praktikada hiss edirik.

Axırıncısı: Qərb dünyası ilə kommunikasiya əlaqələrini möhkəmlətmək, Qərb demokratiyasının dəyərlərindən bəhrələnmək Asiya regionundakı bəzi iri ölkələrin - bu regionda uzunmüddətli strateji maraqları olan ölkələrin planlarına müəyyən dərəcədə zıddir. Bu isə öz növbəsində, gələcəkdə bu layihənin həyata keçirilməsinə, Böyük İpək yolunun dirçəldilməsinə müqavimət göstərmək üçün müəyyən cəhdlərə gətirib çıxara bilər.

Bu amillərin təsirinin əhəmiyyətini lazımınca qiymətləndirməmək olmaz. Lakin bu gün birmənalı şəkildə nəzərə çarpdırmaq istəyirəm ki, bizim mövqeyimiz - Özbəkistanın mövqeyi birmənalı olaraq belədir: biz bu layihəni müdafiə edirik və istəyirik ki, Birləşmiş Ştatların Konqresi onu dəstəkləsin. Layihə milli maraqlarımıza, Mərkəzi Asiyada, Cənubi Qafqazda yerləşən bütün

ölkələrin maraqlarına uyğundur. Buna görə də mən indi bu layihə üzərində işləyən bütün konqresmenlərə, habelə sabah onu dəstəkləyəcək konqresmenlərə minnətdaram.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Rumıniya Prezidenti Emil Konstantinesku çıxış etdi.

## Rumıniya Prezidenti Emil Konstantineskunun çıxışı



-Hörmətli prezident həmkarlarım!

Hörmətli xanımlar və cənablar!

Bu mühüm tədbirin iştirakçılarının hamısını salamlayıram və bildirirəm ki, Rumıniya Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun bərpası ideyasını qətiyyətlə dəstəkləyir. Bu ideyanın reallaşdırılması yeni müstəqillik qazanmış ölkələr üçün daha əhəmiyyətlidir. Belə ki, iqtisadi inkişaf bizim regionda yerləşən ölkələrdə dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar edilməsi istiqamətində görülən işlərə öz müsbət təsirini göstərəcəkdir. Dövlətlər arasında regional və qlobal əməkdaşlığın genişləndirilməsi sahəsində böyük dövlətlərin, ilk növbədə Amerika Birləşmiş Ştatlarının üzərinə böyük məsuliyyət düşür. Biz sizin fəal yardımınız sayəsində çoxsaylı problemlərimizi həll etməyə, dünya birliyində öz mövqelərimizi möhkəmləndirməyə çalışırıq.

Mən belə hesab edirəm ki, Mərkəzi Asiya, Qafqaz və Qərb ölkələrinin sıx əməkdaşlığı bütün dünyada sülhün, təhlükəsizliyin bərqərar olmasına, elmi-texniki tərəqqinin yüksəlməsinə əhəmiyyətli töhfə verəcəkdir. Bu yolda bütün ölkələrə uğurlar arzulayıram və ümid edirəm ki, gələcəkdə biz daha sıx əməkdaşlıq edəcəyik. Sağ olun.

Sonra Ermənistanın xarici işlər naziri Vartan Oskanyana söz verildi.



## Ermənistanın xarici işlər naziri Vartan Oskanyanın çıxışı

-Bizim hamımızın burada, NATO təntənələrində iştirak etməyimiz Birləşmiş Ştatlarının yeni müstəqillik qazanmış ölkələrlə qarşılıqlı əlaqələrinə və əməkdaşlığına dəlalət edir.

Biz Amerika Birləşmiş Ştatlarının ev sahibi rolu oynadığı NATO tədbirlərində böyük məmnuniyyətlə iştirak edirik. Bizi sabah maraqlı görüşlər gözləyir. Sabiq Dövlət katibi Beykerin qeyd etdiyi kimi, neft amili ilə yanaşı, bir sıra dəyərlər də vardır ki, onlar gələcəkdə mühüm rol oynayacaqdır. Cənab Beykerin qeyd etdiyi kimi, bu regionda heç kim unudulmamalı, heç kim arxa plana çəkilməməlidir. Biz ümid edirik ki, regionda Amerikanın liderliyi, aparıcı rolu davam etdiriləcəkdir.

Bizi buraya dəvət etdiyinizə görə çox sağ olun. Ümid edirəm ki, gələcəkdə əməkdaşlığımız bundan da uğurlu olacaqdır. Sizə bir daha minnətdarlığımı bildirirəm. Diqqətinizə görə sağ olun.

Sonra Qırğızıstanın xarici işlər naziri Muratbəy İmanəliyevə söz verildi.

## Qırğızıstanın xarici işlər naziri Muratbəy İmanəliyevin çıxışı



- Əziz prezidentlər!

Xanımlar və cənablar!

Ən əvvəl, icazə verin, mənə həvalə edilmiş xoş bir tapşırığı yerinə yetirərək, İpək yolu layihəsinə görə senator Braunbəkə Prezident Əsgər Akayevin səmimi təşəkkür və minnətdarlığını çatdırım.

Dərk etmək fərəhlidir ki, senator Braunbəkin irəli sürdüyü ideyalar ümumiyyətlə Böyük İpək yolu zonasında irəli sürülən, o cümlədən bizim yeni müstəqil dövlətlərimiz tərəfindən irəli sürülən təşəbbüslərlə ahəngdar səslənir və bir çox cəhətdən onlara uyğun gəlir.

İpək yolunun dirçəldilməsi nəqliyyat və rabitə infrastrukturunun formalaşdırılması, açıq cəmiyyətlər və dinamik inkişaf edən iqtisadiyyatlar yaradılması deməkdir. Bununla bərabər qeyd etmək istərdim ki, bu həm də geniş beynəlxalq dəstək sayəsində, ən əvvəl Birləşmiş Ştatlar tərəfindən dəstək sayəsində demokratik

təsisatların formalaşdırılması, ölkələrimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi deməkdir.

Demək istərdim ki, bizim başa düşdüyümüz kimi, Böyük İpək yolunun dirçəldilməsi yeni müstəqil dövlətlərin beynəlxalq birliyə ən təbii şəkildə inteqrasiyası üçün daha bir geniş və çox ciddi imkandır.

Biz əminik ki, İpək yolunun dirçəldilməsi Böyük İpək yolunun bütün zolağı boyunca terrorizm əleyhinə, ekstremizm əleyhinə və münaqişə əleyhinə şüarlarla həyata keçiriləcəkdir.

Cənab Braunbəkə bir daha uğurlar arzulayıram.

Çox sağ olun.

Sonra Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradov çıxış etdi.

## Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradovun çıxışı

- Hörmətli cənab Braunbək!

Zati-aliləri!

Hər şeydən əvvəl, NATO-nun 50 illiyi münasibətilə şənliklərdə və bu gün Konqresdə təşkil olunmuş tədbirdə iştirak etmək üçün verilmiş imkana görə Amerikaya təşəkkürümü bildirmək istəyirəm.

Öz Prezidentimi təmsil edərək demək istəyirəm ki, Türkmənistan İpək yolunun mühümlüyünü və perspektivliyini tamamilə başa düşür və biz bunu nəinki yol, həm də sülh naminə tərəfdaşlıq fəlsəfəsi hesab edirik.

Mən öz qısa çıxışımı bununla bitirmək istərdim.

Xüsusi rəğbət bəslədiyimiz adamların burada olmasından istifadə edərək demək istəyirəm ki, Amerikanın diqqətini regionumuza yönəltmək üçün daim göstərdiyi səylərinə görə biz senator Braunbəkə minnətdarıq. Cənab Beykerə təşəkkür etmək istəyirəm ki, o, birinci olaraq bizim regionu Amerika üçün və Amerikanı bizim üçün açmışdır. Cənab Bergerə təşəkkür etmək istəyirəm ki, bu gün biz ikitərəfli səviyyədə uğurla işləyirik, bir çox məsələləri həll edirik. Cənab







Bjezinskiyə təşəkkür etmək istəyirəm ki, o, bizim başımıza dünən nələr gəldiyi və sabah nələr gələcəyi barədə həmişəki kimi yenə də doğru və daha yaxşı danışdı.

Sağ olun.

Sonra Türkiyə Prezidenti Süleyman Dəmirəl çıxış etdi.

## Türkiyə Prezidenti Süleyman Dəmirəlin çıxışı

- Çox hörmətli Prezident həmkarlarım - Prezident Əliyev, Prezident Şevardnadze, Prezident Kərimov, Prezident Nazarbayev, Prezident Konstantinesku, Prezident Luçinski, Prezident Rəhmonov və keçmiş Dövlət katibi Beyker, senator Braunbək, cənab Berger, doktor Bjezinski, cənab Skoukroft[18]!

Sizin hamınızı təbrik edirəm!

Cənab senator, bu qədər prezidenti bir araya toplaya bildiyinizə görə Sizə afərin deyirəm.

Çox şadam ki, İpək yolu ölkələrinin toplantısında iştirak edirəm. Məlumdur ki, Qara dəniz və Xəzər hövzəsinin qədim tarixi vardır. Müxtəlif dillərə, müxtəlif mədəniyyətlərə malik bu xalqlar müxtəlif sivilizasiyaların kəsişdiyi bu coğrafi-strateji ərazidə yaşayırlar. Bu ərazidə onlar özlərindən Şərq və Qərbdə yerləşən ölkələr arasında mühüm əlaqə yaratmışlar. Bu ölkələr Çin və Aralıq dənizi hövzəsi ölkələrində yaşayan xalqlar arasında əlaqələndirici rolunu oynayırlar.

SSRİ dağıldıqdan sonra ölkələrin üzünə yeni imkanlar açılmışdır. Mədəni və siyasi əlaqələrin möhkəmlənməsi ölkələr arasında əməkdaşlığın dirçəlməsinə xidmət edəcəkdir. Bu, yalnız region ölkələri arasında əlaqələr yox, Avropa və Asiya arasındakı əlaqələrdir.

SSRİ dağıldıqdan sonra Avrasiya yeni dövrünü yaşayır. Avrasiya SSRİ dağılandan sonra bu məkana verilən yeni addır. Mən elə bilirəm ki, bu ərazi gələcəkdə əvvəlkindən daha yaxşı inkişaf edəcəkdir.

Keçən il Bakıda imzalanmış dövlətlərarası sazişə görə biz nəqliyyatın hüquqi və tənzimləyici əsasları üzərində ciddi işləyirik. Bu, İpək yolu strategiyasının əsas ünsürlərindəndir. Türkiyə əvvəllər olduğu kimi, qitələr arasında əsas körpü rolunu oynayır. Elə bu məqsədlə də biz bir sıra layihələrin təşəbbüskarı kimi



çıxış etmiş və onları regional əməkdaşlıq səviyyəsinədək inkişaf etdirmişik. Ümidvarıq ki, bu layihələr Qədim İpək yolunun bərpasına öz töhfəsini verəcəkdir.

TRASEKA çərçivəsində Şərqdən Qara dənizə çəkiləcək yol Türkiyə ərazisindən də keçəcəkdir. Bu yol Panavropa magistral yolunu TRASEKA proqramı çərçivəsində çəkiləcək yol ilə birləşdirəcəkdir. Bizim Qars-Tbilisi dəmir yolu, İstanbuldan Qərbə doğru uzanan magistral yolun Panavropa yol şəbəkəsinə qoşulması ümumi proqramımızın tərkib hissəsidir. Bu layihələr Qara dəniz hövzəsinin Panavropa yollar şəbəkəsinə daxil olmasının mühüm hissəsidir. Bu yol şəbəkəsinin Şərqə doğru uzanmasını Qafqazdan Asiyaya çəkiləcək yol təmin edəcəkdir.

Enerji nəqli üzrə yeni layihələr də ümumi layihələrin bir hissəsidir. Bakı-Ceyhan neft nəqli layihəsi və Transxəzər qaz kəməri layihəsi nəzərdə tutulmuşdur ki, bunlar da ümumi layihələrin bir hissəsidir. Biz bu gün birlikdə çalışırıq ki, bu layihələr vasitəsilə ölkələrimizin tərəqqisini təmin edək. Bizim ümumi səylərimizə Amerika Birləşmiş Ştatlarının dəstəyinin davam etdirilməsi çox əhəmiyyətlidir.

Yeri gəlmişkən, Birləşmiş Ştatların səyləri haqqında cənab Beyker və cənab senator Braunbək ətraflı məlumat verdilər. Bu gün imzalanacaq bəyannamə Qədim İpək yolunun canlanması istiqamətində daha mühüm bir addım olacaqdır. Yeni yüzilliyin və yeni minilliyin ərəfəsində İpək yolunun bərpası, canlanması sülhə və tərəqqiyə xidmət edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

Axırda senator Sem Braunbək dövlət başçılarına və görüşün digər iştirakçılarına təşəkkürünü bildirdi, bu görüşdən xatirə olaraq prezidentlərə hədiyyələr təqdim etdi.

Sonra görüşdə İpək yolu haqqında birgə bəyannamə qəbul edildi.

Görüş iştirakçıları xatirə şəkli çəkdirdilər.

# GUÖAM HÜDUDLARINI GENİŞLƏNDİRİR



## GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Özbəkistanın Vaşinqtondakı səfirliyinə gəldi.

Respublikamızın rəhbəri Heydər Əliyevi səfirliyin binası önündə Özbəkistan Prezidenti İslam Kərimov böyük hörmət və mehribanlıqla qarşıladı. Milli paltar geymiş özbək qızı dövlətimizin başçısına gül dəstəsi təqdim etdi.

GUAM[19] təşkilatının üzvü olan digər ölkələrin prezidentləri də səfirliyə gəldilər.

Burada dövlət başçılarının yüksək səviyyəli görüşü oldu. Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev, Ukrayna Prezidenti Leonid Kuçma, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Moldova Prezidenti Petru Luçinski və Özbəkistan Prezidenti İslam Kərimov iştirak edirdilər.

Özbəkistan GUAM təşkilatına üzv qəbul olundu. GUAM bundan sonra GUÖAM adlandırıldı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev görüşdə iştirak edən dövlət başçılarının yekdil rəyi ilə GUÖAM-ın hazırkı sədri seçildi.





Görüşə sədrlik edən Prezident Heydər Əliyev təşkilata daxil olan ölkələrin prezidentlərini səmimi salamlayaraq, Özbəkistanın GUAM-a üzv qəbul olunmasını məmnuniyyətlə qeyd etdi. Respublikamızın başçısı əsası 1997-ci ildə Strasburqda qoyulmuş bu təşkilatın genişlənməsindən razılıq hissini ifadə etdi və sözü Özbəkistan Prezidenti İslam Kərimova verdi.

Özbəkistan Prezidenti İslam Kərimov öz ölkəsinin bu təşkilata üzv qəbul edildiyinə görə təşəkkürünü bildirdi və GUÖAM-ın məqsəd və vəzifələrinin Özbəkistanın milli maraqlarına uyğun gəldiyini qeyd etdi. Özbəkistan Prezidenti ötən ilin sentyabrında dünyanın bir sıra ölkələrinin dövlət başçılarının, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Böyük İpək yolunun bərpası üzrə Bakıda keçirilmiş beynəlxalq konfransı xatırlayaraq, Transqafqaz magistralının inkişafında bu toplantının əhəmiyyətini xüsusi vurğuladı.

İslam Kərimov Böyük İpək yolunun və Transqafqaz magistralının əhəmiyyətindən danışaraq dedi ki, bu magistral Orta Asiya, Qafqaz, Moldova və Ukraynanın iqtisadi potensialından, enerji ehtiyatlarından səmərəli istifadə üçün əlverişli imkanlar yaradır və region ölkələrini birləşdirən bu iqtisadi ittifaqın böyük perspektivləri vardır. Özbəkistan rəhbəri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində bu layihənin sürətlə həyata keçirildiyini və böyük gələcəyi olduğunu bildirdi.

Ukrayna Prezidenti Leonid Kuçma öz çıxışında Mərkəzi Asiya və Qafqaz ölkələri ilə sıx iqtisadi əməkdaşlığı təmin edən bu təşkilatda iştirak etməyə Ukraynanın böyük marağı olduğunu vurğulayaraq, təşkilatın regionda təhlükəsizliyinin təmin olunmasına da xidmət etdiyini bildirdi. Ukrayna Prezidenti dedi ki, GUAM ötən dövr ərzində özünün həyat qabiliyyətinə malik olduğunu təsdiq etmişdir.

Görüş iştirakçılarını salamlayan Moldova Prezidenti Petru Luçinski bu təşkilata Moldovanın böyük əhəmiyyət verdiyini, GUÖAM-ın açıq təşkilat olduğunu bildirərək dedi ki, təşkilatın bir çox layihələri, o cümlədən beynəlxalq təşkilatlarla humanitar sahədə - təhsil və mədəniyyət sahəsində birgə iştiraka dair layihələri vardır. Üç ölkədə münaqişələr hökm sürdüyünü təəssüflə qeyd edən Moldova Prezidenti bu münaqişələrin tezliklə aradan qaldırılması üçün bütün mövcud imkanlardan istifadə olunmasının zəruriliyini bildirdi. Luçinski əmin olduğunu vurğuladı ki, GUÖAM beynəlxalq aləmdə nüfuzlu qüvvəyə malik cəlbedici təşkilat olacaqdır.

Daha sonra çıxış edən Gürcüstan Prezidenti Eduard Şevardnadze görüş iştirakçılarını salamlayaraq dedi ki, Transqafqaz magistralı təşkilatın üzvü olan bütün dövlətlərin səylərini birləşdirmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin böyük xidmətləri sayəsində bu magistralın fəaliyyətə başlamasından razılıq hissi ilə danışan Prezident Şevardnadze Bakı-Supsa neft kəmərinin, Supsa terminalının açılışı barədə ətraflı söhbət açdı. Gürcüstan Prezidenti bu magistralın böyük imkanlara malik olduğunu qeyd edərək, hazırkı görüşün əhəmiyyətini xüsusi vurğuladı.





Görüşdə yekun sözü ilə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev iştirakçılara müraciət edərək bugünkü görüşün əhəmiyyətini və zəruriliyini bir daha bildirdi və Özbəkistan Prezidenti İslam Kərimovu onun ölkəsinin GUÖAM-a daxil olması münasibətilə təbrik etdi.

Bu təşkilatın çətin bir proses keçdiyini qeyd edən dövlətimizin başçısı dedi ki, GUÖAM-ın əhəmiyyətinə və zəruriliyinə inam bütün çətinlikləri və maneələri dəf etməyə imkan verir. Transqafqaz magistralının fəaliyyətə başladığından, son dərəcə qısa bir vaxt ərzində Bakı-Supsa boru xəttinin inşa edildiyindən, bu kəmərlə neftin ixracından razılıqla danışan Prezident Heydər Əliyev Xəzərin neft yataqlarının işlənilməsindəki uğurlardan, Bakı-Ceyhan əsas boru kəməri layihəsinin tezliklə həyata keçirilməsi üçün görülən işlərdən danışdı. Respublikamızın başçısı GUÖAM təşkilatının Transqafqaz magistralı və Qərb-Şərq, Şərq-Qərb marşrutu üzrə səmərəli iqtisadi əməkdaşlıq üçün əlverişli şərait yaratdığını bildirərək, bu təşkilatın regionda sülh və təhlükəsizliyin təmin edilməsində rolunu, onun daha da genişlənəcəyinə əmin olduğunu nəzərə çarpdırdı və görüş iştirakçıları adından birgə bəyannamə imzalanmasını zəruri hesab etdi.

Görüşdə GUÖAM-ın icraçı orqanının yaradılması lüzumu qeyd olundu və bir sıra məsələlər müzakirə edildi.

Görüşün sonunda GUÖAM ölkələrinin prezidentləri birgə bəyanat imzaladılar.

Sonra Azərbaycanın, Gürcüstanın, Ukraynanın, Özbəkistanın və Moldovanın prezidentləri birgə xatirə şəkli çəkdirdilər.

Görüş başa çatdıqdan sonra dövlətimizin başçısı, GUÖAM-ın hazırkı sədri Heydər Əliyev iştirakçılar adından kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında bəyanatla çıxış etdi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

- Hörmətli xanımlar və cənablar!

Bu gün burada, Vaşinqtonda, Özbəkistan səfirliyində GUAM təşkilatına daxil olan ölkələrin dövlət başçılarının görüşü keçirildi. Mühüm hadisə baş vermişdir - bizim təşkilatımız Özbəkistanı böyük məmnuniyyətlə öz üzvlüyünə qəbul etmişdir. Özbəkistanın bizim təşkilatın üzvü olması münasibətilə mən prezidentlər adından Özbəkistanı və onun Prezidenti İslam Kərimovu təbrik edirəm.

Biz təşkilatımızın keçən vaxt ərzindəki fəaliyyətini müzakirə etdik və təsdiq etdik ki, ötən müddət təşkilatın zəruriliyini və həyat qabiliyyətinə malik olduğunu göstərmişdir. Təşkilat hər şeydən öncə coğrafi prinsipə əsaslanır, ona





daxil olan ölkələrin iqtisadi əməkdaşlığı və daha çox Transqafqaz magistralı vasitəsilə əməkdaşlığı məqsədlərinə xidmət edir. Transqafqaz magistralından ölkələrimizin iqtisadi mənafeləri naminə istifadə etmək üçün ötən vaxt ərzində çox iş görülmüşdür. Məsələn, ötən ilin sentyabrında Bakıda keçirilmiş beynəlxalq konfrans Böyük İpək yolunun gələcək inkişafının, TASİS proqramının reallaşdırılmasının əsas prinsiplərini işləyib hazırlamışdır.

Xəzər dənizindən çıxarılan Azərbaycan neftinin ixracı üçün bu yaxınlarda istismara buraxılmış Bakı-Supsa neft kəməri artıq işləyir. Aprelin 17-də Poti-İliçovsk dəmir yolu bərə keçidinin təntənəli açılışı olmuşdur və o, Transqafqaz magistralının imkanlarını genişləndirir. Bunlar hamısı bizim təşkilatımızın real nailiyyətləridir. Ancaq eyni zamanda bunlar yaxşı perspektivdən xəbər verir.

Biz inanırıq ki, təşkilatımız ölkələrimizin mənafeyinə xidmət edir. Biz inanırıq ki, təşkilatımız təkcə onun üzvlərinin deyil, ötən ilin sentyabrında Bakıda konfransa toplaşan 30-dan çox ölkənin də maraq göstərdiyi Böyük İpək yolunun bərpasına fəal surətdə kömək edəcəkdir. Bax, bu hisslərlə də biz öz görüşümüzü başa çatdırdıq. Biz təşkilatımızın icraçı katibliyinin yaradılması haqqında razılığa gəldik. Diqqətinizə görə sağ olun.

Daha sonra səfirlikdə Azərbaycanın, Gürcüstanın, Ukraynanın, Özbəkistanın və Moldovanın dövlət başçılarının şərəfinə rəsmi nahar verildi.

# ƏMƏKDAŞLIQ NAMİNƏ





## Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Fransa Prezidenti Jak Şirak ilə görüşdü.

Heydər Əliyevi NATO-nun sammitində görməkdən məmnunluq duyduğunu qeyd edən Prezident Jak Şirak Azərbaycan Prezidenti ilə yenidən görüşməyinə şad olduğunu bildirdi.

Prezident Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məqsədi ilə yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın bu sahədə səylərinə böyük ümidlər bəslədiyini vurğuladı, bu



münasibətlə 1999-cu ilin fevral ayında Fransa Prezidentinə göndərdiyi məktuba aldığı cavaba görə Jak Şiraka təşəkkürünü bildirdi. O, Minsk qrupu həmsədrlərinin "ümumi dövlət" barədə təkliflərinin Azərbaycan üçün qəbuledilməz olduğunu qeyd etdi. Azərbaycan Prezidenti Minsk qrupu həmsədrlərinin öz fəaliyyətlərini daha da genişləndirməsini arzuladığını nəzərə çarpdırdı.

Prezident Jak Şirak münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunda Fransanın bundan sonra da fəal rol oynayacağını bildirdi. O, təəssüflə dedi ki, keçən il sülh əldə edilməsinin çox yaxın olmasına baxmayaraq, Prezident Ter-Petrosyanın istefa verməsi Minsk prosesində fasilə yaratdı. Lakin o, ümidvar olduğunu bildirdi ki, Minsk qrupunun həmsədrləri tərəfləri razı sala bilən və bölgədə tam sülhün bərqərar olunmasına yol açan yeni təşəbbüslər göstərəcəklər. Prezident Jak Şirak bu məqsədə nail olmaq üçün öz səylərini artıracağını bildirdi.

Görüşdə Fransa-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi və dərinləşdirilməsi məsələləri nəzərdən keçirildi. Prezidentlər bir sıra beynəlxalq və regional problemlər barədə də ətraflı fikir mübadiləsi apardılar.

Görüş dostluq və qarşılıqlı anlaşma ruhunda keçdi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Norveç Krallığının Baş naziri Kyel Maqne Bondevik ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Norveç Krallığının Baş naziri Kyel Maqne Bondevik ilə görüşdü.



Dövlətimizin başçısı Heydər Əliyevi səmimi salamlayan cənab Bondevik dedi ki, Norveç iqtisadi cəhətdən zəngin və mühüm coğrafi-siyasi mövqeyə malik olan Azərbaycan ilə hərtərəfli əməkdaşlığa böyük maraq göstərir. Norveçin "Statoyl"[20], "Kverner" və başqa şirkətlərinin Azərbaycanla sıx əməkdaşlıq etdiyini bildirən Baş nazir bu iş birliyinin daha da inkişaf etdirilməsi və genişləndirilməsi lüzumunu vurğuladı. Daha sonra Baş nazir Bondevik Azərbaycandakı vəziyyət və iqtisadi islahatların gedişi ilə maraqlandı.

Azərbaycan Prezidenti Heydər Əliyev ölkəmiz haqqında xoş sözlərinə görə, əməkdaşlığa hazır olduğuna və böyük maraq göstərdiyinə görə Norveçin Baş nazirinə təşəkkürünü bildirdi. Prezident Heydər Əliyev Norveçə səfərini razılıq hissi ilə xatırladı. Azərbaycanın müstəqillik yolu ilə inamla irəlilədiyini nəzərə çarpdıran respublikamızın rəhbəri ölkəmizin müstəqilliyə sadiqliyini, dünyanın bütün ölkələri ilə əlaqələrin genişləndirilməsinə marağını vurğuladı. Ölkəmizdə həyata keçirilən bazar islahatlarının gedişi barədə söhbət açan Prezident Heydər Əliyev iqtisadi islahatlar sahəsində, o cümlədən enerji ehtiyatlarının hasilatında və nəqlində qazanılmış uğurları yüksək qiymətləndirdi. 1994-cü ildə imzalanmış və Norveçin "Statoyl" şirkətinin də iştirak etdiyi "Əsrin müqaviləsi"nə əsasən ilk neftin artıq dünya bazarlarına çıxarıldığını məmnuniyyətlə bildirən Azərbaycan Prezidenti 1999-cu il aprelin 17-də Bakı-Supsa neft kəmərinin açıldığını razılıq hissi ilə nəzərə çarpdırdı və neft müqavilələrinin böyük gələcəyi olduğunu söylədi.

Ölkəmizdə bazar iqtisadiyyatı islahatlarının gedişindən söhbət açan Prezident Heydər Əliyev özəlləşdirmə proqramının həyata keçirildiyini, respublika iqtisadiyyatının xeyli canlandığını qeyd etdi.

Prezident Heydər Əliyev demokratik, hüquqi cəmiyyət quran Azərbaycanın problemlərinə toxunaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 10 ildən bəri davam etdiyini, Azərbaycan torpaqlarının 20 faizə qədərinin Ermənistan tərəfindən işğal olunduğunu, erməni təcavüzü nəticəsində bir milyondan çox soydaşımızın öz ev-eşiyini tərk edərək qaçqın, məcburi köçkün vəziyyətində yaşadığını bildirdi. Atəşkəs rejiminin 5 ildən bəri davam etdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev münaqişənin hələ də tam aradan qaldırılmadığını təəssüf hissi ilə vurğuladı. Azərbaycanın bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu nəzərə çarpdıran ölkəmizin rəhbəri ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə münaqişənin aradan qaldırılması prinsiplərinin müəyyən edildiyini xatırladaraq, bu sammitdən sonra ABŞ-ın, Fransanın və Rusiyanın Minsk qrupuna həmsədrlik etdiklərini bildirdi. Atət-in hazırkı sədrinin Norveçin xarici işlər naziri olduğunu nəzərə çarpdıran Prezident Heydər Əliyev münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in hazırkı sədri tərəfindən daha təsirli tədbirlər görüləcəyinə ümidvar olduğunu söylədi.



Geniş və maraqlı söhbətə görə Azərbaycan Prezidentinə səmimi təşəkkürünü bildirən Baş nazir Bondevik öz ölkəsinin Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində və dərinləşdirilməsində böyük marağı olduğunu xüsusi vurğuladı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in hazırkı sədri kimi Norveçin öz səylərini artıracağına əmin olduğunu bildirdi və Minsk qrupu həmsədrlərinin işinin xeyli fəallaşdırılması lüzumunu qeyd etdi.

Dostluq və mehribanlıq şəraitində keçən görüş zamanı ikitərəfli münasibətlərə və beynəlxalq problemlərə dair bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti Heydər Əliyev Norveç Krallığının Baş naziri Kyel Maqne Bondeviki Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Bolqarıstan Prezidenti Petr Stoyanov ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Bolqarıstan Prezidenti Petr Stoyanov ilə görüşdü.



Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Petar Stoyanov hər dəfə Heydər Əliyev ilə keçirdiyi görüşlərdən çox məmnun olduğunu bildirdi.

Söhbət zamanı hər iki ölkənin mənafeyinə uyğun, qarşılıqlı surətdə faydalı əməkdaşlığın perspektivlərini nəzərdən keçirən Prezidentlər Azərbaycan-Bolqarıstan əlaqələrinin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinin zəruriliyini xüsusi vurğuladılar.

Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə 1998-ci ilin sentyabrında Bakıda keçirilmiş beynəlxalq konfransda iştirakını məmnuniyyətlə xatırlayan Bolqarıstan Prezidenti Böyük İpək yolunun bərpası sahəsində respublikamızın Prezidenti Heydər Əliyevin səylərini və bu sahədə görülmüş işləri çox yüksək qiymətləndirdiyini bildirdi.

Səmimilik şəraitində keçən görüşdə dövlət başçıları bir sıra regional və beynəlxalq problemlərə dair geniş fikir mübadiləsi apardılar.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Polşa Prezidenti Aleksandr Kvasnevski ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Polşa Prezidenti Aleksandr Kvasnevski ilə görüşdü.

Respublikamızın başçısını səmimiyyətlə salamlayan Aleksandr Kvasnevski Heydər Əliyev ilə bundan əvvəlki görüşlərini də məmnunluq hissi ilə xatırladığını bildirdi.

Polşa ilə ölkəmiz arasındakı münasibətlərə və əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Azərbaycan Prezidenti xalqlarımızın rifahı naminə qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi lüzumunu qeyd etdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasından narahatlığını bildirən Polşa Prezidenti ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin tezliklə aradan qaldırılması üçün səylərin gücləndirilməsi zəruriliyini vurğuladı.

Səmimilik şəraitində keçən görüşdə dövlət başçıları hazırkı dövrdə meydana çıxan bir sıra regional və beynəlxalq problemləri ətraflı nəzərdən keçirdilər.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Belçikanın Baş naziri Jan Lük Dean ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Belçikanın Baş naziri Jan Lük Dean ilə görüşdü.





Dövlətimizin başçısı ilə səmimiyyətlə salamlaşan Jan Lük Dean 1998-ci ilin aprel ayında Bakıya səfərini və Prezident Heydər Əliyev ilə görüşlərini böyük razılıq hissi ilə xatırladığını bildirdi.

Azərbaycan-Belçika münasibətlərinin inkişafı və dərinləşdirilməsinin zəruriliyini qeyd edən görüş iştirakçıları ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olan qarşılıqlı surətdə faydalı əməkdaşlıq məsələlərini ətraflı nəzərdən keçirdilər.

Səmimilik şəraitində keçən görüşdə Prezident Heydər Əliyev və Baş nazir Jan Lük Dean hər iki tərəf üçün maraq doğuran beynəlxalq problemlər barəsində qarşılıqlı anlaşma şəraitində söhbət etdilər.

### Azərbaycan Prezidenti Heydər Əliyevin Latviya Prezidenti Quntis Ulmanis ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda Latviya Prezidenti Quntis Ulmanis ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Latviya Prezidenti respublikamızın rəhbəri ilə bundan əvvəlki görüşləri barədə təəssüratını hələ də xatırladığını bildirdi.

Azərbaycan-Latviya münasibətlərinin inkişafına böyük əhəmiyyət verdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev ölkələrimiz arasındakı əməkdaşlığın və xalqlarımızın əlaqələrinin dərinləşdirilməsi lüzumunu qeyd etdi.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan və Latviya Prezidentləri müasir dövrün bir sıra aktual problemlərinə dair ətraflı fikir mübadiləsi apardılar.



# BÖYÜK SİYASƏT MERİDİANLARINDA



## Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın senatorları və görkəmli ictimai-siyasi xadimləri ilə görüşü

Aprelin 22-də axşam Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vaşinqtondakı "Metropoliten" klubunda[21] Amerika Birləşmiş Ştatlarının senatorları və görkəmli ictimai-siyasi xadimləri ilə birgə ziyafətdə iştirak etdi.

Görüşdə ABŞ Senatının üzvləri - Senatın Büdcə Komitəsinin sədri Pit Dominiçi, Silahlı Qüvvələrə Yardım Komitəsinin sədri Con Uorner, Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Komitəsinin sədri Riçard Luqar, İdarəetmə Məsələləri Komitəsinin sədri Ared Tompson, həmçinin senatorlar Ted Kokren, Pol Koverdell, ABŞ-ın keçmiş dövlət katibi səfir Lourens İqlberger, görkəmli ictimai xadim Hovard Beyker və səfir Corc Krenvell Montqomeri iştirak edirdilər.

Görüş iştirakçıları tərəfindən səmimiyyətlə qarşılanan dövlətimizin başçısı Heydər Əliyev Vaşinqtona səfərinin məramını açıqlayaraq dünyada sülhün və təhlükəsizliyin təmin edilməsində NATO-nun böyük rol oynadığını xüsusi vurğuladı və bu təşkilatın 50 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirakından məmnunluq hissi duyduğunu bildirdi.

Daha sonra Azərbaycan Prezidenti görüşə toplaşanlara respublikamızın müstəqillik yolu ilə qətiyyətlə irəlilədiyi, ölkəmizdə demokratiyanın dərin-







ləşdirilməsi, bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması sahəsində görülmüş tədbirlər barədə ətraflı məlumat verdi.

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsi üzərində geniş dayanaraq Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizə qədərinin qəsb olunduğunu, bir milyondan çox soydaşımızın doğma yurd-yuvalarından didərgin düşdüyünü bildirdi və dedi ki, Azərbaycan xalqı ağır itkilərə və məhrumiyyətlərə baxmayaraq münaqişənin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və bu işdə beynəlxalq təşkilatlara, ilk növbədə ATƏT-in Minsk qrupunun fəaliyyətinə böyük ümidlər bəsləyir.

Respublikamızın rəhbəri bildirdi ki, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında keçirilmiş Lissabon sammitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prinsipləri müəyyən edilmiş, zirvə toplantısından sonra ATƏT-in Minsk qrupuna həmsədrliyi ABŞ, Rusiya və Fransa öz üzərlərinə götürmüşlər. Dövlətimizin başçısı həmsədrlərin fəaliyyətinin hələlik heç də lazımi səmərə vermədiyindən narahat və narazı olduğunu, münaqişənin nizamlanması ilə əlaqədar bu ilin əvvəllərində ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin Prezidentlərinə - Bill Klintona, Jak Şiraka və Boris Yeltsinə bir daha məktubla müraciət etdiyini və münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasında onların öz səylərini artıracaqlarına ümidvar olduğunu bildirdi.



Prezident Heydər Əliyev Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın münaqişə tərəflərindən birinə - Ermənistana qeyri-qanuni olaraq bir milyard dollar məbləğində silah verdiyini, oradakı hərbi bazalarını genişləndirdiyini, hazırda isə S-300, MİQ-29 təyyarələri göndərdiyini, təcavüzkarı silahlandıraraq birtərəfli mövqe tutduğunu görüş iştirakçılarının nəzərinə çarpdırdı.

Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmasından bəhs edən dövlətimizin başçısı respublikamızın NATO ilə əməkdaşlığa, bu proqram çərçivəsində birgə tədbirlərə böyük əhəmiyyət verdiyini vurğuladı.

Azərbaycan Prezidenti Heydər Əliyev dünya dövlətlərinin respublikamıza artan marağından bəhs edərək bunu ölkəmizin əlverişli coğrafi-strateji mövqeyi, zəngin təbii sərvətləri ilə əlaqələndirdi və ABŞ-ın Qafqaz regionundakı proseslərdə fəal iştirakının vacibliyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı Xəzər neftinin istehsalı və nəqli sahəsində beynəlxalq əməkdaşlığa yüksək qiymət verərək bu il aprelin 17-də Bakı-Supsa kəmərinin işə salınmasından məmnun olduğunu bildirdi, Bakı-Ceyhan əsas neft boru kəməri layihəsi ilə əlaqədar görülən işlər barədə görüş iştirakçılarına müfəssəl məlumat verdi.

Hazırda NATO-nun Yuqoslaviyada həyata keçirdiyi əməliyyatlardan söhbət açan Prezident Heydər Əliyev Yuqoslaviyanın ərazi bütövlüyünün saxlanılmasının zəruriliyini vurğuladı, eyni zamanda etnik təmizləmə siyasətinin yolverilməzliyini qeyd etdi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında da ABŞ-ın öz səylərini artıracağına ümidvar olduğunu bildirdi.

Söhbətə qoşulan ABŞ-ın keçmiş Dövlət katibi səfir Lourens İqlberger Azərbaycanda olarkən qaçqınların yaşadıqları çadır şəhərciklərinə baş çəkdiyini və onların vəziyyətindən son dərəcə mütəəssir olduğunu bildirərək dedi ki, neçə ildən bəri çadırlarda yaşayan qocalar, qadınlar və uşaqlar doğma yurdlarına qayıtmaq ümidlərini itirmirlər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizin sosial-iqtisadi inkişafına mənfi təsir göstərən bədnam 907-ci düzəliş barədə söhbət açaraq dedi ki, vaxtilə erməni lobbisinin səyləri sayəsində ABŞ Konqresi tərəfindən qəbul edilmiş bu sənəd Azərbaycan xalqına qarşı tarixi ədalətsizlikdir. Ermənistan-Azərbaycan münaqişəsində zərərçəkən tərəf olan ölkəmizə qarşı yönəldilmiş bu sənəd respublikamızı ABŞ dövlətinin birbaşa yardımlarından məhrum etməklə, bazar iqtisadiyyatı yolunda islahatlar keçirilməsini, insanların sosial müdafiəsini çətinləşdirmişdir. Dövlətimizin başçısı ABŞ Prezidentinin, Dövlət katibinin və bir sıra hökumət xadimlərinin, senator və konqresmenlərin 907-ci düzəlişin ləğvi sahəsində apardıqları işə müsbət qiymət verərək həmin sənədin hələ də ləğv olunmamasından təəssüfləndiyini, bu ədalətsizliyin tezliklə aradan qaldırılacağına əmin olduğunu bildirdi.

Senator Con Uorner Bakıya səfərini böyük məmnuniyyət hissi ilə xatırlayaraq daha sonra bildirdi ki, Senatda 907-ci düzəlişin ləğvi sahəsində xeyli irəliləyişlər





əldə edilmişdir və bu istiqamətdə işlər davam edir. Senator Riçard Luqar əlavə etdi ki, senator Sem Braunbək 907-ci düzəlişin ləğvi sahəsində böyük səylər göstərmiş, İpək Yolu strategiyası haqqında qanun layihəsi hazırlayarkən Senatın bütün üzvlərinə müraciət edərək onları bu layihəni dəstəkləməyə və 907-ci düzəlişin ləğvinə səs verməyə çağırmışdır. Hazırda 907-ci düzəlişin ləğvi sahəsindəki iş növbəti mərhələyə qədəm qoymuşdur.

Görkəmli ictimai xadim Hovard Beyker görüşə gəldiyinə görə dövlətimizin başçısına səmimi təşəkkürünü bildirərək dedi:

- Siz həmişə olduğu kimi, yenə də bizi valeh etdiniz. Biz Sizin iradənizə, cəsarətinizə heyranıq və qeyd etdiyimiz kimi, dünyanın çox təhlükəli bir regionunda yerləşən dövlətinizə necə rəhbərlik etdiyinizə vurğunuq. Bizim bir çoxumuz Sizin ölkənizdə olmuşuq. Biz Sizin çox yüksək qonaqpərvərliyinizə, açıq və cəsarətli mülahizələrinizə, fikir mübadiləsi aparmaq məharətinizə məftunuq.

Dövlətiniz zəngin təbii sərvətlərə malikdir. Sizin böyük xidmətləriniz sayəsində ABŞ ilə Azərbaycan arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələri yaranmışdır və ölkələrimizin münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. ABŞ ilə Azərbaycanın bütün sahələrdə, o cümlədən də Xəzərin enerji ehtiyatlarından istifadə sahəsində əməkdaşlığının gündən-günə genişlənməsi bizi sevindirir.

Əminik ki, qarşıya çıxan çətinliklər Sizin güclü liderliyiniz sayəsində tezliklə və müvəffəqiyyətlə aradan qaldırılacaqdır. Sizə çox dərin hörmətimiz var. Biz Sizin ölkənizə müvəffəqiyyətlər arzulayırıq.

Görkəmli ictimai xadim, keçmiş Dövlət katibi Lourens İqlberger respublikamızın Prezidenti Heydər Əliyevə müraciət edərək dedi:

- Dünyada çox az prezident olubdur ki, onlarla görüşlərdən sonra mən belə qənaətə gəlmişəm ki, nə isə öyrəndim. Siz sayca çox az olan belə prezidentlərdən birisiniz.

Görüşdə beynəlxalq və regional problemlərə, müasir siyasi proseslərə dair geniş fikir mübadiləsi aparıldı.

Söhbətin sonunda Azərbaycan Prezidenti "Metropoliten" klubunda toplaşanlara təşəkkürünü bildirərək ABŞ-ın nüfuzlu ictimai xadimləri ilə ətraflı fikir mübadiləsinin əhəmiyyətli olduğunu vurğuladı.

Görüş iştirakçıları Prezident Heydər Əliyevlə ünsiyyətdən məmnunluq hissini ifadə etdilər, maraqlı söhbətə görə Azərbaycan Prezidentinə öz təşəkkürlərini bildirdilər, dövlətimizin başçısının gərgin və çoxcəhətli fəaliyyətini yüksək qiymətləndirərək ona və xalqımıza yeni-yeni uğurlar arzuladılar.

## Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın görkəmli siyasi xadimi Henri Kissincer ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də ABŞ-ın keçmiş Dövlət katibi, görkəmli siyasi xadim Henri Kissincer[22] ilə görüşdü. Görüşdə keçmiş Dövlət katibi Lourens İqlberger, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Brend Skoukroft, "Enron" şirkətinin prezidenti Ley Kennet iştirak edirdilər.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Henri Kissincer ölkəmizə səfərini və Bakıda keçirdiyi görüşləri xatırlayaraq, Heydər Əliyev ilə hər bir görüşündən məmnunluq duyduğunu və ona böyük hörmət və ehtiram bəslədiyini bildirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun 50 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirakına böyük əhəmiyyət verdiyini nəzərə çarpdıraraq görüş iştirakçılarına Azərbaycan haqqında ətraflı məlumat verdi və bildirdi ki, müstəqillik əldə etmiş Azərbaycan heç vaxt bu yoldan dönməyəcəkdir.

Qafqazdakı mövcud münaqişələrdən söhbət açan Azərbaycan rəhbəri bildirdi ki, bu ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs rejimi əldə edilməsinin 5 ili tamam olacağına baxmayaraq, münaqişə hələ də aradan qaldırılmamışdır. ATƏT-in Minsk qrupunun fəaliyyətindəki passivliyi xüsusi vurğulayan Prezident Heydər Əliyev böyük coğrafi-strateji və iqtisadi əhəmiyyəti olan Qafqaz regionunda sülh və sabitlik əldə edilməsi





məqsədi ilə münaqişələrin həllində ABŞ-ın daha fəal iştirakının vacibliyini qeyd etdi.

Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal altında olduğunu, bir milyondan çox vətəndaşımızın çadırlarda ağır vəziyyətdə yaşadığını nəzərə çarpdıran dövlətimizin başçısı münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bu ilin əvvəlində Minsk qrupunun həmsədrləri olan ölkələrin Prezidentlərinə - B.Klintona, J.Şiraka, B.Yeltsinə məktub göndərərək onları öz səylərini fəallaşdırmağa çağırdığını bildirdi. Prezident Heydər Əliyev həmçinin ATƏT-in Minsk qrupunun "ümumi dövlət" haqqında son təklifinin Azərbaycan tərəfindən rədd edildiyini, bu təklifin dövlətimiz üçün qətiyyən yolverilməz olduğunu xüsusi vurğuladı.

Rusiyanın münaqişə tərəflərindən biri olan Ermənistanı silahlandırması məsələlərinə toxunan Azərbaycan Prezidenti Rusiyanın Ermənistana qanunsuz və gizli olaraq bir milyard dollar məbləğində silah göndərməsi faktının aşkar edildiyi, Rusiyanın buradakı hərbi bazasını genişləndirdiyi, hazırda Ermənistana S-300 raketləri, MİQ-29 təyyarələri göndərdiyi barədə danışaraq, Azərbaycanın bütün bunlardan çox narahat olduğunu görüş iştirakçılarının nəzərinə çarpdırdı.

Hazırda Yuqoslaviyada baş verən hadisələrdən söhbət açan Azərbaycan Prezidenti bütün münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinin zəruriliyini qeyd edərək dedi ki, biz bu ölkənin ərazi bütövlüyünü tanıyırıq, lakin etnik təmizləmə siyasətini qətiyyətlə pisləyirik.

Xəzər neftinin hasilatı və nəqli məsələləri ilə maraqlanan Brend Skoukroftun suallarını cavablandıran Prezident Heydər Əliyev Azərbaycanın xarici şirkətlərlə bağladığı neft müqavilələri, Xəzər neftinin nəqlində əsas götürülmüş Qərb istiqamətinin marşrutları barədə görüş iştirakçılarına ətraflı söhbət açdı.

"Enron" şirkətinin Prezidenti Ley Kennet Xəzərin zəngin neft və qaz ehtiyatları barədə kifayət qədər informasiyaya malik olduğunu və başçılıq etdiyi şirkətin Azərbaycandan qazın nəqli sahəsində əməkdaşlığa hazır olduğunu bildirdi.



Azərbaycanın bütün dünyanın iş adamları üçün açıq olduğunu, xarici şirkətlərin ölkəmizdə geniş fəaliyyət göstərməsindən ötrü hər cür şərait yaradıldığını vurğulayan Prezident Heydər Əliyev bildirdi ki, biz öz iqtisadiyyatımızın dünya birliyi ilə sıx bağlanmasına, beynəlxalq inteqrasiyaya xüsusi diqqət yetiririk və bu sahədə uğurlu nəticələr əldə etmişik.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın bir sıra nüfuzlu şirkətləri ilə imzalanmış müqavilələrin tarixi əhəmiyyət daşıdığını nəzərə çarpdıran respublikamızın rəhbəri geniş potensial imkanlara, zəngin təbii ehtiyatlara malik olan Azərbaycanın bütün sahələrdə xarici iş adamları ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa daim böyük maraq göstərdiyini qeyd etdi.



ABŞ-ın keçmiş Dövlət katibi, görkəmli siyasi xadimi Lourens İqlberger və ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Brend Skoukroft erməni lobbisinin üzdəniraq səyləri ilə 1992-ci ildə Konqres tərəfindən qəbul edilmiş 907-ci düzəlişin ABŞ-Azərbaycan münasibətlərinin inkişafına mənfi təsir göstərdiyini bildirərək, hazırda bu sənədin ləğvi üçün müvafiq işlər gördükləri barədə Azərbaycan Prezidentinə məlumat verdilər.

Lourens İqlberger dövlətimizin başçısı Heydər Əliyevin şəxsiyyətinə və müdrikliyinə heyran olduğunu bildirdi. O, Amerikada Azərbaycanın daha çox təbliğ edilməsi üçün bu sahədə işin gücləndirilməsi lüzumunu qeyd etdi.

Görüşdə beynəlxalq və regional miqyaslı bir çox problemlərə dair ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycana dərin hörmət bəslədiyini və mühüm coğrafi-strateji mövqeyə malik ölkəmizlə siyasi, iqtisadi əlaqələrə böyük əhəmiyyət verdiyini vurğulayan Henri Kissincer Prezident Heydər Əliyevlə həmişə olduğu kimi, bu görüşündən də çox məmnun qaldığını söylədi, maraqlı söhbət üçün ona hədsiz minnətdarlığını bildirdi və ən xoş arzularını ifadə etdi. O dedi ki, Sizinlə hər bir görüş bizim üçün çox maraqlı və dəyərlidir.

Azərbaycan Prezidenti Heydər Əliyev yüksək diqqət və ehtirama görə görüş iştirakçılarına dərin təşəkkürünü bildirdi və onları Azərbaycana dəvət etdi.

## Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüş

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-a səfərinin növbəti günü - aprelin 26-da Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinə[23] gəldi.

Mərkəzin salonuna ABŞ Konqresinin, hökumətinin, Dövlət Departamentinin, nüfuzlu dairələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri, mətbuat işçiləri toplaşmışdılar. Onlar görkəmli dövlət xadimi, Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

SBAM-ın Prezidenti cənab Robert Zoelik Azərbaycan dövlətinin başçısını səmimiyyətlə salamladı və onu görüş iştirakçılarına təqdim edərək Prezidentimizə müraciətlə dedi:

- Cənab Prezident, Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinə xoş gəlmisiniz. Sizin hamınızı bu gün burada görməkdən böyük məmnunluq duyuruq.

Cənab Heydər Əliyev 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmişdi və keçən il yenidən bu vəzifəyə seçilmişdir. Hamımız yaxşı bilirik ki, çox gərgin region olan Mərkəzi Asiya regionunda sülh və sabitliyin bərqərar olmasında Prezident Əliyevin xidmətləri əvəzsizdir. Onu da bilməliyik ki, Prezident Əliyevin ABŞ-a indiki səfəri zamanı Amerika şirkətləri ilə üç yeni





müqavilənin imzalanması nəzərdə tutulur. Xəzərin zəngin enerji ehtiyatlarından istifadə üçün 40 milyard dollardan çox investisiya qoyulmasını nəzərdə tutan müqavilələr imzalanıbdır.

Biznesin inkişafında fəaliyyət göstərmiş şəxs kimi mən yaxşı bilirəm ki, belə rəqəmlər mütləq diqqətinizi cəlb etməlidir. Onu da gözəl bilirik ki, zəngin neft ehtiyatları olmasının və onlardan istifadənin ölkə üçün müəyyən mənfi effektlərini də gözəl dərk edən Prezident Azərbaycanda iqtisadiyyatın digər sahələrinin və infrastrukturun inkişafı üçün də əlavə tədbirlərin görülməsi və investisiyaların cəlb edilməsi ilə məşğuldur.

Prezident Əliyev Kosovoda baş verən münaqişə ilə əlaqədar öz mövqeyini açıqlamışdır. Şübhəsiz, hamınız bilirsiniz ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox vətəndaş öz yurd-yuvasından didərgin düşüb və qaçqın vəziyyətində yaşayır. Öz qonşuları ilə əlaqədar üzərinə müəyyən risk götürməsinə baxmayaraq, Prezident Əliyev cəsarətli bəyanatlar verərək Kosovoda törədilən vəhşilikləri pisləmiş və Kosovo əhalisinə özünüidarə hüququ verilməsinin tərəfdarı kimi çıxış etmişdir.

Çox gərgin bir regionda yerləşən ölkənin Prezidenti olan Əliyev Amerika Birləşmiş Ştatlarının yaxın dostudur və çox məmnunuq ki, o, bu gün bizimlə bir yerdədir. Bildiyimizə görə, Prezident dağlıq bölgədə boya-başa çatıb və belə bölgədən olan insanların uzunömürlülüyü də hamıya bəllidir.

Cənab Prezident, bu gün bizimlə bir yerdə olduğunuza görə Sizə bir daha təşəkkür edirik. İndi isə söz Sizə verilir.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümü çox mühüm hadisə hesab edirəm.

Amerika Birləşmiş Ştatlarının çox məşhur Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində mənim bu çıxışıma toplaşmış insanların hamısına təşəkkürümü bildirir və bu auditoriyada çıxış etməyi özüm üçün şərəf hesab edirəm.

Hörmətli cənab Prezident, Azərbaycan haqqında, mənim fəaliyyətim haqqında dediyiniz sözlərə görə təşəkkür edirəm. Onu deyə bilərəm ki, Siz bunların hamısını obyektiv izah etdiniz.

Azərbaycan Qafqazda yerləşən kiçik bir ölkədir. Siz yəqin ki, ölkəmiz haqqında ətraflı məlumata maliksiniz, ona görə bəzi detalları deyib vaxt almaq istəmirəm. Ancaq onu bildirmək istəyirəm ki, Azərbaycan Sovetlər İttifaqı dağılan zaman - 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edibdir. Azərbaycan ilk dəfə öz dövlət müstəqilliyini XX əsrdə - 1918-ci ildə, Rusiya imperatorluğu dağılan zaman əldə etmişdir. Ancaq qısa bir müddətdə - 23 ay fəaliyyət göstərən ilk Azərbaycan demokratik dövləti Azərbaycanda sovet hakimiyyəti qurulması ilə əlaqədar süqut etmişdir. Azərbaycan 70 il müttəfiq respublika statusunda sovetlər birliyinin daxilində, sovet hakimiyyətinin idarəsi altında olmuşdur və qeyd etdiyim kimi, 1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar yenidən öz müstəqilliyini əldə etmişdir.

1991-ci ildən bu tərəfə olan illər Azərbaycanın həyatında çox mürəkkəb bir dövr olmuşdur. Mən deyə bilərəm ki, Sovetlər İttifaqına mənsub olmuş digər respublikalardan fərqli olaraq, Azərbaycanın daxili vəziyyəti olduqca gərgin, çətin və faciəli olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, hələ 1988-ci ildə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olarkən ölkəmizə qarşı əsassız torpaq iddiası ilə çıxış edən Ermənistan Azərbaycanın Dağlıq Qarabağ vilayətini öz əlinə keçirib Ermənistana bağlamaq istəmişdir. Bununla əlaqədar Ermənistanla Azərbaycan arasında hərbi münaqişə başlamış, bununla da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlamışdır. Bilirsiniz ki, bu təcavüz indiyə qədər davam edir. Mən bu barədə sonra bir neçə kəlmə deyəcəyəm.

Azərbaycanın vəziyyətini mürəkkəbləşdirən ikinci səbəb ondan ibarət olmuşdur ki, Azərbaycan hələ Sovetlər İttifaqı zamanı onun rəhbərliyi tərəfindən çox ədalətsizliklərlə rastlaşmışdır. Bunun ən tutarlı sübutu ondan ibarətdir ki, 1990-cı ilin yanvar ayında sovet hökuməti Bakıya, Azərbaycana böyük qoşun hissələri yeritmiş və Azərbaycan xalqına qarşı hərbi təcavüz etmişdir. 1990-cı ilin qanlı Yanvar faciəsi zamanı dinc, günahsız insanlar şəhid





olmuşdur. Bu hadisə də Azərbaycanın daxili ictimai-siyasi vəziyyətini çox gərginləşdirmişdi.

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi bu hadisələrin fonunda olmuşdur. Bu hadisələr Azərbaycanın daxilində müxtəlif qanunsuz silahlı qüvvələrin, müxtəlif qrupların hakimiyyət uğrunda mübarizə məqsədi ilə bir-biri ilə vuruşmasına gətirib çıxarmışdır. Bunların nəticəsində 1992-ci ildə və 1993-cü ildə Azərbaycanda hakimiyyət dəyişikliyi baş vermişdir.

Daxili çəkişmələr, toqquşmalar 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi törətmişdi və Azərbaycan böyük fəlakət — parçalanmaq təhlükəsi qarşısında durmuşdu. Belə bir şəraitdə Azərbaycana həm Ermənistanın təcavüzü güclənmişdi, həm də xarici qüvvələrin təzyiqi artmışdı. 1993-cü ildə biz Azərbaycanın daxilində olan vətəndaş müharibəsinin qarşısını böyük çətinliklə aldıq. Ancaq daxildə yaranmış qruplaşmalar və qanunsuz silahlı dəstələr hakimiyyət uğrunda mübarizəni yenə də davam etdirirdilər. Məhz bu qanunsuz silahlı dəstələrin, ayrı-ayrı siyasi qrupların bu cür dağıdıcı fəaliyyəti nəticəsində 1994-cü ilin oktyabr ayında, 1995-ci ilin mart ayında Azərbaycanda silahlı dövlət çevrilişinə cəhdlər göstərilmişdir. Bunların qarşısı alınmışdır. Ancaq terrorist qruplar, dəstələr sonra da Azərbaycanda təxribatlar və terror aktları həyata keçirməyə cəhdlər etmişlər. Xarici ölkələrin xüsusi xidmət orqanları Azərbaycanda bir neçə təxribat əməliyyatı keçirmiş, 1994-cü ildə Bakı metropolitenində iki dəfə güclü partlayış törədilmişdir. Biz bunların hamısının qarşısını ala bilmişik.




1995-ci ilin oktyabr ayında Azərbaycanın ilk Konstitusiyası qəbul olunub, Azərbaycan parlamentinə ilk dəfə çox demokratik prinsiplər əsasında seçkilər keçirilibdir.

İndi Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Biz bu sabitliyə, demək olar ki, 1995-ci ildən nail olmuşuq, Azərbaycan dövləti ölkə ərazisinə tam nəzarət edir.

Daxildəki bütün bu gərgin vəziyyətlə yanaşı, Ermənistanın Azərbaycana təcavüzü davam etmişdir. Ermənistan silahlı qüvvələri həm Azərbaycanın daxilindəki zəiflikdən, qeyri-sabitlikdən, həm də bəzi dövlətlərin onlara göstərdiyi böyük yardımdan istifadə edərək Azərbaycanın ərazisinin 20 faizini işğal etmişlər. İşğal edilmiş torpaqlarda bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalmış və köçməyə məcbur olmuşdur. Onlar Azərbaycanın başqa bölgələrində, çadırlarda yaşayırlar. Siz bu xəritədə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarını görürsünüz. Burada qırmızı rənglə Dağlıq Qarabağın ərazisi rənglənibdir. Amma Dağlıq Qarabağın ərazisindən əlavə, onun ətrafında Azərbaycanın yeddi inzibati rayonu da işğal olunubdur. Bu torpaqlar indiyə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

1994-cü ilin may ayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs rejimi əldə olunubdur, biz atəşkəs haqqında saziş imzalamışıq. Beş ildir ki, atəşkəs rejimini qoruyub saxlayırıq. Beş ildir çalışırıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Bunu həll etmək üçün 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə prinsiplər qəbul olunmuş-



dur. Biz o prinsiplər əsasında məsələni sülh yolu ilə həll etməyə çalışırıq. O prinsiplər bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu verilsin, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çəkilsin və yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz torpaqlarına qayıtsınlar. Ermənistan tərəfi bu prinsipləri qəbul etmir.

Bilirsiniz ki, bu məsələnin həll olunması üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılıbdır. 1997-ci ilin əvvəlindən Minsk qrupuna dünyanın üç böyük dövləti - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa sədrlik edir. ATƏT-in Minsk qrupu məsələnin həll olunması üçün 1997-ci ildə - iyun ayında, sonra isə sentyabr ayında təkliflər irəli sürmüşdü. 1997-ci ilin sentyabrında Minsk qrupunun irəli sürdüyü təklif bundan ibarətdir ki, Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş altı rayonu işğaldan azad edilsin, ondan sonra Dağlıq Qarabağa özünüidarə statusu verilsin. İki rayonun - Laçın və Şuşa rayonlarının aqibəti isə bundan sonra həll edilsin.



Yəni bu mərhələ xarakteri daşıyan təklifdir: birinci mərhələdə - işğal olunmuş rayonlar azad edilsin, ikinci mərhələdə Dağlıq Qarabağın statusu müəyyən edilsin. Biz bu təklifi qəbul etdik. 1997-ci ilin sentyabr-oktyabr aylarında Ermənistan da bəyan etdi ki, onlar bu təklifi qəbul etmək istəyirlər. Ermənistanın keçmiş Prezidenti Levon Ter-Petrosyan bu təklifə tərəfdar çıxmış, onun qəbul olunmasını əsaslandırmış və bu barədə öz fikirlərini mətbuatda da bildirmişdi. Ancaq Ermənistanın daxilində gedən siyasi proseslər nəticəsində 1998-ci ilin fevral ayında Prezident Ter-Petrosyan istefa verdi, Ermənistanda hakimiyyət dəyişdi. Beləliklə də bu təklif nəticəsiz qaldı.

Minsk qrupu, demək olar, 1998-ci ildən fəaliyyətsiz olmuşdur. 1998-ci ilin noyabr ayında Minsk qrupunun həmsədrləri Rusiyanın təşəbbüsü ilə yeni bir təklif irəli sürmüşlər. Bu təklifin də mənası ondan ibarətdir ki, Azərbaycanda "ümumi dövlət" qurulsun, onun çərçivəsində Azərbaycanın ərazisində Dağlıq Qarabağa "dövlət" statusu verilsin.

Birincisi, dünya təcrübəsində, beynəlxalq hüquq normalarında hələ indiyə qədər belə dövlət quruluşu forması yoxdur. Bunu Minsk qrupu yox, Minsk qrupundakı Rusiya nümayəndələri icad ediblər. Amma bizim üçün əsas cəhət ondan ibarətdir ki, bunu heç vaxt qəbul edə bilmərik. Çünki bu, Dağlıq Qarabağa üstüörtülü şəkildə dövlət müstəqilliyi statusu vermək deməkdir.

Bu təklifin müəllifi Minsk qrupunun tərkibində olan Rusiya nümayəndələridir. Biz onlara öz narazılığımızı bildirmişik. Təsadüfi deyil ki, Ermənistan tərəfi ilk dəfə olaraq Minsk qrupunun həmin bu "ümumi dövlət" konsepsiyası təklifini qəbul edibdir. Bildirmək istəyirəm ki, Ermənistan tərəfi indiyə qədər Minsk qrupunun bütün təkliflərini, o cümlədən 1997-ci ildə iki təklifini rədd edibdir. Amma onlar "ümumi dövlət" prinsipini dərhal qəbul ediblər, çıxış edirlər və bunu qəbul etməyi təklif edirlər.

Biz məsələnin Minsk qrupu vasitəsilə həll olunması üçün bundan sonra da çalışacağıq. Ümidvarıq ki, Minsk qrupu hər iki tərəf üçün münasib olan yeni təklif verəcəkdir.

Güman edirəm, bizim bölgədə, Azərbaycanda sizi maraqlandıran məsələlərdən biri də Azərbaycanın enerji ehtiyatlarından istifadə olunması, Xəzər dənizi problemidir. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Azərbaycanın qurudakı ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft və qaz yataqları var. Bu enerji ehtiyatlarından həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, xalqın rifahını yaxşılaşdırmaq məqsədi ilə daha da geniş istifadə etməyə çalışmışıq, eyni zamanda dünyanın neftə və qaza olan tələbatını təmin etmək üçün bu işlərə başlamışıq.

1994-cü ilin sentyabr ayında ilk müqaviləni - "Əsrin müqaviləsi"ni imzalamaqla biz Xəzər dənizinin bütün ehtiyatlarını dünyaya təqdim etmişik. Məmnuniyyətlə deyə bilərəm ki, "Əsrin müqaviləsi" ardıcıl surətdə həyata keçirilir. 1997-ci ilin noyabr ayında biz ilkin neft almışıq. Ancaq eyni zamanda bu neftin ixracı üçün boru kəmərlərinin yaradılması ilə də məşğul olmuşuq. İlkin neftin ixracı üçün birinci kəməri - Rusiyanın Qara dənizdəki Novorossiysk limanına gedən Bakı-Novorossiysk neft kəmərini çəkmişik. Siz onu xəritədə görürsünüz. Ancaq eyni zamanda biz əvvəldən də nəzərdə tutmuşduq ki, alternativ neft kəməri çəkilsin. Onun üçün də Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına ikinci, alternativ neft kəmərinin çəkilməsini qərara almışdıq. Bu kəməri də inşa edib aprel ayının 17-də istismara verdik. İndi artıq Qərb kəməri ilə neft axır və ilk tankerlər nefti Supsa limanından dünya bazarına çıxarırlar.



Eyni zamanda biz əsas neft kəmərinin hazırlanması və inşası ilə də məşğuluq. Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına neft kəmərinin çəkilməsi nəzərdə tutulur. Türkiyə hökuməti ilə aparılan son danışıqlarda nəzərdə tutulubdur ki, neft kəmərinin çəkilməsi üçün texniki və maliyyə məsələləri üç ay müddətində həll olunacaq və ondan sonra layihənin həyata keçirilməsinə başlanacaqdır.

Azərbaycan təkcə öz ehtiyatlarının deyil, Xəzər dənizində olan bütün enerji ehtiyatlarının dünya birliyi üçün istifadə edilməsində təşəbbüskar olmuşdur. Xəzər dənizinin Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında da işlər gedir və neft-qaz hasil etmək üçün lazımi tədbirlər həyata keçirilir.

1994-cü ildən indiyə qədər Azərbaycan dünyanın iri neft şirkətləri ilə 16 böyük müqavilə imzalayıbdır. Bu şirkətlər dünyanın 14 ölkəsini təmsil edirlər. O cümlədən Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri də Azərbaycanda iş görürlər. Sabah burada, Vaşinqtonda üç yeni müqavilə imzalanacaqdır.

1994-cü ildə "Əsrin müqaviləsi" imzalanandan sonra Azərbaycanın neft ehtiyatları dünyada çox böyük maraq doğurmuşdur. Bir tərəfdən dünyanın, o cümlədən Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycana gəlib, ölkəmizin Xəzər dənizində olan yataqlarından istifadə etmək üçün təkliflər irəli sürüblər və bizimlə bərabər iş görürlər. İkinci tərəfdən, Azərbaycanın neft siyasətinə, neft strategiyasına etiraz edənlər, bunun əleyhinə çıxanlar, buna mane olan qüvvələr də çoxaldı.

Azərbaycanın neft strategiyası ondan ibarətdir ki, biz öz təbii sərvətlərimizi, enerji ehtiyatlarımızı dünyaya təqdim edirik və dünyanın hər bir ölkəsi ilə, xüsusən Qərb ölkələri, Amerika Birləşmiş Ştatları ilə bu sahədə geniş əməkdaşlıq təklif edirik. Amma bəzi ölkələr, bəzi dairələr isə bizim neft strategiyamızın əleyhinədir. Onlar belə hesab edirlər ki, Azərbaycanın neft ehtiyatları, Xəzər dənizi yalnız bu bölgədəki ölkələrin təsir dairəsində olmalıdır. Onlar Qərb ölkələrinin, Amerika Birləşmiş Ştatlarının Xəzər dənizinə gətirilməsinə etiraz edirlər.

Bizim neft strategiyamızın əleyhinə olaraq Xəzər dənizinin statusu məsələsi ortaya atıldı. Bəzi dövlətlərdən səslər gəldi ki, Xəzər dənizinin statusu müəyyən edilməmiş oradakı neft yataqlarından istifadə etmək olmaz. Bizim əleyhimizə bir çox başqa tədbirlər həyata keçirildi.

Tam əsasla deyə bilərəm ki, 1994-cü, 1995-ci illərdə Azərbaycanda dövlət çevrilişinə silahlı cəhdlər, terror aktları və təxribat əməlləri də məhz ölkəmizin

sərbəst, müstəqil neft strategiyasının qarşısını almaq məqsədı ilə həyata keçirilmişdi. Ancaq bu təxribatların, bizim əleyhimizə yönəldilən müxtəlif əməllərin heç birisi bizi qorxuda, dayandıra bilməmişdir. Biz öz neft strategiyamızı ardıcıl surətdə hayata keçirmişık. Bildirmək istəyirəm ki, Qərblə, yəni Avropa ölkələri və xüsusən Amerika Birləşmiş Ştatları ilə bu sahədə əməkdaşlığımızdan çox razıyıq və bu əməkdaşlığa xüsusi əhəmiyyət veririk.

Bizim neft strategiyamızın əleyhinə aparılan bütün bu işlər nəticə verməditi halda, son vaxtlar bəzi ölkələrin mətbuatında, o cümlədən Amerika Birləşmiş Ştatlarında, Avropada, Rusiya mətbuatında Xəzərin Azərbaycan sektorunda neft ehtiyatlarının az olması və əvvəl verilən məlumatların guya yanlış olması haqqında müxtəlif məqalələr dərc edilmişdir. Bütün bu fikirlər, məqalələr uydurmadır, əlbəttə ki, bizim əleyhimizə yönəldilibdir. Deyə bilərəm ki, bunlar hamısı yanlışdır. Azərbaycanın neft ehtiyatları çox böyükdür. Xəzər dənizinin neft ehtiyatları həddindən artıqdır. Güman edirəm ki, Xəzər dənizinin, o cümlədən Azərbaycan neftinin böyük perspektivini gələcəkdə hamı görəcəkdir.

İlkin hesablamalara görə, Azərbaycanın neft ehtiyatları 4-10 milyard ton arasındadır. İndiyədək imzalanmış və sabah imzalanacaq müqavilələr hamısı birlikdə Azərbaycanın neft sənayesinə 50 milyard dollar miqdarında investisiya










qoyulmasını nəzərdə tutur. Ötən üç il müddətində Azərbaycanın neft sənayesinə 2 milyard 200 milyon dollar həcmində investisiya qoyulub ki, bunun da 1 milyard dolları Amerika Birləşmiş Ştatları şirkətlərinin payına düşür. Güman edirəm, bunlar bizim neft strategiyamızın əleyhinə çıxanlara çox tutarlı cavabdır.

Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir. Biz Azərbaycanda iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə formalaşdırırıq. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur, özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir. Torpaq islahatı müvəffəqiyyətlə aparılır və torpaq, demək olar ki, tamamilə şəxsi mülkiyyətə, kəndlilərə verilibdir.

Keçmiş Sovetlər İttifaqına mənsub olan başqa ölkələr kimi, bizim ölkəmiz də keçid dövrünü yaşayır. Bir iqtisadi-siyasi sistemdən digər iqtisadi-siyasi sistemə keçirik. Şübhəsiz ki, keçid dövrünün iqtisadiyyata çox mənfi təsiri var. Biz bunların qarşısını alırıq. Baxmayaraq ki, Azərbaycanda bir milyondan artıq qaçqın var və onlar işsizdir, çadırlarda yaşayırlar. Son üç ildə Azərbaycanın iqtisadiyyatı inkişaf edir. 1990-cı ildən başlayaraq Azərbaycanda iqtisadiyyat tənəzzülə uğramışdı və hər il 20 faiz aşağı düşürdü. Biz bu tənəzzülün qarşısını aldıq və 1995-ci ildə sabitləşməyə nail olduq. Ondan sonrakı illərdə iqtisadiyyatımızda hər il artım müşahidə olunur. 1995-ci ildə inflyasiyanın qarşısını aldıq. 1994-cü ildə inflyasiya 1400 faiz idi. Amma 1997-ci ildən başlayaraq inflyasiya tamamilə azalıb, indi Azərbaycanda inflyasiya yoxdur. Azərbaycanın milli valyutasının - manatın dəyəri sabitdir.

Xarici şirkətlər, o cümlədən Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycanda özəlləşdirmə proqramına çox maraq göstərirlər. Biz bunu alqışlayırıq və Azərbaycanda özəlləşdirmədə iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının iş adamlarını dəvət edirik.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın münasibətləri müsbət istiqamətdə inkişaf edir. Biz ABŞ-la əlaqələrimizə xüsusi əhəmiyyət verir və bunu strateji tərəfdaşlıq əlaqələri hesab edirik. Eyni zamanda arzu edirik ki, Amerika Birləşmiş Ştatları Qafqaz regionunda öz təsirini daha da artırsın və Azərbaycanın dövlət müstəqilliyinin inkişafı, gördüyümüz işlər naminə bizə daha çox dəstək versin.

Bilirsiniz ki, mən buraya NATO-nun 50 illik yubileyi münasibətilə gəlmişəm. Bütün tədbirlərdə iştirak etmişəm. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak edır. Bız öz tərəfimizdən bu işə çox böyük əhəmiyyət verir, "Sülh naminə tərəfdaşlıq" proqramını yüksək qiymətləndiririk. NATO-nun bu günlər Vaşinqtonda irəli sürdüyü yeni strateji konsepsiyasını da bəyənirik, alqışlayırıq.

Mən sizə çox söz deyə bilərəm, ancaq hesab edirəm ki, suallarınıza da vaxt ayırmaq lazımdır.

Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu alqışlarla qarşılandı.



Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin xüsusi proqramlarının rəhbərlərindən biri olan cənab K.Buş görüş iştirakçılarına müraciətlə dedi:

- Prezident Əliyev suallara cavab verməyə razıdır. Biz çoxsaylı suallar almışıq və mən bunları qruplaşdıraraq Prezidentə suallar verəcəyəm.

Sual: Cənab Prezident, Ermənistanla Azərbaycan arasında hərbi münaqişəni nəzərə alsaq, Siz hansı tədbirləri görə biləcəksiniz ki, çəkiləcək boru kəmərləri sabotaja məruz qalmasın?

Cavab: Bilirsiniz, boru kəmərlərini tək biz çəkmirik. Boru kəmərlərini Azərbaycanda bizimlə əməkdaşlıq edən neft şirkətləri birlikdə çəkirlər. Məsələn, həm Şimal istiqamətində olan neft kəməri, həm də bu ilin aprel ayında istifadəyə verilmiş Bakı-Supsa kəməri 11 şirkətin daxil olduğu konsorsium - o, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıbdır, - tərəfindən çəkilibdir. Bakı-Supsa neft kəmərinin çəkilməsinə 590 milyon dollar vəsait qoyulubdur. Bu, həmin 11 şirkətin vəsaitidir. Ona görə neft kəmərləri təkcə bizə deyil, həm də bu şirkətlərə mənsubdur. Biz hamımız birlikdə bu kəmərlərin təhlükəsizliyini təmin edirik və güman edirəm ki, təmin də edəcəyik.

Sual: Cənab Prezident, Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün hökumət tərəfindən hansı tədbirlər görülür və Siz ölkənizdə ətraf mühitin qorunması problemləri ilə bağlı hansı tədbirləri həyata keçirirsiniz?

Cavab: Biz bu barədə çox tədbirlər görürük. Birincisi, özəlləşdirmə proqramını həyata keçiririk. Özəlləşdirmə qeyri-neft sektorunda olan istehsal sahələrini daha da canlandıracaq və inkişaf etdirəcəkdir. Qeyri-neft sektorunun böyük bir hissəsini aqrar sahə təşkil edir. Azərbaycanda aqrar sektor çox böyük yer tutur. Mən dedim ki, biz torpaqları özəlləşdirmişik, şəxsi mülkiyyətə vermişik. Artıq bu torpaqlardan səmərəli istifadə edilməsinin nəticələrini görürük. Kənd təsərrüfatı məhsullarının emalı sənayesi də çox böyük sahədir. Biz onun müəssisələrini də özəlləşdirmişik. Bunun da müsbət nəticəsini görürük.

Telekommunikasiya çox böyük sahədir, yaxın vaxtlarda onu özəlləşdirəcəyik. Avtomobil nəqliyyatını özəlləşdiririk. Başqa nəqliyyat sahələri də özəlləşdiriləcəkdir.

Bizdə ağır sənaye çox böyük yer tutur. Kimya, metallurgiya, maşınqayırma sənayelərində özəlləşdirmə bir qədər çətin gedir. Ancaq biz çalışırıq ki, bunları da inkişaf etdirək.

Ətraf mühitin mühafizəsi bizim üçün əsas məsələlərdən biridir. Neft hasilatı prosesində buna xüsusi fikir veririk. İmzalanmış bütün müqavilələrdə ətraf mühitin mühafizəsi məsələləri xüsusi yer tutur.

Sual: Cənab Prezident, Siz əminsinizmi ki, Türkiyə Bakı-Ceyhan boru kəmərinin reallaşması üçün əlverişli təkliflər irəli sürəcək? Bilmək istərdik ki, Türkiyənin son təkliflərində bir barrel neftin ixracı üçün hansı tariflər nəzərdə tutulub və əminsinizmi ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu təkliflərlə razılaşacaqdır?

Rusiyanın Qafqazda qeyri-düzgün siyasəti kimi qiymətləndiririk. Görürsünüz ki, Rusiya Ermənistanla nə qədər sıx bağlıdır.

Sual: Sonuncu sual. Siz Müstəqil Dövlətlər Birliyinin gələcəyini necə görürsünüz və Azərbaycanın MDB ilə münasibətləri barədə nə deyə bilərsiniz?

Cavab: Onu deyə bilərəm ki, aprel ayının 2-də Moskvada Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin dövlət başçılarının görüşündə kollektiv təhlükəsizlik haqqında müqavilənin vaxtı keçdiyinə görə, onun müddətinin uzadılması məsələsi müzakirə edilirdi. Azərbaycan, Gürcüstan, Özbəkistan, Ukrayna, Moldova bu müqavilənin vaxtının uzadılmasına razılıq vermədilər və biz müqaviləni imzalamadıq. Görürsünüz ki, beləliklə, kollektiv təhlükəsizlik haqqında müqavilədə cəmi 6 dövlət qaldı - Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ermənistan.

Beləliklə, Müstəqil Dövlətlər Birliyi ötən dövr ərzində hələ ki lazımi qədər formalaşa bilməyibdir. Onun fəaliyyətinin səmərəli olmadığı indi artıq göz qabağındadır. Qalanını gələcək göstərəcəkdir.

K.Buş: Bizə verdiyi böyük şərəfə görə Azərbaycan Prezidenti Əliyevə təşəkkürümüzü bildiririk.

Heydər Əliyev: Bir daha qeyd edirəm ki, sizinlə görüşümdən çox məmnunam. Sizin hamınızı - Azərbaycanı sevənləri də, sevməyənləri də Azərbaycana dəvət edirəm. Güman edirəm ki, Azərbaycana nə qədər çox gəlsəniz, Azərbaycan haqqında o qədər də doğru-düzgün, ədalətli məlumat əldə edə biləcəksiniz.

Sizə cansağlığı, səadət, Amerika xalqına, Amerika dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Görüşün sonunda Azərbaycan Prezidenti Heydər Əliyev Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri cənab Robert Zoelikə Bakı buxtasının mənzərəsi təsvir edilmiş rəsm əsəri, dövlətimizin başçısının ABŞ-a ilk rəsmi səfərinə həsr olunmuş "Birlikdə yeni əsrə doğru" və ölkəmizin NATO ilə münasibətlərindən bəhs edən "NATO və Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlığa doğru" kitablarını[24] hədiyyə etdi.

# GÖRÜŞLƏR, TƏMASLAR ...



## Hərbi Dəniz Akademiyasında görüş

Aprelin 23-də Azərbaycan Prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Akademiyasına[25] gəldi. Akademiyanın rəhbərləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar. Respublikamızın rəhbəri dünyanın ən nüfuzlu hərbi təhsil ocaqlarından birinin ərazisi ilə tanış oldu, ona akademiya haqqında qısa məlumat verildi.

Akademiyada Azərbaycan Prezidenti Heydər Əliyevin kursantlarla görüşü keçirildi. Salona toplaşanlar ölkəmizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Hərbi Dəniz Akademiyasının professoru cənab Rassel görüşü giriş sözü ilə açdı və Azərbaycan Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin MDB ölkələrinin xarici siyasəti mövzusunda çıxış edəcəyini bildirdi. Dövlətimizin başçısına söz verildi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Əziz dostlar!

Mən sizi səmimi qəlbdən salamlayıram, sizə təhsildə və gələcək hərbi xidmətinizdə uğurlar arzulayıram.

Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul edib Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Donanması Akademiyası ilə tanış olmağa gəlmişəm. Sizin təhsil aldığınız hərbi akademiya böyük tarixə və zəngin ənənələrə malikdir.

Amerika Birləşmiş Ştatları dünyanın ən böyük dövlətlərindən biridir və eyni zamanda coğrafi vəziyyətinə görə onun ərazisi hər tərəfdən okeanlarla, dənizlərlə əhatə olunmuşdur. Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Donanması ölkənin silahlı qüvvələrində həmişə görkəmli yer tutubdur. Amerika Birləşmiş Ştatlarının silahlı qüvvələrində hərbi dəniz donanması sahəsində xidmət edən hərbçilər, şübhəsiz ki, öz təhsillərini məktəblərdə, akademiyalarda, kolleclərdə alıblar.

Bu sahədə sizin akademiyanın çox böyük xidmətləri var. Mən bilirəm ki, Amerika Birləşmiş Ştatlarının silahlı qüvvələrində keçmişdə və bu gün xidmət edən görkəmli sərkərdələrin bir çoxu Hərbi Dəniz Akademiyasının məzunları olmuşlar. Amerika Birləşmiş Ştatlarının dövlət, siyasi xadimlərinin də bir qismi vaxtilə sizin akademiyada təhsil almış şəxslərdir.

Bir neçə dəqiqə bundan öncə mən sizin akademiyanın ərazisi, binaları və buradakı şərait ilə qısaca tanış oldum. Akademiyanızın zəngin tarixi və çox əzəmətli binaları, bugünkü vəziyyəti məni heyran etdi. Akademiya ilə tanış olarkən, sizinlə görüşərkən düşünürəm ki, Amerika Birləşmiş Ştatlarının gəncləri, vətəndaşları - sizin akademiyada təhsil alıb buranı bitirənlər, şübhəsiz, xoşbəxt adamlardır. Bütün bunlara görə də mən bu gün sizinlə görüşməyimdən və akademiya ilə tanış olmağımdan çox şadam.



Təbiidir ki, sizi bizim Azərbaycan, ölkəmiz haqqında məlumatlar maraqlandırır. Bildirmək istəyirəm ki, Azərbaycan Avropanın Asiya ilə birləşdiyi yerdə - Qafqazda yerləşən ölkədir. Azərbaycan Xəzər dənizinin sahilində yerəşir, eyni zamanda Qafqaz dağları ilə əhatə olunubdur. Azərbaycan şimalda Rusiya, cənubda İran, qərbdə isə Gürcüstan və Ermənistan ilə həmsərhəddir. Azərbaycan ərazisinin şərq hissəsi isə Xəzər dənizinin sahilləridir.

Azərbaycan gənc müstəqil dövlətdir. 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir.

Azərbaycanın qədim, çox zəngin tarixi var. XX əsrdə isə Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində müttəfiq respublika kimi yaşayıb və dediyim kimi, 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman öz müstəqilliyini əldə edibdir.

Azərbaycan zəngin təbiətə və çox zəngin təbii ehtiyatlara, xüsusən enerji ehtiyatlarına malikdir. Azərbaycan qədimdən Odlar diyarı adlandırılıb, qədim neft ölkəsidir. Azərbaycanda neftdən çox qədim zamanlarda istifadə olunmuşdur. Ancaq neftin sənaye üsulu ilə çıxarılmasının başlanması 1850-1852-ci illərə təsadüf edir. Tarixdən məlumdur ki, Azərbaycanda ilk neft fontanı 1848-ci ildə vurubdur. Bu, dünyada ilk böyük neft fontanı olubdur.

Amerika Birləşmiş Ştatları da qədim neft diyarıdır. Ancaq ABŞ-da ilk neft fontanı Azərbaycandan bir neçə il sonra, Pensilvaniyada vurubdur. Bu mənada ölkələrimizin oxşar tarixi var.

1991-ci ildə dövlət müstəqilliyini əldə edərkən Azərbaycan ağır bir vəziyyət keçirirdi. Azərbaycana qonşu olan Ermənistan 1988-ci ildə ölkəmizə qarşı torpaq iddiası ilə çıxış edərək Azərbaycanın ərazisində Dağlıq Qarabağ vilayətini ələ keçirmək məqsədi ilə hərbi təcavüz etmişdir. Bu hərbi təcavüz sonra Ermənistanla Azərbaycan arasında müharibəyə çevrilmişdir. Müharibə davam etmiş və dünyanın bir neçə ölkəsinin çox böyük yardımı nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. İşğal olunmuş torpaqlardan azərbaycanlılar zorla çıxarılmış, bu torpaqlarda etnik təmizləmə aparılmış, Azərbaycan xalqına qarşı soyqırımı siyasəti həyata keçirilmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaş zorla çıxarılıb və bir çox ildir ki, onlar Azərbaycanın başqa bölgələrində çadırlarda yaşayırlar.

Beş il bundan öncə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün atəşkəs rejimi əldə etmişik və bu barədə saziş imzalamışıq. Artıq döyüşlər yoxdur, müharibə getmir, amma eyni zamanda Azərbaycan torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Biz münaqişəni sülh yolu ilə həll etməyə, işğal olunmuş torpaqları azad edərək vətəndaşlarımızı bu torpaqlara, özlərinin yerinə-yurduna qaytarmağa, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə çalışırıq.

Bu məsələləri həll etmək üçün 1992-ci ildə ATƏT xüsusi Minsk konfransı, Minsk qrupu yaradıbdır. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa - qrupun tərkibinə başqa ölkələr də daxildir, - məsələnin sülh yolu ilə həll olunması problemi ilə məşğuldurlar. Danışıqlar aparılır, ancaq hələ müsbət nəticə əldə edilməyibdir Ona görə əldə edilməyib ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutub, Dağlıq Qarabağ kimi kiçik bir yerə dövlət müstəqilliyi statusu əldə etmək istəyir.

Dağlıq Qarabağ Azərbaycanın tərkibində kiçik bir vilayətdir, onun ərazisi 4 min kvadrat kilometrdir. 1988-ci ildə münaqişə başlayarkən bu vilayətin ərazisində cəmi 170 min əhali yaşayırdı. Əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Münaqişə nəticəsində azərbaycanlılar Dağlıq Qarabağdan zorla çıxarılıblar, indi orada ermənilər yaşayır. Ancaq münaqişə ilə əlaqədar ermənilərin də çoxu oradan köçübdür. İndi orada çox az miqdarda əhali yaşayır.

1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə məsələnin sülh yolu ilə həll olunması üçün prinsiplər müəyyən edilibdir. Bu prinsiplərə görə Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməlidir. Biz bu prinsipləri qəbul etmişik, ancaq Ermənistan tərəfi qəbul etmir. Ona görə də məsələ indiyə qədər həll olunmayıbdır.



Azərbaycanın əhalisi 8 milyon nəfər, ərazisi 86 min kvadrat kilometrdir. Azərbaycan böyük sənaye, eyni zamanda çox böyük kənd təsərrüfatı ölkəsidir. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra iqtisadi potensialını inkişaf etdirməyə, təbii ehtiyatlarından daha da səmərəli istifadə etməyə çalışır. Dövlət müstəqilliyi əldə edəndən sonra biz keçmiş kommunist ideologiyasından imtina etmişik. Azərbaycanın öz tarixi ənənələrinə, dünyada bütün sınaqlardan çıxmış demokratiya prinsiplərinə uyğun olaraq ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Biz Azərbaycanda ciddi islahatlar - həm siyasi, həm də iqtisadi islahatlar həyata keçiririk. Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurub inkişaf etdirməyə, Azərbaycanı dünya iqtisadiyyatı ilə daha sıx bağlamağa çalışırıq.

Bu sahədə Azərbaycanın enerji ehtiyatlarından istifadə olunması xüsusi əhəmiyyət daşıyır. İndiyə qədər Azərbaycan ərazisində çox neft hasil olunubdur. Ancaq Azərbaycan ərazisinin həm quru hissəsində, həm də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqları indi də mövcuddur. Bunlardan səmərəli istifadə etmək üçün biz son illərdə dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək məqsədi ilə bir çox tədbirlər həyata keçirmişik. O cümlədən Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri Azərbaycanda bizimlə birgə iş görürlər.

Biz 1994-cü ildə Amerika Birləşmiş Ştatlarının və başqa Qərb ölkələrinin iri neft şirkətləri ilə bərabər böyük bir müqavilə imzalamışıq. O, "Əsrin müqaviləsi" adlandırılıbdır. İndi bu müqavilə həyata keçirilir və bunun nəticəsində 1997-ci ildə ilkin neft almışıq. Həmin neftin ixracı üçün Bakıdan Qara dənizdəki Novorossiysk limanına böyük bir neft kəməri yaratmışıq. Bu kəmər vasitəsilə nefti ixrac edirik.

Biz ikinci neft kəməri də yaratmışıq. O, Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına çəkilmişdir. Bu da istismara verilib və onun vasitəsilə neft Qara dənizə, oradan da dünya bazarlarına ixrac olunur.

Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarında təxminən 4 milyard tondan 10 milyard tona qədər neft ehtiyatları aşkar edilmişdir. Bu yataqların müştərək işlənilməsi və neft hasilatı üçün imzalanmış müqavilələr əsasında Azərbaycana təxminən 50 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulur. Neftin dünya bazarlarına ixrac edilməsi üçün biz yeni - əsas neft kəmərinin çəkilməsinə də başlayacağıq. Bu, Bakı-Ceyhan neft kəməridir. Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməlidir.

Xəzər dənizi böyük neft ehtiyatlarına malikdir. Biz Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının işlənilməsinə başlamışıq. Amma Xəzər dənizinin digər sektorlarında da zəngin neft yataqları var. Beləliklə, Xəzər dünyanın ən böyük enerji ehtiyatlarına malik olan regionudur.

Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri - "AMOKO"[26], "Yunokal"[27], "Pennzoyl"[28], "Eksson", "Mobil", "Şevron"[29] və başqaları

Azərbaycanda artıq bizimlə müştərək iş görürlər. Bu günlərdə Vaşinqtonda Amerikanın neft şirkətləri ilə Azərbaycan arasında üç böyük müqavilənin imzalanması nəzərdə tutulubdur.

Beləliklə, biz Xəzər dənizini dünyaya təqdim etmişik. Onun enerji ehtiyatlarının dünya ölkələri üçün istifadə olunmasından ötrü böyük imkanlar yaratmışıq.

Azərbaycan çox əlverişli coğrafi-strateji mövqeyə malik ölkədir, Avropa ilə Asiyanın qovuşduğu bir yerdə və tarixi Böyük İpək yolunun keçdiyi ərazidə yerləşir. Ona görə Azərbaycan tarixi İpək Yolunun bərpası sahəsində də son illər çox ciddi işlər görmüşdür. Bizim neft strategiyamızın əsasında və tarixi İpək yo-lunun bərpa edilməsi sayəsində Şərqlə Qərbin, Avropa ilə Asiyanın daha sıx iqtisadi əlaqələr saxlaması üçün böyük imkanlar yaradırıq.



Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdır. Biz bütün ölkələrlə sülh və əmin-amanlıq prinsipləri əsasında əməkdaşlıq etməyə çalışırıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizə strateji nöqteyi-nəzərdən baxırıq. Bu əlaqələr strateji əhəmiyyət kəsb edir. 1997-ci ilin avqust ayında Amerika Bırləş-miş Ştatlarına rəs-mi səfər etdiyim zaman biz ABŞ-ın Prezidenti və hökumət üzvləri ilə çox səmərəli danışıqlar aparmış və ölkələrimiz arasında çox mühüm sənədlər imzalamışıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməyə çalışırıq. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir və biz bundan sonra da bu proqramın həyata keçirilməsində iştirak etməyə çalışacağıq.

Bıldiyiniz kimi, mən buraya NATO-nun 50 illik yubileyi münasibətilə gəlmişəm. NATO-nun 50 illik yubileyi ilə bağlı mərasimlərdə iştirak edəcəyəm



və bu günlər biz NATO ilə əməkdaşlığın özümüz üçün çox vacib olduğunu nümayiş etdiririk.

Azərbaycanın Silahlı Qüvvələri, ordusu gəncdir. Xəzər dənizində Azərbaycanın Hərbi Dəniz Donanması da var. Bilirsiniz ki, Xəzər qapalı dənizdir, ona görə orada dəniz qüvvələri də o qədər güclü deyildir. Ancaq Azərbaycanın da Hərbi Dəniz Donanmasının tarixi və yaxşı ənənələri vardır. Mən sizi Azərbaycana dəvət edirəm. Güman edirəm ki, hər biriniz Azərbaycanı ziyarət etsəniz çox yaxşı təəssürat əldə edə bilərsiniz.

Mən təhsilinizdə və gələcək işlərinizdə sizə bir daha uğurlar arzulayıram. İndi isə sizin suallarınıza cavab verməyə hazıram.

Hərbi Dəniz Akademiyasının professoru cənab Rassel Azərbaycan Prezidenti Heydər Əliyevə təşəkkür edərək dedi:

- İndi isə mən bu mərasimi suallar üçün açıq elan edirəm. Fürsətdən istifadə edərək istərdim ki, Sizə ilk sualla mən müraciət edim.

Azərbaycanın çox mühüm coğrafi-strateji mövqeyi vardır. Xəzər dənizinin Azərbaycan sektorunda, habelə Mərkəzi Asiyada çox zəngin təbii sərvətlər var. Eyni zamanda Azərbaycanda insan ehtiyatları da böyükdür. Çox zaman Azərbaycanı qapalı halda olan, lakin çox zəngin məkana bənzədirlər. Bilmək

istərdim ki, belə zəngin ehtiyatlara malik olan ölkənin Rusiya ilə münasibətləri necədir, Rusiya-Azərbaycan münasibətləri barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: Azərbaycanın Rusiya ilə münasibətləri normaldır. Biz həmişə çalışırıq ki, sülhsevər siyasət aparaq, Rusiya ilə - o, şimalda bizim böyük qonşumuzdur, - bütün sahələrdə əməkdaşlıq edək və əlaqələrimizi inkişaf etdirək. Bu ikitərəfli Rusiya-Azərbaycan münasibətləri son illər, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra sürətlə inkişaf edir.

Azərbaycan, demək olar, 200 il Rusiyanın tərkibində olubdur. XIX əsrin əvvəlində Rusiya Azərbaycanı zəbt edib və Azərbaycan o vaxtdan çar Rusiyasının müstəmləkəsi vəziyyətində yaşayıbdır. 1920-ci ildə Rusiyanın ordusu gəlib Azərbaycanda müstəqil ölkənin, müstəqil dövlətin hakimiyyətini devirib və sovet hakimiyyətini yaradıbdır. Ondan sonra Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində, demək olar ki, yenə də Rusiyanın tərkibində olmuşdur. Ona görə Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr çox dərin, geniş və hərtərəflidir. İnsani əlaqələr də çox genişdir.

Rusiya şimalda bizim qonşumuz, çox böyük ölkədir. Ona görə biz istəyirik ki, Rusiya-Azərbaycan əlaqələri həmişə yaxşı istiqamətdə inkişaf etsin. Ancaq təəssüf ki, Rusiyanın bəzi dairələri Azərbaycana qarşı ədalətsiz hərəkətlər edir və ədalətsiz siyasət aparırlar. Biz xüsusən Ermənistan-Azərbaycan münaqişəsində Rusiyanın mövqeyindən narazıyıq. Minsk qrupunun həmsədri kimi Rusiya Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində çalışır. Amma təəssüflər olsun ki, son illər aşkar olubdur ki, Rusiya Ermənistanı gizli surətdə silahlandırır. 1994-cü ildən sonra təxminən iki il müddətində Rusiya Ermənistana gizli olaraq, qanunsuz bir milyard dollar dəyərində silah-sursat və hərbi texnika vermişdir. Bu isə bizi çox narahat edir. Bizi narahat edən bir də odur ki, Rusiya Ermənistan ərazisində özünün hərbi bazasını yaradıb və o bazanı get-gedə daha güclü silahlarla silahlandırır. Son vaxtlar Rusiya Ermənistan ərazisində olan hərbi bazasında güclü müasir silahlar - S-300 raketləri, MİQ-29 təyyarələri yerləşdiribdir. Biz buna etiraz edirik, etirazımızı bildiririk, ancaq bunlar da bir nəticə vermir.

Beləliklə, görürsünüz ki, Rusiya ilə münasibətlərimizdə müsbət cəhətlər çoxdur, ancaq bizi narahat edən cəhətlər də vardır. Ümumiyyətlə biz istəyirik ki, Qafqazda silah olmasın, Qafqazı militaristləşdirmək lazım deyildir. Əksinə, Qafqazı sülh bölgəsi etmək lazımdır. Təəssüf ki, Rusiya bunun əksinə hərəkət edir.

Sual: Cənab Prezident, bilmək istərdim ki, Xəzər dənizindən neftin ixrac marşrutları barəsində Sizin ölkənin mövqeyi necədir? Bəzi neft şirkətləri bu neftin Rusiya və ya İran vasitəsilə ixracına tərəfdardırlar. Amerika Birləşmiş Ştatlarının mövqeyi isə Xəzərin enerji ehtiyatlarının Qərbə ixracını nəzərdə tutur. Bu məsələdə Sizin dövlətin mövqeyi necədir?

Heydər Əliyev: Bu barədə bizim mövqeyimiz Amerika Birləşmiş Ştatları dövlətinin və şirkətlərinin mövqeyi ilə üst-üstə düşür. Mən artıq bildirdim ki, biz



Azərbaycandan nefti dünya bazarlarına çatdırmaq üçün qısa bir zamanda iki neft kəmərinin çəkilməsinə nail ola bilmişik. Birinci neft kəməri Şimal istiqamətində - Rusiyanın Qara dənizdəki Novorossiysk limanına çəkilibdir. Bu kəmərlə neft artıq ixrac olunur. İkinci neft kəməri Qərb istiqaməti ilə gedir, Bakıdan Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına çəkilibdir. Bir neçə gün bundan öncə həmin kəmər vasitəsilə də neft ixracına başlanıbdır.

Üçüncü neft kəməri isə əsas kəmərdir, Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkiləsi neft kəməridir. Bu, böyük neft kəməridir və gələcəkdə Xəzər dənizində, təkcə Azərbaycanda deyil, hətta Qazaxıstanda və Türkmənistanda da hasil edilən neftin dünya bazarına çıxarılması üçün çox əhəmiyyətli kəmər olacaqdır. Amerika Birləşmiş Ştatlarının hökuməti bu neft kəmərinin çəkilməsinə çox böyük maraq göstərir. Biz də bu neft kəmərinin çəkilməsini çox mühüm bir strateji hadisə hesab edirik. Güman edirəm ki, neft şirkətləri, o cümlədən Amerakanın şirkətləri ilə birlikdə bu neft kəmərinin çəkilməsi üçün də lazımi işlər görüb onun inşasına başlayacağıq. Nəticə etibarilə bu, Qərb ölkələri şirkətlərinin bütün maraqlarını təmin edəcəkdir.

Sual: Cənab Prezident, bilmək istərdik ki, nüvə silahları sahəsində çalışan Rusiya alimləri ilə İranın birgə əməkdaşlığı Azərbaycan-İran münasibətlərinə necə təsir edir?

Heydər Əliyev: Biz istəyirik ki, Azərbaycan-İran münasibətləri normal olsun. Çünki İran cənubda bizim qonşumuz və böyük ölkədir. İranın nüvə silahlarına maraq göstərməsi bizi narahat edir. Onun Rusiya ilə əməkdaşlığı da Sizə və bütün dünyaya məlumdur. Biz ümumiyyətlə nüvə silahının əleyhinəyik. Xüsusən yaxın qonşumuz İranın nüvə silahı əldə etməsi bütün region üçün çox təhlükəlidir. Hesab edirik ki, bütün imkanlar vasitəsilə bunun qarşısı alınmalıdır.

Sonra ABŞ Hərbi Dəniz Akademiyasının professoru cənab Rassel Azərbaycan Prezidenti Heydər Əliyevə müraciətlə dedi:

- Cənab Prezident, xahiş edirik nəzərə alasınız ki, akademiyanı ziyarət etməyiniz bizim üçün çox tarixi bir hadisə oldu. Ona görə xahiş edirik Hərbi Dəniz Akademiyasının tarixini əks etdirən bu kitabı hədiyyə olaraq qəbul edəsiniz. Bu görüşümüzün tarixi əhəmiyyətini bir daha vurğulamaq məqsədi ilə, görüşdə iştirak edən hər bir kursant kitabı imzalayıbdır.

Professor Rassel görüş iştirakçılarının gurultulu alqışları altında kitabı dövlətimizin başçısına təqdim etdi.

Prezident Heydər Əliyev hədiyyə üçün təşəkkür edərək dedi:

- Mənim Amerika Birləşmiş Ştatlarına səfərimlə əlaqədar tərtib edilmiş kitabı və Azərbaycanın NATO ilə əməkdaşlığına həsr olunmuş kitabı Sizə təqdim edirəm.

Görüşdən sonra akademiyanın "Bankroft Holl" binası[50] qarşısında hörmətli qonağın - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə akademiya kursantlarının təntənəli marş mərasimi keçirildi.






































Daha sonra Azərbaycan Prezidenti ABŞ Hərbi Dəniz Akademiyasının 4 min kursantı ilə birgə nahar mərasimində iştirak etdi.

Dövlətimizin başçısı Heydər Əliyev burada kursantlar qarşısında çıxış edərək dedi:

- Mən sizi səmimi qəlbdən salamlayır, hər birinizə cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Donanmasının Akademiyası ilə tanış olmaq mənə çox böyük təsir etdi. Buranın şəraiti, binaları, bütün bu kompleks çox əzəmətlidir, nəhəngdir və fəxrедicidir. Ancaq mənə hər şeydən çox, akademiyanın kursantları, tələbələri, Amerika Birləşmiş Ştatlarının Silahlı Qüvvələrində xidmət etməyə hazırlaşan siz gənclər təsir etdiniz. Amerika Birləşmiş Ştatlarına, onun Silahlı Qüvvələrinə, Hərbi Dəniz Donanmasına və sizin akademiyaya, şəxsən hər birinizə öz hörmət və ehtiramımı bildirirəm. Amerika Birləşmiş Ştatlarının silahlı qüvvələrinin inkişaf etməsində, hərbi qüdrətinin güclənməsində öz şəxsi xidmətlərinizdə sizə uğurlar arzulayıram. Sizə cansağlığı, səadət, yeni-yeni uğurlar arzu edirəm.

Akademiyanın kursantları Azərbaycan Prezidenti Heydər Əliyevin hər bir cümləsini gurultulu və sürəkli alqışlarla qarşıladılar.

Nahar mərasimindən sonra Azərbaycan Prezidenti Heydər Əliyev Hərbi Dəniz Akademiyasının xatirə salonuna gəldi. Dövlətimizin başçısı vətən uğrunda döyüşlərdə həlak olmuş müdavimlərin abidəsi önünə əklil qoydu.

Azərbaycan Prezidenti Heydər Əliyev akademiya kompleksinin yerləşdiyi ərazi ilə tanışlığı davam etdirdi. Ölkəmizin rəhbərini admiral Harri Ruqhed müşayiət edirdi. Prezident Heydər Əliyev kompleksin ərazisindəki ibadətgahda oldu, Amerika Birləşmiş Ştatları Hərbi Dəniz Qüvvələrinin banisi Pol Con Consonun məzarını ziyarət etdi. Respublikamızın başçısına məşhur donanmaçının həyatı barədə ətraflı məlumat verildi.

Kompleksin ərazisi ilə tanışlıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev ilə akademiyanın rektoru, vitse-admiral super-intendant Con Rayanın görüşü oldu. Cənab Rayan ölkəmizin rəhbərinə müraciətlə dedi:

- Cənab Prezident, akademiyamızı ziyarət etməklə bizi son dərəcə şərəfləndirdiniz. Ümidvarıq ki, ziyarətinizdən tam razı qaldınız. Yəqin ki, 4 min kursantla qısa bir zamanda olan naharı da xoşladınız. 4 min gənc adamı ilin 365 günündə hər gün üç dəfə yedirtmək asan iş deyildir. Mənə bildirdilər ki, Siz bizim kursantlar qarşısında çıxış etmisiniz. Əminəm ki, kursantlarımız Sizin çıxışınızdan çox faydalanmışlar. Bu işlər üçün vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev ilə akademiyanın rektoru Con Rayan arasında ətraflı söhbət oldu. Respublikamızın başçısı zəngin tarixə malik ABŞ Hərbi Dəniz Akademiyasına gəlməsindən, bu hərbi təhsil ocağı ilə tanış olmasından məmnun qaldığını vurğuladı. Azərbaycan Prezidenti dedi ki, akademiyada gördüyü yüksək nizam-intizam, mütəşəkkillik onda böyük təəssürat doğurmuşdur.



Cənab Rayan dövlətimizin başçısına bildirdi ki, bu akademiya ABŞ Hərbi Dəniz Donanmasını yüksək ixtisaslı zabitlərlə təmin edən yeganə hərbi təhsil müəssisəsidir.

Görüşün sonunda Azərbaycan Prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi və akademiyanın fəaliyyətini əks etdirən albom təqdim olundu.

Respublikamızın rəhbəri akademiyanın rektoruna rəssam Rəfael Abbasovun rəsm əsərini, Azərbaycan-Amerika münasibətlərindən, ölkəmizin NATO ilə əlaqələrindən bəhs edən kitablar hədiyyə etdi.



### "Xolokost" xatirə muzeyi ilə tanışlıq

Aprelin 23-də Azərbaycan Prezidenti Heydər Əliyev yəhudi xalqının soyqırımı tarixini əks etdirən "Xolokost" xatirə muzeyinə[31] gəldi. Bələdçi respublikamızın rəhbərinə muzey haqqında geniş məlumat verdi.

Dövlətimizin başçısı soyqırım qurbanlarının faciəsinin tarixçəsi ilə ətraflı tanışlıqdan sonra xatirə salonundakı abidənin önünə əklil qoydu.

Prezident Heydər Əliyev xatirə muzeyində çıxış etdi.

### Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar!

"Xolokost" muzeyini ziyarət etmək çox əhəmiyyətlidir. Ancaq eyni zamanda bu ziyarət ağır hissiyyat doğurur.

Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırımı bəşər tarixində ən dəhşətli, ən faciəli hadisələrdən biridir. Biz Azərbaycanda



soyqırımın nə olduğunu bilirik. XX əsrdə bizim də xalqımıza qarşı bir neçə dəfə soyqırım siyasəti həyata keçirilmiş və azərbaycanlılar dəhşətli faciələrə düçar olmuş, məhv olmuşlar. Bunları görərək, xalqımız bu faciələrin şahidi olaraq biz yəhudilərin dünyada nə qədər faciələrlə rastlaşdığını da bilirik və bunu öz faciəmiz kimi qəbul edirik.

Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırım siyasəti dünyada misli görünməmiş, dəhşətli şəkildə olubdur. "Xolokost" muzeyi bunu əyani şəkildə göstərir. Doğrusu, bu faciələri bilməyimizə, ayrı-ayrı kinofilmlərdə bunları gördüyümüzə baxmayaraq, bu gün "Xolokost" muzeyindəki eksponatları görmək, müşahidə etmək çox ağır və çətindir. Bəzən təsəvvür etmək mümkün deyil ki, insan insana qarşı bu qədər vəhşilik edərmi? Ancaq bu, həqiqətdir. Yəhudilərə qarşı belə vəhşiliklər edilmişdir, bunu alman faşistləri etmişlər.

Yəhudi xalqı tarix boyu çox böyük sınaqlara çəkilmiş və çox böyük çətinliklərlə üzləşmişdir. Ancaq bunlara baxmayaraq, yəhudi xalqı bütün bu sınaqlardan keçərək öz qədim, zəngin mədəniyyətini, öz mənliyini qoruyub saxlamışdır. Yəhudi xalqını tamamilə məhv etməyə çalışmışlar. Ancaq heç kəs buna nail ola bilməmişdir. Ona görə nail ola bilməmişdir ki, yəhudi xalqı bəşər mədəniyyətini zənginləşdirmiş və bəşər tarixində böyük izlər qoymuş bir xalqdır. Tarix sübut etmişdir ki, bu xalqı məhv etmək mümkün deyildir.








"Xolokost" muzeyi yəhudilərin başına gəlmiş bəlaları, müsibəti, faciəni çox əyani şəkildə göstərir. Bu muzeyi yaradanlar, eksponatları buraya toplayanlar, bəşəriyyətə yüksək səviyyədə təqdim edənlər tarixi missiyanı həyata keçirirlər. Alman faşizminin, nasizmin bəşəriyyətə qarşı etdiyi vəhşiliyi dünyaya - bugünkü və gələcək nəsillərə göstərmək lazımdır. Bəşəriyyət bir daha belə hallara yol verməməlidir.

Ona görə də "Xolokost" muzeyi çox böyük əhəmiyyət kəsb edir. Muzey həm bu faciəni əks etdirir, eyni zamanda insanları daha da sayıq olmağa dəvət edir, insanları belə faciələrə qarşı mütəşəkkil olmağa dəvət edir. Muzeyin yaradıcıları və bu eksponatları buraya toplayanlar böyük xeyirxah iş görmüşlər.

Mən bu gün burada, muzeydə yanan əbədi məşəl önündə, həlak olmuşların xatirəsi qarşısında baş əydim. Bu muzeyi yaradanların və onu dünyaya nümayiş etdirənlərin xidmətləri qarşısında da baş əyirəm. Bu muzey təkcə yəhudilər üçün yox, dünyanın bütün xalqları üçün lazımlıdır. Hər bir insan bu muzeylə tanış olarkən, eksponatları seyr edərkən özü üçün nəticə çıxarmalıdır. Yeganə nəticə ondan ibarətdir ki, bəşəriyyət bundan sonra heç yerdə, heç bir xalqa qarşı soyqırımına yol verməməlidir. Dünya birliyi müharibə alovlarını söndürməli, münaqişələri ləğv etməli, dünyada sülhün, əmin-amanlığın yaranması üçün daha çox səylər göstərməlidir. Bunlar muzeyə baxarkən çıxarılan nəticədir.

Mən Sizə təşəkkür edirəm. Çox sağ olun, bizə çox geniş məlumatlar verdiniz.






Remember the Children



Azərbaycanda yəhudilər qədim zamanlardan yaşayıblar. Onlara Azərbaycan xalqı tərəfindən heç vaxt ayrı-seçkilik edilməyibdir. Yəhudilər Azərbaycanda həmişə bərabər hüquqa malik olublar. İkinci Dünya müharibəsi zamanı alman faşizminin Sovetlər İttifaqına hücum etməsi nəticəsində işğal olunmuş torpaqlardan 60 minə yaxın yəhudi Azərbaycan ərazisinə köçürülmüşdü. Müharibə illərində Azərbaycanın daxilində olan çətinliklərə baxmayaraq, yəhudilərə böyük qayğı göstərilib, onlar yerləşdirilib və yaşamaları üçün lazımi şərait yaradılıbdır.

Yəhudilər əvvəllər də - 20-ci illərdə Ukraynadan, Rusiyadan Azərbaycana köçürülüblər, Azərbaycanda özlərinə vətən tapıblar, doğma vətənləri kimi Azərbaycanda yaşayıb, qurub, çalışıblar.

İndi müstəqil Azərbaycanda yəhudilər tam bərabər hüquqlu insanlar, vətəndaşlar kimi yaşayır, işləyir, ölkəmizin ictimai-siyasi həyatında iştirak edirlər. Azərbaycanda müsəlman, islam konfessiyası ilə yanaşı, xristian və yəhudi konfessiyaları da fəaliyyət göstərir. Bunlar müstəqil Azərbaycanın bugünkü reallığıdır. Biz yəhudi xalqına öz həyatını qurmaqda və öz arzularına çatmaqda uğurlar arzulayırıq.

Mən sizin muzeyə 20-ci illərdə Azərbaycana köçürülmüş yəhudilər haqqında da bəzi arxiv materialları təqdim etmək istəyirəm. Bu materiallarla tanış olarkən görəcəksiniz ki, Azərbaycana köçürülmüş yəhudilərə o vaxt nə qədər böyük qayğı göstərilibdir. Güman edirəm ki, bu materiallar sizin üçün əhəmiyyətli olar. Sizə bir daha təşəkkür edirəm.

Prezident Heydər Əliyev arxiv materiallarını təqdim edərkən bildirdi ki, vaxtilə Azərbaycanın böyük heykəltəraşı, rəssamı Sabsay çox gözəl fikirlər söyləyibdir. Bu materiallar arasında onun yazısı da var. Bunlar sizin üçün əhəmiyyətli olar.

Dövlətimizin başçısı muzeyə kitablar və İsrailin Baş naziri Benyamin Netanyahunun Bakıya səfəri barədə albom da bağışladı.

Muzeyin nümayəndəsi ölkəmizin rəhbəri Heydər Əliyevə minnətdarlıq edərək dedi:

- Cənab Prezident, çox gərgin səfər cədvəlinizdən vaxt ayırıb muzeyimizi ziyarət etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Yəhudilərə qarşı törədilmiş soyqırımın yad edilməsi üçün ictimaiyyət qarşısında verdiyiniz bəyanata görə Sizə təşəkkür edirik. Salonları gəzib muzeyimizlə tanış olarkən keçirdiyiniz kədər hisslərini anlayır və hesab edirik ki, muzeyimiz insanlarda məhz bu cür hisslər doğurmaq üçün yaradılmışdır. Muzeyimizə verdiyiniz hədiyyəyə görə də Sizə təşəkkürümüzü bildiririk. Bu sənədlər yəhudilərin başına gəlmiş hadisələrin ictimaiyyətə daha ətraflı şəkildə çatdırılması üçün bizə yardımçı olacaqdır.

Hesab edirik ki, yəhudilərin aqibəti təkcə Avropanı deyil, dünyanın bir çox ölkələrini əhatə edibdir. Biz Sizinlə tamamilə razıyıq ki, Xolokostu - yəhudi



soyqırımını dərk etmək demokratik dəyərlərin, azadlıq amallarının inkişafı, çiçəklənməsi işinə yardımçı olmaq üçün hər birimizə lazımdır və gərəklidir. İcazənizlə, bu kitabı Sizə təqdim edim. "Dünya gərək unutmasın" adlanan bu kitabda, muzeydə gördüyünüz kimi, Xolokostun tarixindən bəhs olunur. Ümidvarıq ki, kitab tarixin bu mühüm anını yad etməkdə Sizə həmişə yardımçı olacaqdır.

Sizə bir daha təşəkkürümüzü bildirir və xahiş edirik ki, Azərbaycan xalqına bizim salamlarımızı yetirəsiniz.

Azərbaycan Prezidenti Heydər Əliyev muzeyin rəhbərliyinə təşəkkür etdi və Xatirə kitabına ürək sözlərini yazdı:

"Xolokost" muzeyini ziyarət edərkən yəhudi xalqının keçirdiyi faciəni, iztirabları ürəkdən təsəvvür etdim. Yəhudi xalqı ilə iki əsrdən artıq soyqırımı siyasətinə məruz qalmış Azərbaycan xalqının həyatında oxşarlıq çoxdur. Özlərinin keçmişini unutmayan xalqlarımız həm tarixi həqiqəti bərpa etmək, həm də üzləşdikləri iztirabların hazırda və gələcəkdə baş verməməsi üçün birgə səylər göstərməlidirlər.

Öz adımdan, eləcə də Azərbaycan xalqı adından dərin kədər hissimi bildirərək bütün tərəqqipərvər bəşəriyyəti Xolokost faciəsini unutmamağa və hər hansı bir zorakılığa qarşı mübarizə aparmağa çağırıram.



## Amerika-Azərbaycan Ticarət Palatasında rəsmi qəbul



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə aprelin 26-da axşam Amerika-Azərbaycan Ticarət Palatası adından rəsmi qəbul təşkil olundu.

Həmin gün "Poçt" muzeyinin[32] salonuna ölkənin görkəmli siyasi xadimləri, senatorlar, konqresmenlər, ən iri neft şirkətlərinin rəhbərləri, nüfuzlu işgüzar dairələrin nümayəndələri, ABŞ-dakı Azərbaycan lobbisinin təmsılçiləri, Vaşinqtonda yaşayan soydaşlarımız toplaşmışdılar.

Rəsmi qəbul başlanmazdan əvvəl Azərbaycan Prezidenti Heydər Əliyev onlarla görüşüb söhbət etdi. Səfərinin böyük uğurla keçməsi, onun liderliyi sayəsində Azərbaycanın son illərdə qazandığı nailiyyətlər bir daha qeyd olundu.

Amerika-Azərbaycan Ticarət Palatasının həmsədri, səfir Riçard Armitac[33] rəsmi qəbulu giriş sözü ilə açaraq dedi:

- Axşamınız xeyir, xanımlar və cənablar! Amerika Birləşmiş Ştatları-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurası adından mən və həmsədrimiz Riza Vəziri Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri Heydər Əliyevi, eləcə də senatorlar Heyqlı, Kasiban Beykeri, Hovard Beykeri, cənab İqlbergeri, cənab Sunununu, səfir Morninqstarı salamlayırıq.



Sonra salona ABŞ-ın və Azərbaycanın dövlət bayraqları gətirildi, hər iki ölkənin dövlət himnləri səsləndi.

Riçard Armitac sözünə davam edərək dedi:

- Bu gün bizim üçün böyük şərəfdir ki, Azərbaycan Prezidenti Zati-aliləri Heydər Əliyev bizimlə naharda iştirak edir.

Sonra o, çıxış üçün ilk sözü senator Çak Heyqlə verdi. Cənab Çak Heyql dedi:

- Zati-aliləri cənab Prezident, hörmətli görüş iştirakçıları! Bu gün sizinlə bir yerdə olmağımdan çox şadam. Bugünkü tədbir Amerika siyasətçilərinin Qafqaz regionuna olan marağını göstərir. Bəşər tarixində indiki qədər nadir bir məqam olmamışdır. Əgər biz qarşımızda duran çətinlikləri aradan qaldırmaq istəyiriksə, bu, həm ölkələrimizin rəhbərlərindən, həm də parlamentlərin üzvlərindən və biznes dairələrindən böyük səylər tələb edir. Heç vaxt yol verə bilmərik ki, gələcəyimiz keçmişimizin əsiri olsun. Dövlətlərin, siyasətçilərin keçmişdə buraxdıqları səhvlərdən nəticələr çıxarmalıyıq. Bizə inkişaf naminə



inkişaf lazım deyil. İnkişaf insanlara, demokratiyanın, bazar iqtisadiyyatının yüksəlməsinə xidmət etməlidir. Boru kəmərlərinin çəkilməsi, kommersiya maraqları bu sahədəki işimizin bir hissəsidir. İndi Kosovoda baş verən hadisələr dünyadakı dahi adamları bir daha düşündürməlidir. Elə etmək lazımdır ki, gələcəkdə buna bənzər hadisələr baş verməsin, sabah dünya daha təhlükəsiz, daha yaxşı olsun. Tam inanıram ki, Kosovo hadisələri nəinki Birləşmiş Ştatların mənafeyinə, həm də regiondakı bütün ölkələrə, o cümlədən NATO ölkələrinə, Türkiyəyə, habelə ərəb dünyasına və Xəzər dənizi hövzəsinə də təsir göstərir. Əgər biz qeyri-sabitliyin qarşısını almasaq, onda bəşəriyyətin gələcəyi çox acınacaqlı nəticələrlə üzləşə bilər.

Cənab Prezident, Sizinlə bir yerdə olmağımdan bir daha məmnunluğumu bildirir, bütün həmkarlarım adından Sizə salamlar söyləyirəm. Çox şadıq ki, bu gün vaxtınızı bizimlə bölüşdürürsünüz. Ümid edirəm ki, belə imkanlar çox olacaq və biz təkcə keçmişdəki hadisələr deyil, həm də gələcək barədə danışacağıq. Çox sağ olun, Sizə minnətdarlığımı bildirirəm.

Riçard Armitac senatora təşəkkür edərək dedi ki, bugünkü tədbirin bir nəticəsi də ondan ibarət olacaq ki, Azərbaycanda qaçqın uşaqları üçün məktəb tikiləcəkdir. Sizin hamınızın qarşısında zərflər var. Bunlarda məktəb tikintisi layihəsi Sizə təqdim olunmuşdur. Xahiş edirəm, zərflərdəki şəkillərə diqqət yetirin. Elə bilirəm, onları gördükdən sonra hamınız təsirlənəcəksiniz. Xahiş edirəm, hamınız bu layihəni dəstəkləyəsiniz.

1997-ci ildə Mərkəzi Asiyaya və Qafqaza səfər zamanı bizimlə birlikdə olan bir xanım səfərdən sonra demişdi: bu ölkədə demokratiyaya və bazar iqtisadiyyatına keçid lazımdır. Lakin buna nail olmaq üçün dözümlü olmalı və ardıcıl işləməliyik.



Birləşmiş Ştatlar 1776-cı ildə istiqlaliyyət qazanmış, ötən 220 il demokratiyanın tərəqqisi dövrü olmuşdur. Bizə 10 ildən artıq vaxt lazım oldu ki, konstitusiyamızı qəbul edək. 89 ildən sonra quldarlığa son qoyuldu. 144 ildən sonra hamıya səsvermə hüququ verildi. 188 ildən sonra vətəndaşlarımızın hamısı bərabər hüquqlu oldular. Demokratiyaya doğru inkişaf indi də davam etməkdədir. Bu, sonu olmayan mübarizədir. Birləşmiş Ştatlarda biz çox zaman keçmişimizi unuduruq və özümüzdən tələb etmədiklərimizi başqalarından tələb edirik. Azərbaycan cəmi səkkiz il ərzində demokratiyaya doğru çox mühüm addımlar atmışdır. Aydındır ki, görüləsi işlər daha çoxdur. Lakin indi qısa müddət ərzində böyük işlər görülür və yeni minillikdə bütün potensialını həyata keçirmək əzmində olan Azərbaycan Respublikasının nümayəndələri ilə bir sırada olmaq böyük şərəfdir.

Xanımlar və cənablar, iki böyük millətin - Birləşmiş Ştatlar və Azərbaycan xalqlarının şərəfinə badə qaldırıram. Bu iki böyük xalqın liderlərinin - Prezident Əliyevin və Prezident Klintonun sağlığına və yeni minillikdə xalqlarımız arasında davam edəcək dostluq, əməkdaşlıq şərəfinə badə qaldırıram.

İndi isə əfsanəvi bir şəxsiyyətə - böyük siyasi xadim, vaxtilə müdafiə naziri, səfir, Dövlət katibi işləmiş Lourens İqlbergerə söz vermək istəyirəm. O, hər səhər yuxudan yalnız bir fikirlə oyanır: bu gün xalqım üçün daha nə edə bilərəm?

Cənab Lourens İqlberger çıxışına bu sözlərlə başladı:

- Cənab Prezident! Makiavelli can üstündə olanda keşiş onun yanına gəlib bir neçə dəfə soruşur ki, sənin günahın varmı? Lakin cavab almır. Sonuncu dəfə soruşanda Makiavelli deyir ki, indi düşmən qazanmağın vaxtı deyildir.

Mən də elə düşünürəm ki, indi düşmən qazanmaq vaxtı deyil, lakin açıq danışmağın vaxtıdır. Birləşmiş Ştatlar Kosovoda insan hüquqlarının pozulmasına qarşı ciddi çıxış edir. Seçilmiş taktikanı bəlkə də çoxumuz bəyənmirik. Amma məqsəd heç kimdə mübahisə doğurmur. Elə bu kontekstdə mən soruşmaq istəyirəm: əhalisi insan hüquqlarının pozulmasına məruz qalmış ölkəyə qarşı ədalətsiz qanunu ABŞ Konqresi necə çıxara bilmişdir? Konqresmenlər yalnız senator Beykerin və mənim etdiklərimizi etməlidirlər. Onlar qaçqın düşərgələrinə gedib hər şeyi öz gözləri ilə görməlidirlər. Bu düşərgələr neçə illərdir ki, mövcuddur. Azərbaycan hökuməti əlindən gələnköməyi edir, buna baxmayaraq, qaçqınlar olduqca çətin vəziyyətdə yaşayırlar.







Qaçqınlar ona görə düşərgələrdədir ki, digər ölkə Azərbaycana qarşı təcavüz etmişdir. Hökumətin bütün səylərinə baxmayaraq, Konqres təcavüz qurbanlarını cəzalandıran qanun qəbul etmişdir. Bu, humanitar əzablar qanunvericiliyidir və praktiki olaraq Azərbaycana humanitar yardımın qarşısını alır.

Oradakı vəziyyət bəlkə də Kosovodakı qədər acınacaqlı deyil, lakin ona çox yaxındır. Başa düşə bilmirəm, bir halda ki, biz, ayrı-ayrı amerikalılar öz ölkəmizin ədalətli qərar qəbul edən ölkə olmasına inanırıq, necə olur ki, Konqresin belə qanunu qüvvədə saxlamasına razı oluruq?

Bu, təkcə humanitar faciə qanunvericiliyi deyildir. Azərbaycanın düşməni Rusiyadan silah-sursat, vəsait, dəstək alır, biz isə buna sakitcəsinə dözürük, Azərbaycanda bütün bunları törədən ölkəyə hələ bir dəstək də veririk. Əgər güzgüdə özümüzə baxsaq, özümüzü faciəyə qarşı çıxan ölkə kimi görmək istəsək, onda 907-ci düzəliş çoxdan cəhənnəmə vasil olmuşdu. Əgər Konqres bütün bunları başa düşmürsə, özümüz bu faktları Konqresə sadalamalıyıq. Senat, Nümayəndələr Palatası işğalı dəstəkləyən qanunvericiliyi aradan götürməlidir.

Yuqoslaviyadakı faciələrlə məşğul olarkən daim yadda saxlamalıyıq ki, dünyanın digər regionlarında da öhdəliklərimiz vardır. Biz səhv etmişik.

Sağ olun.

Riçard Armitac cənab İqlbergerə təşəkkür edərək dedi:

- Elə bilirəm, hamımız bu fikirdəyik. Çox yaxşı çıxış etdiniz.

Burada əyləşənlərin Amerika-Azərbaycan Ticarət Palatasının fəaliyyətindən nə dərəcədə xəbərdar olduqlarını bilmirəm. Amma deməliyəm ki, bu gün palatanın həmsədri Riza Vəzirinin ad günüdür və onu təbrik edirik. Riza, deməzsinizmi, bu ad günündə ən böyük arzunuz nədir? Cavab belədir: 907-ci düzəlişin aradan götürülməsi.

Xanımlar və cənablar, siyasətdə ayrı-seçkilikdən xoşum gəlmir. Lakin mən respublikaçıyam, daim demokratlara qarşı çıxış etmişəm. İndi sizin qarşınızda demokrat çıxış edəcəkdir. O, bir vaxtlar mənim tutduğum vəzifəni tutub. Mən Riçard Morninqstarı dəvət edirəm. O, Prezidentin və Dövlət katibinin Xəzər hövzəsi ölkələri üzrə xüsusi müşaviridir, Azərbaycan-Amerika dostluğu, əlaqələri üçün çox iş görmüşdür. Bu yaxınlarda Brüsselə - təzə vəzifəyə gedir, Avropa Birliyində ABŞ-ın nümayəndəsi olacaqdır. Riçard, Sizin səylərinizə, Azərbaycan-Amerika dostluğuna töhfənizə hörmət əlaməti olaraq Sizə Azərbaycan Respublikasının poçt markalarını əks etdirən hədiyyə təqdim edirəm. Azərbaycan hökumətinin adından bu xalçanı da Sizə təqdim edirəm. Onun toxunmasına günlərlə vaxt sərf olunmuşdur. Mən bilirəm ki, Siz də

Azərbaycan-Amerika münasibətlərinin yaxşılaşdırılması üçün saatlar və günlər sərf etmisiniz, ABŞ-ın enerji siyasətini həyata keçirmisiniz. Gələcək vəzifənizdə hamımızın adından Sizə müvəffəqiyyətlər diləyirəm.

Cənab Riçard Morninqstar palatanın həmsədrinə təşəkkürünü bildirərək dedi:

- Çox sağ olun. Möhtərəm Prezident Heydər Əliyev, Sizə də minnətdaram.

Xüsusi müşavir təyin edilərkən hamı mənə deyirdi ki, bu, tamamilə yeni bir iş olacaqdır. Riçard Armitacın işini davam etdirmək çox çətin olmuşdur. Əslində mən bu işi onun kimi apara bilməmişəm.

Ötən cümə günü Prezident Şevardnadze ilə nahar edirdim. O, 1991-93-cü illəri xatırladı. Həmin illərdə ABŞ-dan Gürcüstana çoxlu humanitar yardım göndərilmişdi və Prezident Şevardnadze inanır ki, bu yardım onun ölkəsini xilas etdi.

Prezident Əliyev, cənab İqlberger, cənab senatorlar, mənim üçün böyük başucalığıdır ki, bu axşam sizinlə birlikdəyəm. Şərəfdir ki, Xəzər regionunun böyük lideri Prezident Heydər Əliyev ilə birlikdəyəm. Qonaqların hamısı təsdiq edər ki, Zati-aliləri Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul edibdir. Beləliklə, Azərbaycan ABŞ-ın geniş səpkili maraqlarına cavab verən bir ölkədir. Azərbaycan və Amerika Birləşmiş Ştatları regionun enerji ehtiyatlarının istifadə olunması və daşınması barədə eyni fikirdədirlər. Cəmi on







gün əvvəl Prezident Əliyev, mən və Yan Kalitski, burada olanların bir çoxu Gürcüstanda idik, Bakı-Supsa boru kəmərinin açılması təntənələrində iştirak edirdik. Kəmərin istifadəyə verilməsi nümayiş etdirdi ki, Azərbaycan, eləcə də Gürcüstan bizim etibarlı, əla tərəfdaşlarımızdır. Coğrafi-strateji baxımdan çox həssas olan həmin regionda bu ölkələr vasitəsilə öz planlarımızı həyata keçirə bilərik.

Neft kəmərinin açılışında Prezident Əliyevin dediyi kimi, Bakı-Supsa və Bakı-Ceyhan xətlərinin açılması Şərq-Qərb boru kəmərlərinin, nəqliyyatının işləməsi üçün çox vacibdir. Bunlar Qafqaz, Mərkəzi Asiya ölkələri, Türkiyə, Avropa və Asiya arasında iqtisadi və siyasi əlaqələrin inkişafına gətirib çıxaracaqdır. Azərbaycanın və onun qonşularının suverenliyini möhkəmləndirəcəkdir.

Qafqazın üç ölkəsinin liderləri ilə xanım Olbraytın görüşündə Prezident Əliyev demişdir ki, bu əlaqələr regionda ədavəti, münaqişələri aradan götürəcək və iqtisadi artıma səbəb olacaqdır, Azərbaycan və digər Xəzər ölkələri demokratiyaya, qlobal iqtisadiyyata inteqrasiya edəcəklər. Bu, ABŞ-ın Azərbaycan, Xəzər regionu üzrə siyasətinin canıdır.

Prezident Əliyev dövlət xadimi bacarığı ilə müxtəlif boru kəmərlərinin reallaşmasını həyata keçirmişdir, Şərq-Qərb dəhlizinin yaradılmasında əldə etdiyimiz tərəqqidə bizə yardımçı olmuşdur. Prezident Əliyevin, mən deyərdim

ki, sərt mövqeyi, Azərbaycan xalqı olmadan nə Bakı-Novorossiysk, nə də Bakı-Supsa kəmərləri mümkün olmazdı. Son aylar Bakı-Ceyhan kəməri ilə bağlı işimizdə Prezident Əliyevin rolu əsas olmuşdur. Məhz bu rola görə biz aprelin 13-də İstanbulda birgə sənəd imzalaya bildik. Prezident Dəmirəlin və Prezident Əliyevin səyləri olmasaydı, əslində bunu edə bilməyəcəkdik.

Transxəzər qaz kəməri layihəsinin irəlilədilməsindəki xidmətlərinə görə də Prezident Əliyevə minnətdarıq. O, Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzindəki nitqində bu layihənin vacib olduğunu bir daha vurğuladı. İnanırıq ki, bu layihənin, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində, regional əməkdaşlıq sahəsində fəaliyyətdə Prezident Əliyev lider kimi özünü bir daha göstərəcəkdir. Xahiş edirəm, ayağa qalxasınız, mənə qoşulasınız. Prezident Əliyevin sağlığına və Azərbaycan xalqının sağlığına badə qaldıraq. Qoy bizim ümid və maraqlarımız dərinləşsin, artsın və Şərq-Qərb layihələri həyata keçsin, müxtəlif boru kəmərləri çəkilsin. Firavan, demokratik Azərbaycanın şərəfinə! Sağ olun, Prezident Əliyev!

Sonra "Eksson" neft şirkətinin prezidenti, Amerika-Azərbaycan Ticarət Palatasının yeni seçilmiş həmsədri Terri Kunts çıxış edərək cənab Armitacın xidmətlərindən danışdı və dedi ki, o, palatanın təsis etdiyi Hacı Zeynalabdin Tağıyev adına illik mükafata layiq görülmüşdür. Mükafatı nəyə görə ona verdiyimizi daha yaxşı izah etmək üçün deməliyəm ki, Zeynalabdin Tağıyev Azərbaycan xalqına sədaqəti, sevgisi və xeyirxahlığı, xalqına sonsuz xidməti ilə tanınırdı və yorulmaz iş, uğur simvoludur, azərbaycanlıların bir çox nəsilləri üçün ilham mənbəyidir. Yəqin hamı razılaşar ki, cənab Armitac Zeynalabdin Tağıyev adına mükafatı almağa həqiqətən layiqdir, ondan layiqlisi yoxdur. Cənab səfir, Sizin ötən illərdəki fəaliyyətinizə görə minnətdaram. Riza və mən Sizi böyük məmnuniyyətlə təbrik edirik.

Palatanın mükafatı cənab Armitaca təqdim olundu.

Riçard Armitac mükafat üçün təşəkkür edərək dedi:

- Çox sağ olun. Mən Amerika-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasındakı işimi böyük məmnuniyyətlə xatırlayıram. Çox yaddaqalan vaxt idi. Hamınıza minnətdaram.

İndi isə Azərbaycan Prezidenti Zati-aliləri Heydər Əliyevi xüsusi məmnuniyyət hissi ilə yüksək kürsüyə dəvət edirəm.

Cənab Prezident, istəyirəm bu axşam hamımızın adından Sizə minnətdarlığımı bildirim. Bir daha onu da demək istəyirəm ki, demokratiya tam proses deyil, həmişə mütəşəkkil, həmişə səmərəli deyildir. Lakin biz inanırıq ki, bu, yeganə yoldur. Cənab Prezident, Siz bu yolu cəsarətlə seçdiniz. Bu gün biz çoxlarından eşitdik, cənab İqlberger də bunu vurğuladı ki, Siz mürəkkəb qonşuluqda yaşayırsınız. Azərbaycanın uğurunu istəməyənlər çoxdur. Çoxları Azərbaycanı demokratik, müstəqil ölkə kimi görmək istəmir. Başa düşürük ki,





Siz bundan sonra Azərbaycanın demokratiyası üçün daha çox mübarizə aparmalı olacaqsınız.

Cənab Prezident, mən Sizi Birləşmiş Ştatların Hərbi Dəniz Akademiyasında gördüm. Kursantlar qarşısında çıxış etdiniz və onlara yüksək ruh verdiniz. Azərbaycanın demokratiyasının, müstəqilliyinin bütün düşmənlərinə demək istəyirəm ki, Prezident Əliyev əla formadadır və bu demokratiya davam edəcəkdir.

Cənab Prezident, Amerika-Azərbaycan Ticarət Palatası adından iki məqamı nəzərinizə çatdırmaq istəyirəm. Birincisi Sizə təqdim olunacaq simvolik hədiyyədir. Bunu Sizə təqdim etmək mənim üçün xoşdur. Həm də Amerika-Azərbaycan Ticarət Palatasının liderlik mükafatını təqdim etmək istəyirəm. Onun üzərində ABŞ-ın keçmiş Prezidenti Avraam Linkolnun 1862-ci il noyabrın 19-da dediyi sözlər həkk olunubdur: "Bu millət Allahın köməyi ilə azad oldu və bundan sonra bu ölkədə hər şey xalq üçün və xalqla birlikdə ediləcəkdir." Prezident Linkoln müdrik, cəsarətli adam idi və bu sözləri Pensilvaniya ştatında məşhur döyüşdən sonra demişdi. O dövr ABŞ tarixində ən təlatümlü dövr idi. Bu çıxış amerikalılara ruh verdi.

Böyük lider kimi Siz də Azərbaycanı təlatümlü dövrlərdən çıxarmısınız. Ona görə Sizin hərəkətləriniz, sözləriniz azərbaycanlıların bir çox nəsillərinə örnək olacaqdır. Səkkiz il əvvəl Azərbaycanın qazandığı müstəqillik Sizin sayənizdə, liderliyiniz sayəsində daimi olacaqdır.

Cənab Prezident, bu hədiyyə isə Birləşmiş Ştatlar prezidentlərinin markalarıdır.

Riçard Armitac salona toplaşanların gurultulu alqışları altında hədiyyələri və mükafatı Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Heydər Əliyev rəsmi qəbulda nitq söylədi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizi bu axşam Vaşinqtonda, bu əzəmətli salonda səmimi qəlbdən salamlayıram və sizinlə bir yerdə olmağımdan çox məmnunluğumu bildirirəm.

Amerika-Azərbaycan Ticarət Palatası bir neçə ildir ki, fəaliyyət göstərir və ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etməsinə, ticarətin genişlənməsinə və ümumiyyətlə dostluğun, əməkdaşlığın yüksəlməsinə dəyərli xidmətlər göstərir. Mən bu fürsətdən istifadə edib Amerika-Azərbaycan Ticarət Palatasını əldə etdiyi nailiyyətlər münasibətilə təbrik edirəm. Palatanın üzvlərinə, tərəfkeşlərinə bu nəcib işlərində yeni-yeni uğurlar arzulayıram.

Amerika-Azərbaycan Ticarət Palatası eyni zamanda Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələrinin inkişafına da xidmət edir. Bu gün bir daha bəyan edirəm ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarını özünə strateji tərəfdaş hesab edir. Biz Amerika-Azərbaycan əlaqələrini strateji tərəfdaşlıq əlaqələri kimi yüksək qiymətləndiririk, bu əlaqələrə sadiqik və bundan sonra da sadiq olacağıq.

Mən Vaşinqtona NATO-nun 50 illik yubileyi münasibətilə keçirilən mərasimlərdə iştirak etmək üçün gəlmişəm. Bu mərasimlər artıq arxada qalıbdır. NATO-nun 50 illik yubileyi münasibətilə dünən əsas toplantıda hamımız olduq. Hər kəs öz fikirlərini bildirdi. Mən də verilən vaxtdan istifadə edib toplantıda öz sözlərimi dedim. Bu gün onu bəyan edirəm ki, əlli il müddətində NATO Avropada, dünyada sülhün, əmin-amanlığın, sabitliyin təmin olunmasında dəyərli xidmətlər göstərmişdir. Biz NATO-nun fəaliyyətini yüksək qiymətləndiririk. NATO-nun gələcək fəaliyyətinə də dəstək veririk. Vaşinqtonda NATO-nun irəli sürdüyü yeni strategiya konsepsiyasını bəyənir və alqışlayırıq. Əlli il müddətində NATO bəşəriyyət qarşısında böyük xidmətlər göstərib və bu gün əminliklə demək olar ki, o, gələcəkdə öz fəaliyyətini genişləndirəcək, dünyada sülhün, əmin-amanlığın, sabitliyin təmin edilməsində yeni-yeni xidmətlər göstərəcəkdir.





Eyni zamanda Amerika Birləşmiş Ştatlarının NATO-nun əlli illik tarixindəki xidmətlərini də biz yüksək qiymətləndiririk. Əlli il ərzində Amerika Birləşmiş Ştatları NATO-nun digər üzvləri ilə birlikdə böyük sınaqlardan keçmişdir. "Soyuq müharibə" on illərlə davam edibdir. Nəhayət, ona son qoyulubdur. Sosializm sistemi dağılıb və sovet imperiyası, Sovet İttifaqı süqut edibdir. Bunun nəticəsində isə Sovetlər Birliyinə daxil olan, onun tərkibində yetmiş il yaşamış respublikalar öz dövlət müstəqilliyini əldə ediblər. Bu respublikalar içərisində Azərbaycan da 1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar öz müstəqilliyini əldə edibdir. Bu gün sizə bəyan edirəm ki, ötən səkkiz il ərzində Azərbaycan çox ağır və mürəkkəb vəziyyətdə çətin sınaqlardan keçərək dövlət müstəqilliyini qoruyub saxlayıb, inkişaf etdiribdir. Bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əbədidir və dönməzdir.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanda siyasi, iqtisadi islahatlar həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur və inkişaf etdirir. Azərbaycan sülhsevər xarici siyasət aparır, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa və bunları inkişaf etdirməyə çalışır. Bütün bunlar Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsaslarını təşkil edir. Mən bu gün burada, Vaşinqtonda bir də bəyan edirəm ki, demokratiya yolu Azərbaycan üçün dönməz

yoldur. Biz Azərbaycanı tam demokratik dövlət səviyyəsinə qaldıracağıq, buna qadirik və buna nail olacağıq.

Azərbaycanda iqtisadiyyat bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir. Biz özəlləşdirmə proqramını geniş surətdə həyata keçiririk. Torpaq islahatı proqramını həyata keçiririk, torpağı şəxsi mülkiyyətə, kəndlilərə vermişik. Özəlləşdirmə Azərbaycanın iqtisadiyyatına yeni-yeni nailiyyətlər gətirir.

Bildiyiniz kimi, keçmişdə Sovetlər İttifaqına mənsub olmuş digər respublikaların iqtisadiyyatı kimi, Azərbaycanın iqtisadiyyatı da hazırda keçid dövrünün bütün çətin problemlərini yaşayır. Bu çətinliklərə baxmayaraq, biz həmin problemləri aradan qaldırırıq. Üç il bundan öncə Azərbaycanda inflyasiyanın qarşısı alınıb, əvvəlki illərdə mövcud olan iqtisadi tənəzzülün qarşısı alınıbdır. İqtisadiyyatda sabitlik yaranıb və bunun nəticəsində 1995-ci ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı inkişaf yolu keçib. İnflyasiyanın qarşısını tamamilə almışıq, Azərbaycanın milli valyutasının - manatın dəyəri sabitdir. Azərbaycanda istehsal inkişaf edir. Ümumi daxili məhsul istehsalında ilbəil artım mövcuddur.

Biz Beynəlxalq Valyuta Fondu[34], Dünya Bankı[35], digər maliyyə mərkəzləri ilə sıx əməkdaşlıq edirik. Bu gün iftixar hissi ilə sizə bildirmək istəyirəm ki, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının fikrinə görə, Azərbaycan





keçmişdə Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyi tərkibində olan respublikalar içərisində iqtisadiyyatına görə ən yüksək göstəricilər əldə etmişdir.

Nəzərə almalısınız ki, Azərbaycan bütün bu nailiyyətləri ağır şəraitdə əldə edibdir. Azərbaycana qarşı əsassız torpaq iddiası ilə çıxış edən Ermənistan 1988-ci ildən ölkəmizə hərbi təcavüzə başlayıbdır. Bu təcavüz nəticəsində və bir çox ölkələrin böyük yardımı sayəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Ermənistan silahlı qüvvələrinin apardığı etnik təmizləmə nəticəsində, işğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı zorla köçürülüb və onlar indi çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Biz 1994-cü ilin may ayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs sazişi əldə etmişik. Beş ildir ki, atəş yoxdur. Ancaq hələ sülhə də nail olmamışıq, danışıqlar aparırıq. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu münasibətlə ATƏT-in Minsk qrupuna və onun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın fəaliyyətinə ümidlər bəsləyirik. Ancaq təəssüflər olsun ki, ATƏT-in Minsk qrupu hələ də öz fəaliyyətini lazımi səviyyəyə qədər qaldırmayıbdır. O cümlədən ATƏT-in həmsədrlərindən biri olan Amerika Birləşmiş Ştatlarının da fəaliyyəti zəifdir. Mən bu barədə fikirlərimi bu gün Dövlət Departamentində Dövlət katibi xanım Olbraytla görüşümdə bir daha bildirdim. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün biz Amerika Birləşmiş Ştatlarından daha da ciddi addımlar gözləyirik.

Bu sahədə Amerika Birləşmiş Ştatlarının imkanları böyükdür. O, bu imkanlarından istifadə etməlidir. Çünki biz Amerika Birləşmiş Ştatları ilə çox səmimi, vicdanlı əməkdaşlıq edirik. Amerika Birləşmiş Ştatlarının Qafqazda, o cümlədən Xəzər dənizində, Azərbaycanda maraqlarının həyata keçirilməsinə yardım göstəririk. Ona görə də biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində Amerika Birləşmiş Ştatlarından daha da kəsərli fəaliyyət gözləyirik. Ümidvaram ki, biz bu fəaliyyətin şahidi olacağıq.

Nəzərə alınmalıdır ki, - mən bu gün Dövlət Departamentində bunu da bildirmişəm, - Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya son bir neçə ildə Ermənistanı silahlandırıbdır. Son üç il ərzində Rusiyadan Ermənistana qanunsuz, gizli olaraq bir milyard dollar dəyərində silah-sursat, hərbi texnika verilibdir. Ermənistanın ərazisində Rusiyanın hərbi bazası yerləşir. Həmin hərbi bazada böyük miqdarda qoşun hissələri yerləşdirilibdir. Son aylarda hərbi bazaya yeni silahlar, o cümlədən S-300 raketləri, MİQ-29 təyarələri gətirilir.

Biz Rusiyanın Ermənistanda hərbi baza saxlamasına və Ermənistana qanunsuz, gizli olaraq silah verməsinə etiraz edirik. Bu etirazımızı Rusiyaya bildirmişik və Amerika Birləşmiş Ştatlarına da çatdırmışıq. Ancaq bunlara baxmayaraq, Rusiya öz siyasətini davam etdirir. Bu isə Qafqazda sülhün, əmin-amanlığın təmin olunmasına təhlükə yaradır. Ona görə də Amerika Birləşmiş Ştatları



Qafqaz regionuna daha da çox diqqət yetirməlidir. Qafqaz regionuna onun iqtisadi marağı eyni zamanda siyasi marağı ilə də uzlaşmalı, birləşməlidir. Bunlar Qafqazda sülhün, əmin-amanlığın qorunmasına xidmət etməlidir.

Ermənistan-Azərbaycan münaqişəsinin mövcud olduğu şəraitdə ölkəmizin ərazisində bir milyondan artıq qaçqın vardır. Keçmiş Dövlət katibi cənab İqlberger burada qeyd etdi ki, onlar Azərbaycanda olarkən qaçqın düşərgələrində yaşayan vətəndaşlarımızı görüblər. Təsəvvür edin, insanlar altı ildir çadırlarda, ağır vəziyyətdə yaşayırlar...

Şübhəsiz ki, biz Amerika Birləşmiş Ştatlarının, NATO-nun Balkanda, Yuqoslaviyada Kosovo probleminin həll olunması üçün göstərdiyi səyləri qiymətləndiririk, bunu dünyada münaqişələrin qarşısının alınması yolunda göstərilən xidmət hesab edirik. Ancaq eyni zamanda sual olunur: beş, altı, yeddi il bundan öncə Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edərkən, Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti apararkən, minlərlə insanları şəhid edərkən Amerika Birləşmiş Ştatları nə üçün Azərbaycan xalqının hüquqlarının qorunmasına qalxmadı və öz güclü səsini ucaltmadı? Mən təəccüb edirəm.

Mən bir daha qeyd edirəm, şübhəsiz ki, Yuqoslaviyada, Kosovoda Amerika Birləşmiş Ştatlarının, NATO-nun tədbirlərini biz bəyənirik və insan azadlığının, hüquqlarının qorunması sahəsində görülən işləri yüksək qiymətləndiririk. Ancaq bu, hər yerdə olmalıdır. O cümlədən Azərbaycanda da olmalıdır, Qafqazda da olmalıdır.

Belə bir şəraitdə, belə ağır vəziyyətdə Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycan öz iqtisadiyyatını inkişaf etdirir. Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha da sıx bağlamaq istəyir.

Bu məqsədlərlə biz Xəzər dənizinin enerji ehtiyatlarını ilk dəfə dünyaya təqdim etməkdə təşəbbüs göstərmişik. Mən hesab edirəm ki, bu, Azərbaycan dövlətinin dünya birliyi qarşısında xüsusi xidmətidir. Çünki Xəzər dənizi böyük enerji ehtiyatlarına malikdir və Azərbaycan Xəzər dənizinin neft ehtiyatlarından istifadə olunmasına hələ 50 il bundan öncə, Sovet İttifaqının tərkibində olarkən başlayıbdır. İlk dəfə olaraq 1949-cu ilin noyabr ayında Xəzər dənizinin ortasında, sahildən yüz kilometr məsafədə Azərbaycan neftçiləri neft istehsalına başlayıblar, neft fontanı vurubdur. Bu da dünyada dənizin dərinliklərində neftçıxarma sahəsində ilk addım olmuşdur. Bunlar keçmişdə olubdur. Biz böyük təcrübə toplamışıq.

Azərbaycan müstəqillik əldə edəndən sonra, öz təbii sərvətlərinin, ehtiyatlarının tam sahibi olandan sonra bu təbii sərvətlərdən daha da səmərəli istifadə etməyə başladı. Bu məqsədlə biz dünyanın böyük neft şirkətləri ilə 1994-cü ilin sentyabr ayında ilk müqaviləni imzaladıq. Buna "Əsrin müqaviləsi" adı verildi. Bu müqavilədə Amerika Birləşmiş Ştatlarının bir neçə şirkəti - "AMOKO", "Yunokal", "Pennzoyl" şirkətləri iştirak edirlər. O şirkətlərlə və dünyanın başqa şirkətləri - "Bi-Pi"[36], "Statoyl" və digər şirkətləri ilə birlikdə biz Xəzər dənizinin enerji ehtiyatlarından dünya miqyasında istifadə olunması üçün ciddi addım atdıq, bunun əsasını qoyduq. Son üç-dörd il ərzində bu məsələ çox sürətlə inkişaf edibdir.



Biz ötən illərdə yeni müqavilələr imzalamışıq. Müqavilələrin ümumi sayı 16-ya çatıbdır. Bu müqavilələrə görə Azərbaycana qoyulan investisiya təxminən 50 milyard dollar dəyərində olacaqdır. Biz ilk müqavilənin həyata keçirilməsinə nail olmuşuq. 1997-ci ilin noyabr ayında ilkin neft əldə etmişik və o neftin dünya bazarlarına ixrac edilməsinə nail olmuşuq. Şimal marşrutu — Bakı-Novorossiysk marşrutu ilə neft daşınmasına nail olmuşuq. Ancaq eyni zamanda alternativ neft boru xətti yaratmağa çalışmışıq və buna da nail olmuşuq. Aprel ayının 17-də, on gün bundan öncə Gürcüstanın Qara dənizdəki Supsa limanına çəkilmiş 820 kilometr uzunluğunda Bakı-Supsa neft borusunun istismara verilməsini biz təntənəli qeyd etdik. Bu boru vasitəsilə neft artıq dünya bazarlarına çıxarılır.

Beləliklə, biz Xəzər dənizinin enerji ehtiyatlarını dünyaya tanıtdıq, dünyaya təqdim etdik. İndi Xəzər dənizinin Azərbaycan sektoru ilə yanaşı, digər sektorlarda - Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında da iş gedir və beləliklə, Xəzər dənizi indi dünyanın neft-qaz istehsal edən ən böyük bir regionuna çevrilibdir. Bu da müstəqil Azərbaycanın xidmətidir, dünya birliyi qarşısında xidmətidir. Biz bununla fəxr edirik. Bunların hamısını həyata keçirərkən biz Amerika Birləşmiş Ştatları ilə, Amerikanın hökuməti ilə və Amerikanın özəl sektoru ilə, neft şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Sabah Vaşinqtonda yeni üç müqavilə imzalanacaqdır. Bunlar bir daha onu göstərir ki, Xəzər dənizinin enerji ehtiyatları böyükdür, Azərbaycanın enerji ehtiyatlarına Amerika Birləşmiş Ştatlarında maraq artır və bir neçə neft şirkətləri bizimlə yeni müqavilələr imzalamaq üçün təkliflər irəli sürüblər. Bu təkliflərə baxırıq və güman edirəm ki, biz onları da həyata keçirməyə nail olacağıq.

Budur Azərbaycanın bugünkü reallığı. Ancaq bununla yanaşı biz böyük çətinliklərlə qarşılaşırıq. Burada cənab İqlberger çox düzgün qeyd etdi ki, 907-ci düzəlişin Azərbaycana tətbiq olunması, deyə bilərəm ki, dünyada ədalətsizliyin ən parlaq nümunəsidir. Təəssüflər olsun ki, biz belə bir ədalətsizliyə məruz qalmışıq. Biz neçə ildir çalışırıq ki, 907-ci düzəlişi aradan götürək. 907-ci düzəliş Azərbaycana qarşı 1992-ci ildə tətbiq olunubdur. Bunun da səbəbi odur ki, guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ancaq bu, həqiqətdən uzaqdır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir. Ermənistan Azərbaycanın dəmir yolunun böyük bir hissəsini işğal edibdir, əlinə keçiribdir və beləliklə bizim imkanlarımızı məhdudlaşdırıbdır. Ancaq Amerika Konqresində isə məsələyə tərsinə baxıblar - Ermənistanı cəzalandırmaq əvəzinə, əksinə, Azərbaycanı cəzalandırıblar. Təəssüf ki, belə hallar da olur.

Biz Amerikaya dünyanın ən demokratik ölkəsi kimi baxırıq. Biz Amerikaya dünyanın ən ədalətli ölkəsi kimi baxırıq. Amerikanın Konqresində, dünyanın belə bir demokratiya mərkəzində, ədalət mərkəzində bu qədər ədalətsizliyi

təsəvvür etmək mümkün deyildir. Ancaq bu da reallıqdır. Biz çalışırıq, mən sizə təşəkkür edirəm ki, siz də bizimlə bərabər çalışırsınız ki, 907-ci düzəliş götürülsün. Bunun mənəvi tərəfi bizim üçün hər şeydən çətindir. Çünki Azərbaycan belə bir ədalətsizliyə layiq deyildir. Güman edirəm ki, nəhayət, Amerika Konqresində də bu qərarın ədalətsizliyini dərk edəcəklər və biz bu maddənin ləğv olunmasına sizinlə birlikdə nail olacağıq.

Hesab edirəm ki, Azərbaycanın dünya birliyi qarşısında xidmətlərindən biri də odur ki, Azərbaycan qədim Böyük İpək yolunun bərpasında təşəbbüskar olubdur. Bilirsiniz ki, qədim Böyük İpək yolunun bərpası indi dünyanın bir çox dövlətlərini - Yaponiyadan tutmuş Avropanın qurtaracağına qədər, eləcə də Amerika Birləşmiş Ştatlarını maraqlandırır.

Biz son bir neçə ildə Avropa ilə Asiya arasında, Qərblə Şərq arasında əlaqələr yaradaraq, boru kəmərləri və Transqafqaz dəhlizi yaradaraq qədim Böyük İpək yolunun bərpası üçün əsaslar təşkil etdik. Bunların əsasında Avropa Birliyi ilə keçən ilin sentyabr ayında Bakıda qədim Böyük İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans keçirildi. Bu konfransda dünyanın 32 dövləti təmsil olunurdu, 14 beynəlxalq təşkilat iştirak edirdi. Biz bu konfransda Böyük İpək yolunun bərpası ilə əlaqədar mühüm sənədlər imzaladıq. Böyük məmnuniyyətlə bu gün bildirirəm ki, Amerika Birləşmiş Ştatlarının Senatında senator Braunbək bu məsələ ilə bir ildən çoxdur ki, məşğuldur. O, bu barədə qanun layihəsi hazırlayıbdır və qanun layihəsi artıq Senatın komitəsində bəyənilibdir. İki gün bundan öncə burada, Konqresin binasında senator Braunbək İpək yolu üzərində olan ölkələrin prezidentlərini dəvət etdi, bizimlə birlikdə bu məsələ müzakirə olundu və biz hamımız senator Braunbəkin bu qanun layihəsini təsdiqlədik. Əmin olduğumu bildirmək istəyirəm ki, Senat, Konqres nəhayət, bu qanun layihəsini qəbul edəcəkdir. Bu, Amerika Birləşmiş Ştatları üçün lazımdır. Bu, Avropa üçün lazımdır. Bu, Asiya üçün lazımdır. Bu, Qafqaz üçün lazımdır. Bu, Azərbaycan üçün lazımdır. Mən bizim bu sahədə əməkdaşlığımızı uğurlu hesab edirəm və Azərbaycanın xidmətləri də sizin gözünüzün qabağındadır.

Beləliklə, Azərbaycan bir tərəfdaş kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Əmin ola bilərsiniz ki, biz gələcəkdə də dostluğa, əməkdaşlığa, tərəfdaşlığa sadiq olacağıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi bundan sonra da sürətlə inkişaf etdirəcəyik. Bunun üçün imkanlar böyükdür. Azərbaycanın iqtisadiyyatında Amerika Birləşmiş Ştatlarının özəl sektorunun çox hissəsi iştirak edə bilər və beləliklə, biz əməkdaşlığımızı daha da inkişaf etdirə bilərik.

Hörmətli dostlar, bu sözləri sizə çatdıraraq bugünkü görüşə görə hamınıza bir daha təşəkkür edirəm. Sizin hər birinizə cansağlığı, səadət arzulayıram Amerika-Azərbaycan Ticarət Palatasına yeni-yeni uğurlar arzulayıram.

Amerika xalqına, Amerika dövlətinə bəşəriyyət qarşısında üzərinə düşən böyük və nəcib missiyanı həyata keçirməsində uğurlar arzulayıram.

Amerika-Azərbaycan dostluğuna və əməkdaşlığına eşq olsun!



Sizin hər birinizə cansağlığı, səadət arzulayıram. Sağ olun.

Dövlətimizin başçısı Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

Riçard Armitac: Cənab Prezident, çox sağ olun. Amerika-Azərbaycan Ticarət Palatası adından sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Qeyd edirəm ki, bu əlaqələr bundan sonra da davam etdiriləcəkdir.

Xanımlar və cənablar!

Direktorlar Şurası adından sizin hamınıza təşəkkür edirəm. Bütün iştirakçılara, qonaqlara, natiqlərə və eləcə də könüllü yardımçılara minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, bugünkü görüşdə bizimlə birlikdə idiniz, bizim sevincimizi bölüşdünüz. Direktorlar Şurası adından hamınıza minnətdaram və cənab Prezident Heydər Əliyevə xüsusi minnətdarlığımı bildirirəm. Uğur olsun!



## Azərbaycan Prezidenti Heydər Əliyevin "Vaşinqton post" qəzetinin jurnalistləri ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 26-da "Monarx" otelində ABŞ-ın nüfuzlu mətbuat orqanlarından olan "Vaşinqton post" qəzetinin jurnalistləri Stiv Rozenfeld, Fred Xayyat, Stiv Kolb, Nora Bostani və Devid İqnatius ilə görüşdü.

Dövlətimizin başçısı Heydər Əliyev jurnalistləri salamlayaraq dedi:

- Mətbuatla görüş həmişə çox maraqlı olur. Xüsusən dünyada məşhur olan belə bir qəzet – "Vaşinqton post" qəzetinin nümayəndələri ilə. Mən sizi salamlayıram və təşəkkür edirəm ki, siz vaxt tapıb bizimlə görüşməyə gəlmisiniz.

Adətən qəzetçilər suallar verirlər. Yəqin ki, sizin də suallarınız vardır.

**Stiv Rozenfeld**[37]**:** Cənab Prezident, Sizə çox təşəkkür edirik ki, bizi dəvət etmisiniz. Bəli, doğru buyurursunuz, Sizə çoxlu suallarımız vardır. Əgər etiraz etməsəydiniz elə birbaşa suallardan başlayaq.

**Heydər Əliyev:** Buyurun başlayın.

**Sual:** Cənab Prezident, bilmək istərdik ki, Siz NATO-nun Kosovodakı əməliyyatlarını necə qiymətləndirirsiniz və Sizcə NATO-nun Kosovo barədə qərarları sülhün bərqərar olmasına gətirib çıxaracaqmı?

**Cavab:** Əvvəlcə mən istəyirəm Sizə təşəkkür edim ki, qəzetiniz və Siz Azərbaycana, Azərbaycanın Prezidentinə bu günlər çox böyük diqqət göstərmisiniz. Aprel ayının 22-də bizim Vaşinqtona gəlməyimizlə əlaqədar Siz aprelin 23-də öz qəzetinizdə bizim gəldiyimizi bəyan etmisiniz və hətta bir şəkil də vermisiniz. Deyirlər ki, "Vaşinqton post" qəzetində belə bir fotonun yerləşdirilməsi bu qəzetin xüsusi münasibətini göstərir. Ondan sonrakı gün bizim Hərbi Dəniz Akademiyasında olmağımız haqqında sizin qəzetdə bir məqalə verilibdir. Bunlara görə təşəkkür edirəm. Bizim Azərbaycanda deyirlər ki, göz dəyməsin, həmişə belə olsun. Çünki burada prezidentlər çoxdur. İndi siz bizə belə diqqət göstərmisiniz. Ola bilər, buna görə də göz dəysin.

Sizin sualınıza cavab olaraq onu deyə bilərəm ki, şübhəsiz, Yuqoslaviya, Kosovo problemi çox mürəkkəb bir problemdir. Amma, siz bilirsiniz ki, biz, Azərbaycan on ildir belə bir problemin içində yaşayırıq. Yəqin sizə məlumdur ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini 1988-ci ildə Ermənistan Azərbaycandan ayırıb özünə bağlamağa çalışıbdır. Bunun nəticəsində müharibə baş veribdir və Ermənistan silahlı qüvvələri müəyyən səbəblərə görə Azərbaycan ərazisinin 20 faizini işğal edibdir.

Buna baxmayaraq biz beş il öncə atəşkəs haqqında saziş imzalamışıq, atəşi dayandırmışıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə razıyıq. Amma Ermənistan tərəfi bununla razı deyildir. Ona görə də indiyə qədər bu məsələ həll olunmur.





Yuqoslaviyada isə Miloşeviç Kosovonun muxtariyyətini ləğv edibdir və beləliklə, o, beynəlxalq hüquq normalarını pozubdur, ədalətsizlik edibdir və Kosovo albanlarının özünüidarəetmə statusu almaq cəhdlərinə görə də orada müharibə başlayıbdır. O, etnik təmizləmə ilə məşğul olur. Biz onun bu hərəkətlərini cinayətkar hərəkət kimi qiymətləndiririk. Bizim bu barədə fikrimiz belədir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olmalıdır. Ona görə də biz Yuqoslaviyanın ərazi bütövlüyünü müdafiə edirik, dəstəkləyirik. Biz separatçılığın əleyhinəyik. Amma eyni zamanda etnik təmizləmənin də, soyqırımın da əleyhinəyik.

Şübhəsiz ki, biz Kosovo albanlarına müstəqillik vermək, müstəqil dövlət yaratmaq təklifinin əleyhinəyik. Amma eyni zamanda Kosovo albanlarının hüquqlarının tapdalanmasının da əleyhinəyik. Biz hesab edirik ki, bu məsələdən ən düzgün çıxış yolu budur ki, Yuqoslaviyanın ərazi bütövlüyünün toxunulmazlığı şərti ilə Kosovo albanlarına Yuqoslaviya dövlətinin tərkibində muxtariyyət hüququ verilməlidir və hər iki tərəf belə bir prinsip əsasında münaqişəyə son qoymağa məcbur edilməlidir. Bu baxımdan NATO-nun Yuqoslaviyada apardığı əməliyyatlar, görünür ki, son qərardır. Yəni bütün başqa imkanlar nəticə verməd iyinə görə NATO bu cür əməliyyatlara başlayıbdır.

Ümumiyyətlə, biz hərbi əməliyyatların əleyhinəyik. Ancaq Mıloşeviçin hərəkətlərinin qarşısını yəqin ki, başqa cür almaq mümkün deyildir. Ona görə də biz NATO-nun bu əməliyyatlarını da məqsədəuyğun hesab edirik.

Təbiidir ki, məsələnin sülh yolu ilə həll edilməsi hər şeydən yaxşı olardı. Əgər Miloşeviç bununla razı olmursa və özünü bu qədər sərbəst aparırsa, onda onu məcbur etmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində sülhə məcbur etmək kimi bir müddəa var. Ona görə də biz hesab edirik ki, əgər NATO bu yol ilə gedibsə, bu yol ilə də məsələni sona çatdırıb həll etməlidir. Bu, mənim prinsipal fikrimdir. Amma taktiki cəhətlər, şübhəsiz ki, NATO-nun özündən asılıdır.

**Sual:** Siz "bu münaqişəyə son qoyulmalıdır" deyərkən, əgər lazım olarsa, quru qoşunlarının da Kosovoya göndərilməsinin tərəfdarısınızmı?

**Cavab:** Bilirsiniz, indi vəziyyət elədir ki, Miloşeviç bütün dünyaya meydan oxuyur.

Rusiyanın məsələni sülh yolu ilə həll etmək fikri ilə razıyam. Amma əgər Miloşeviç heç bir təklifi qəbul etmirsə və özbaşınalıq edib soyqırımı siyasəti həyata keçirirsə, bunun başqa yolu yoxdur.

**Sual:** Cənab Prezident, İraq Küveyti işğal edərkən Sovetlər İttifaqı beynəlxalq səylərə qoşularaq bu təcavüzə qarşı çıxış etdi. Sizcə, indi Rusiya nə üçün beynəlxalq qüvvələrlə bir mövqedən çıxış etmir?

**Cavab:** Buna mən tam cavab verə bilmərəm. Onu Rusiyadan soruşmaq lazımdır. Ancaq bizi narahat edən bir məsələ ondan ibarətdir ki, Rusiyada bu dəqiqə şovinist, millətçilik əhval-ruhiyyəsi çox geniş yayılıbdır.

Şübhəsiz ki, hər dövlət öz siyasətini özü bildiyi kimi aparır. Amma Rusiyada slavyan birliyi, yaxud da pravoslav, xristian birliyi şüarı altında onlar bu ədalətsizliyə dəstək verirlər. Mən hesab edirəm ki, Rusiya o qədər də düzgün siyasət aparmır. Ümumiyyətlə, Rusiyanın məsələləri sülh yolu ilə həll etmək prinsipi əsaslı fikirdir. Ancaq məlumdur ki, NATO da bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Amma bunlar nəticə vermədi. Rusiya da həmin o əlaqə qrupunun, yaxud da Rambuyedəki danışıqların iştirakçısı idi. Gərək o, həmin vaxt çalışaydı və Miloşeviçlə xüsusi əlaqəsi olduğuna görə gərək ona başa salaydı ki, bu cür hərəkətlərdən əl çəksin. Amma buna nail olmayaraq, eyni zamanda NATO-nun əməliyyatlarının əleyhinə çıxmaq, şübhəsiz ki, anlaşılmazdır. Rusiya deyir ki, məsələni danışıqlarla həll etmək lazımdır. Bu, düzgün fikirdir. Ancaq əgər danışıqlar nəticə vermirsə?

Məsələn, biz beş ildir Ermənistanla danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. İndi də deyir ki, Dağlıq Qarabağa müstəqillik vermək lazımdır. Biz nə qədər çalışırıq, münaqişəni həll edə bilmirik. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa da Ermənistanı bu məsələnin sülh yolu ilə həll olunmasına təhrik edə bilmirlər. Məsələ həll olunmur, torpaqlarımız işğal altındadır, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətində çadırlarda yaşayır.



Məsələn, Dağlıq Qarabağda müharibə etmək lazım deyildir. Sadəcə, Ermənistan tərəfinə daha da güclü təsir olsaydı ki, onlar düzgün mövqe tutsunlar, məsələni həll etmək mümkündür.

Görünür ki, indi Miloşeviç həm özünə arxayındır, həm də başqa şeylərə arxayındır. Mənim fikrim bu qədər.

**Sual:** Cənab Prezident, öncə bildirdiniz ki, Siz Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş statuslu muxtariyyət verməyə razısınız. Bilmək istərdik ki, bu "geniş muxtariyyət" deyərkən nəyi nəzərdə tutursunuz? Yəni mən Dağlıq Qarabağda yaşayan erməni çoxluğuna geniş muxtariyyət verilməsini nəzərdə tuturam. Ümumiyyətlə, "geniş muxtariyyət" deyərkən nəyi nəzərdə tutursunuz? Bir az bu məsələnin spesifik cəhətlərinə vara bilərsinizmi?

Məsələn, Siz Dağlıq Qarabağa özünün polis qüvvələrini saxlamağa və silah gəzdirərək yerli əhalinin təhlükəsizliyini təmin etməyə, yaxud Dağlıq Qarabağ ilə Ermənistan arasında planlı şəkildə körpünün fəaliyyət göstərməsinə, dəhlizin olmasına icazə verərsinizmi? Xahiş edirəm, geniş muxtariyyətin detallarında nəyi nəzərdə tutduğunuz barədə bizə ətraflı məlumat verəsiniz.

**Cavab:** Bilirsiniz, əgər Ermənistan tərəfi bu geniş muxtariyyətin tərəfdarı olsa, biz onlarla birlikdə bu məsələni daha da dəqiqləşdirə bilərik.

Məsələn, prinsip etibarilə Siz dediyinizə, - əlbəttə ki, Dağlıq Qarabağda polis qüvvələrinin saxlanmasına və silahlı polisin olmasına biz tamamilə razıyıq. Ermənistanla daim əlaqə saxlamaq - buna da biz tamamilə razıyıq. Biz onlara iqtisadiyyatda da çox böyük səlahiyyətlər verməyə hazırıq, yaxud, xarici ölkələrlə müstəqil iqtisadi əlaqələr saxlanmasına da biz razıyıq. "Yüksək muxtariyyət" deyəndə, orada bir neçə məsələlər üzrə onlar gərək Azərbaycan hökuməti ilə mütləq bağlı olsunlar. Qalan məsələlərdə isə biz onlara geniş səlahiyyət veririk.

Dünyada çox belə muxtariyyətlər var, muxtariyyət statusu vardır. Biz bəyan etmişik ki, Ermənistan tərəfi üçün uyğun olan muxtariyyət statusunu biz onlara verməyə hazırıq. Amma Ermənistan tərəfi bununla razı deyildir.

**Sual:** Cənab Prezident, mən mövzunu dəyişərək İrandakı cari siyasi durum barədə Sizin fikirlərinizi bilmək istərdim. Sizcə, İranın cari siyasi vəziyyəti nə qədər sabitdir və Siz gələcəyə baxdıqda İranda nələrin baş verə biləcəyini görürsünüz?

**Cavab:** Bu barədə qəti bir söz demək çox çətindir. İranda olan rejim, islam dövləti rejimi, şübhəsiz ki, gücə arxalanan bir rejimdir. İran əhalisinin çox hissəsinin dindar olması və dinin İranda çox güclü təsiri olması, şübhəsiz ki, bu rejimi daha da möhkəmləndirir.

İranda təxminən 30 milyona qədər azərbaycanlı yaşayır. Bu, İran əhalisinin təxminən yarısıdır. Onlar istəyirlər ki, öz dillərində məktəb olsun, kitab olsun, qəzet olsun. Onlar başqa bir şey istəmirlər.

Baxmayaraq ki, vaxtilə öz konstitusiyalarında belə hüquqların verilməsi haqqında maddə yazılıbdır və bugünkü Prezident Xatəmi də prezident seçkiləri

vaxtı söz veribdir ki, prezident seçilsə konstitusiyanın 15-ci maddəsini həyata keçirəcəkdir, ancaq onu həyata keçirmir.

**Sual:** Cənab Prezident, Sizcə, Prezident Xatəmi İranda mövcud olan mühafizəkar qüvvələr və kəşfiyyat orqanları üzərində öz ideyaları ilə qalıb gələ biləcəkmi və Siz Xatəmini yaxın 5-10 il ərzində İranda önəmli rol oynayan siyasi fiqur kimi görürsünüzmü?

**Cavab:** Şübhəsiz ki, Prezident Xatəmi bir siyasi fiqur kimi İranda böyük rol oynayır və gələcəkdə də oynaya bilər. O, Qərblə müəyyən bir dialoq etmək təklifini irəli sürübdür.

**Sual:** Bu səfəriniz zamanı Prezident Klinton ilə söhbət etmək imkanınız oldumu? Xüsusilə Azərbaycana humanitar yardım göstərilməsinə qoyulmuş qadağa barədə onunla söhbət edə bildinizmi? Azərbaycana qarşı tətbiq olunmuş bu maddənin aradan qaldırılması və bu vəziyyətin düzəldilməsi üçün yeni təşəbbüslər edəcəyi barədə onun tərəfindən vədlər almısınızmı?

**Cavab:** Ayın 24-də axşam görüşümüz zamanı mən onunla qısa söhbət etdim və aprelin 25-də NATO-nun toplantısı bitəndən sonra biz yenə də bir neçə dəqiqə söhbət etdik. Bu söhbətlər zamanı bizim əsas fikirlərimizi mən ona bir daha çatdırdım. Bizim üçün əsas iki məsələdir: biri Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında Amerika Birləşmiş Ştatlarının səylərinin artırılması, ikincisi isə Konqresin qəbul etdiyi 907-ci düzəlişin, Azərbaycana yardıma qadağa qoyan maddənin aradan götürülməsidir. İkisində də o, qətiyyətlə bildirdi ki, bu məsələlərlə ciddi məşğul olur və olacaqdır. Hətta belə dedi ki, mən prezidentlik müddətimin sonuna qədər Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasını mütləq təmin etməliyəm.

Mən bir neçə vaxt, 10-15 gün bundan öncə Prezident Klintondan və xanım Olbraytdan məktublar almışam. O məktublarda Prezident Klinton və xanım Olbrayt göstərirlər ki, Amerika hökuməti Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün bundan sonra daha da ciddi məşğul olacaqlar. 907-ci düzəliş haqqında onlar daim bildirirlər ki, bu 907-ci düzəlişin əleyhinədirlər. Onların bəyanatına görə, hökumət çalışır və bundan sonra da çalışacaq ki, 907-ci düzəliş aradan götürülsün.

Mən bu gün xanım Olbraytla görüşəcəyəm. Görüş zamanı bu mövzuları mütləq müzakirə edəcəyəm.

**Sual:** Cənab Prezident, Kosovo mövzusuna toxunan zaman Rusiyada son dövrdə artmaqda olan şovinizm və millətçilik təzahürlərindən narahatlığınızı bildirdiniz. Öyrənmək istərdik ki, bu, özünü daha hansı formalarda büruzə verir və Sizin regiona bu halların təsiri necədir?

**Cavab:** Rusiyanın siyasətində millətçilik, şovinizm hər yerdə özünü büruzə verir. Mən Sizə bildirmək istəyirəm ki, keçmişdə Sovetlər İttifaqının rəhbərliyində olan şəxslərin də siyasətində millətçilik, şovinizm daim hiss olunurdu. İndi isə Rusiya, baxmayaraq ki, onlar demokratik dəyərləri özlərinin əsas prinsipləri elan ediblər, ancaq orada şovinizm, millətçilik əhval-ruhiyyəsi genişdir - həm Rusiyanın daxilində, həm də Rusiyanın müxtəlif dövlətlərlə, ölkələrlə münasibətlərində.



Biz, rus millətinə mənsub olmayanlar bu cür hallara həmişə çox həssasıq. Məsələn, mən Rusiyanın rəhbər vəzifəli şəxslərinə son vaxtlar bir neçə dəfə demişəm ki, siz ölkənizdə münasibətləri milli zəmində, yaxud da ki, dini zəmində qurmaqla özünüz-özünüzə çox böyük zərər verirsiniz. Çünki Rusiya əhalisinin hamısı slavyan deyildir, hamısı pravoslav, xristian deyildir. Rusiyada müsəlmanlar da, yəhudilər də, buddistlər də var və başqa dinlərə, başqa millətlərə mənsub olanlar da vardır. Rusiyada 20 milyon müsəlman var. İndi bu Yuqoslaviya, Kosovo problemində ardıcıl deyəndə ki, biz slavyanıq, pravoslavıq, xristianıq, biz serblərə kömək etməliyik, bu, müsəlman millətindən, yaxud başqa millətlərdən olan vətəndaşlara toxunur.

Qafqaz ölkələrinə münasibətlərində də bu millətçilik, şovinistlik özünü göstərir.

Məsələn, xatirimdədir, bir dəfə - 1998-ci ilin əvvəlində televiziya vasitəsilə Yeltsin Ermənistanı dəstəkləyərək dedi ki, ermənilər xristiandırlar, onlar bizim strateji təsirimiz altındadırlar, ona görə də biz onlara xüsusi diqqət yetirməliyik.

Şübhəsiz, belə anlamaq olar ki, demək, başqa dinə, yaxud başqa millətə mənsub olan ölkələrə onların münasibəti başqadır. Belə millətçilik, şovinizm siyasəti bizi çox narahat edir.

**Sual:** Cənab Prezident, Siz hələ Sovetlər İttifaqının Siyasi Bürosunda çalışdığınız vaxtdan bəri uzun illərdir ki, Rusiyanın Prezidenti Boris Yeltsini tanıyırsınız. Bilmək istərdik, Siz onu bir lider və bir şəxs kimi necə qiymətləndirirsiniz? Sizcə o, nəyi düzgün edir, nəyi isə səhv edir?

**Cavab:** Bu, çox mürəkkəb sualdır.

**Sual:** Cənab Prezident, biz bu günlər Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə də görüşmüşük. Buna bənzər sualla ona müraciət edəndə o, Rusiyada hökumət ilə hökumətdənkənar qüvvələr arasında bir fərq qoydu. Qeyd etdi ki, Rusiyada bir hökumət dairələri var, bir də hökumətdən kənarda olan qüvvələr vardır ki, onlar daha millətçi, daha şovinistdirlər. Siz də bu fikirlə razılaşırsınızmı, yoxsa Sizcə, elə Rusiyanın hökumət dairələrinin özləri də Sizin regiona qarşı münasibətdə şovinist mövqedədirlər?

**Cavab:** Bilirsiniz, mən ümumi fikir söyləyirəm. Bunu araşdırmaq, seçmək çox çətindir. Bu gün hökumətdə olmayan sabah hökumətdədir, bu gün hökumətdə olan isə sabah hökumətdə deyil. Mən ümumi fikrimi deyirəm. Mən bunu fərdiləşdirmək istəmirəm, ümumi əhval-ruhiyyəni deyirəm.

**Sual:** Cənab Prezident, icazə verin, Azərbaycanın şəxsiyyətləri barədə sual verim. Sizin partiyanın üzvlərinin bəziləri məqalələrində yazırlar ki, Azərbaycanın gələcəyi üçün ən ağıllı, ən düzgün yol gələcəkdə Sizin oğlunuzun prezident olmasıdır. Bu fikrə necə münasibət bəsləyirsiniz?

**Cavab:** Bizdə fikir müxtəlifliyi, plüralizm vardır. Kim nə cür düşünür, o cür də deyir. Mən hər bir fikrə münasibət bəsləyə bilmərəm.

Son zamanlar Heydər Əliyevin oğlu haqqında müxalifətdə cürbəcür danışıqlar gedir. Həmin müxalifətdə olan insanlar kimi, Heydər Əliyevin oğlu İlham Əliyev, - o, mənim yanımda oturubdur, - o da Azərbaycanın vətəndaşıdır. Onun seçib-seçilmək hüququ vardır. O da bir vətəndaş kimi öz hüquqlarından nə vaxt, nə cür istifadə etmək istəsə, o vaxt da istifadə edəcəkdir. Bu, tam müstəqildir.

**Sual:** Siz ona səs verərdinizmi?

**Cavab:** Bəs hesab edirsiniz ki, verməzdim? Əksinə desəydim, Siz inanmazdınız.

**Sual:** Cənab Prezident, Xəzər dənizində olan enerji ehtiyatlarının həcmi barədə bizdə müxtəlif hesablamalar, ehtimallar vardır. Əgər biz əvvəllər Xəzər



dənizinin çox böyük enerji ehtiyatlarına malik olması barədə fikirlərlə rastlaşırdıqsa, son dövrlər bu ehtiyatların daha məhdud olması barədə fikirlər eşidirik. Sizin hesablamalarınız necədir?

**Cavab:** Mən bu gün Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində çıxış edərkən bu mövzuya toxundum. Xəzər dənizinin enerji ehtiyatları dörd il bundan öncə elan edildiyindən də çoxdur.

Biz 1994-cü ildə ilk müqaviləni - "Əsrin müqaviləsi"ni imzalayanda mən təsəvvür edə bilməzdim ki, cəmi üç il ərzində müqavilələrin sayı 16-ya çatacaqdır. Sabah biz burada, Vaşinqtonda yenə üç müqavilə imzalayacağıq - "Eksson", "Mobil" və "Monkrif Oyl" şirkətləri ilə. Əgər Azərbaycanda, ya Xəzər dənizində neft ehtiyatları az olsa, bu qədər şirkətlər yeni-yeni müqavilələr imzalamaq üçün müraciət edərlərmi?



İndiyə qədər imzalanmış 16 müqavilədə 32 şirkət iştirak edir və bu şirkətlər 14 ölkəni təmsil edirlər. İndi üç müqavilə də imzalanacaqdır və bütün müqavilələrə görə investisiyanın ümumi həcmi 50 milyard dollara qədərdir. Neft ehtiyatlarına gəldikdə isə bizim mütəxəssislərin hesablamaları göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının ehtiyatı 4 milyard tondan 10 milyard tona qədərdir. Hələ bu, ilkin hesablamalardır. Amma həqiqətdə bundan artıqdır.

Məsələn, biz birinci müqaviləni imzalayanda layihədə nəzərdə tutmuşduq ki, oradan 510 milyon ton neft götürüləcəkdir. Amma indi görünür ki, 630 milyon ton götürüləcəkdir. Yəni 120 milyon ton artıq. Biz hər qazılan quyudan sutkada 500 ton neft gözləyirdik, amma indi 2 min ton neft alırıq.

Bilirsiniz, Sizin o dediyiniz fikirlər Rusiya mətbuatında, Amerika Birləşmiş Ştatlarının və başqa ölkələrin mətbuatında yayılıbdır. Bu fikirləri yayanlar Azərbaycanın neft strategiyasının əleyhinə olan adamlardır, o cümlədən ermənipərəst qüvvələrdir.

Məsələn, Siz bilirsiniz ki, Rusiya bizim bu neft strategiyamızın əleyhinədir, xüsusən Amerika Birləşmiş Ştatları, Avropa ölkələri şirkətlərinin Xəzər dənizinə gəlməsinin əleyhinədir. Ona görə də onlar gördülər ki, bundan bir şey çıxmır, indi bu cür şayiələr yayırlar. Bunlar əsassızdır. Xəzər dənizinin çox böyük enerji ehtiyatları vardır. Təkcə Azərbaycan sektorunda yox, digər sektorlarda da. Xüsusən Qazaxıstan sektorunda.

**Sual:** Cənab Prezident, Siz mənim indi vermək istədiyim suala qismən cavab verdiniz. Amma yenə bilmək istəyirəm ki, Sizcə, Rusiya Xəzər regionundakı layihələrdə daha fəal iştirak etmək üçün, Ermənistana yardım göstərmək vasitəsilə Sizə təzyiq etmək istəyirmi?

**Cavab:** Bilirsiniz, şübhəsiz ki, təsir etməyə çalışır. İndi Rusiyanın bizim Xəzər dənizindəki neft yataqlarında fəal iştirak etməyə maddi imkanları, maliyyə imkanları yoxdur. Onların bəziləri hesab edirlər ki, Azərbaycan bu ehtiyatları saxlamalıdır, nə vaxt onların imkanları olacaq, o vaxt istifadə edə bilsinlər. Ona görə cürbəcür vasitələrlə təsir etməyə çalışırlar.

1994-95-ci illərdə Azərbaycanda terror aktları, silahlı dövlət çevrilişinə cəhdlər də məhz Azərbaycanın neft strategiyasının qarşısını almaq məqsədi daşıyırdı.

Məsələn, 1994-cü il sentyabrın 20-də biz "Əsrin müqaviləsi"ni imzaladıq. Sentyabr ayının 29-da Azərbaycan parlamenti sədrinin müavinini və bir də yüksək rütbəli hərbi zabiti terrorla öldürdülər. Bu zaman Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına hücum edildi və oradan dörd nəfər siyasi cəhətdən çox cinayətkar adamı çıxarıb Rusiyaya qaçırdılar.

Biz 1994-cü ilin oktyabr ayındakı çevriliş cəhdinin qarşısını aldıq. 1995-ci ilin mart ayında yenidən dövlət çevrilişinə cəhd göstərdilər. 1995-ci ilin avqust ayında Azərbaycan Prezidentinin təyyarəsini xaricdən qayıdarkən Azərbaycanın hava limanının üzərində raketlə vurmağa cəhd göstərdilər. Bizə məlumdur ki, burada Rusiyanın xüsusi xidmət orqanlarının rolu vardır. Azərbaycan Prezidentini silahlı yolla devirmək, yaxud da ki, ona qarşı terror etmək və beləliklə Azərbaycanın siyasətini dəyişmək məqsədi var idi.



**Sual:** Cənab Prezident, bizim ölkəmizdə analitiklər belə hesab edirlər ki, Rusiya təzədən dirçələcək, təzədən güclü bir dövlət olacaq və həm Sizə, həm də Amerikaya təhlükə törədə biləcəkdir. Bu barədə nə düşünürsünüz?

**Cavab:** Mən ümumiyyətlə proqnoz verməkdən çəkinirəm. Ona görə də qəti proqnoz vermək istəmirəm. Hər halda Rusiyanın daxilində gedən proseslər göstərir ki, diqqətli olmaq lazımdır.

**Sual:** Cənab Prezident, bu ölkədə fikir müxtəlifliyi vardır. Bəziləri zəif Rusiyanın, bəziləri isə sağlam Rusiyanın tərəfdarıdırlar. Lakin hər ikisi razılaşır ki, zəifləmiş Rusiya qonşuları üçün, Qərb üçün təhlükədir, həm də hesab edirlər ki, Rusiyanın sağlamlaşması üçün Beynəlxalq Valyuta Fondu gərək ona yardımlarını davam etdirsin. Hətta baxmayaraq ki, bəzən Siz də, biz də Rusiyanın etdiyi hərəkətlərlə razılaşmırıq. Amma buna baxmayaraq bəzi adamlar hesab edirlər ki, Beynəlxalq Valyutu Fondu Rusiyaya yardımı davam etdirməlidir. Sizin bu fikirlərə münasibətiniz necədir?

**Cavab:** Bu da çox ciddi fikirlərdir. Mən bir onu deyə bilərəm ki, biz istəyirik Rusiya demokratik ölkə olsun, Rusiyada ümumbəşəri dəyərlərə, demokratik prinsiplərə söykənən hakimiyyət olsun, Rusiyada imperiya iddiaları inkişaf etməsin və Rusiya imperiya iddialarından əl çəksin, Rusiya sülhsevər ölkə olsun və qonşularına, o cümlədən Cənubi Qafqazda olan qonşularına ədalətli, normal münasibət göstərsin.

**Sual:** Cənab Prezident, Siz GUÖAM birliyi və onun əhəmiyyəti barədə nə deyə bilərsiniz? Səhv etmirəmsə, Özbəkistan da bu birliyə daxil olmaq istəyir.

**Cavab:** Bəli, biz - Prezident Kuçma, Prezident Şevardnadze, Prezident Luçinski, Prezident Kərimov, bir də Azərbaycan Prezidenti Əliyev srağagün Özbəkistanın Vaşinqtondakı səfirliyində görüşdük. Biz Özbəkistanı GUÖAM-a üzv qəbul etdik və GUÖAM-ın bugünkü mövqeyi, fikirləri haqqında birgə bəyannamə imzaladıq. Biz hamımız eyni fikirdəydik ki, il yarım bundan öncə Strasburqda yaranmış bu təşkilat özünün bu gün və gələcək üçün vacibliyini və lazımlılığını sübut edibdir. Biz bu təşkilat çərçivəsində gələcəkdə müştərək fəaliyyət göstərmək haqqında bəyannamədə öz fikirlərimizi bildirdik.

**Stiv Rozenfeld:** Cənab Prezident, bizə verdiyiniz çox maraqlı müsahibəyə görə təşəkkürümüzü bildiririk.

**Heydər Əliyev:** Sağ olun. Amma suallarınız azdır. Mən sizdən daha çox sual gözləyirdim.

Amma mən bütün suallara cavab verdim. Cavab verdim və sizinlə çox açıq danışdım. Güman edirəm ki, siz mənim fikirlərimi tam açıqlığı ilə hiss etdiniz.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev "Vaşinqton post" qəzetinin jurnalistlərinə müraciətlə dedi:

- Mən sizə xatirə olaraq Azərbaycan-Amerika əlaqələrinə həsr olunmuş kitab və bir də Azərbaycanın NATO ilə əlaqələri haqqında kitab təqdim edirəm.

"Vaşinqton post" qəzeti ilə gələcəkdə sıx əməkdaşlıq etmək istəyirəm və hesab edirəm ki, bizim aramızda yaxşı, səmimi əlaqələr yaranıbdır. Güman edirəm ki, bizim əməkdaşlığımız gələcəkdə də səmərəli, uğurlu olacaqdır.

**Stiv Rozenfeld:** Cənab Prezident, çox sağ olun. Sizə dərin minnətdarlığımızı bildiririk. Bizə çox böyük şərəf verdiniz, Sizinlə Bakıda görüşəcəyik.

**Heydər Əliyev:** Bəli, sizi Bakıya dəvət edirəm. Əgər gəlsəniz, çox razı olacaqsınız. Sağ olun. Təşəkkür edirəm.

## Hərbi Dəniz Akademiyası ilə tanışlıq zamanı "Vaşinqton post" qəzetinin müxbirinə müsahibə

Aprelin 23-də Azərbaycan Prezidenti Heydər Əliyev Hərbi Dəniz Akademiyası ilə tanış olarkən "Vaşinqton post" qəzeti müxbirinin sualına cavab verərək dedi:

"Xatirə salonu həqiqətən böyük bir muzeyi xatırladır. Burada hər şey çox yüksək səviyyədədir. Təhsil alanların yüksək səviyyədə olduğunu gördüm. Çox möhkəm nizam-intizam, qanun-qayda var. Təhsil alanların yüksək mənəvi keyfiyyətləri hiss edilir. Bunlar hamısı doğrudan da çox böyük hıssiyyatlar doğurur. Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Qüvvələri çox güclüdür. Belə böyük hərbi məktəbdə təhsil alan insanlar, şübhəsiz ki, yaxşı da xidmət edirlər.

Yeməkləri də çox gözəldir. Mən də yedim, çox xoşuma gəldi. Mən 4 min adamın bir yerdə yemək yeməsini heç görməmişdim. Özü də yüksək nizam — intizam vardır, qısa bir zamanda yeyib qurtardılar. Bu, hər şeyin yaxşı təşkil olunduğunu göstərir."

## "Amerikanın səsi" radiosunun müxbirinə müsahibə

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 27-də konqresmenlərlə görüşdən sonra "Amerikanın səsi" radiosunun müxbiri Dilşad Əliyarlının sualına cavab verdi. Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məsələsində ABŞ-ın mövqeyini açıqlayan Prezident Heydər Əliyev dedi:

- Dövlət katibi mənimlə görüşündə və sonra Prezident Koçaryanla birlikdə görüşümüzdə açıqca bildirdi ki, Amerikanın mövqeyi belədir ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, işğal edilmiş torpaqlar Ermənistan silahlı qüvvələrindən azad olunmalı, qaçqınlar öz yerlərinə qayıtmalıdırlar və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə hüququ verilməlidir. Amerika Birləşmiş Ştatları, onun hökuməti və Konqresi bu prinsipləri dəstəkləyir.



## "Dağıdılmış körpülər" filminə baxış

Aprelin 25-də Vaşinqtonun "Monarx" hotelində Azərbaycanın görkəmli kino-dramaturqu və rejissoru Rüstəm İbrahimbəyovun və Amerika rejissoru Rafik Ruyun birgə ssenarisi əsasında çəkilmiş "Dağıdılmış körpülər" bədii filmi nümayiş etdirildi. Maraqla qarşılanan filmə baxışda respublikamızın nümayəndə heyətinin üzvləri və Vaşinqtonda yaşayan soydaşlarımız iştirak edirdilər.





# VAŞİNQTON SƏFƏRİ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ



The Washington Po

Friday, April 23, 1999

Clinton Joins Allies on Groun

U.S. deputy chief of protocol David Pryor Jr. escorts Azerbaijani President Heydar Aliyev as diplomats arrive for NATO anniversary celebration.

Less Celebration

Last-Minute Details

NATO Defends Hit On Milosevic Home

### *Azərbaycan lideri Annapolisə səfər təşkil edir*

Evdə bişirilmiş pendirli pitsa, Fiq Nyutons və çiyələkli süd Birləşmiş Ştatlara rəsmi səfər edən hər xarici prezidentin menyusuna daxil olmur.

Ancaq dünən Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun 50 illik yubileyi ilə əlaqədar mərasimdən və oradakı yeməklərdən keçərək, Annapolis şəhərindəki ABŞ-ın Dənizçilik Akademiyasında 4000 dənizçi ilə nahar etməyə üstünlük verdi.

Annapolis şəhərinə 4 saatlıq səfərini başa vuran Əliyev qeyd etdi ki, "Həyatımda birinci dəfədir ki, 4000 nəfərin eyni zamanda nahar etməsinin şahidi oluram". Annapolis şəhərində Prezident gənc dənizçi zabitlərin rok musiqisindən də feyziyab olmuşdu.

Azərbaycan düz 70 il sovet əsarəti altında olmuşdur, ancaq 1991-ci ildə 8 milyonluq əhalisi olan neftlə zəngin bu ölkə başqa keçmiş sovet respublikaları kimi öz müstəqilliyinə qovuşdu. İndi Əliyev öz ölkəsi ilə Qərb arasında yeni əlaqələr yaratmağa çalışır, baxmayaraq ki, onun xalqı qonşuları tərəfindən hərbi təhlükə ilə üzləşməli olur.

Əliyev tək deyil. Bir zamanlar sovet respublikaları, indi isə NATO-nun sülh proqramı üzrə tərəfdaşları olan bir neçə Orta Asiya dövlətləri sammitə öz nümayəndə heyətlərini göndəriblər.





Orta dərəcəli gəmiçi "Göyərtədə diqqət!" komandasını verərkən, dənizçi tələbələr Artur Reçveldsin "Rusiyanın xarici siyasəti haqda" olan dərsinə Əliyevin gəlişini alqışlarla qarşıladılar. Professor Reçvelds qeyd etdi ki, 15 illik müəllimlik təcrübəsində ona heç vaxt keçmiş sovet respublikasının başçısını Dənizçilik Akademiyasında qarşılamaq və onu öz tələbələrinə təqdim etmək nəsib olmamışdı.

Birinci dərəcəli gəmiçi 22 yaşlı Qyen Lerson qeyd etdi ki, bu dərsdən əvvəl hətta Azərbaycanın harada olduğunu da bilmirdi. Ancaq dünən o və onun kimi başqaları Azərbaycan nümayəndə heyətinin mühazirəsini dinlədilər və Azərbaycan xalqı haqqında çox şey eşitdilər.

Əliyev qeyd etdi ki, beş il bundan əvvəl onun ölkəsinin sülh haqqında saziş imzalamasına baxmayaraq, Ermənistan onun ölkəsinin ərazisinin 20 faizini hələ də işğal altında saxlamaqdadır.

Dünən Annapolisdə Azərbaycan Prezidenti öz mühazirəsini başa vurduqdan sonra Dənizçilik Akademiyasının binasını gəzdi və daha sonra dənizçilərlə birlikdə nahar etdi.

"Prezidentin burada olması bizim üçün şərəfdir", deyə alay komandiri Rəmlən Sanders qeyd etdi. "Dünyadakı bütün qarmaqarışıqlığı bir yana qoyaraq, o, bura gəlməyə və Dənizçilik Akademiyasına baş çəkməyə vaxt tapdı". Komandir Sanders bu sözləri o və başqa zabitlər "Bankroft Holl" zalına nizamla addımlayarkən dedi.

**"Vaşinqton post" 24 aprel 1999-cu il**
**Həmil R. Həris, Maykl E.Ryueyn**

* * *

### *Özbəkistan GUÖAM-a qoşulur*

Aprelin 24-də RİTA-SÖTA və İnterfaks agentliklərinin verdiyi məlumata görə, Özbəkistanın Vaşinqtondakı səfirliyində keçirilən NATO sammitinin əlavə məsələlərinə dair mərasimdə Özbəkistan rəsmi olaraq Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova alyansına beşinci üzv qəbul edilmişdir. Alyans bundan sonra GUÖAM olaraq tanınacaqdır. Bu beş ölkənin prezidentləri birgə bəyanat qəbul etmişlər və bəyanatda təsdiq olunur ki, bu ölkələr bir-birinin ərazi bütövlüyünə görə bir-birini dəstəkləyəcəklər. Həmçinin onlar regional nəqliyyat dəhlizlərinin yaradılması da daxil olmaqla regional əməkdaşlıq və Avro-Atlantik Əməkdaşlıq Şurası kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini də dəstəklədilər. Bəyanatda vurğulanırdı ki, onların əməkdaşlığı üçüncü ölkələr və ya ölkələr qrupuna qarşı yönəldilməmişdir. RİTA-SÖTA beş üzv ölkənin birindən olan və adı çəkilməyən bir diplomatdan belə bir sitat gətir-

mişdir ki, GUÖAM nə MDB-ni sıxışdırıb aradan çıxarmaq fikrindədir, nə də onun beş üzvü MDB-ni tərk etmək niyyətindədir.

**"Vaşinqton post", 26 aprel 1999-cu il**

* * *

**Vaşinqton.** ABŞ senatoru Sem Braunbək şənbə günü Vaşinqtonda 12 dövlət başçısı və xarici işlər nazirləri ilə keçirilən görüşə başçılıq etmişdir.

Kanzasdan olan respublikaçı Braunbək Senata qanun layihəsi təqdim etmişdir. Bu qanun layihəsi Qafqazda və Mərkəzi Asiyada iqtisadiyyatın inkişafı üçün geniş həcmli Amerika kapitalının qoyulmasına təşəbbüs göstərməyə çağırmışdır.

ABŞ Konqresində keçirilən görüşdə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan, Türkiyə, Rumıniya prezidentləri və həmçinin Ermənistan və Qırğızıstanın xarici işlər nazirləri iştirak etmişlər.

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Semüel Berger, keçmiş dövlət katibi Ceyms Beyker və ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski də görüşdə iştirak etmiş və Amerikanın bu regionda iştirakının vacibliyini bir daha qeyd etmişlər.

Onlar vurğulamışlar ki, Mərkəzi Asiya və Qafqaz ölkələrinin müstəqilliyi və çiçəklənməsini qüvvətləndirmək Amerikanın milli mənafelərinə uyğundur.

Ümumiyyətlə, şənbə günü keçirilən görüş bir daha aydın etdi ki, tarixi İpək yolunun sərvəti və potensialını dirçəltmək niyyətləri çox olmağına baxmayaraq, bəzi ciddi siyasi problemlər hələ də var. Azərbaycanın Prezidenti fürsətdən istifadə edərək Ermənistanın regional əməkdaşlığa əngəl yaratmasını tənqid etdi və həmçinin Yerevan hökumətini "etnik təmizləmədə" günahlandırdı.

İki tərəf arasında görüşlərin yaxın günlərdə Vaşinqtonda keçirilməsi planlaşdırılıb. Əgər bu qalmaqallı məsələdə irəliləyiş əldə edilərsə, onda İpək yolu gerçəkliyə doğru daha bir addım atmış olacaq.

**"Azad Avropa/Azadlıq radiostansiyası,**
**26 aprel 1999-cu il**

* * *

***Diqqət mərkəzi - ABŞ şirkətləri Azərbaycan neftini istehsal etmək üçün 10 milyard dollarlıq işgüzar sənəd imzalamışlar***

Çərşənbə günü Azərbaycan neft məhsullarının bölüşdürülməsi haqda saziş imzalanmışdır. Sazişdə ABŞ-ın üç enerji şirkəti tərəfindən keçmiş sovet respublikasında neft sahəsini inkişaf etdirmək məqsədilə 10 milyard dollar vəsait qoyulması razılaşdırılmışdır.

Müqavilələr ABŞ Konqresi binasındakı mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə imzalanmışdır. Əliyev dedi ki, Azərbaycana potensial kapital qoyuluşuna dair müqavilələr 10 milyard dollarlıq nəticə verə bilər.



Şirkətlər öz layihələrində 30 faiz risk etməli olacaqlar və Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) bu sərmayələrdə 50 faiz maraqlı olacaq. Qalan 20 faizin Fransanın neft nəhəngi "Total"a düşməsi gözlənilir.

1991-ci ildə keçmiş Sovet İttifaqından çıxaraq müstəqilliyini qazanmış Azərbaycan dünyada qədimdən neft istehsal edən region kimi tanınmışdır. Onun 12,5 milyard tonluq neft ehtiyatı var.

**"Röyter" agentliyi, 27 aprel 1999-cu il**

* * *

**Vaşinqton.** Azərbaycan Prezidenti Heydər Əliyev bazar ertəsi Vaşinqtonda söylədiyi nitqində Rusiyanın Qafqaza olan təsirini tənqid etmiş və ABŞ-ı ölkəmizə daha çox sərmayə qoymağa bir daha çağırmışdır.

Əliyev bəyan etmişdir ki, 1994-cü ildən başlayan dövlət çevrilişi cəhdləri və terror aktları bir məqsəd güdürdü ki, o da Azərbaycanı Qərblə neft sazişləri imzalamaqdan çəkindirmək idi.

Əliyev dedi: "Mən tamamilə əsaslı olaraq deyə bilərəm ki, 1994-1995-ci illərdə baş verən dövlət çevrilişi cəhdləri Azərbaycanı öz neft strategiyasını həyata keçirməkdən çəkindirmək məqsədini güdürdü".

Başqa bir məsələyə toxunaraq, Əliyev Moskvanı ötən üç il ərzində qonşu Ermənistanı 1 milyard ABŞ dolları həcmində silahla təmin etməsində günahlandırdı və əlavə etdi ki, bu, Qafqaz regionunda sabitliyi pozur.

Əliyev dedi: "Rusiya Ermənistanda öz hərbi bazasını saxlayır, Rusiyanın Ermənistanda hərbi qüvvələri var və Rusiya Ermənistanla hərbi ittifaq barədə saziş imzalamışdır... Ötən aylarda Rusiya Ermənistanı yeni növ silahlarla, xüsusilə də S-300 raketləri və MİQ-29 tipli yeni təyyarələr ilə təmin etmişdir. Ermənistanın bu cür silahla təchiz olunması Qafqazda əmin-amanlıq və sabitlik üçün təhlükə yarada bilər. Biz buna görə çox narahatıq və biz Rusiyanın belə hərəkətlərinə etirazımızı bildirmişik. Biz öz narazılığımızı rəsmi bəyanatla bildirmişik və mən bununla bağlı Rusiyanın Prezidenti Yeltsinə rəsmi məktub da göndərmişəm". Əliyev qeyd etdi ki, Rusiya iki tərəf arasında gedən danışıqlarda səmimi vasitəçi kimi çıxış etmək əvəzinə, Yerevanla hərbi ittifaqa girmişdir. Əliyev əlavə edərək dedi ki, bu sadəcə olaraq Rusiyanın nüfuzuna zərər gətirmişdir.

Əliyev bildirdi: "Biz istərdik ki, ABŞ Azərbaycanı daha çox dəstəkləsin və bu da öz növbəsində Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında mühüm rol oynaya bilər".

**"Azad Avropa / Azadlıq" radiostansiyası,**
**27 aprel 1999-cu il**

## Azərbaycan Prezidenti 4000 nəfərlə nahar edərkən

Azərbaycan Prezidenti Heydər Əliyev cümə günü Vaşinqtonda keçirilən nahar mərasimlərini buraxıb, 50 kilometr Şərqdə yerləşən Merilend ştatının Annapolis şəhərinə yola düşdü və orada təxminən 4000 gəmiçi ilə nahar etdi.

Əliyevin səfər etdiyi Xizlik körfəzində yerləşən Annapolis Birləşmiş Ştatların Dənizçilik Akademiyasının mərkəzi sayılır. Əliyev buradakı səfəri zamanı dedi: "Mən hələ ömrümdə 4000 nəfər insanın bir yerdə və eyni zamanda nahar etdiyinin şahidi olmamışdım".

**"Azad Avropa / Azadlıq" radiostansiyası,**
**27 aprel 1999-cı il**

* * *

## *Azərbaycan liderinin səfəri sanksiyaya qarşı aktiv fəaliyyətdir*

Azərbaycan Prezidenti Heydər Əliyevin NATO-nun bu gün başlanacaq konfransında iştirak etmək üçün Vaşinqtona gəlişi neft şirkətləri və lobbinin ABŞ-ın Azərbaycana birbaşa hökumət yardımının qarşısını alan sanksiyalara qarşı çıxış etməsində canlanma doğurmuşdur.

7 ildən bəri qüvvədə olan, Azadlığı Müdafiə Aktına 907-ci düzəlişin nəzərdə tutduğu sanksiyalar bu Xəzərsahili ölkədə ABŞ investisiyalarını qadağan etmir. Lakin transmilli neft şirkətləri qəzəblə bu düzəlişin aradan qaldırılmasına çalışırlar, çünki onlar bununla Azərbaycanın ABŞ-a qarşı münasibətinin yaxşılaşmasına şərait yaranacağına ümid bəsləyirlər. İki hökumət arasında münasibətlərin yaxşılaşması isə həmin neft şirkətlərinin Azərbaycanın zəngin neft ehtiyatlarına çıxışının yaxşılaşması demək olardı.

"Eksson", "Mobil" və Texas şirkəti olan "Monkrif" həmin bu işin başında dururlar. Əliyev bazar ertəsi günü həmin bu neft şirkətləri ilə imzalanmaq üçün özü ilə 5 milyard dollar dəyəri olan neft istismarı müqaviləsini gətirir.

Məhsulun bölgüsü haqda müqavilədə 30%-lik marağı olan "Eksson" dənizdə 994 milyon dəyərində qiymətləndirilən ehtiyatlarla işləmək üçün bir müqavilə imzalayacaq. "Mobil" də 30%-lik marağı olmaqla, 781 milyon dəyərində olan digər bir dəniz blokunda işləyəcəkdir. "Monkrif" isə quruda yerləşən Padar blokunun reabilitasiyası sahəsində işləmək üçün müqaviləyə qol çəkəcəkdir. Bu blokun dəyəri 355 milyondan 710 milyonadək qiymətləndirilir.

Hər halda, münasibətləri mürəkkəbləşdirən və ola bilsin ki, digər mümkün müqavilələrin qarşısını alan da elə 907-ci düzəlişdir.

Həm Azərbaycan, həm də neft şirkətləri çoxlu sayda lobbiçilər cəlb edirlər ki, Konqresdə Prezidentə sanksiyaları aradan götürmək imkanı vermək üçün çalışsınlar. Son zamanlarda İsrailpərəst lobbi tərəfindən bu işə yeni dəstək verilmişdi. Bu lobbi ABŞ-ın İrandan yan keçmək məqsədilə üstünlük verdiyi



Bakı-Ceyhan neft kəmərini dəstəklədi ki, bu da 907-ci düzəlişin aradan qaldırılması işinə çox lazımlı və nəzərəçarpan töhfə oldu.

Keçən il Konqresdə sanksiyaları götürmək cəhdləri aşağı palatada baş tutmadı və bu il həmin cəhdlərin baş tutması şansları neft lobbiçisi respublikaçı Bob Livinqstonun siyasi uzaqlaşmasından sonra azaldı. (O keçən il bu cəhdlərə başçılıq edirdi.)

Senatda bu məsələ yenidən, bu dəfə senator Sem Braunbək tərəfindən qaldırılmışdır. O, martın əvvəlində "İpək Yolu" strategiyası aktını təqdim etmişdi. Bu qanun o zamandan bəri Senatın Xarici Əlaqələr Komitəsi tərəfindən dəstəklənir.

Braunbək şənbə günü Qafqaz, Orta Asiya və Şərqi Avropadan olan 11 dövlətin nümayəndələri ilə görüş keçirəcəkdir. Buraya həmçinin bir neçə dövlət başçısı da daxildir. Məqsəd onun layihəsini müzakirə etməkdir.

Keçmiş Dövlət katibi Ceyms Beyker və Prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Sendi Berger də iştirak edəcəklər.

Əliyev bu həftənin axırında Vaşinqtona gələcəyinə görə bütün bu neft şirkətləri çox cəhd edirlər ki, 907-ci düzəlişin ləğv olunmasına nail olsunlar, - bunu cümə axşamı bir sənayeçi "Oyl Deyli"yə bildirmişdir. Həmin şəxs demişdir ki, əvvəlcə, "Pennzoyl" və bəzi başqa şirkətlər bunun üçün çalışırdılar. İndi isə bu işə "ağırlar" da qoşulmuşdur və əsas cəhd qabaqdadır.

**"Oyl Deyli", 23 aprıel 1997-ci il"**

* * *

Bütün dünya liderləri içərisində tək Heydər Əliyevin bütöv rəngli şəklinin şəhərin ən böyük gündəlik qəzetinin ön səhifəsində çıxması ona doğrudan da maraq doğurmuşdu. 75 yaşlı Əliyev vəziyyətdən çıxmaqda təcrübəsi olan möhkəm və sakit şəxs təsiri bağışlayır.

Prezident Azərbaycana investisiyaları 50 milyard dollara qaldırdığını söyləmişdir. Prezident Azərbaycanda 4 milyard tondan 10 milyard tonadək neft olmasını deyərək, Xəzər dənizinin neft ehtiyatlarının əvvəllər deyildiyi kimi nəhəng olmaması barədə qorxunc proqnozları və ehtimalları azaltmışdır. O demişdir ki, Xəzər neftinin nəqlinə qoşulmaq üçün Rusiyanın maliyyə imkanları çatmır. Lakin o qeyd etmişdir ki, sovet imperiyası hələ tam dağılmayıb. Onun təbirincə desək, "dinozavr öləndə bir dəqiqədə ölmür". Əliyev demişdir ki, biz separatizmin əleyhinəyik, eyni zamanda etnik təmizləməni və genosidi də yolverilməz hesab edirik. Əliyev bu sözlərlə Dağlıq Qarabağı - onun ölkəsi ilə Ermənistan arasında on ildən artıq bir müddət ərzində davam etmiş acı və qanlı çəkişmənin mövzusu olmuş, Azərbaycanın tərkibində olan, lakin ermənilərin məskunlaşdığı anklavı nəzərdə tuturdu.

**"Vaşinqton post", 28 aprel 1999-cu il**

### Azərbaycan Prezidenti 4000 nəfərlə nahar edərkən

Azərbaycan Prezidenti Heydər Əliyev cümə günü Vaşinqtonda keçirilən nahar mərasimlərini buraxıb, 50 kilometr Şərqdə yerləşən Merilend ştatının Annapolis şəhərinə yola düşdü və orada təxminən 4000 gəmiçi ilə nahar etdi.

Əliyevin səfər etdiyi Xizlik körfəzində yerləşən Annapolis Birləşmiş Ştatların Dənizçilik Akademiyasının mərkəzi sayılır. Əliyev buradakı səfəri zamanı dedi: "Mən hələ ömrümdə 4000 nəfər insanın bir yerdə və eyni zamanda nahar etdiyinin şahidi olmamışdım".

**"Azad Avropa / Azadlıq" radiostansiyası,**
**27 aprel 1999-cı il**

* * *

### *Azərbaycan liderinin səfəri sanksiyaya qarşı aktiv fəaliyyətdir*

Azərbaycan Prezidenti Heydər Əliyevin NATO-nun bu gün başlanacaq konfransında iştirak etmək üçün Vaşinqtona gəlişi neft şirkətləri və lobbinin ABŞ-ın Azərbaycana birbaşa hökumət yardımının qarşısını alan sanksiyalara qarşı çıxış etməsində canlanma doğurmuşdur.

7 ildən bəri qüvvədə olan, Azadlığı Müdafiə Aktına 907-ci düzəlişin nəzərdə tutduğu sanksiyalar bu Xəzərsahili ölkədə ABŞ investisiyalarını qadağan etmir. Lakin transmilli neft şirkətləri qəzəblə bu düzəlişin aradan qaldırılmasına çalışırlar, çünki onlar bununla Azərbaycanın ABŞ-a qarşı münasibətinin yaxşılaşmasına şərait yaranacağına ümid bəsləyirlər. İki hökumət arasında münasibətlərin yaxşılaşması isə həmin neft şirkətlərinin Azərbaycanın zəngin neft ehtiyatlarına çıxışının yaxşılaşması demək olardı.

"Eksson", "Mobil" və Texas şirkəti olan "Monkrif" həmin bu işin başında dururlar. Əliyev bazar ertəsi günü həmin bu neft şirkətləri ilə imzalanmaq üçün özü ilə 5 milyard dollar dəyəri olan neft istismarı müqaviləsini gətirir.

Məhsulun bölgüsü haqda müqavilədə 30%-lik marağı olan "Eksson" dənizdə 994 milyon dəyərində qiymətləndirilən ehtiyatlarla işləmək üçün bir müqavilə imzalayacaq. "Mobil" də 30%-lik marağı olmaqla, 781 milyon dəyərində olan digər bir dəniz blokunda işləyəcəkdir. "Monkrif" isə quruda yerləşən Padar blokunun reabilitasiyası sahəsində işləmək üçün müqaviləyə qol çəkəcəkdir. Bu blokun dəyəri 355 milyondan 710 milyonadək qiymətləndirilir.

Hər halda, münasibətləri mürəkkəbləşdirən və ola bilsin ki, digər mümkün müqavilələrin qarşısını alan da elə 907-ci düzəlişdir.

Həm Azərbaycan, həm də neft şirkətləri çoxlu sayda lobbiçilər cəlb edirlər ki, Konqresdə Prezidentə sanksiyaları aradan götürmək imkanı vermək üçün çalışsınlar. Son zamanlarda İsrailpərəst lobbi tərəfindən bu işə yeni dəstək verilmişdi. Bu lobbi ABŞ-ın İrandan yan keçmək məqsədilə üstünlük verdiyi Bakı-Ceyhan neft kəmərini dəstəklədi ki, bu da 907-ci düzəlişin aradan qaldırılması işinə çox lazımlı və nəzərəçarpan töhfə oldu.



Keçən il Konqresdə sanksiyaları götürmək cəhdləri aşağı palatada baş tutmadı və bu il həmin cəhdlərin baş tutması şansları neft lobbiçisi respublikaçı Bob Livinqstonun siyasi uzaqlaşmasından sonra azaldı. (O keçən il bu cəhdlərə başçılıq edirdi.)

Senatda bu məsələ yenidən, bu dəfə senator Sem Braunbək tərəfindən qaldırılmışdır. O, martın əvvəlində "İpək Yolu" strategiyası aktını təqdim etmişdi. Bu qanun o zamandan bəri Senatın Xarici Əlaqələr Komitəsi tərəfindən dəstəklənir.

Braunbək şənbə günü Qafqaz, Orta Asiya və Şərqi Avropadan olan 11 dövlətin nümayəndələri ilə görüş keçirəcəkdir. Buraya həmçinin bir neçə dövlət başçısı da daxildir. Məqsəd onun layihəsini müzakirə etməkdir.

Keçmiş Dövlət katibi Ceyms Beyker və Prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Sendi Berger də iştirak edəcəklər.

Əliyev bu həftənin axırında Vaşinqtona gələcəyinə görə bütün bu neft şirkətləri çox cəhd edirlər ki, 907-ci düzəlişin ləğv olunmasına nail olsunlar, - bunu cümə axşamı bir sənayeçi "Oyl Deyli"yə bildirmişdir. Həmin şəxs demişdir ki, əvvəlcə, "Pennzoyl" və bəzi başqa şirkətlər bunun üçün çalışırdılar. İndi isə bu işə "ağırlar" da qoşulmuşdur və əsas cəhd qabaqdadır.

**"Oyl Deyli", 23 aprel 1997-ci il"**

* * *

Bütün dünya liderləri içərisində tək Heydər Əliyevin bütöv rəngli şəklinin şəhərin ən böyük gündəlik qəzetinin ön səhifəsində çıxması ona doğrudan da maraq doğurmuşdu. 75 yaşlı Əliyev vəziyyətdən çıxmaqda təcrübəsi olan möhkəm və sakit şəxs təsiri bağışlayır.

Prezident Azərbaycana investisiyaları 50 milyard dollara qaldırdığını söyləmişdir. Prezident Azərbaycanda 4 milyard tondan 10 milyard tonadək neft olmasını deyərək, Xəzər dənizinin neft ehtiyatlarının əvvəllər deyildiyi kimi nəhəng olmaması barədə qorxunc proqnozları və ehtimalları azaltmışdır. O demişdir ki, Xəzər neftinin nəqlinə qoşulmaq üçün Rusiyanın maliyyə imkanları çatmır. Lakin o qeyd etmişdir ki, sovet imperiyası hələ tam dağılmayıb. Onun təbirincə desək, "dinozavr öləndə bir dəqiqədə ölmür". Əliyev demişdir ki, biz separatizmin əleyhinəyik, eyni zamanda etnik təmizləməni və genosidi də yolverilməz hesab edirik. Əliyev bu sözlərlə Dağlıq Qarabağı - onun ölkəsi ilə Ermənistan arasında on ildən artıq bir müddət ərzində davam etmiş acı və qanlı çəkişmənin mövzusu olmuş, Azərbaycanın tərkibində olan, lakin ermənilərin məskunlaşdığı anklavı nəzərdə tuturdu.

**"Vaşinqton post", 28 aprel 1999-cu il**

# ƏLAVƏLƏR

## SƏNƏDLƏR

### 1. Səfər zamanı imzalanmış sənədlər

#### Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Özbəkistan Respublikası prezidentlərinin bəyanatı

Azərbaycan Respublikasının, Gürcüstanın, Moldova Respublikasının, Ukraynanın və Özbəkistan Respublikasının prezidentləri öz ölkələri və xalqları arasındakı ənənəvi dostluq aə əməkdaşlıq münasibətlərini əsas tutaraq və bu münasibətlərin daha da inkişaf etdirilməsinə səy göstərdiklərini vurğulayaraq;

GUAM qrupu çərçivəsində Azərbaycan Respublikası, Gürüstan, Moldova Respublikası və Ukrayna arasında çoxtərəfli qarşılıqlı əlaqələrinin getdikcə güclənən inkişafını yüksək qiymətləndirərək və Özbəkistan Respublikasının əməkdaşlığa qarşılıqlı səyinin ifadəsi kimi bu qrupa qoşulmasını alqışlayaraq;

beynəlxalq hüququn BMT nizamnaməsində və ATƏT-in müvafiq sənədlərində təsbit olunmuş başlıca normalarına və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət edilməsinə və onların beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmazlığına sadiq olduqlarını təsdiqləyərək;

özlərinin dövlətlərarası münasibətlərini yuxarıda göstərilən prinsiplərə dönmədən əməl etmək əsasında qurmaq əzmini təsdiqləyərək;

demokratiya, qanunun aliliyi və insan hüquqlarına əməl olunması prinsiplərinə hörmət edilməsinə əsaslanan vətəndaş cəmiyyətlərini daha da möhkəmləndirmək xəttini təsdiqləyərək;

təhlükəsizliyin bölünməzliyini etiraf edərək və milli, regional və qlobal səviyyələrdə sülh və təhlükəsizlik üçün olan risklərə və hədələrə qarşı durmaqda səyləri birləşdirmək əzmini bildirərək;

etnik dözümsüzlüyü, separatizmi və dini ekstremizmi qətiyyətlə rədd edərək;

davam etməkdə olan münaqişələrdən ciddi narahatlıqlarını bildirərək və bu münaqişələrin yuxarıda göstərilən normalara və prinsiplərə uyğun olaraq dinc vasitələrlə həllinə sadiq olduqlarını təsdiqləyərək;

sülhyaratma və böhranların sülh yolu ilə aradan qaldırılması sahəsində özlərinin çoxtərəfli əməkdaşlığının vacibliyini vurğulayaraq təkcə ayrı-ayrı şəxslər və dövlətlər üçün deyil, həm də bütün dünya birliyi üçün ciddi təhlükə olan terrorizm və zorakılıq aktlarının artmasından dərin narahatlıq keçirərək və terrorizmin bütün təzahürləri ilə birgə mübarizəni zəruri hesab edərək;

nüvə silahının və kütləvi qırğın silahlarının digər növlərinin yayılmaması rejimlərinin möhkəmləndirilməsi, habelə münaqişə zonalarına silahlar göndərilməsinin qarşısının alınması sahəsində səyləri birləşdirməyə böyük əhəmiyyət verərək;

özlərinin dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və bölgü xətlərindən və nüfuz dairələrindən azad olan ATƏT məkanında sabitliyə, təhlükəsizliyə və əməkdaşlığa nail olmaq məqsədlərinin ümumiliyini nəzərə alaraq;

GUÖAM çərçivəsində əməkdaşlığın üçüncü ölkələrə və ya ölkələr qrupuna qarşı yönəldilmədiyini qeyd edərək;

Avropa və Avroatlantik strukturlarına inteqrasiya proseslərində özlərinin iştirakını nəzərə alaraq.

sülh, sabitlik, qarşılıqlı surətdə faydalı hərtərəfli əməkdaşlıq və öz dövlətlərinin və xalqlarının tərəqqisi üçün təhlükəsiz və iqtisadi baxımdan səmərəli Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini inkişaf etdirməyin əhəmiyyətini və bununla əlaqədar "əsas çoxtərəfli sazişin" çox tez bir zamanda qüvvəyə minməsinin zəruriliyini vurğulayaraq aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Beynəlxalq təşkilatlar və forumlar çərçivəsində özlərinin hərtərəfli əməkdaşlığı və qarşılıqlı fəaliyyəti möhkəmləndirilsin.



2. Avropa-Atlantik Əməkdaşlığı Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivələrində özlərinin qarşılıqlı fəaliyyəti inkişaf etdirilsin.

3. Münaqişələrin və böhranların dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmazlığına hörmət edilməsi əsasında sülh yolu ilə aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət möhkəmləndirilsin.

4. Müvafiq hüquq bazası əsasında sülhyaratma potensialını möhkəmləndirmək məqsədi ilə praktiki əməkdaşlıq dərinləşdirilsin.

5. Etnik dözümsüzlüyə, separatizmə, dini ekstremizmə və terrorizmə qarşı mübarizə üçün birgə səylər göstərilsin.

6. Nüvə silahının və kütləvi qırğın silahının digər növlərinin yayılmaması rejimlərinin möhkəmləndirilməsinə, habelə münaqişə zonalarına silahlar göndərilməsinin qarşısının alınması sahəsində birgə səmərəli tədbirlər görülsün.

7. Tarixi İpək yolunun bərpasına dair 1998-ci il sentyabırn 7-8-də Bakıda keçirilmiş beynəlxalq konfransın yekunlarına əsasən Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində öz dövlətlərinin qarşılıqlı surətdə faydalı əməkdaşlığı genişləndirilsin.

8. Qarşılıqlı maraq doğuran məsələlər barəsində müvafiq səviyyələrdə müntəzəm məsləhətləşmələr aparılsın.

1999-cu il aprelin 24-də Vaşinqton şəhərində ingilis və rus dillərində beş nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

#### İpək yolu haqqında Birgə bəyannamə

Biz - Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikıstan, Türkmənistan və Özbəkistan nümayəndələri, 72 milyon adam və bir vaxtlar Şərq ilə Qərb arasında iqtisadi körpü rolunu oynamış qədim İpək yolunun üstündə yerləşən səkkiz ölkə adından aşağıdakıları bəyan edirik:

Biz dərk edirik ki, qarşılıqlı iqtisadi asılılıq qədim İpək yolunun xalqları arasında qarşılıqlı əməkdaşlığı təşviq edir, ölkələrimiz və xalqlarımız arasındakı bu tarixi münasibətlərin və iqtisadi əlaqələrin bərpası bizim uzunmüddətli müstəqilliyimizin və suverenliyimizin təmin olunmasının başlıca amili, həmçinin regionda demokratik və bazar islahatlarının müvəffəqiyyətinin başlıca amilidir.

Biz inanırıq ki, Cənubi Qafqaz və Mərkəzi Asiya ilə Qərb arasında möhkəm siyasi, iqtisadi əlaqələrin, təhlükəsizlik sahəsindəki əlaqələrin inkişafı bu regionda sabitliyi sürətləndirəcək və münaqişələrin sülh yolu ilə aradan qaldırılması üçün yaxşı baza yaradacaqdır.

Biz ölkələrimizin Qərb ilə möhkəm siyasi-iqtisadi əlaqələrinin və təhlükəsizlik sahəsindəki əlaqələrinin inkişafını vacib sayırıq. Istər öz dövlətlərimizdə, istərsə də bütövlükdə regionda demokratik idarəetmənin möhkəmləndirilməsi, qanunların aliliyi, insan hüquqlarına hörmət bəslənilməsi üçün əməkdaşlığa və birgə səylər göstərməyə hazırıq.

Biz regionun çiçəklənməsinin təmin edilməsi və mallarımızın, xidmətlərimizin və xammalımızın dünya bazarına sərbəst çıxarılmasının təmin edilməsi üçün ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığı dəstəkləyirik. Biz müstəqilliyin, suverenliyin, demokratik idarəetmənin, ərazi bütövlüyünün, özgə fikrinə dözümün, plüralizmin, bazar təmayüllü prinsiplərin, təcrübənin müdafiə edilməsi və gücləndirilməsi, ölkələrimiz arasında əməkdaşlığa mane olan əngəllərin aradan qaldırılması sahəsində Birləşmiş Ştatların səylərini yüksək qiymətləndirir, xarici aləmə regiondan ixrac və idxal yollarının diversifikasiyasını müdafiə edirik.

Biz bu ideyaların həyata keçirilməsində, birgə səylərimizin davam etdirilməsində həmrəyliyimizi və bağlılığımızı bəyan edirik.

24 aprel 1999-cu il

### Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ümumi və bölünməz təhlükəsizlik, qanunun alılıyi, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesində fəal iştirak edir.

Azərbaycan Respublikası öz milli mənafelərini, öz təhlükəsizliyinin təmin edilməsi yollarını və vasitələrini müstəqil seçmək kimi suveren hüququnu əsas tutaraq beynəlxalq əməkdaşlığın inkişafına fəal surətdə öz töhvəsini verir, Avropa və transatlantika təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiyanı qarşısına məqsəd qoyur.

Bununla əlaqədar, Azərbaycan Respublikası ümumavropa prosesinin inkişafında, Avropa qitəsində sülhün, təhlükəsizliyin və sabitliyin qorunmasında NATO-nun rolunu yüksək qiymətləndirir. Azərbaycan Şimalı Atlantika Alyansı ölkələrinin belə bir inamına tamamilə şərikdir ki, regionda təhlükəsizlik və sabitlik yalnız əməkdaşlıq və birgə tədbirlər yolu ilə, ümumi dəyərlər və prinsiplər əsasında təmin edilə bilər. Buna görə də Azərbaycan Respublikası ilk addım kimi Şimali Atlantika Əməkdaşlığı Şurasının fəaliyyətinə və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulmuşdur.

Azərbaycan Respublikası artıq əldə olunmuş nəticələr əsasında NATO ilə siyasi və hərbi əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, habelə yeni yaradılmış Avro-Atlantika Tərəfdaşlıq Şurasının və NATO-nun genişləndirilmiş "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində əməkdaşlıq üçün yaradılmış yeni mexanizmlər və imkanlardan fəal istifadə etmək niyyətindədir. Azərbaycan Respublikası tərəfdaş ölkələrə Brüssel şəhərində NATO-nun qərargah mənzilində öz diplomatik missiyalarını açmaq hüququ verilməsi barədə Madrid şəhərində 1997-ci il iyulun 8-9-da NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə qəbul edilmiş qərarı son dərəcə müsbət qarşılayacaq. NATO-da öz siyasi və hərbi təmsilçiliyini gücləndirmək üçün yaxın vaxtlarda bu imkandan istifadə edəcəkdir və Brüssel şəhərində NATO-nun qərargah-mənzilində öz diplomatik nümayəndəliyini açacaqdır.

Yuxarıda qeyd edilənləri əsas tutaraq, Avro-Atlantika Tərəfdaşlıq Şurasında və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında Azərbaycan Respublikasının iştirakının xüsusi əhəmiyyət kəsb etdiyini, NATO-ya təqdim edilmiş Azərbaycan Respublikasının prezentasiya sənədini, Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 19 aprel tarixli 302 nömrəli "Azərbaycan Respublikasının Şimalı Atlantika Birliyinin "Sülh naminə tərfdaşlıq" Proqramı çərçivəsində hazırlanmış prezentasiya sənədi haqqında Sərəncamını, NATO üzvü olan ölkələrin və tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının 1997-ci il iyulun 8-9-da Madrid şəhərində keçirilmiş görüşünün yekunlarını nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında aşağıdakı tərkibdə Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

Komissiyanın üzvləri:

Həsən Həsənov - Azərbaycan Respublikasının xarici işlər naziri

Namiq Abbasov - Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Səfər Əbiyev - Azərbaycan Respublikasının müdafiə naziri

Nəcməddin Sadıxov - Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş qərargahının rəisi

Nadir Əhmədov - Azərbaycan Respublikasının rabitə naziri

Vəfa Quluzadə - Azərbaycan Respublikasının xarici siyasət məsələləri üzrə Dövlət müşaviri

Natiq Əliyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Cahangir Əsgərov - "Azərbaycan hava yolları" Dövlət Konserninin Baş direktoru

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın:

Azərbaycan Respublikasının Milli Məclisinə Şimali Atlantika Assambleyası ilə əlaqələrin yaradılmasına köməklik etsin;



Bu Sərəncamın 1-ci bəndində göstərilən komissiya haqqında Əsasnamə layihəsini 15 gün müddətində hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1995-ci il iyulun 19-da Brüssel şəhərində imzalanmış NATO üzvü olan dövlətlərin və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında iştirak edən dövlətlərin silahlı qüvvələrinin statusu haqqında Sazişin, habelə bu Sazişə dair Əlavə Protokolun müəyyən olunmuş qaydada Azərbaycan Respublikası tərəfindən imzalanması üçün tədbirlər görsün;

NATO-nun Baş katibinin 1996-cı il fevralın 13-14-də Bakı şəhərinə səfərinin yekunları əsasında onunla əldə edilmiş razılığa uyğun olaraq müvafiq nazirliklər və baş idarələr ilə birlikdə Bakı şəhərində 1999-cu il ərzində NATO-nun Atlantika Siyasəti üzrə Məsləhət Qrupunun iclasını keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti 30 gün müddətində NATO ilə məxfi informasiya mübadiləsinin təmin olunması, Azərbaycan Respublikasının NATO ilə mühafizə edilən rabitə əlaqəsi üçün aparatların alınması və onların quraşdırılması üçün lazımi tədbirlər həyatat keçirsin.

4. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının Planlaşdırma və Təhlil Prosesində Azərbaycan Respublikasının iştirakının təmin edilməsi üçün lazımi tədbirlər görsün;

NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində beynəlxalq hərbi təlimlərdə və sülhyaratma əməliyyatlarında iştirak etmək üçün xüsusi hərbi bölmənin - rotanın hazırlanması və təchiz olunması üçün lazımi tədbirlər görsün;

Azərbaycan Respublikasının hərbi-tədris müəssisələrində beynəlxalq standartlara və NATO-nun silahlı qüvvələri ilə qarşılıqlı fəaliyyət tələblərinə uyğun olan hərbi kadrların hazırlanması üçün şərait yaradılmasını təmin etsin;

15 gün ərzində Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində "NATO/Sülh naminə tərəfdaşlıq" kafedrasının yaradılması işini başa çatdırsın;

müvafiq nazirliklər və baş idarələr ilə birlikdə Azərbaycan Respublikasında 1997-ci ilin noyabr ayı ərzində NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində "Kooperativ Demand təliminə hazırlıq üzrə seminarın keçirilməsini təmin etsin, 1997-ci ilin dekabr ayında Türkiyə Respublikasında keçiriləcək "Kooperativ Demand" təlimində Azərbaycan Respublikasının iştirakını müəyyən edilmiş qaydada təmin etsin;

Mons şəhərində (Belçika) Tərəfdaşlığı Əlaqələndirmə Qrupunda Azərbaycan Respublikasının iştirakını təmin etmək üçün lazımi tədbirləri ən qısa müddətdə həyata keçirsin;

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin iştirakçısı olan dövlətlərin Birgə Məsləhət Qrupu (AASQM BMQ) çərçivəsində danışıqlarda hərbi məsələlər üzrə ekspert işinin təmin edilməsi üçün Xarici İşlər Nazirliyi ilə razılaşdırmaqla Müdafiə Nazirliyinin əməkdaşını 7 gün müddətində Vyana şəhərində (Avstriya) Azərbaycan Respublikasının Səfirliyinin tərkibinə göndərsin.

5 Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti:

NATO-nun neft kəmərlərinin təhlükəsizliyi məsələləri üzrə ekspertləri ilə qarşılıqlı fəaliyyət üçün müvafiq nazirliklərin və baş idarələrin iştirakı ilə 15 gün müddətində idarələrarası işçi qrupu yaratsın,

razılaşmada nəzərdə tutulmuş müddətlərdə 1997-ci ildə Bakı şəhərində NATO-nun neft kəmərlərinin təhlükəsizliyi məsələləri üzrə ekspertləri ilə ilk işçi görüşü keçirsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Azərbaycan Elmlər Akademiyası 30 gün müddətində müvafiq surətdə NATO-nun Avropa hava məkanında hərəkətin idarə olunmasının əlaqələndirilməsi Komitəsi, NATO-Elm komitəsi, NATO-nun Fövqəladə Vəziyyətlər Komitəsi ilə əməkdaşlığa dair təkliflər təqdim etsinlər.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 noyabr 1997-ci il

№ 692

**NATO-nun 50 illik yubileyi ilə əlaqədar**
**Azərbaycan Respublikasının Prezidenti**
**cənab Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına səfərinin**
**PROQRAMI**
(22 aprel - 27 aprel 1999-cu il)

**22 aprel, cümə axşamı**

| | |
|---|---|
| 15.00 - (yerli vaxtla) | Vaşinqtona gəliş |
| 19.00 - 21.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının görkəmli senatorları və ictimai xadimləri ilə görüşü |

**23 aprel, cümə**

| | |
|---|---|
| 10.45 | Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Akademiyasına gəliş |
| 11.00 - 11.50 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Hərbi Dəniz Akademiyasının kursantları qarşısında çıxışı |
| 12.05 | "Bankroft Holl" binası qarşısında Hərbi Dəniz Akademiyası kursantlarının marş mərasiminə baxış |
| 12.15 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Hərbi Dəniz Akademiyası kursantları ilə birgə naharı |
| 13.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Akademiyanın Memorial zalına dəvət olunur |
| 13.05 | Vətən uğrunda gedən döyüşlərdə həlak olmuş Akademiya müdavimlərinin xatirəsinə həsr olunmuş abidənin önünə əklil qoyulması mərasimi |
| 13.15 | Hərbi Dəniz Akademiyasının ərazisi ilə tanışlıq (Müşayiət edir: kontr-admiral cənab Qarı Ruqxed) |
| 13.50 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Hərbi Dəniz Akademiyasının rektoru vitse-admiral cənab Con Rayanla görüşü |
| 16.00 | "Xolokost" muzeyinə gəliş, muzeylə tanışlıq |
| 16.50 | Muzeyin xatirə zalında əklil qoyulması mərasimi |
| 16.55 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin muzeydəki Fəxri qonaqların xatirə kitabında qeydləri |
| 17.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışı |



| | |
|---|---|
| 17.10 | "Xolokost" muzeyindən iqamətgaha gediş |
| 20.00 - 22.30 | Amerika Birləşmiş Ştatlarının NATO üzrə Komitəsi, NATO-nun 50 illik yubileyinin Təşkilat Komitəsi və Kolumbiya əyalətinin meri tərəfindən NATO Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə ziyafət |

**24 aprel, şənbə**

| | |
|---|---|
| 08.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin cənab Henri Kissincerlə görüşü |
| 10.00 - 10.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Fransa Prezidenti cənab Jak Şirak ilə görüşü |
| 12.15 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Özbəkistan Respublikasının Vaşinqtondakı Səfirliyinə gəlişi |
| 12.27 - 12.40 | GUÖAM üzvü olan ölkələrin dövlət başçılarının görüşü |
| 12.42 | Birgə şəkilçəkdirmə mərasimi |
| 12.50 - 13.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin bəyanatı |
| 13.15 - 13.20 | GUÖAM üzvü olan ölkələrin dövlət başçıları tərəfindən Vaşinqton qətnaməsinin imzalanması mərasimi |
| 13.20 - 13.30 | Mətbuat nümayəndələri ilə görüş |
| 13.30 - 14.20 | GUÖAM üzvü olan ölkələrin dövlət başılarının şərəfinə nahar |
| 14.45 - 15.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bondeviklə görüşü |
| 15.55 | Amerika Birləşmiş Ştatları Senatına gəliş |
| 16.00 | Senator Sem Braunbəkin təşəbbüsü ilə "İpək yolu" layihəsinin iştirakçısı olan ölkələrin dövlət başçılarının görüşü |
| 16.00 | Nümayəndə heyətlərini Senatın Protokol xidmətinin başçısı qarşılayır |
| 16.05 | Dövlət başçıları Mensifald görüş otağına keçirlər |
| 16.45 | Birgə bəyanatın imzalanması mərasimi |
| 17.00 | Birgə şəkilçəkdirmə mərasimi |
| 19.00 | Dövlət və hökumət başçılarının Ağ evə |

| | |
|---|---|
| | gəlişi<br>Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton və xanımı Hillari Klinton Ağ evin cənub meydançasındakı pavilyonun qarşısında dövlət və hökumət başçılarını xanımları ilə birgə salamlayırlar |
| 21.00 - 22.55 | Dövlət və hökumət başçılarının xanımları ilə birgə iştirak etdikləri ziyafət |
| 19.30 - 20.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ABŞ Prezidenti cənab Bill Klinton ilə görüşü |
| 20.00 - 20.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Bolqarıstan Prezidenti cənab Petr Stoyanov ilə görüşü |
| 20.30 - 21.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Polşa Prezidenti cənab Aleksandr Kvasnevski ilə görüşü |
| 21.00 - 21.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Belçikanın Baş naziri cənab Jan Lük Dean ilə görüşü |
| 21.30 - 22.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Latviya Prezidenti cənab Quntis Ulmanis ilə görüşü |

**25 aprel, bazar**

| | |
|---|---|
| 09.15 - 10.40 | ABŞ-ın Dövlət katibi Madlen Olbraytın sədrliyi ilə Azərbaycan, Ermənistan və Gürcüstan prezidentlərinin görüşü |
| 10.40 - 11.00 | Nümayəndə heyətləri başçılarının NATO-nun yubiley sessiyasına gəlişi |
| 11.00 | NATO-nun Baş katibi cənab Xavyer Solana sessiyanı açıq elan edir<br>NATO-nun Baş katibi cənab Xavyer Solananın giriş sözü<br>Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun çıxışı |
| 11.10 | NATO-nun Baş katibi Xavyer Solana sessiyanı mətbuat üçün bağlı elan edir |
| 12.45 | Fasilə, birgə şəkilçəkdirmə mərasimi |
| 12.00 - 14.00 | NATO zirvə görüşünə dəvət olunmuş dövlətlərin "Birinci xanımlar"ı üçün Amerika Birləşmiş Ştatlarının "Birinci xanımı" Hillari Klintonun adından nahar ("Bleyer Haus", "Cekson Pleys " konfrans zalı) |
| 13.00 | NATO-nun Baş katibi cənab Xavyer Solananın və nümayəndə heyətləri başçılarının ehtimal olunan iştirakı ilə mətbuat konfransı |



| | |
|---|---|
| 13.30 - 15.30 | Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonun adından nümayəndə heyətləri başçılarının şərəfinə işgüzar nahar mərasimi |
| 19.00 | R.İbrahimbəyov və Amerika rejissoru R.Ruyun birgə ssenarisi əsasında çəkilmiş "Dağıdılmış körpülər bədii filminə baxış |

**26 aprel, bazar ertəsi**

| | |
|---|---|
| 09.50 - 11.30 | Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində görüş |
| 10.05 - 11.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışı |
| 12.05 - 14.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Vaşinqton post" qəzetinin jurnalistləri ilə görüşü |
| 15.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt ilə görüşü |
| 16.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti cənab Robert Koçaryanla görüşü |
| 18.20 | "Poçt" muzeyinə gəliş |
| 18.30 - 21.50 | Amerika-Azərbaycan Ticarət Palatası adından Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin şərəfinə ziyafət ("Poçt" muzeyi) |
| 21.35 - 21.50 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin çıxışı |

**27 aprel, çərşənbə axşamı**

| | |
|---|---|
| 09.45 - 10.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının ticarət naziri cənab Uilyam Deyli ilə görüşü |
| 10.00 | Amerika Birləşmiş Ştatları Senatının binasında neft müqaviləsinin imzalanması mərasimi |
| | Amerika Birləşmiş Ştatlarının Konqresinə gediş |
| 11.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr Palatasının üzvləri ilə görüşü |
| 20.00 | Vaşinqtondan uçuş |

# QEYDLƏR

1. **NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) - hərbi -sıyası ıttıfaqdır, ABŞ-ın təşəbbüsü ilə 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Brıtanıya, Fransa, Belçika, Nıderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka və İslandiya tərəfindən imzalanmış Şimalı Atlantıka müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə AFR, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşdur. NATO-da başlıca rolu ABŞ oynayır. NATO çərçivəsində birləşmış hərbi komandanlıq yaradılmışdır. 1966-cı ildə Fransa, 1974-cü ildə Yunanıstan NATO-nun hərbi təşkilatından çıxmışdır. 1980-cı ıldə Yunanıstan təşkilata qayıtmışdır. İspanıya hərbi təşkilata daxil deyildır. Varşava Müqaviləsı Təşkılatı dağıdıldıqdan sonra sosialist ölkələri düşərgəsinə daxil olan ölkələrın bir qismı NATO-ya bərabərhüquqlu üzv kimı daxil olmuş, digər qismi ilkin mərhələ kimi NATO-nun "Sülh namınə tərəfdaşlıq" proqramına qoşulmuş, üzvlük arzusunda olduqlarını bildirmişlər. Bununla da NATO-nun Şərqə doğru hərəkəti başlamışdır NATO-nun ali orqanı NATO Şurasının sessiyasıdır. NATO-nun mənzıl-qərargahı Brüsseldədır. - 7

2. **Bill Klinton** (Uilyam Ceferson Blayd adı ilə xaç suyuna çəkilmışdir) - 1946-cı il avqustun 19-da Hour şəhərində anadan olmuşdur. Onun ailəsi ikı ildən sonra Hot-Sprınqs şəhərınə köçmüş və o, burada orta məktəbi bitirmişdir. 1964-cü ilin payızında Corctaun universitetinə daxil olmuşdur. 1968-ci ıldə həmın unıversıtetı qurtarıb beynəlxalq məsələlər üzrə politoloq ixtisasına yiyələnmişdir. Bu universiteti qurtardıqdan sonra İngıltərənin Oksford universitetinə daxıl olmuşdur. 1970-ci ildə ABŞ-a qayıtdıqdan sonra Yel unıversıtetının hüquq fakültəsinə daxil olmuşdur. 1973-cü ildə Yel universitetinı hüquqçu diplomu ilə bıtırmışdır

1976-cı ildə Arkanzas ştatının prokuroru vəzifəsinə öz namizədlıyini ırəli sürmüş və seçkılərdə qalıb gəlmişdir. Bir müddət keçdikdən sonra Arkanzas ştatının baş prokuroru seçilmışdır İkı ıldən sonra bu ştatın qubernatoru olmuş və dörd dəfə dalbadal həmin vəzifəyə seçilmişdır.

B.Klinton 1981-1982-ci illərdə fərdi hüquq praktıkası ilə məşğul olmuş və Arkanzas universitetındə hüquqdan dərs demişdir. 1992-ci ildə ABŞ-ın 42-ci prezidentı seçılmişdir 1996-cı ıldə isə ıkıncı müddətə ABŞ prezidenti seçilmışdir.

B.Klinton Hillari Rodem Klinton ilə evlənmişdir. Çelsi adlı bir qızı vardır. - 10

3. **Minsk qrupu** - ATƏM Şurasının 1992-ci il martın 24-də Helsınkidə keçırılmiş əlavə görüşündə Fəaliyyətdə olan sədr təklif etmişdi ki, ATƏM çərçivəsində qəbul edılmış prınsiplər, öhdəliklər və müddəaların bazasında Dağlıq Qarabağ böhranının sülh yolu ilə aradan qaldırılması üzrə danışıqlar uçün daımı əsasda işləyən forum yaratmaq məqsədi ilə ən qısa müddətdə ATƏM-in himayəsı altında Dağlıq Qarabağ üzrə konfrans çağırılsın. Nəzərdə tutulurdu ki, Minskdə keçırilməlı olan konfransda Azərbaycan, Ermənıstan, Belarus, Almaniya, İtaliya, Rusiya Federasiyası, ABŞ, Türkiyə, Fransa, Çexiya-Slovakiya Federatıv Respublikası və İsveç iştirak edəcəklər. "Minsk qrupu" deyilən qrupda bırləşmış bu ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması probleminin sıyası yolla həll olunması sahəsində ATƏM-ın səylərində vasitəçilik rolunu öz üzərlərınə götürdülər.

Hazırda Minsk qrupunun tərkibinə aşağıdakı ölkələr daxildirlər: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, Rusiya Federasiyası, ABŞ, Fransa, Türkıyə Minsk qrupunda Rusiyanı N.Qribkov, Fransanı J.Qayyard, ABŞ-ı K.Kavano təmsıl edırlər. - 14

4. "Rusıyanın və yeni müstəqıl dövlətlərın azadlığını müdafiə aktına 907-cı duzəlış" 1992-cı ılın ıyulunda senator Con Kerrı (demokrat, Massaçusets ştatı) tərəfindən ABŞ Senatının Xarıcı Əlaqələr Komıtəsınə təqdım olunmuşdur Düzəlişın müzakırəsı gedışində senatorlardan Luqar (İndıana), Mak Kone (Kentukkı), Kessembaum (Kanzas) və Stenford (Şımalı Kalıfornıya) onun qəbul edılməsının əleyhinə çıxış etmışlər Lakın ermənı lobbisinin fəallığı nəticəsində 1992-cı ıl oktyabrın 24-də düzəlış qəbul edılmışdır

907-cı düzəlış ABŞ hökumətının Azərbaycan hökumətınə yardımı qadağan edır Hazırda Prezıdent B.Klıntonun hökumətı 907-cı düzəlişın saxlanılmasına qarşı çıxır və hesab edır kı, bu düzəlış Azərbaycandakı ındiki reallıqlara uyğun deyil. - 26

5. **Madlen Olbrayt** - ABŞ-ın Dövlət katıbıdır. 1937-cı ilın mayında Çexoslovakıyanın Praqa şəhərındə anadan olmuşdur. Atası Yozef Korbel çex dıplomatı olmuş, İkıncı dünya müharıbəsi qurtaqdıqdan sonra BMT-



də işləmişdir. M.Olbrayt 1959-cu ildə Uelsi kollecini əla qiymətlərlə bitirib politologiya sahəsində bakalavr dərəcəsi almışdır. 1968-ci ildə magistr dərəcəsinə, 1976-cı ildə Kolumbiya universitetində fəlsəfə doktoru adına layiq görülmüşdür. 1976-cı ildən senator Edmund Maskinin ofisində işləmişdir. İki ildən sonra prezident C.Karterin hökuməti dövründə Milli Təhlükəsizlik Şurasının üzvü seçilmiş, Z.Bjezinskinin rəhbərliyi altında ışləmışdır. M.Olbrayt ABŞ prezidenti vəzifəsinə namizədlər U.Mondeyl və M.Dukakisin seçki kampaniyaları zamanı müvafiq olaraq 1984-cü və 1988-ci illərdə xarici siyasət məsələləri üzrə əlaqələndirici işləmişdir.

1989-cu ildən Milli Siyasət Mərkəzinin prezidentidir. 1982-ci ildən beynəlxalq münasibətlər üzrə professordur və Corctaun universitetinin Xarici Siyasət Məktəbindəki "Qadınlar xarici siyasət xidmətində" proqramının direktorudur.

M.Olbrayt 1993-cü ilin fevralında Kabinetin üzvü statusunu almış və ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. Səfir M.Olbrayt BMT-nin Təhlükəsizlik Şurasında Yuqoslaviyada, Haitidə, Ruandada vəziyyətə dair məsələlər üzrə ABŞ siyasətinin hazırlanmasında iştirak etmişdir. O, İraqa qarşı sanksiyaların zəiflədilməsinin fəal əleyhdarıdır, Bosniya və Hersoqovinada hərbi cinayətkarların məsuliyyətə cəlb olunmasının tərəfdarıdır.

1997-ci ilin yanvarından ABŞ-ın Dövlət katibidir. "Polşa: mətbuatın siyasi dəyişikliklərdə rolu, "Mətbuatın siyasi dəyişikliklərdə rolu - Çexoslovakiya - 1968" və "Sovet diplomatiya xidməti: elitanın profili" əsərlərinin müəllifidir.

Çex, polyak, rus və fransız dillərində sərbəst danışır.

Boşanmışdır. Üç qızı vardır. - 28

6. 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti Zirvə toplantısı keçirildi. ATƏT-in üzvü olan 54 ölkənin dövlət və hökumət başçıları iştirak edən həmin Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti də iştırak etdi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər içərisində Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Zirvə toplantısı çərçivəsində aparılmış danışıqlar və görüşlər zamanı Azərbaycan Respublikası nümayəndə heyəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması, qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması və ümumiyyətlə, münaqişənin sülh yolu ilə həll olunması məsələləri qoyuldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi ATƏT sədrinin bəyanatı qəbul olundu.

İlk dəfə olaraq ATƏT çərçivəsində ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazı bütövlüyü bütün dövlətlər tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın yalnız Azərbaycan Respublikasının tərkibində statusunun müəyyən olunmasının mümkünlüyü öz əksini tapdı.

Bəyanatda ifadə edilmiş prinsiplər aşağıdakılardır:

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;

Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, Dağlıq Qarabağ üçün ən yüksək özünüidarəetmə dərəcəsi verən hüquqi status;

məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxıl olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi. - 29

7. **Konqres** - ABŞ-ın qanunvericilik orqanıdır. İki palatadan - Senatdan və Nümayəndələr Palatasından ıbarət olan Konqres ABŞ-ın ictimaı-siyasi həyatında tarixən mühüm rol oynamışdır və indi də oynayır.

Senatın 100 üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. Hər ilin yanvar ayında ABŞ prezidenti Senata gələrək ölkənin vəziyyəti barədə hesabat verir.

Konqresın qapısı bütün amerikalılar və ölkəyə gələn qonaqlar üçün açıqdır. Konqresdə onlar üçün xüsusi yerlər ayrılmışdır. - 32

8. **Piter Kinq** - 1944-cü il aprelin 5-də Nyu-Yorkda anadan olmuşdur. 1965-ci ildə "Müqəddəs Frensis" kollecını, 1968-ci ildə Notterdam universitetini bitirmişdir. 1968-1973-cü illərdə Milli qvardiyada xidmət etmişdir. 1978-1981-ci illərdə Hempsted Şəhər Şurasının üzvü olmuşdur. 1981-1993-cü illərdə Nassau

şəhərində maliyyə müfəttişi işləmişdir. 1992-ci ildə Nyu-York ştatından Konqresin üzvü seçilmişdir. Senat komitələrində bank və maliyyə xidmətlərinə dair məsələlərin müzakirəsində yaxından iştirak edir.

Evlidir, iki övladı vardır. Respublikaçıdır. - 32

9. ABŞ-ın **"Eksson"** korporasiyasının mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. Korporasiya dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biridir. Şirkət 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. "Eksson"un xaricdəki ilk filialı 100 il bundan əvvəl yaradılmışdır. Şirkət hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. Şirkət dünyanın 18 ölkəsində yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. 1996-cı ildə "Eksson"un gündəlik neft hasilatı 220.000 ton, təbii qaz hasilatı 185 milyon kubmetr olmuşdur. Neft emalının gündəlik həcmi 520.000 ton olmuşdur. Neft məhsullarının gündəlik satışının həcmi 720.000 tondur. Korporasiyanın prezidenti Terri Kuntsdur. - 42

10. ABŞ-ın **"Mobil Oyl Korporeyşn"** şirkəti 1866-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmi tədqiqat işləri ilə məşğuldur. Şirkətin prezidenti və İdarə heyətinin sədri Lüçio A.Notodur. - 42

11. **Uilyam Deyli** - ABŞ-ın ticarət naziridir. 1949-cu ildə anadan olmuşdur. 1988-ci ildə Albert Qorun seçki kompaniyası üzrə müşaviri olmuşdur. Çikaqodakı Con Marşall hüquq institutunu və Loyola universitetini (Çikaqo) bitirmişdir. 1975-1985-ci illərdə "Deyli və Corc" hüquq firmasında işləmişdir. 1977-1980-cı illərdə iqtisadi imkanlar üzrə məşvərət komitəsinin üzvü olmuşdur. 1989-cu ildə Çikaqo Birləşmiş Bankının vitse-prezidenti işləmişdir. 1990-1993-cü illərdə isə həmin bankın prezidenti olmuşdur. 1993-cü ildə "Mayer Braun və Platt " hüquq firmasında işləmişdir. 1993-cü ildə prezidentin "Sərbəst ticarətə dair Şimali Amerika" sazişi üzrə xüsusi məsləhətçisi işləmişdir. 1992-ci ildə İllinoys ştatında Klintonun seçkiqabağı qərargahının sədri olmuşdur.

1997-ci ilin yanvarından ABŞ-ın ticarət naziridir. Evlidir. Üç övladı vardır. Qardaşı Riçard Deyli Çikaqo bələdiyyə rəisidir. - 48

12. Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında üç il davam etmiş danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Amoko Kaspian Si Petroleum Ltd", "Bi-Pi Eksploreyşn (Kaspian Si) Ltd", "Den Norske Stats Olyeselskap a.s.", "LUKoyl Səhmdar Cəmiyyəti", "Makdermott Azərbaycan ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji Ltd", "Türkiyə Petrolleri a.o ", "Yunokal Xəzər Ltd" şirkətləri arasında Saziş" imzalandı. Azərbaycanın neft yataqlarının işlənməsi, istismarı, neft və qaz ixracı sahəsində ABŞ-ın, Rusiya Federasiyasının, Böyük Britanıya Krallığının, Türkiyə Cümhuriyyətinin və Norveç Krallığının iri neft şirkətləri ilə bağlanmış bu ilk müqavilə sonralar haqlı olaraq "Əsrin müqaviləsi" adlandırıldı. - 56

13. **Semüel (Sendi) Berger** - Kornell universitetini qurtarmışdır. 1971-cı ildə Harvard universitetinin hüquq məktəbini bitirmişdir. 1973-1977-ci illərdə və 1981-1992-ci illərdə "Hoqan və Hartson" firmasının beynəlxalq ticarət məsələləri üzrə partnyoru və direktoru olmuşdur. 1977-1980-cı illərdə Nyu-Yorkun keçmiş bələdiyyə idarəsinin rəisi C.Lindseyin xüsusi köməkçisi, keçmiş senator Q.Hyuzun və Nümayəndələr Palatasının üzvü C.Reznikin qanunvericilik məsələləri üzrə köməkçisi işləmişdir.

Semuel Berger ABŞ Dövlət Departamentinin Siyasət planlaşdırma şöbəsi direktorunun müavini və B.Klintonun xarici siyasət məsələləri üzrə böyük müşaviri işləmişdir. 1993-1997-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini olmuşdur. 1997-ci ilin yanvarından prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisidir.

Evlidir, üç övladı var. - 64

14. **"Böyük İpək yolu"** termini bizim eradan əvvəl məşhur Çin səyyahı Çjan Tsyanın səfərindən sonra meydana gəlmiş və Çindən Asiyaya uzanan karvan yolu nəzərdə tutulmuşdur. Sonralar bu ifadə mürəkkəb



kommunikasiya sistemini, Asiya, Aralıq dənizi regionu və Avropa ölkələri arasındakı əlaqələri anlatmaqla yeni məzmun qazanmışdır.

Böyük İpək yolunun gediş-gəlişi gur olan və sanki "dincələn" çağları olmuşdur. Orta əsrlərdə isə Böyük ipək yolu ölkələr arasında ticarət və mədəni əlaqələrin inkişafına əvəzsiz töhfələr vermişdir.

Adından da göründüyü kimi Böyük İpək Yolu başlıca olaraq Qərbin yüksək qiymətləndirdiyi, keyfiyyətli Çin ipəyinin ticarətinə xidmət edirdi. I-II əsrlərdə Böyük İpək yolu ölkələr arasında ticarət və diplomatik əlaqələrin inkişafında böyük rol oynamışdı. Böyük İpək yolu tədricən Qərb və Şərq arasında siyasi və iqtisadi əlaqələrin qurulması və inkişafında əsas vəsatəyə çevrilir, əhəmiyyətli rol oynamağa başlayırdı.

Böyük İpək yolu iki marşrutla - Çin, Orta Asiya, İran, Aralıq dənizi və Çin, Orta Asiya, Xəzər dənizi, Qara dəniz yolu ilə Qərbə çatırdı. Bu gün onlardan ən məşhuru olan "TRASEKA" Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi olmaqla Böyük İpək yolunun əsas tərkib hissəsidir.

Avropa, Qafqaz, Mərkəzi Asiya ölkələrini bir-biri ilə əlaqələndirən müxtəlif Şərq-Qərb marşrutlarını təyin etmək məqsədilə 1993-cü ilin may ayında Brüsseldə Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, həmçinin Rusiya, Ukrayna, Rumıniya, Bolqarıstan, Türkiyə, İran, Çin, Pakistan və Avropa İttifaqı ölkələri nümayəndələrinin işgüzar görüşü keçirilmiş və nəticədə "TRASEKA" (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Transqafqaz beynəlxalq nəqliyyat dəhlizinin inkişafına Avropa İttifaqının Texniki Yardımı haqqında Brüssel Bəyannaməsi imzalanmışdır.

Azərbaycan üçün "TRASEKA"nın böyük əhəmiyyəti vardır. Respublikanın beynəlxalq neft müqavilələrinin həyata keçirilməsi böyük həcmdə yüklərin Avropa, ABŞ və Cənub-Şərqi Asiyadan Bakıya daşınmasını tələb edir. "TRASEKA" bu cəhətdən çox gözəl imkanlar yaradır.

Avropa ekspertlərinin proqnozuna görə bu istiqamət yükdaşıma həcminin dinamik surətdə artması üçün də böyük perspektivlərə malikdir. Azərbaycanın öz enerji ehtiyatları nəzərə alınsa, o, tranzit yük axını xidməti üzrə kifayət qədər uzunmüddətli və sabit proqramları təmin edə bilər.

Azərbaycandan keçən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizindən istifadə etməyi yaxşılaşdırmaq məqsədilə, 1996-cı il mayın 13-də Serah şəhərində Özbəkistan, Azərbaycan, Gürcüstan və Tacikistan prezidentləri həmin ölkələr arasında tranzit daşımanı tənzimləmək sahəsində əməkdaşlıq haqqında saziş imzalamışlar. Bu sazişə digər dövlətlər də qoşulmuşlar.

Azərbaycan tərəfi "TASİS", "TRASEKA" proqramları çərçivəsində Avropa İttifaqı ekspertləri ilə müvəffəqiyyətlə əməkdaşlıq edərək 20-dən çox layihəni həyata keçirir.

Azərbaycanın TASİS və TRASEKA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə sıx əməkdaşlığı nəticəsində 1995-ci ildən 1998-ci ilədək respublikamızın nəqliyyat komunikasiyalarından istifadə edilməklə Avropa-Asiya istiqamətində tranzit yükləri daşınmasının həcmi 10 dəfə artmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin uzaqgörən, irimiqyaslı xarici siyasəti sayəsində bu layihələrin əsasında tarixi Böyük İpək yolunun bərpası işinə başlanmışdır. Prezident Heydər Əliyev Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyindən respublikamız üçün səmərəli istifadə etmək məqsədilə proqramın reallaşdırılmasına xeyli səy göstərmiş, layihədə iştirak edən ölkələrin dövlət və hökumət başçılarının, səlahiyyətli nümayəndələrinin iştirakı ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində beynəlxalq konfrans keçirilməsinə nail olmuşdur. Dünyanın 32 ölkəsinin və 13 beynəlxalq təşkilatın təmsil olunduğu bu konfransda yeni yaradılan beynəlxalq təşkilatın mənzil-qərargahının Bakıda yerləşdirilməsi barədə qərar qəbul edilməsi nəticəsində Azərbaycan bu beynəlxalq strukturun mərkəzinə çevrilmişdir. - 70

15. **Sem Braunbək** - 1956-cı il sentyabrın 12-də Kanzas ştatının Harnett şəhərində anadan olmuşdur. 1979-cu ildə Kanzas ştatı universitetini (bakalavr) bitirmişdir. 1982-ci ildə isə Kanzas universitetini hüquq doktoru dərəcəsi ilə qurtarmışdır. Müəllim, hüquqşünas, Ağ ev aparatının əməkdaşı, radioaparıcı işləmişdir. 1986-1993-cü illərdə Kanzas ştatının kənd təsərrüfatı məsələləri üzrə katibi olmuşdur. 1995-1996-cı illərdə Nümayəndələr Palatasının Kanzas ştatından üzvü (respublikaçı) olmuşdur. 1996-cı ildən Senatın Kanzas ştatından üzvüdür. Xarici Əlaqələr Komitəsinin üzvüdür. - 70

16. **Zbiqnev Bjezinski** - 1928-ci il martın 28-də Varşavada anadan olmuşdur. 1953-cü ildə ABŞ-a gəlmiş və 1958-ci ildə ABŞ vətəndaşlığını qəbul etmişdir. 1949-cu ildə Kanadanın Makdill universitetini iqtisadiyyat və politologiya üzrə fərqlənmə ilə bitirmişdir. 1950-ci ildə politologiya sahəsində incəsənət magistri dərəcəsi almışdır. 1953-cü ildə Harvard universitetini (fəlsəfə doktoru) bitirmişdir. 1953-1960-cı illərdə

Harvard universitetinin Rusiya tədqiqatları mərkəzinin əməkdaşı olmuşdur. 1966-1988-ci illərdə Dövlət Departamentinin Siyasi Planlaşdırma Şurasının üzvü olmuşdur. 1962-1977-ci illərdə Beynəlxalq Hadisələr Tədqiqat İnstitutunun direktoru işləmişdir. 1973-1976-cı illərdə üçtərəfli komissiyanın direktoru olmuşdur. 1977-1981-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, Təhlükəsizlik Şurasının əməkdaşı olmuşdur 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987-1991-ci illərdə prezidentin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Hopkins universitetinin Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Məktəbinin müəllimidir.

10-dan çox kitabın və çoxlu tədqiqatların müəllifidir. - 74

17. Son beş il müddətində aparılan müzakirələr və danışıqlar nəticəsində 1999-cu il noyabrın 18-də ATƏT-ın İstanbul zirvə görüşü zamanı Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Respublikası prezidentləri tərəfindən xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası saziş imzalanmışdır. Bu saziş ilə yanaşı Amerika Birləşmiş Ştatları prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan Respublikası, Türkiyə Respublikası prezidentləri Azərbaycan Respublikasının və digər Xəzəryanı ölkələrin zəngin neft ehtiyatlarının beynəlxalq bazarlara uğurlu ixracının təşkil edilməsi üçün başlıca mərhələ sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin qısa bir müddət ərzində həyata keçirilməsinə yönəlmiş İstanbul bəyannaməsini də imzalamışlar. - 79

18. **Brend Skoukroft** - 1925-ci il martın 19-da Yuta ştatında anadan olmuşdur. 1953-cü ildə Kolumbiya ştatının universitetində təhsil almış, 1958-ci ildə Corctaun universitetinin aspiranturasını bitirmişdir. 1959-1961-ci illərdə ABŞ-ın Belqraddakı səfirliyinin hərbi aviasiya attaşesinin köməkçisi, 1972-1973-cü illərdə ABŞ prezidentinin hərbi köməkçisi işləmişdir. 1974-cü ildə general-leytenant rütbəsi almışdır. 1973-1975-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini işləmişdir. 1975-1977-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri olmuşdur.

1982-1989-cu illərdə "Kissincer Assoşieyts İnkorporeyted" təşkilatının vitse-prezidenti olmuşdur. 1993-cü ildən Beynəlxalq Siyasət Forumunun prezidentidir.

Hazırda "Pennzoyl" şirkətinin Direktorlar Şurasının üzvüdür. Ehtiyatda olan aviasiya general-leytenantıdır. - 91

19. Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova tərəfindən yaradılmış və ilk dəfə **GUAM** adlandırılan dövlətlərarası məsləhət ittifaqının əsası 1997-ci ildə qoymuşdur. Bu ittifaqın yaranması 1997-ci ildə Strasburqda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü sayəsində həyata keçirilmişdir. Azərbaycan neftinin Gürcüstan ərazisindən keçən neft kəməri ilə Ukraynaya və Moldovaya nəqli perspektivləri ittifaqın yaranmasında mühüm stimul olmuşdur.

GUAM coğrafi prinsipə əsaslanır, ona daxil olan ölkələrin iqtisadi əməkdaşlıq məqsədlərinə xidmət edir. Təşkilat bir çox layihələrə, o cümlədən humanitar sahədə - təhsil və mədəniyyət sahəsində beynəlxalq təşkilatlarla birgə iştiraka dair layihələrə malikdir. GUAM bloku Transqafqaz magistralı və Qərb-Şərq, Şərq-Qərb marşrutu üzrə səmərəli və uzunmüddətli iqtisadi fəaliyyət üçün əlverişli şərait yaradır

Azərbaycanın ən yaxın qonşusu Gürcüstan ilə, habelə Ukrayna, Moldova ilə bağladığı ikitərəfli sazişlər GUAM-ın yaradılması üçün zəmin rolunu oynamışdır. GUAM üzvü olan ölkələr son illərdə imzalanmış ikitərəfli və çoxtərəfli müqavilə-hüquq sənədlərinə əsaslanaraq, ticarət-iqtisadi münasibətlərin, habelə əvvəllər mövcud olmuş kooperasiya əlaqələrinin inkişaf və dərinləşdirilməsi lüzumunu nəzərə alaraq belə nəticəyə gəlmişlər ki, nəqliyyat, rabitə, energetika, maşınqayırma, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlığa hər vasitə ilə kömək göstərmək, iqtisadiyyat, humanitar əməkdaşlıq, turizm və mədəniyyət sahəsində qarşılıqlı fəaliyyət göstərmək zəruridir.

GUAM çərçivəsində əməkdaşlığın əsas istiqaməti kimi onun üzvü olan dövlətlərin sabitliyinin və təhlükəsizliyinin təmin edilməsini, ticarət-iqtisadi əməkdaşlığın inkişafını və intensivləşdirilməsini göstərmək olar. Tərəflər əmindirlər ki, ölkələr arasında dostluq münasibətlərinin inkişafı və dərinləşdirilməsi bərabərlik, mehriban qonşuluq, müstəqillik, qarşılıqlı fayda və bir-birinin suverenliyinə hörmət prinsipləri əsasında daha yüksək səviyyədə əməkdaşlığa nail olmaq üçün yeni imkanlar açır.



NATO-nun 50 illik yubileyi ilə əlaqədar tədbirlər zamanı 1999-cu il aprelin 24-də GUAM dövlətləri başçılarının ABŞ-da, Özbəkistanın Vaşinqtondakı səfirliyində görüşü keçirilmişdir. Vaşinqton sammitində bu regional bloka Özbəkistan da qoşulmuş, GUAM abbreviaturasına "Ö" hərfi də əlavə olunmuşdur.

90 milyona yaxın əhalisi olan ölkələri əhatə edən GUÖAM sıralarının genişlənməsi, bu təşkilatın katibliyinin yaradılması barədə GUÖAM üzvü olan dövlətlərin başçılarının qərarı onun ciddi regional təşkilata çevriləcəyindən xəbər verir.

Özbəkistanın təşkilata daxil olması regional blokun fəaliyyətinə yeni təkan vermiş, müstəqil dövlətlərin iqtisadi və enerji sahəsində əməkdaşlıq imkanlarını xeyli genişləndirmişdir. Özbəkistan yeni Avrasiya dəhlizinin şərq sahilinə çevrilmişdir. GUÖAM liderləri öz ölkələrinin hər şeydən əvvəl iqtisadi mənafelərinin birləşdiyini qeyd etsələr də, onları siyasi xarakterli bir çox prinsipial məsələlərdəki oxşar mövqe daha da yaxınlaşdırır.

GUÖAM çərçivəsində Azərbaycanın, Gürcüstanın, Ukraynanın, Moldovanın və Özbəkistanın qarşılıqlı münasibətləri tərəflərdən hər biri üçün üstün xarakter daşıyır.

Əməkdaşlıq iqtisadi problemləri həll etməyə, bir çox ziddiyyətlərin mövcud olduğu məkanda mənafelər balansını təmin etməyə qadirdir.

GUÖAM regionda siyasi üstünlüyə iddiası olmayan və onu nüfuz dairəsinə bölməyi planlaşdırmayan bərabərhüquqlu tərəflərin birliyidir. - 96

20. **"Statoyl"** şirkəti Norveçin ən iri sənaye şirkətidir. İllik dövriyyəsi 15 milyard ABŞ dolları təşkil edir. Yeni layihələrə illik investisiyalar 2 milyard ABŞ dolları səviyyəsindədir. Hazırda "Statoyl" dünyanın 25 ölkəsində işləyir, Skandinaviyada neft məhsullarına tələbatın 20 faizindən çoxunu ödəyir, Polşa, Almaniya və Baltikyanı ölkələrdə fəaliyyətini genişləndirir. Onun "Neste fin" dövlət şirkəti ilə neft və kimya üzrə yaratdığı "Borealis" şirkəti Avropanın aparıcı neft və kimya şirkətlərindən biridir. - 106

21. **"Metropoliten"** klubu ölkənin ən qocaman siyasi ocaqlarından biridir. Əsası 1863-cü ildə qoyulmuş bu klub öz üzvlərinin ictimai və sosial əlaqələrinin genişləndirilməsinə kömək göstərir. Klubda ABŞ-ın və dünya ölkələrinin görkəmli liderləri ilə görüşlər keçirilir, ictimai-siyasi, sosial-iqtisadi problemlərə dair geniş diskussiyalar təşkil olunur. - 112

22. **Henri Kissincer** - 1923-cü il mayın 27-də Almaniyanın Fyurt şəhərində anadan olmuşdur. 1938-ci ildə ABŞ-a köçmüşdür və 1943-cü ildə ABŞ vətəndaşlığını qəbul etmişdir. 1950-ci ildə Harvard universitetini (incəsənət bakalavrı) bitirmişdir. 1952-ci ildə incəsənət magistri və 1954-cü ildə fəlsəfə doktoru dərəcəsini almışdır. 1951-1969-cu illərdə Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969-1975-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmişdir. 1973-1977-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur.

Beynəlxalq problemlərə dair doqquz kitabın müəllifidir. Beynəlxalq Nobel sülh mükafatı (1973-cü il) da daxil olmaqla bir sıra mükafatların laureatıdır.

İki dəfə evlənmişdir, birinci arvadından iki övladı vardır. - 118

23. 1962-ci ildə yaradılmış **Strateji vəBeynəlxalq Araşdırmalar Mərkəzi (SBAM)** Birləşmiş Ştatların ən məşhur və nüfuzlu politologiya mərkəzlərindən biridir. Əsasən ayrı-ayrı korporasiyalar tərəfindən maliyyələşdirilən mərkəzin illik büdcəsi 17 milyon dollardan artıqdır. SBAM-ın əsas işi strateji təhlildən, siyasi xəttin variantlarını öyrənməkdən, siyasi qarşılıqlı asılılığı araşdırmaqdan və ABŞ rəhbərliyinə müvafiq tövsiyələr verməkdən ibarətdir. Bundan əlavə, mərkəz 2020-ci ilədək dünya siyasətində meyllər, 2010-cu ilədək dünya iqtisadiyyatının başlıca istiqamətləri kimi qlobal layihələr də işləyib hazırlayır.

Mərkəzin Rusiya, habelə Xəzər hövzəsi dövlətləri üzrə (enerji və təhlükəsizlik məsələlərinə dair) xüsusi proqramları var. Bu proqramların rəhbərləri K.Buş, P.İbel və P.Sallivandır. Məşhur siyasətçi Zbiqnev Bjezinski bu proqramlarda bilavasitə iştirak edir. SBAM-ın 200-dən çox əməkdaşı arasında tanınmış analitiklər və keçmiş dövlət xadimləri də var. - 122

24. NATO-nun 50 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vaşinqtonda keçirdiyi bütün görüşlər zamanı **"Birlikdə yeni əsrə doğru"** və **"NATO-Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlıq"** kitablarını təqdim etmişdir.

Prezident Heydər Əliyevin 1997-ci ilin iyul-avqust aylarında Amerika Birləşmiş Ştatlarına rəsmi səfərinə və ABŞ-Azərbaycan münasibətlərinə həsr olunmuş "Birlikdə yeni əsrə doğru" kitabı ingilis və Azərbaycan dillərində nəfis şəkildə çap olunmuşdur. Kitabda Azərbaycan Prezidentinin Amerikada keçirdiyi görüşlərdən, danışıqlardan ətraflı söhbət açılır və səfərin gedişi geniş işıqlandırılır.

İmzalanmış sənədlər, səfərin proqramı və dünya mətbuatı səhifələrində səfər barədə dərc olunmuş yazılar kitaba daxil edilmişdir. "Qeydlər" fəslində müxtəlif hadisələr, proseslər, siyasi xadimlər, beynəlxalq qurumlar, iri neft şirkətləri barədə ətraflı məlumat verilir. Kitabda həmçinin şəxsi və coğrafi adların göstəricisi verilmişdir. Kitab illüstrasiya materialları ilə zəngindir.

Qeyd etmək lazımdır ki, ABŞ Prezidenti Bill Klinton, dünya şöhrətli kardioloq alim Maykl Debeyki, Amerikanın bir çox görkəmli siyasi və ictimai xadimləri kitab haqqında yüksək fikirlər söyləmişlər.

"NATO-Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlıq" kitabında isə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuş Azərbaycan ilə bu təşkilatın əlaqələrindən söhbət açılır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tərcümeyi-halı ilə başlanan bu kitabda NATO-Azərbaycan əməkdaşlığının müfəssəl xronikası, respublikamız haqqında qısa məlumat və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasəti öz əksini tapır. Kitab Rusiya tərəfindən Ermənistanın silahlandırılmasına dair müxtəlif materiallar, o cümlədən cədvəl-sxemlər və sənədlər ilə zəngindir və bununla əlaqədar Azərbaycan Prezidenti Heydər Əliyevin MDB Dövlət Başçıları Şurasının 1999-cu il 2 aprel tarixli iclasında məşhur bəyanatı ilə tamamlanır.

Kitabda NATO-nun keçmiş Baş katibi Xavyer Solananın Azərbaycana səfərləri, NATO ilə hərbi və siyasi əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Bu illüstrasiyalı nəşr NATO-nun 50 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak edən bütün nümayəndə heyətlərinin başçılarına və jurnalistlərə paylanmışdır.

"Birlikdə yeni əsrə doğru" və "NATO-Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlıq" kitabları Azərbaycan Respublikası Prezidentinin Katibliyi tərəfindən hazırlanmışdır. - 136

25. Ölkədə ilk hərbi dəniz məktəbi 1845-ci il oktyabrın 10-da təşkil edilmiş, beş il sonra isə **Hərbi Dəniz Akademiyasına** çevrilmişdir. Akademiyada təhsil müddəti 4 ildir və kursantlar hər yay gəmidə staj keçirlər. 1933-cü ildən başlayaraq akademiya məzunlara bakalavr dərəcəsi vermək hüququ almışdır. 1976-cı ildən etibarən akademiyaya qadınlar da qəbul edilir.

Akademiya şəhərciyinin sahəsi 338 akrdır. Burada 4 min kursant təhsil alır.

ABŞ-ın hərbi təhsil müəssisələri sırasında görkəmli yeri olan bu akademiyanın qulluqçuları və professor-müəllim heyəti qarşısında çıxış etmək hüququ yalnız ən fəxri qonaqlara verilir. Məsələn, bu hüquqdan ABŞ prezidentləri istifadə edirlər. - 138

26. 1989-cu ildə yaradılmış **"AMOKO"** şirkəti hazırda dünyanın ən böyük neft və təbii qaz istehsalçılarından biridir. Korporasiyanın ümumi aktivi 32 milyard ABŞ dollarından çoxdur. Onun dünyanın müxtəlif ölkələrində 42000 işçisi çalışır. 1996-cı ildə "AMOKO"nun dünya üzrə gündəlik neft və qaz kondensatı hasilatı 662.000 barrel, təbii qaz hasilatı isə 4 milyard kubfut təşkil edirdi. Şimali Amerikada "AMOKO" ən böyük təbii qaz istehsalçısı və mülkiyyətçisidir. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. - 142

27. **"Yunokal"** korporasiyası 1890-cı ildə ABŞ-ın Kaliforniya ştatının Santa-Paula şəhərində "Kaliforniyanın neft şirkəti adı ilə yaradılmışdır.

1996-cı ilin sonunda "Yunokal"ın neft ehtiyatı 513 milyon barrel, qaz ehtiyatı 186 milyon kubmetr olmuşdur. Şirkət 155 milyard kilovat-saat geotermal enerjiyə malikdir.

"Yunokal" Azərbaycanda fəaliyyət göstərən ilk beynəlxalq neft şirkətlərindəndir. O, ilk neft konsorsiumunda iştirak edir. - 142

28. **"Pennzoyl"** şirkəti neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, yüksək keyfiyyətli sürtkü yağlarının istehsalı və satışı ilə məşğuldur. Şirkət 1889-cu ildə yaradılmışdır. Mərkəzi ofisi Amerika Birləşmiş Ştatlarının Texas ştatının Hyüston şəhərində yerləşən şirkətin 10.000 işçisi var. Şirkətin Sədri və Baş icraçı direktoru cənab Ceyms Peytdir. Şirkətin Prezidenti isə Stiv Cizbrodur.



"Pennzoyl" Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir.

"Pennzoyl" şirkətinin illik gəliri təxminən 2,5 milyard dollara çatır. 1996-cı ildə "Pennzoyl" şirkətinin əməliyyatlardan əldə olunan ümumi gəliri 400 milyon dollar, təmiz gəliri isə 133 milyon dollar olub, ümumi aktivi 4,0 milyard dollar məbləğində qiymətləndirilmişdir. - 142

29. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşən **"Şevron"** korporasiyası dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biridir. O, neft və kimya sənayesinin bütün sahələrində iş aparır. Dünyanın 100-ə qədər ölkəsində "Şevron"un 450 filialı, tərəfdaş və birgə müəssisəsi fəaliyyət göstərir. "Şevron"un dünyanın müxtəlif yerlərində 41.000 işçisi var.

1879-cu ildə "Pasifik Kost oyl Kompani" adı ilə təşkil edilən "Şevron" bu gün işlədiyi ölkələr və tərəfdaşları tərəfindən "Tərəfdaşlıq rəmzi, insan, təcrübə, texnologiya və biliklər toplumu" kimi tanınan qurumdur.

"Şevron"un 1996-cı ildə gəliri 43 milyard dollara yaxın olub. Vergilərdən sonrakı mənfəət 2,6 milyard dollara bərabər olub ki, bu da "Şevron"un tarixində ən yüksək göstəricidir.

"Şevron" təbii qazın ABŞ-da ən böyük istehsalçılarından biridir, maye enerjidaşıyıcıların istehsalında da dünyada birincilər sırasındadır. 1996-cı ilin sonunda "Şevron"un istismarda olan 13.100 məhsuldar quyusundan gündə 1 milyon barreldən artıq neft və kondensat, 2,4 milyard kubfut (70 milyon kubmetr) təbii qaz istehsal olunub. ABŞ-ın ən iri neft emalçılarından biri olan "Şevron"un ABŞ-da 6, xaricdə 2 neft emalı zavodu var, bundan əlavə "Şevron"un "Kalteks" filialının dünyanın başqa 13 neft emalı zavodunda payı var. O, ABŞ-da ən iri yanacaq satıcısıdır və özünün ABŞ, Kanada və İngiltərədə yerləşən emal edilmiş məhsullarını satır. - 142

30. 1845-ci ildə Hərbi Dəniz Məktəbinin açılmasında böyük rolu olmuş hərbi dəniz donanması naziri **Corc Bankroftun** adını daşıyır. - 158

31. **"Xolokost" xatirə muzeyi** 1963-cü il aprelin 21-də açılmışdır. Onun yaradılmasında məqsəd İkinci Dünya müharibəsi illərində və əvvəlki dövrdə yəhudi xalqına qarşı soyqırımın tarixini sənədləşdirmək, öyrənmək və bu faciə haqqında informasiya yaymaqdır. Muzeyin əsas ekspozisiyası bir neçə bölmədən ibarətdir: 1933-1939-cu illər, 1940-1945-ci illər, yəhudi əhalisinin xilas edilməsi, müqavimət hərəkatı, faşist zülmündən azadolma. Xatirə salonunda əbədi məşəl yanır. Mindən çox saxsı lövhədə həlak olmuş milyon yarım yəhudi uşağının xatirəsi anılır. - 160

32. Rəsmi qəbulun keçirildiyi **"Poçt" muzeyinin** binası əsrin əvvəllərində tikilib və Amerika paytaxtının ən gözəl memarlıq nümunələrindən sayılır. ABŞ prezidentlərinin andiçmə mərasimi bir qayda olaraq burada keçirilir. - 168

33. **Riçard Armitac** - R.Reyqanın prezidentliyi dövründə müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur, bu sahədə bir nömrəli mütəxəssis sayılır. C.Buşun prezidentliyi dövründə xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının ikinci müəllifi olmuşdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika-Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. ABŞ-la Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsinin fəal tərəfdarıdır. "Armitac Assoşieyts El Si" şirkətinin sahiblərindən biridir. - 168

34. Bretton-Vuds konfransının nəticəsi olaraq **Beynəlxalq Valyuta Fondu (BVF)** 1945-ci ildə təsis olunmuşdur. BVF-nın fəaliyyətinin məqsədi dünya üzrə valyuta sabitliyinin təmin edilməsindən və beynəlxalq hesablaşmalar sisteminin təkmilləşdirilməsindən, dünya ticarətinin inkişafından və bununla da iqtisadi inkişafın, mənfəətin və məşğulluğun əldə olumasından ibarətdir. - 178

35. **Dünya Bankı** 1945-ci ildə Bretton-Vuds sistemi çərçivəsində təsis olunmuşdur. Hazırda onun məqsədi inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik ölkələrin iqtisadi və sosial inkişafına kömək

etməkdir. Bu məqsədlə tərkibinə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq İnkişaf Assosiasiyasının və Beynəlxalq Maliyyə Korporasiyasının daxil olduğu Dünya Bankı qrupu həmin ölkələrə maliyyə yardımı edir, onlar üçün məşvərətçi rolunda fəaliyyət göstərir və digər mənbələrdən investisiyaları təşviq edir. Qrupa həm də İnvestisiya Mübahisələrini Nizamlayan Beynəlxalq Mərkəz və İnvestisiya Təminatları üzrə Çoxtərəfli Agentlik də daxıldir. - 178

36. **"Britiş petroleum"** dünyada ən iri neft və neft-kimya korporasiyalarından biri və üçüncü ən iri neft şirkətidir. Onun fəaliyyət dairəsi Qərbi Avropa, ABŞ, Asiya, Avstraliya və Okeaniya, Afrikanın və Sakit okean regionunun bir çox ölkələrini əhatə edir. "Britiş petroleum" neft və qaz hasilatı, xam neft satışı, neft emalı və neft məhsulları satışı, habelə neft-kimya məhsulları istehsalı və satışı üzrə çoxşaxəli struktura malik şirkətdir. - 183

37. **Stiv Rozenfeld** - 1931-ci il iyulun 26-da Massaçusets ştatında anadan olmuşdur. 1953-cü ildə Harvard universitetini, 1959-cu ildə isə Kolumbıya ştatının universitetini bitirmişdir. 1955-1957-ci illərdə "Bekşir İql" qəzetinin müxbiri işləmişdir. 1959-cu ildən "Vaşinqton post" qəzetində çalışır. 1967-ci ildə "Qızıl meydandan qayıdış" və 1977-ci ildə "Onların ölüm vaxtı" kitablarını nəşr etdirmişdir. Hazırda "Vaşinqton post" qəzetinin redaktor müavinidir. Qafqazdakı, əsasən Azərbaycandakı siyasi vəziyyətlə maraqlanır. 907-ci düzəlişin ləğvi uğrunda ABŞ mətbuatında dərc olunmuş bir çox məqalələrin müəllifidir. - 186



## ŞƏXSİ ADLARIN GÖSTƏRİCİSİ

ABBASOV, Rəfael - 159
AKAYEV, Əsgər - 89
ARMİTAC, Riçard -168,169,171,172,174,176,185
BANKROFT, Corc - 158
BEYKER, Kasıban - 168
BEYKER, Hovard - 112,117,168
BEYKER, Ceyms - 74-75,79,83,86,89,90,91,170,202,205
BELAHANT, Bill - 33
BENTSEN, Çet - 33
BERGER, Semüel (Sendi) - 64,77-79,83,90,91,202,205
BJEZİNSKİ, Zbiqnev- 74,76-77,78,79,83,91,202
BİMAN, Triz - 52
BONDEVİK, Kyel Maqne - 105,106,107
BOSTANİ, Nora - 186
BRAUNBƏK, Sem - 70,71,74,75,76,77,78,79,82,83,84,86,89,90,91,94,117,184,185,202,205
BUŞ, K. - 133,136
CƏM, İsmayıl - 67
CONSON, Pol Con - 158
DEAN, Jan Lük - 108,109
DEBEYKİ, Maykl - 50,51,57,62
DEYLİ, Uilyam - 48,51,53,54,55
DELLAHUNT, Con - 33
DƏMİRƏL, Süleyman - 91-94,174
DİTS - 51
DOMİNİÇİ, Pit - 112
EDVARDS, Çet - 33,34,35,40,41,43,46,47
ƏLİYARLI, Dilşad - 196
ƏLİYEV, İlham - 52,62,192
ƏLİYEV, Natiq - 52,61
ƏLİYEVA, Sevil - 19
FİŞER, Yoşka - 67
FREY, Nensi - 62
HATÇİNSON, Key Beyli - 51,52,53,54,55,57,60,61,62
HEYQL, Çak - 168
HEYQLİ - 168
XAYYAT, Fred - 186
XATƏMİ - 190
İBRAHİMBƏYOV, Rüstəm - 198
İQLBERGER, Lourens - 122,116,118,122,168,170,171,172
İQNATİUS, Devid - 186
İMANƏLİYEV, Muratbəy - 89-90
KALİTSKİ, Yan - 50,173
KAPUANA, Maykl - 33,46
KVASNEVSKİ, Aleksandr - 108
KENNET, Ley - 118,120
KƏRİMOV, İslam - 86-88,91,96,97,99,195
KİNQ, Piter - 32,33,35,36,37,43,46,47
KİSSİNCER, Henri - 118,122
KLİNTON, Bill - 10,11,18,19,26,28,57,70,78,113,119,170,190
KLİNTON, Hillari - 19
KOVERDELL, Pol - 112
KOKREN, Tet - 112
KOLB, Stiv - 186
KONSTANTİNESKU, Emil - 88,91
KOÇARYAN, Robert - 66,67,68
KRENVELL, Corc - 112
KRİSTOFER - 33
KUK, Robin - 67
KUNTS, Terri - 53,61,174

KUÇMA, Leonid - 96,97,195
QLATYE, T.Cey - 48,52,62
LERSON, Qyen - 201
LIVINQSTON, Bob - 205
LİNKOLN, Avraam - 175
LUQAR, Riçard - 112,117
LUÇİNSKİ, Petru - 84,91,96,98,195
MİLOŞEVİÇ - 187,188,189
MONKRİFT, Riçard - 53,55,61
MONTQOMERİ, Corc Qrenvil - 112
MORNİNQSTAR, Riçard - 168,171,172
NAZARBAYEV, Nursultan - 47,83-84,91
NETANYAHU, Benyamin - 166
NİYAZOV, Saparmurat - 134
OLBRAYT, Madlen - 28,29,64,65,66,67.68,173,179,190
OSKANYAN, Vartan - 88-89
PİT, Cozef - 33
RAYAN, Con - 159
RASSEL - 138,144,158
REYQAN, Ronald - 10
REYES, Selvester - 33,46
REÇVELDS, Artur - 201
RƏHMONOV, İmoməli - 84-86,91
RİÇARDSON, Bill - 48,52
ROZENFELD, Stiv - 186,195,196
RUQHET, Harri - 158
RUY, Rafik - 198
SABSAY - 166
SANDERS, Rəmlən - 201
SKAQİNS, Uilyam - 53,62
SKELTON, Ayk - 33,40,46
SKOUKROFT, Brend - 91,118,120,122
SNAYDER, Vik - 33,46
SOLANA, Xavyer - 10,19
STOYANOV, Petr - 107,108
SUNUNU - 168
ŞEVARDNADZE, Eduard - 64,65,66,81-83,91,96,98,172,191,195
ŞİRAK, Jak - 104,105,113,119
ŞIXMURADOV, Boris - 90-91
TAĞIYEV, Zeynalabdin - 174
TER-PETROSYAN, Levon - 105,128
TEŞŞİNZ - 53
TOMPSON, Ared - 122
TOMSON - 51
ULMANİS, Quntis - 110
UORNER, Con - 112,117
VEDRİN, Huber - 66
VƏZİRİ, Riza - 168,171,174
VİPER - 51
VOLLEBEK, Knut - 29,66
YELTSIN, Boris - 113,119,135,191,203
ZOELİK, Robert - 122,136
ZÜLFÜQAROV, Tofiq - 62



## COĞRAFİ ADLARIN GÖSTƏRİCİSİ

Abxaziya - 78
Avrasiya - 76,79,91
Avropa - 11,14,67,71,79,82,108,130,139,142,166,171,173,184,185
Almaniya - 28,64,67
Annapolis - 200
Aral - 53,79,91,129,142,145
Asiya - 14,67,71,94,108,139,142,173,184,185
Bakı - 26,51,52,54,56,66,79,91,97,98,102,106,108,109,116,118,123,125,129,133,134,141, 142,166,173,174,183,196,205
Balkan - 34,41,46,82,83,179,182
Belarus - 136
Belçika - 7,108,109
Bolqarıstan - 107,108
Böyük Britaniya - 28,64,67
Brüssel - 171
Cənubi Qafqaz - 64,65,66,67,87,134,135,136,195
Ceyhan - 53,79,94,99,116,129,133,134,142,145,173,174,205
Çexiya - 15
Çin - 78,82,83,91
Dağlıq Qarabağ - 28,29,33,64,66,67,68,70,78,104,106,107,108,113,116,118,123,125,126,127, 128,134,140,141,186,188,189,190,196,205
Ermənistan - 14,26,28,29,33,41,42,43,64,66,67,68,71,80,81,88,89,106,107,113,116,118,119, 123,125,126,127,128,134,135,136,140,141,144,178,179,184,186,188,189,190,191, 196,202,203,205
Əfqanıstan - 85
Fransa - 14,28,64,104,105,106,113,117,127,140,179

Gürcüstan - 28,52,64,65,66,71,79,82,96,98,99,102,129,136,140,141,172,173,183,191,201,202
Xəzər - 26,28,43,50,53,56,57,65,66,71,79,83,99,102,116,117,120,128,129,130,134,139,141, 142,143,144,145,169,171,172,182,184,193,194,205
Xizlik körfəzi - 204
İliçovsk - 102
İraq - 188
İran - 41,46,71,83,129,145,183,189,190,204
İstanbul - 94
İsrail -166,204
Kanzas - 202
Kolumbiya ştatı - 18
Kosovo - 14,29,123,169,170,171,182,186,187,188,190,191
Küveyt - 188
Qazaxıstan - 47,83,129,145,183,194,202
Qara dəniz - 79,94,129,141,145,183
Qars - 94
Qafqaz - 15,26,33,35,41,42,43,64,65,66,67,68,70,74,75,76,77,78,80,82,83,87,88,94,97,108,116, 118,123,132,136,139,140,145,168,173,182,185,191,202,203,205
Qərbi Avropa - 83
Qırğızıstan - 71,89
Latviya - 110
Laçın - 127
Lissabon - 29,106,127,141
Macarıstan - 15
Merilent ştatı - 204
Mərkəzi Avropa - 77
Mərkəzi Asiya - 26,43,71,74,75,76,77,78,82,83,86,87,88,97,144,169,173,202
Minsk - 14,28,29,64,66,68,104,105,106,107,108,113,116,118,119,127,128,140,179
Moldova - 71,84,96,97,98,99,102,136,201,202
Moskva - 75,136,203
Novorossiysk - 56,66,79,129,141,145,174,183
Norveç - 29,64,105,106,107

Orta Asiya - 70,97,200,205
Özbəkistan - 71,83,86,87,96,97,99,102,136,195,202
Pensilvaniya - 140,175
Polşa - 15,108
Poti - 102
Rambuye - 188
Roma - 78
Rumıniya - 71,88,202
Rusiya - 11,14,29,42,43,46,106,113,116,118,119,123,127,128,129,130,134,135,136,140,144,
145,166,171,178,179,183,188,190,191,194,195,203,205
SSRİ - 33,76,82,91,123,132,140,166,177,178,182,190,191,203
Strasburq - 97,195,201
Supsa - 26,52,56,66,79,98,99,102,106,116,129,133,141,145,173,174,183
Şərqi Avropa - 205
Şuşa - 127
Tacikistan - 71,78,84,85,86,202
Tbilisi - 94,174
Texas - 61,204
Türkiyə - 28,53,64,67,71,79,83,91,129,133,134,142,145,169,173
Türkmənistan - 71,83,90,129,134,145,183,202
Ukrayna - 96,97,98,99,102,136,166,201
Vaşinqton - 7,15,26,28,46,48,50,55,57,67,70,71,78,79,96,99,104,105,107,108,110,112,129,132,
142,176,177,184,193,195,198,202,203
Vayominq ştatı - 51
Varşava - 14
Yaponiya - 82,184
Yerevan - 202
Yuqoslaviya - 14,29,34,46,116,120,171,179,186,187,191



MÜNDƏRİCAT

Oxucuya ........ 3
NATO sülhün və sabitliyin təminatçısıdır ........ 7
Azərbaycan-ABŞ əlaqələri möhkəmlənir ........ 25
Dağlıq Qarabağ problemi diqqət mərkəzindədir ........ 63
Tarixi İpək Yolu regional əməkdaşlıq üçün perspektivlər açır ........ 69
GUÖAM hüdudlarını genişləndirir ........ 95
Əməkdaşlıq naminə ........ 103
Böyük siyasət meridianlarında ........ 111
Görüşlər, təmaslar ... ........ 137
Vaşinqton səfəri mətbuat səhifələrində ........ 197
**ƏLAVƏLƏR ........ 206**
SƏNƏDLƏR ........ 206
1. Səfər zamanı imzalanmış sənədlər ........ 206
Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Ukrayna və Özbəkistan Respublikası prezidentlərinin bəyanatı ........ 206
İpək yolu haqqında birgə bəyannamə ........ 207
2. Səfər zamanı imzalanmış başqa sənədlərin siyahısı ........ 208
3. Azərbaycan ilə NATO arasında əməkdaşlığa dair əvvəllər imzalanmış sənədlər ........ 208

NATO-nun 50 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına səfərinin proqramı ........ 214

Qeydlər ........ 218

Şəxsi adların göstəricisi ........ 227

Coğrafi adların göstəricisi ........ 229

**Kitab Azərbaycan Respublikası Prezidentinin Katibliyi tərəfindən hazırlanmışdır**

**Kitabın hazırlanmasında AzərTAc-ın materiallarrından istifadə olunmuşdur**

NUROL PRINTING & PACKAGING INDUSTRY INC • Phone (+90 312) 267 19 45 (pbx) • Fax (+90 312) 267 19 50 • Free Information Line 0 800 314 54 98